Hazırlayanlar: i.e.n.M.Məmmədli, i.e.n.M.M.Aslanova, i.e.n.N.Ş.Balabəyova
Gömrük işi fənni üzrə mühazirə materialları

1. Fənnin predmeti barədə anlayış

Fənnin anlayışı , predmeti, məqsəd və vəzifələri

Plan:
Gömrük işinin mahiyyəti, öyrənilmə obyekti, subyekti
Fənnin öyrənilməsinin məqsədi, prinsipləri, metodları
Gömrük işinin strukturu, bölmələri, sistemi
Gömrük işinin hüquqi əsasları, hüquq mənbələri, funksiya və vəzifələri

Gömrük sözünə qədim rus mənbələrində "tamojnya" kimi rast gəlinir. Bu söz tamqa sözündən götürülüb, mənası "möhür", "yarlıq", "damğa" deməkdir. Türkcə "damqa" yarlıq, möhür, damğa, ştamp mənasını verir. Müasir rus lüğətində qəbul edilən "tamojennik" formasına ilk dəfə 1284-cü ildə işlədilməsinə rast gəlinir.

Gömrük sözü "Lehce-i Osmaniye" adlı kitabda, yunancadan alınmış və "əmtəə ilə bağlı alınan rüsumun idarə yerlərinin adıdır" deyə göstərilir. Lakin sonralar "Gömrük" sözü yunancadan alınma söz olmadığı, latıncada ticarət mənasına gələn "Commercium" sözündən alınmış olduğu aydın olur. Çünki, gömrük ticarət əşyasından alınan bir vergi olduğu nəzərə alındığında bu adlandırmanın daha uyğun olduğu açıqdır. Fransızlar "Gömrük" e "Douane" deyirlər. İtalyanca "dogana" sözündən alınmışdır ki, "Doge" Venesiya və Genoa Respublikasının Birinci Hakimi olmuş və xəzinəyə gəliri təmin etmək üçün adına Venesiyada tətbiq olunan vergi alınmışdır.

Gömrük və gömrük vergisi, tarixdə bir-birindən ayrı yaşayan cəmiyyətlər, şəhər dövlətləri, dövlətlər, imperiyalar var olduğu müddətcə mövcud olub. Gömrük, dövlətlərin suverenlik ərazilərinin ifadə forması və xəzinələrinin əhəmiyyətli bir gəlir qaynağı olmuşdur. Ölkələr, təhlükəsizlik, iqtisadi, siyasi, xalqın sağlamlığı kimi faktorları qorumaq və vergini təmin etmək məqsədilə torpaqlarına girən kəslər, ticarət mallarına sərhədlərdə nəzarət edirdilər. Bu gün də gömrük vergiləri, dövlətin yığdığı vergilərdən sonra ən böyük gəlir mənbəyi olaraq qalır.

Gömrük işi -

- malların və ya digər əşyaların gömrük sərhədindən keçirilməsi qaydaları,
- gömrük vergisinə cəlb olunması,
- nəzarət
- və gömrük siyasətini həyata keçirən digər vasitələrin məcmusudur.

- Gömrük işi praktikada bir neçə formada –
- gömrük orqanları sistemini yaratmaq,
- hüquqi və tarif tənzimlənməsi,
- gömrük rəsmiləşdirilməsi,
- gömrük nəzarəti
- gömrük qaydalarının pozulması haqqında işin tədqiqi və təhqiqatın təşkili ilə reallaşdırıla bilər.

Gömrük işi fənninin predmeti gömrük işinin predmetidir. Bura malların və ya digər əşyaların gömrük sərhədindən keçirilməsi qaydaları, gömrük vergisinə cəlb olunması, gömrük nəzarəti, gömrük rəsmiləşdirilməsi, gömrük prosedurları, gömrük hüquq tənzimləmələri və gömrük siyasətini həyata keçirən digər vasitələr aiddir.

Gömrük işinin metodu gömrük fəaliyyətinin təşkili və idarə olunması üçün lazım olan üsul və priyomlar sistemini təşkil edir.

Gömrük işinin obyekti gömrük sərhəddindən keçən mal və nəqliyyat vasitələri, subyekti isə bir tərəfdən gömrük orqanı və əməkdaşları , digər tərəfdən isə fiziki və hüquqi şəxslərdir.

Gömrük işinin prinsipləri - gömrük hüquq prinsipləridir:

- qanunilik
- demokratizm
- aydınlıq
- səmərəlilik və s.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra 1992-ci ilin yanvar ayında prezident fərmanı ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi yaradıldı. 10 iyun 1997-ci ildə Azərbaycan Respublikasında Gömrük Məcəlləsi qəbul edilmişdir. 24 İyun 2011-ci ildə isə yeni təkmilləşdirilmiş Gömrük Məcəlləsi qəbul edildi.

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi fəaliyyət istiqamətlərinə uyğun olaraq, gömrük işi sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən, hüquq mühafizə orqanı statusu olan mərkəzi icra hakimiyyəti orqanıdır.

Komitə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri rəhbər tutur.

Komitə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

Komitə öz fəaliyyətini qanunun aliliyi, insan hüquqlarının və azadlıqlarının qorunması, şəxslərin qanun qarşısında hüquq bərabərliyi, aşkarlıq, peşəkarlıq və xidmətdə nizam-intizam prinsipləri əsasında qurur.

Komitə müstəqil balansa, qanunvericiliyə uyğun olaraq istifadəsində olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikası Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, emblemə, bayrağa, müvafiq ştamplara və blanklara malikdir.

Komitənin saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericilikdə nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əsas funksiyaları aşağıdakılardır:

1. Azərbaycan Respublikasında gömrük işini təşkil etmək və onu təkmilləşdirmək;
2. Azərbaycan Respublikasının gömrük siyasətini həyata keçirmək;
3. Öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının iqtisadi mənafeyini və təhlükəsizliyini qorumaq;
4. Öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının gömrük ərazisinin vahidliyini təmin etmək;
5. Azərbaycan Respublikasında qabaqcıl gömrük tənzimlənməsi vasitələrinin tətbiqini təşkil etmək;
6. İcrasına nəzarət gömrük orqanlarına həvalə olunmuş gömrük işinə dair və digər qanunvericiliyinə əməl olunmasını təmin etmək;

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ona həvalə edilmiş funksiyalara əsasən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

1. Azərbaycan Respublikasının gömrük siyasətinin həyata keçirilməsi üçün hüquqi, iqtisadi, təşkilati mexanizmlər hazırlayır və onların həyata keçirilməsini təmin edir;
2. Azərbaycan Respublikasında gömrük işinin inkişafı proqramını hazırlayır və həyata keçirir;
3. Gömrük nəzarətinin həyata keçirilməsini və təkmilləşdirilməsini təşkil edir, bu cür nəzarətin səmərəliliyinə zərər vurmadan onun sadələşdirilməsi və təkmilləşdirilməsi üçün tədbirlər görür;
4. Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallar barəsində qiymətlərin tənzimlənməsi və digər qeyri-tarif tədbirləri də daxil olmaqla, iqtisadi proqramların işlənib hazırlanmasında iştirak edir və öz səlahiyyətləri daxilində onların həyata keçirilməsini təşkil edir;
5. Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallardan vergilərin, gömrük rüsumlarının, aksizlərin, habelə digər gömrük ödənişlərinin alınmasını,

beynəlxalq avtomobil daşımalarını yerinə yetirən xarici ölkələrin nəqliyyat vasitələrinə sərhəddə «İcazə» blanklarının verilməsinə görə dövlət rüsumunun tutulmasını təşkil edir;
6. Malların gömrük dəyərinin düzgün müəyyən olunması üzərində nəzarət sistemini təşkil edir;
7. Gömrük rüsumlarının, müvafiq dövlət rüsumlarının, vergilərin vaxtında və tam həcmdə dövlət büdcəsinə köçürülməsini təmin edir;
8. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallarda lisenziya və ya ixtisas attestatları verir, onları ləğv edir, yaxud geri alır, reyestrinin aparılmasını təmin edir;
9. Mallar və nəqliyyat vasitələri Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilərkən müvafiq gömrük rejimlərindən səmərəli istifadəni təmin edir;
10. Malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsinə dair qaydaların işlənib hazırlanmasını təşkil və onların icrasını təmin edir;
11. Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsini təşkil edir, onun təkmilləşdirilməsi və sadələşdirilməsi üçün tədbirlər görür;
11-1. malların baytarlıq, fitosanitar, gigiyenik və digər sertifikatlarının (şəhadətnamələrinin) yoxlanılmasını, sərhəddə həmin mallar üzərində baytarlıq, fitosanitar, sanitariya nəzarətini həyata keçirir;
11-2. ərazisində heyvanların xüsusi təhlükəli xəstəliklərinin baş verməsi qeydə alınan qonşu ölkələrdən Azərbaycan Respublikasının ərazisinə keçən nəqliyyat vasitələrini baytarlıq qanunvericiliyində müəyyən edilmiş qaydada və müddətdə məcburi dezinfeksiya edir;
11-3. başqa ölkələrdən gətirilən heyvanların sağlamlığını müəyyənləşdirmək üçün onların təcrid olunmuş halda saxlanılmasının təmin edilməsi məqsədi ilə müvafiq ərazi dövlət baytarlıq müfəttişliyinə məlumat verir;
12. Müstəqil surətdə, yaxud zəruri olduqda digər hüquq-mühafizə orqanları cəlb edilməklə gömrük nəzarəti zonası rejiminə riayət olunmasına nəzarəti təmin edir, gömrüyün infrastruktur obyektlərinin mühafizə sistemini təşkil edir, Azərbaycan Respublikasının gömrük sərhədinin qorunması məqsədi ilə digər tədbirlər də həyata keçirir;
13. İcrasına nəzarət Azərbaycan Respublikasının gömrük orqanlarına həvalə olunmuş gömrük işi üzrə və digər qanunvericilik aktlarına əməl olunmasını təmin edən tədbirlər sistemini hazırlayır və həyata keçirir;
14. Rezident və qeyri-rezident tərəfindən milli və xarici valyutanın, eləcə də digər valyuta sərvətlərinin müvafiq qanunvericiliyə uyğun olaraq Azərbaycan

Respublikasının gömrük sərhəddindən keçirilməsinə, habelə Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə nəzərdə tutulmuş digər hallarda valyuta nəzarətini həyata keçirir;

15. Qaçaqmalçılığa və gömrük işi sahəsində digər cinayətlərə qarşı mübarizə aparılmasını təşkil edir. Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən bu cür cinayətlər üzrə qüvvədə olan qanunvericilik aktlarına müvafiq olaraq təhqiqat ibtidai istintaq aparılmasını və əməliyyat-axtarış fəaliyyəti həyata keçirilməsini təmin edir;

16. Gömrük qaydalarının pozulmasına və Azərbaycan Respublikasının gömrük orqanlarının nominal fəaliyyətinə qəsd edən inzibati xətalaraqarşı mübarizəni təşkil edir;

17. Narkotik vasitələrin və psixotrop maddələrin, silahların, Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvətləri olan əşyaların, intellektual mülkiyyət obyektlərinin, habelə digər malların gömrük sərhədindən qanunsuz keçirilməsinin qarşısını almaq məqsədi ilə tədbirlər sistemi hazırlayır və həyata keçirir;

17-1. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində bioloji sərvətlərdən səmərəli istifadə edilməsi və onların qorunması üzrə dövlət siyasətinin hazırlanıb həyata keçirilməsində iştirak edir, öz səlahiyyətləri daxilində bioloji sərvətlərin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi zamanı mövcud qanunvericiliyin tələblərinin yerinə yetirilməsi üzərində nəzarəti təmin edir

18. Azərbaycan Respublikasının dəmir yolu vağzallarında, hava və dəniz limanlarında beynəlxalq nəqliyyat vasitələrinin fəaliyyətinə qanunsuz müdaxilənin qarşısının alınmasında və beynəlxalq terrorçuluqla mübarizədə Azərbaycan Respublikası hüquq-mühafizə orqanlarına köməklik göstərir;

5.19. Azərbaycan Respublikasının gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən qaçaqmalçılıq və gömrük işi sahəsində digər cinayətlər, gömrük qaydalarının pozulması işləri və Azərbaycan Respublikasının gömrük orqanlarının normal fəaliyyətinə qəsd edən inzibati xətalarhaqqında işlər üzrə icraat zamanı, habelə əməliyyat-axtarış tədbirləri həyata keçirilərkən qanunçuluğa əməl olunmasına nəzarəti həyata keçirir;

20. Azərbaycan Respublikasının xarici ticarətinin gömrük və xüsusi gömrük statistikasının aparılmasını təşkil edir;

21. Müəyyən olunmuş qaydada gömrük statistikasına dair və digər gömrük işinə aid məlumatları Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və digər mərkəzi icra hakimiyyəti orqanlarına (onların fəaliyyətinə dair məsələlər üzrə) təqdim edir;

22. Öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin edir;
23. Gömrük işi həyata keçirilərkən fiziki şəxslərin və təsərrüfat subyektlərinin hüquq və mənafelərinin müdafiəsi üzrə tədbirlər görür;
24. Azərbaycan Respublikası gömrük orqanlarının və onların vəzifəli şəxslərinin qərarlarından (o cümlədən normativ aktlarından), hərəkət və hərəkətsizliyindən şikayətetmə üzrə fiziki və hüquqi şəxslərin hüquqlarının reallaşdırılması üçün şərait yaradır;
25. Şikayətlərə və müraciətlərə vaxtında və tam baxılmasını təmin edir; fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin pozulmasını yaradan səbəblərin aradan qaldırılması üçün tədbirlər görür;
26. Öz səlahiyyətləri daxilində gömrük işi üzrə mühüm hüquqi aktların nəşrini təmin edir;
27. Azərbaycan Respublikasında gömrük işinin inkişafı və vəziyyətinə dair məlumat — izahat işləri aparır; bu məqsədlə kütləvi informasiya vasitələrindən və digər təbliğat vasitələrindən istifadə edir;
28. Konkret mallarla və ya təsərrüfat əməliyyatları ilə əlaqədar gömrük işi haqqında qanunvericilik aktlarının tətbiqi məsələləri üzrə öz qərarlarının qəbulu və fəaliyyət göstərməsini təmin edir;
29. Azərbaycan Respublikasında gömrük işi haqqında qanunvericiliyin tətbiqi təcrübəsini ümumiləşdirir və təhlil edir;
30. Gömrük işi məsələləri ilə məşğul olan beynəlxalq təşkilatların işində iştirak edir; Azərbaycan Respublikasının gömrük işinə dair beynəlxalq öhdəliklərinin yerinə yetirilməsini təmin edir;
31. Xarici dövlətlərin gömrük və digər səlahiyyətli orqanları ilə əməkdaşlığı və qarşılıqlı fəaliyyəti həyata keçirir;
32. Gömrük işi sahəsində elmi-tədqiqat işlərinin aparılmasını təşkil edir;
33. Xarici dövlətlərin gömrük siyasətini və bu dövlətlərdə gömrük işinin vəziyyətini öyrənir və təhlil edir;
34. Müvafiq sahədə kadr hazırlığını təmin edir, həmçinin mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün tədbirlər görür;
35. Gömrük idarələri, gömrükxanalar, gömrük postları, gömrük laboratoriyaları, elmi-tədqiqat və tədris müəssisələri, hesablama mərkəzləri yaradır və ləğv edir;
36. Azərbaycan Respublikası gömrük orqanlarının vahid avtomatlaşdırılmış məlumat sisteminin yaradılmasını, fəaliyyət göstərməsini və təkmilləşdirilməsini təmin edir;

37. Azərbaycan Respublikasında gömrük işinin inkişafı üzrə həyata keçirilən tədbirləri maliyyələşdirir;
38. Müəyyən olunmuş qaydada Azərbaycan Respublikası gömrük sisteminin büdcədənkənar inkişaf Fondunu idarə edir və onun üzərində sərəncam verir;
39. Gömrük orqanlarının, gömrük laboratoriyalarının, tabeçiliyində olan digər idarə, müəssisə və təşkilatların maddi-texniki və sosial bazasını inkişaf etdirir;
40. Gömrük orqanlarının vəzifəli şəxslərinin, gömrük laboratoriyalarının, həmçinin tabeliyindəki digər idarələrin, müəssisələrin, təşkilatların işçilərinin dövlət və sosial müdafiəsini, fiziki hazırlığını təmin edir, onların tibbi təminatını həyata keçirir;
40-1. Xidməti-tətbiqi idman növlərinin inkişafı proqramlarını, bədən tərbiyəsi və idman tədbirlərinin təqvim planlarını, hərbi idman kompleksinin normativlərini təsdiq edir;
41. Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona həvalə edilmiş digər vəzifələri yerinə yetirir.
Azərbaycan Respublikası ikinci dəfə öz müstəqilliyini bərpa etdikdən sonra özünün sərbəst gömrük siyasətini yürütməyə başladı. Lakin bir sıra çətinliklər mövcud idi.
Birincisi, Azərbaycan Respublikasında ölkənin bütün sərhədlərini əhatə edə bilən gömrük şəbəkəsi yox idi. İkincisi, keçmiş SSRİ-nin tərkibində olduğu üçün vahid gömrük siyasəti yürüdüldüyündən milli gömrük siyasəti yaranmamışdı. Üçüncüsü, milli gömrük kadrları azlıq təşkil edirdi və qısa bir zamanda bu kadrların hazırlanması üçün qanunvericilik bazası yox idi. Dördüncüsü, Azərbaycanın dövlət sərhədləri Ermənistan tərəfindən işğal altında saxlanılır. Beşincisi isə, tədris bazasının təşkili üçün dərsliklər və dərs vəsaitləri yox səviyyəsində idi.
Yuxarıda söylədiyiniz mülahizələri əsaslandırmağa çalışaq. Azərbaycan Respublikasının Rusiya Federasiyası və Gürcüstan Respublikası ilə olan dövlət sərhədləri şəffaf olduğu üçün indi də müəyyən problemlər yaradır. Ermənistan ölkəmizin nəinki 20 %-ə yaxın ərazisini, eyni zamanda İran İslam Respublikası ilə olan dövlət sərhəddinin 100 km-dən çox hissəsini də işğal altında saxlayır. Bu isə gömrük orqanlarına, ölkənin bütün gömrük ərazisinə nəzarət imkanlarına kifayət qədər əngəllər yaratmış olur. Keçmiş SSRİ untitar federasiya olduğuna görə respublikaların heç birində sərbəst gömrük siyasəti yox idi. Milli gömrük siyasətinin formalaşması üçün isə vaxt lazım idi.
Milli gömrük siyasəti olmadığı üçün milli kadrlar da yetişdirilmirdi. Çünki bütün gömrük sənədləşdirilməsi rus dilində aparılırdı. Bu isə nəinki milli dildə tədrisi, o cümlədən gömrük işi ilə bağlı ədəbiyyatın buraxılmasını da istisna edirdi. Mövcud qanunvericilik isə mərkəzçilik siyasətinə xidmət edirdi. Yerli hakimiyyət orqanları isə

ancaq qərar və tapşırıqların icrası ilə məşğul idi. Bu isə yerli gömrük orqanlarının səlahiyyətsiz olmasına dəlalət edirdi.

Müstəqillik əldə edən ölkəmiz bütün sadalanan çətinliklərə baxmayaraq milli iqtisadiyyatın inkişaf etdirilməsi ilə yanaşı gömrük orqanlarının sərbəst strukturlarının yaradılmasına və təşəkkül tapmasına da şərait yaratdı. Azərbaycan Respublikasında DGK 1992-ci ildə yaradılsa da, ölkəmizdə müasir tələblərə cavab verən gömrük siyasəti ancaq 1995-ci ildən ümummilli lider H.Ə.Əliyevin rəhbərliyi altında formalaşmağa başladı. Gömrük işinin təşkili üçün lazım olan bütün siyasi addımlar atıldı. Belə ki, kadr dəyişikliyi aparmaqla yanaşı "Gömrük tarifi haqqında" Qanun, "Gömrük Məcəlləsi" və lazım olan digər qanunvericilik aktları qəbul olundu. Bu barədə sonrakı mövzularda daha ətraflı məlumat verəcəyik.

İndi isə gömrük işinin təşkilinin ölkəmiz üçün əhəmiyyəti və onun öyrənilməsinin vacibliyini şərh etməyə çalışaq. Müstəqil Azərbaycanın iqtisadi həyatında xarici ticarət əlaqələrinin mühüm rolu vardır. Bilirsiniz ki, ölkənin milli iqtisadiyyatı onun quracağı xarici iqtisadi əlaqələr sistemindən çox asılıdır. Nəzərə alsaq ki, Azərbaycan inkişaf etməkdə olan digər ölkələr kimi iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsi və dünya təsərrüfat əlaqələri sisteminə inteqrasiya məsələsini paralel şəkildə həll etmək məcburiyyətindədir. Xatırlatmaq yerinə düşər ki, müasir dünya ticarəti sistemi bütün ölkələrə qarşı xarici siyasətin sərt tələblərini və məhdudlaşdırıcı təkliflərini irəli sürür. Bu səbəbdən də milli iqtisadiyyatın struktur cəhətdən tənzimlənməsi təmin olunmalıdır.

Milli istehsalı qorumaq üçün iqtisadiyyatın strukturunun yaxşılaşmasına, inkişafın strateji istiqamətlərində ehtiyatların mərkəzləşdirilməsinə, bəzi istehlak mallarının ucuzlaşdırılmasına, Azərbaycan mallarına xarici bazarların açılmasına və s. nail olmaq lazımdır. İstehsalın və istehlakın milli struktur xüsusiyyətləri, iqtisadi inkişaf səviyyəsi və digər amillər xarici ticarətin tənzimlənməsi sisteminə kompleks yanaşma tələb edir. Xarici ticarətin tənzimlənməsi isə idxal-ixrac əməliyyatlarına xüsusi dövlət nəzarəti tələb edir ki, bu da bilavasitə gömrük işinin təşkili ilə bağlıdır. Xarici iqtisadi fəaliyyətin tənzimləmə sisteminin əsas xüsusiyyətlərinə, idxal-ixrac əməliyyatları iştirakçılarına təsir prosesində iqtisadi siyasətin bir-birinə qarşılıqlı nüfuz edən və bir-birini tamamlayan kompleks vasitələrdən istifadə zərurətini misal göstərmək olar. Xarici ticarət fəaliyyəti təcrübəsində bu cür vasitələrin beş qurupundan istifadə olunur:

1) İqtisadi tənzimləmə vasitələri – gömrük rüsumları, gömrük yığımları, tarazlaşdırıcı sərhəd vergiləri, yerli mal istehsalçılarına maliyyə yardımları;

2) İnzibati tənzimləmə vasitələri – idxal və ixraca qoyulan qadağa və məhdudiyyətlər, idxalın lisenziyalaşdırılması (xüsusi razılıq) və kvotalaşdırılması (məhdud sayın və ya miqdarın müəyyən edilməsi) və s.;
3) Texniki tənzimləmə vasitələri – standartlar və normalar, standartlara uyğunluğun təyinetmə metodları, təhlükəsizlik normaları və qaydaları, əmtəələrin sertifikatlaşdırma sistemləri, sanitariyabaytarlıq və ekoloji tədbirlər, səhiyyə normaları;
4) Yerli istehsalçılara mal ixracı üçün edilən müxtəlif yardım tədbirləri;
5) Valyuta-maliyyə tədbirləri.
Adətən xarici iqtisadi əlaqələrin dövlət tərəfindən inzibati tənzimlənməsi bazar iqtisadiyyatı şəraitində kifayət qədər səmərəli sayılmır. Normal iqtisadi inkişaf dövründə xarici ticarətin dövlət tənzimlənməsinin inzibati və iqtisadi vasitələri arasındakı nisbət iqtisadi tənzimlənmənin xeyrinə dəyişir. Respublikamızın iqtisadi inkişaf strategiyasının xüsusiyyətləri nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidenti, Azərbaycan Respublikasının Ümummilli lideri, Heydər Əlirza oğlu Əliyevin 27.X.1998-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"sində bu strategiyanı həyata keçirmək üçün gömrük orqanlarının aşağıdakı vəzifələri müəyyənləşdirilmişdir:
1) təhvilverilmə üsulundan asılı olmayaraq bütün malların gömrük rəsmiləşdirilməsinin təmin edilməsi;
2) gömrük proseduralarının sadələşdirilməsi və rəsmiləşdirmə müddətinin qısaldılması;
3) gömrük nəzarətində müasir mütərəqqi texnologiyaların tətbiq olunması;
4) gömrük ödənişlərinin texnologiyasının təkmilləşdirilməsi və onların büdcəyə daxil olmasına nəzarətin gücləndirilməsi;
5) yüklər və yük göndərənlər haqqında ilkin məlumatların əldə edilməsi;
6) gömrük qanunvericiliyi pozuntularının qarşısının alınması;
7) digər hüquq-mühafizə orqanları ilə birlikdə narkotik maddələrin gətirilməsinin qarşısının alınması, ölkənin gömrük ərazisi vasitəsilə bu malların tranzit keçirilməsinə yol verilməməsi;
8) valyuta nəzarətinin təmin edilməsi;
9) gömrük sərhədinin tam qurulması və təchiz edilməsi, keçirilən malların və nəqliyyat vasitələrinin qeydiyatının avtomatlaşdırılmasının təkmilləşdirilməsi üzrə işlərin başa çatdırılması, nəzarət işlərinin təkmilləşdirilməsi, eyniləşdirmə və sənədli baxış texnologiyasının tətbiq edilməsi;
10) gömrük qanunvericilik aktlarının beynəlxalq sənədlərə uyğunlaşdırılması;

11) qeyri-tarif tənzimlənməsi tədbirlərinə riayət olunmasına nəzarət texnologiyasının təkmilləşdirilməsi;
12) gömrük-tarif tənzimlənməsi üsullarının səmərəliliyinin təhlil etməsi və onların təkmilləşdirilməsi üzrə təkliflərin hazırlaması;
13) intellektual mülkiyyət obyektlərinin ölkədən kənara aparılmasına nəzarətin həyata keçirilməsi üçün təşkilat-hüquqi ilkin şərtlərin yaradılması;
14) bütövlükdə gömrük xidmətinin və onun struktur bölmələrinin işinin səmərəliliyinin vaxtaşırı təhlil edilməsi.
Ötən əsrin sonlarında ölkəmiz ikinci dəfə müstəqillik əldə etdikdən sonra müstəqil gömrük siyasəti formalaşmağa başladı və lazım olan gömrük qanunvericiliyi aktları qəbul olundu. Eyni zamanda, gömrük işinin daha səmərəli təşkil edilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən lazım olan təlimat və əsasnamələr işlənib hazırlandı. Bütün sənədlərin əsasını Azərbaycan Respublikasının suverenliyinin və iqtisadi təhlükəsizliyinin təmin edilməsi təşkil edir. Həmin sənədlərdə ölkəmizin strateji inkişaf istiqamətinə uyğun olaraq yürüdüləcək vahid gömrük siyasəti də öz əksini tapmışdır.
Ölkəmizin iqtisadi həyatında gömrük işinin öz yeri vardır. Bildiyiniz kimi respublikamızın milli iqtisadiyyatı xarici iqtisadi əlaqələrin inkişafından çox asılıdır. Nəzərə alanda ki, Azərbaycan inkişaf etməkdə olan digər ölkələr kimi, iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsi və dünya təsərrüfat əlaqələri sisteminə inteqrasiya məsələsini eyni zamanda həll etməlidir, onda gömrük işinin təşkilinin nə qədər mühüm əhəmiyyət kəsb etdiyini görmək mümkündür. Gömrük işinin əhəmiyyətini xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin banisi və memarı Heydər Əliyevin dahiyanə fikirləri ilə çatdırırıq:
"...Həqiqi gömrük işini təşkil etmək üçün iki əsas şərt lazımdır. Birincisi, gömrük işçisi gərək bilikli olsun, öz peşəsini yaxşı mənimsəmiş adam olsun, mənəviyyatca təmiz olsun, müstəqil Azərbaycanın iqtisadiyyatının möhkəm-ləndirilməsinə sadiq olsun. İkinci tərəfdən, gərək onun təcrübəsi ola, biliyi ilə yanaşı, maddi texniki bazası, müasir texnikası, ləvazimatları olsun. Bunları yaratmaq lazımdır. Bu da sizin vəzifənizdir..." (Azərbaycan" qəzeti, 31 yanvar 1997-ci il).
Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin bu tapşırığını özlərinin gələcək fəaliyyət proqramı kimi qəbul edən Dövlət Gömrük Komitəsinin rəhbərliyi gömrük orqanlarının maddi-texniki bazasını genişləndirmək, müasirləşdirmək və gömrük sistemini inkişaf etdirməklə bərabər, yüksək səviyyəli gömrük işçilərinin hazırlanması üçün də çox işlər görmüşdür. Belə ki, aşağıdakı dərsliklər və dərs vəsaitləri hazırlanmışdır: K.F. Heydərovun təşəbbüsü və rəhbərliyi altında 4 cildlik "Gömrük

işinin əsasları" (I cild. "Gömrük işinin təşkili və texnologiyası". Bakı - 1998; II cild. "Gömrük orqanlarının iqtisadi fəaliyyəti". Bakı-1999; III cild. "Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti". Bakı-2000; IV cild. "Gömrük işinin idarə edilməsi və inkişafı". Bakı- 2000), C. Nuriyev tərəfindən "Gömrük hüququ" (ali məktəblər üçün dərslik, Bakı-2002). C.Q.Nuriyev, A.Ş.Şəkərəliyev, A.Ə.Əliyev və b. tərəfindən "Gömrük ekspertizası" dərsliyi (Bakı– 2003), A.Ə. Əliyev tərəfindən "Gömrük işi və dünya iqtisadiyyatının inkişafı" (rus dilində, Bakı-2002), Heydərov K.F. tərəfindən «Gömrük işinin əsasları» (ali məktəblər üçün dərslik, Bakı-2004), Heydərov K.F., Əliyev A.Ə., Nuriyev C.Q., Mehdiyev S.M. tərəfindən «Gömrük rəsmiləşdirilməsi», (ali məktəb tələbələri üçün dərslik, Bakı-2006) habelə bir sıra yardımçı vəsaitlər - K. Heydərov və T. İbrahimov tərəfindən "Gömrük işi - iqtisadi suverenlik və təhlükəsizlik" (Bakı-1999), C. Nuriyev, Z. Əliyev və G. İsmayılov tərəfindən, "Gömrük statistikası" (Bakı- 2000), C.Q.Nuriyev tərəfindən «Gömrük etikası» (Bakı-2007) və «Azərbaycanın gömrük tarixi» (Bakı-2007) hazırlanıb, nəşr olunmuşdur.

Azərbaycan Respublikası 18 oktyabr 1991-ci ildə müstəqillik əldə etdikdən sonra 30 yanvar 1992-ci ildə dövlətçiliyin mühüm atributlarından biri olan Dövlət Gömrük Komitəsi yaradıldı. Ölkəmizin seçdiyi dövlət quruluşu və inkişaf istiqamətləri iqtisadiyyatımızı xarici müdaxilənin zərərli təsirlərindən qorumağa, milli istehsalı müdafiə etməyə qadir olan və bütövlükdə ölkənin iqtisadi təhlükəsizliyin təmin edə biləcək orqanın yaradılmasını, ilk növbədə təsis edilməli olan dövlət idarəetmə sisteminin aparıcı elementlərindən birinin təşkilini, labüdləşdirdi. Xarici iqtisadi fəaliyyətin dövlət inhisarında saxlanıldığı keçmiş SSRİ-nin tərkibində olmuş Azərbaycan üçün bu sahədəki strateji və taktiki tədbirlər tamamilə yeni olmaqla, demək olar ki, sıfır səviyyəsindən başlanılmalı idi. Bu tədbirlər kompleks xarakterli olmalı və onların həyata keçirilmə mərhələləri müəyyənləşdirilməli idi. Lakin, o zaman Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyət nəticəsində köklü tədbirlər planının işlənib hazırlanmasına, mütərəqqi və səmərəli gömrük siyasətinin aparılmasına nail olunmadı.

Ölkə daxilində və dövlət sərhədlərində iş qabiliyyətli gömrük orqanları şəbəkəsinin yaradılması və onların texniki təminatı, gömrük xidməti kadrlarının hazırlanması, gömrük qanunvericiliyinin hazırlanması, qəbul edilməsi və tətbiqi, gömrük işçilərinin sosial məsələlərinin həlli kimi mühüm tədbirlər ön plana çəkilmədi.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN dövlət başçısı kimi gömrük siyasəti sahəsindəki fəaliyyətini iki mərhələyə bölmək olar:

1. 1969-1987-ci illəri əhatə edən sovet dönəmi;
2. 1993-2003-cü illəri əhatə edən müstəqillik illəri.

Azərbaycanın dövlətçilik tarixində xüsusi rolu və yeri olan H.Əliyev 14 iyul 1969-cu ildə Kommunist Partiyası Mərkəzi Komitəsinin 1 katibi seçildikdən sonra qısa müddət ərzində ciddi addımlar atıldı. Məhz Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra gömrük işi sahəsində uzun müddət ərzində hökm sürən qeyrimillilərin bu sahədəki hokmranlığına çox ustalıqla son qoyuldu. Belə ki, onun təkidi ilə ilk dəfə olaraq gömrük orqanlarına rəhbər vəzifəsinə azərbaycanlılar təyin olunmağa başlandı. Qısa müddət ərzində Azərbaycanda fəaliyyət göstərən hər üç gömrükxananın (Bakı, Astara və Culfa) rəisi azərbaycanlı olmağla bərəbər, milli kadrlar SSRİ-nin müxtəlif ali təhsil ocaqlarına oxumağa göndərildi. Tezliklə qeyri-azərbaycanlılıarı milli kadrlar əvəz etməyə başladı.

Gömrük işi sahəsinə diqqətini artıran H.Əliyev Azərbaycanın gömrük tarixini araşdırtdı və ölkəmizdə ilk gömrkxananın açılmasının 175 illiyinin qeyd olunması barədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi Bürosunun 31 mart 1981-ci il tarixli qərarını imzaladı. Bu Qərarda diqqətdən kənarda heç nə qalmamışdır. Tarixi faktın vaxtında aşkarlanması və qeyd olunması Heydər Əliyevin müstəsna xidmətidir.

H.Əliyev cənabları, 1995-ci ildən başlayaraq gömrük orqanlarının işinin yenidən qurmağa başladı. Əvvəlcə Dövlət Gömrük Komitəsinin rəhbərliyini dəyişdirdi. Bu seçim çox uğurlu oldu. Dövlət Gömrük Komitəsinə Heydər Əliyevin 17 yanvar 1995-ci il tarixli 295 saylı Fərmanı ilə təyin olunan Kəmaləddin Fəttah oğlu Heydərov Ümummilli Liderin rəhbərliyi altında müstəqil Azərbaycan dövlətinin gömrük sistemini yenidən qurdu və onu dünya standartları səviyyəsinə gətirib çıxartdı. Onun bu xidmətləri Xalqımızın Lideri Heydər Əliyev cənabları tərəfindən dəfələrlə yüksək qiymətləndirilmişdir.

Təşkilati tədbirlərlə bir vaxtda dövlətin gömrük siyasətinin də formalaşdırılmasına başlandı. Ölkənin gömrük qanunvericiliyi təkmilləşdirildi. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi və "Gömrük Tarifi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Məcəllədə, gömrük orqanlarının qarşısında qoyulan vəzifələrdən çıxış edilərək, gömrük işinin əsas prinsipləri müəyyənləşdirildi. Məhz gömrük orqanları bu Məcəllənin müddəalarına görə, hüquq-mühafizə orqanı statusu aldı. Gömrük tarifi və valyuta tənzimlənməsi haqqında qəbul edilən qanunlar, gömrük orqanlarına valyuta nəzarətini həyata keçirmək hüququnu verdi, habelə gömrük rüsumlarının dəqiq hesablanması və vaxtında yığılaraq dövlət büdcəsinə köçürülməsi tələbini qoydu.

Gömrük qanunvericiliyinin inkişafında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 27 oktyabr 1998-ci il tarixli 6 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan

Respublikası Dövlət Gömrük Komitəsi haqqında" Əsasnamə mühüm yer tutur. Əsasnaməyə görə Dövlət Gömrük Komitəsi Azərbaycan Respublikasında gömrük işi sahəsində dövlət siyasətini həyata keçirən Mərkəzi İcra Hakimiyyəti orqanıdır. Heydər Əliyevin təklifi ilə gömrük siyasətinin strateji məsələlərinin müəyyən edilməsi mərhələsində Dövlət Gömrük Komitəsinə önəmli yer verildi. Belə ki, vahid gömrük sisteminin yaradılması; xarici iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi; milli bazarın xarici rəqabətin zərərli təsirindən qorunması; keyfiyyətsiz malların idxalının qarşısının alınması; ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi; qaçaqmalçılıq və gömrük qaydalarının pozulması hallarının qarşısının alınması və aradan qaldırılması; Azərbaycan xalqının bədii və arxeoloji sərvətlərinin, intellektual mülkiyyətinin, nadir flora və fauna nümunələrinin qeyri-qanuni dövriyyəsinin qarşısının alınması; valyuta əməliyyatlarına mükəmməl nəzarət sisteminin yaradılması; müasir mərhələdə gömrük siyasətinin hazırlanması və s. məsələlərdə Dövlət Gömrük Komitəsinə verilmiş səlahiyyətlər Heydər Əliyevin nə qədər uzaqgörən, bacarıqlı və əvəzolunmaz dövlət xadimi olmasını bir daha sübut edir.

Gömrük orqanlarının yaradılmasının beş illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əlirza oğlu Əliyev gömrük sisteminin inkişafı və təkmilləşdirilməsi problemlərinə toxunaraq, Dövlət Gömrük Komitəsinin qarşısında duran birinci dərəcəli məsələləri belə xarakterizə etmişdir: "Azərbaycan müstəqil bir dövlət kimi daim yaşayacaq. Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq və inkişaf etdirmək bütün istiqamətlərdə aparılan tədbirlər nəticəsində ola bilər. Bu istiqamətlərdən biri də yüksək səviyyəli gömrük xidmətinin yaranmasıdır. Onun üçün bir daha qeyd edirəm, siz dünya təcrübəsindən istifadə etməlisiniz. Bizim Azərbaycanda nə gömrük məktəbi, nə gömrük universiteti, nə də gömrük akademiyası olubdur...

Gömrük işçilərinin əksəriyyəti, cürbəcür ixtisaslar alıbdır. Amma sırf gömrük ixtisası üzrə təhsil alan adamlar çox azdır. Siz bu təhsili də işləyə-işləyə almalısınız. Yəni işləyə-işləyə gömrük elminin və gömrük biliklərinin mənimsənilməsi sahəsində özünüzü təhsilləndirisiniz, təkmilləşdirirsiniz. Şübhəsiz ki, Gömrük Komitəsinin gərək xüsusi iş planı olsun. Gömrük Komitəsinin öz işçilərini təkmilləşdirmək, onlara xüsusi gömrük təhsili vermək, onların təcrübəsini artırmaq üçün gərək birillik, ikiillik, üçillik planı olsun və onun əsasında siz təhsil işi aparmalısınız. Bu, sizin sahəyə başqa sahələrə nisbətən ən çox lazımdır. Ona görə də Siz bunu etməlisiniz. Həqiqi gömrük işini təşkil etmək üçün iki əsas şərt lazımdır. Birincisi, gömrük işçisi gərək bilikli olsun, öz peşəsini yaxşı mənimsəmiş adam olsun, mənəviyyatca təmiz olsun, öz işinə

sadiq olsun, Vətəninə, ölkəsinə sadiq olsun, müstəqil Azərbaycanın iqtisadiyyatının möhkəmləndirilməsinə sadiq olsun. İkinci tərəfdən, gərək onun təcrübəsi ilə, biliyi ilə yanaşı, maddi-texniki bazası, müasir texnikası, ləvazimatları olsun. Bunları yaratmaq lazımdır. Bu da Sizin vəzifənizdir..." ("Azərbaycan" qəzeti, 31 yanvar 1997-ci il).

Dövlət Gömrük Komitəsinin rəhbərliyi Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin bu çıxışını özünün fəaliyyət Proqramı kimi qəbul edərək, bu dahi insanın fikirlərini ardıcıl olaraq həyata keçirməyə başladı.

Azərbaycan Respublikasının ümummilli lideri, Azərbaycanda dövlətçiliyin və müstəqilliyin siyasi memarı Heydər Əliyevin gömrük işinin təşkil edilməsi sahəsindəki xidmətləri böyükdür. Belə ki, məhz bu dahi şəxsin rəhbərliyi altında ölkəmizin milli gömrük siyasəti formalaşmış, onun qanunvericilik bazası yaradılmış, müasir avadanlıqlar və texniki vasitələrlə təchiz olunmuş, dünya stardartlarına cavab verən gömrük sistemi yaradılmışdır.

Azərbaycanın iqtisadi inkişafı, onun suverenliyinin təmin edilməsi ölkədə aparılan gömrük siyasəti ilə də bilavasitə bağlıdır. Bütün bunlar nəzərə alınmaqla Azərbaycanda uğurlu gömrük siyasətinin təməli qoyulmuş, gömrük işinin təkmilləşdirilməsi, gömrük orqanlarının maddi-texniki və normativ-hüquqi bazasının möhkəmləndirilməsi, ümumdünya gömrük sisteminə inteqrasiyası istiqamətində uğurlu addımlar atılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Müstəqillik bizim üçün ən böyük sərvət, ən böyük dəyərdir. Ancaq müstəqilliyi qoruyub saxlamaq, onu möhkəmləndirmək, əbədi, dönməz etmək daha çətin işdir. Azərbaycanın müstəqilliyi o deməkdir ki, biz müstəqil siyasət aparırıq. Biz Azərbaycan xalqının milli maraqlarını müdafiə edirik. Bu maraqları hər şeydən üstün tuturuq və istər xarici siyasət, istərsə də daxili siyasət, iqtisadi, sosial siyasət olsun, biz bütün sahələrdə siyasətimizi özümüz müəyyən edirik. Bunu etmək üçün, müstəqil ölkə kimi yaşamaq və müstəqilliyin bəhrəsini görmək üçün mütləq iqtisadi güc lazımdır. Biz bu iqtisadı gücu yaradırıq".

İ.Əliyev cənablarının gömrük işinin inkişaf etdirilməsi sahəsində xüsusi xidmətləri vardır. Belə ki, onun imzaladığı 5 mart 2004-cü il tarixli 598 saylı sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının Cinayət- Prosessual Məcəlləsinin tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında Azərbaycan Respublikasının Qanununun" X bəndinə görə, Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə edilən dəyişikliklər və əlavələr nəticəsində gömrük orqanlarına gömrük işi sahəsində cinayətlər haqqında işlər üzrə istintaq aparmaq səlahiyyəti verilmişdir. Bu o deməkdir

ki, gömrük orqanları gömrük işi sahəsində baş vermiş cinayətlərin istintaqını özü aparacaqdır.

Gömrük orqanları, bu səlahiyyəti qazanmaqla gömrük siyasətini bütünlüklə həyata keçirən yeganə dövlət orqanına çevrilir. Bu isə gömrük işi sahəsində baş verən cinayətlərin qarşısının alınmasında və aradan qaldırılmasında "hüquqi inqilab" deməkdir.

Azərbaycan Respublikasının gömrük işinə dair qanunvericiliyin təkmilləşdirilməsi, gömrük işi ilə bağlı beynəlxalq standartların öyrənilməsi və onların tətbiqi işinin davam etdirilməsi, həmçinin "Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında" Kioto Konvensiyasının müddəalarının milli gömrük qanunvericiliyində əks olunması məqsədilə Dövlət Gömrük Komitəsində Avropa İttifaqı və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı tərəfindən "Azərbaycan Respublikasının gömrük xidmətinin təkmilləşdirilməsi" layihəsi çərçivəsində işlər davam etdirilir, Azərbaycan Respublikasının yeni Gömrük Məcəlləsi hazırlanmış və 01.01.2012 ci il tarixindən qüvvəyə minmişdir.

Dövlət Gömrük Komitəsinə Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin Texniki Əməkdaşlıq Proqramı çərçivəsində stasionar radiasiya nəzarəti avadanlıqları verilmiş və həmin avadanlıqların quraşdırılaraq istismara buraxılması nəzərdə tutulmuşdur. Atom Enerjisi üzrə Beynəlxalq Agentlik tərəfindən Dövlət Gömrük Komitəsi üçün nəzərdə tutulan layihələr çərçivəsində müvafiq avadanlıqların əldə edilməsi, o cümlədən bütün sərhəd keçid məntəqələrinin, həmçinin beynəlxalq uçuşlara açıq hava limanlarının radioaktiv materialları müəyyən edən avadanlıqlarla təchiz oluması ilə bağlı mühüm işlər həyata keçirilir.

Heç kəsə sirr deyil ki, bazar iqtisadiyyatına keçid dövrünü yaşayan ölkələrdə olduğu kimi, Azərbaycanda da sahibkarlığın inkişafı prosesi çətin və ağır yol keçmişdir. Buna baxmayaraq, ölkə rəhbərliyi tərəfindən sahibkarlığın inkişaf etdirilməsi, ona normal şərait yaradılması daim diqqət mərkəzində olmuşdur.

Gömrük orqanları da bu prosesdən kənarda qalmamış, gömrükçü-sahibkar münasibətlərinin qurulması, çətinliklərin öyrənilməsi və problemlərin aradan qaldırılması üçün sahibkarlarla geniş tərkibdə görüşlər keçirilmiş, iş adamları ilə açıq dialoqa daha çox üstünlük verilmişdir. Gömrük orqanlarının mühüm funksiyalarından biri də fiskal funksiyanın - gömrük vergi və rüsumları üzrə proqnozun yerinə yetirilməsidir. Son illərdə Azərbaycanda mövcud olan siyasi sabitlik, həyata keçirilən iqtisadi islahatlar öz bəhrəsini verir. Makroiqtisadi göstəricilər yüksələn xətlə artır. Nəticədə dövlət büdcəsinin ölkə üzrə artım tempi dünya üzrə orta göstəricini qabaqlamışdır.

Hal-hazırda bu sahədə DGK yeddi istiqamət üzrə işlər aparır: mal və nəqliyyat vasitələrinin dövriyyəsini əhatə edən məlumatların yığımını təmin edən sistemin yaradılması; gömrük orqanları arası informasiya mübadiləsinin təmin edilməsi; gömrük rəsmiləşdirilməsi və nəzarətinin avtomatlaşdırılması; qaçaqmalçılıq və gömrük qaydaları ilə mübarizənin informasiya təminatının təşkili; gömrük nspektorlarının avtomatlaşdırılmış iş yerlərinin yaradılması; mərkəzi aparata gündəlik daxil olan məlumatların yoxlanılması və müvafiq məlumat bazalarının yaradılması; xarici-iqtisadi əlaqələrin təhlilinin avtomatlaşdırılmış rejimdə aparılması. 2006-cı il fevralın 2-3-də Bakıda Ümumdünya Gömrük Təşkilatı və Macarıstan Gömrük Xidmətinin birgə təşkilatçılığı ilə Avropa regionu gömrük xidməti rəhbərlərinin konfransı keçirilmişdir.

Konfransda 40-a yaxın ölkənin gömrük xidmətlərinin, həmçinin Ümumdünya Gömrük Təşkilatı, Avropa Komissiyası, İnterpol, Beynəlxalq Yol Daşımaları İttifaqı və SECİ kimi beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişlər. İclas zamanı gömrük işi ilə bağlı bir sıra məsələlər müzakirə edilmiş, sonda isə "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Macarıstan Respublikası Maliyyə Mühafizə Xidməti arasında əməkdaşlıq haqqında Protokol" imzalanmışdır.

Azərbaycan Dövlət Gömrük Komitəsinin fəaliyyətinin əsas istiqamətlərindən biri də digər dövlətlərin gömrük xidmətləri ilə əməkdaşlığın gələcək inkişafı və möhkəmləndirilməsinə yönəlmişdir. Ölkəmiz gömrük işi sahəsində ikitərəfli əməkdaşlığın genişləndirilməsi məqsədilə 30-dan çox dövlətlə hökumətlərarası və qurumlararası beynəlxalq sənədlər imzalamışdır. Belə hesab edirəm ki, gələcəkdə də gömrük işi respublikamızın iqtisadi inkişafına təkan verməklə ölkənin iqtisadi qüdrətinin artırılmasında, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasında, möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi siyasi kursun reallaşmasında mühüm rol oynayacaq, gömrük əməkdaşları bu vəzifələrin reallığa çevrilməsinin təminatçısı olacaqdır.

2. Azərbaycanda gömrük işinin təşkilinin və tətbiqinin tarixi

Plan:

1. Gömrük işinin yaranması prosesi
2. İlkin feodalizm dövründə gömrük
3. Ərəblərin tətbiq etdiyi gömrük siyasəti
4. Səfəvilərin həyata keçirtdikləri gömrük siyasəti
5. XVI – XVIII əsrin ikinci yarısında Azərbaycan xanlıqlarının gömrük siyasəti
6. Çar Rusiyasının Azərbaysanda həyata keçirtdiyi gömrük siyasəti
7. Azərbaycan Xalq Cumhuriyyətinin gömrük siyasəti
8. Sovetlərin Azərbaycanda həyata keçitdikləri gömrük siyasəti

İlkin feodalizm dövründə gömrük

Ilk orta əsrlər Qafqaz Albaniyasının inkişaf tarixinin öyrənilməsində ayrı-ayrı təsərrüfat sahələrinin təhlili iqtisadiyyatın başlıca məsələlərindən biridir. Ilk orta əsrlər Albaniyasının təsərrüfat sahələri yazılı mənbələr (qədim erməni, gürcü, suriya, ərəb və digər) və arxeoloji materiallar əsasında kompleks halında ardıcıl və geniş şəkildə öyrənilməmişdir. Ilk orta əsrlər Albaniyasının təsərrüfatının bəzi sahələrinə ümumi şəkildə «Azərbaycan tarixi»nin I cildində, «Dağıstanın tarixi», «Dağıstanın tarixi oçerkləri»ndə, tədqiqatçılardan S.B.Aşurbəylinin və Z.M.Yampolskinin məqalələrində, Z.M.Bünyadovun, K.V.Treverin, T.M.Məmmədovun, T.A.Bünyadovun, R.M.Vahidovun və başqalarının monoqrafiyalarında toxunulmuşdur. Məhz buna görə də Albaniyanın ilk orta əsrlərdə yerli əhalisinin iqtisadiyyatının müxtəlif təsərrüfat sahələrinin inkişafını müxtəlif dilli yazılı mənbələr, arxeoloji və etnoqrafik materiallar əsasında kompleks halda, ardıcıl, geniş tədqiqinə ehtiyac duyulur.

Mənbələrin məlumatlarına görə bizim eradan əvvəl ikinci minilliyin ikinci yarısında yerli tayfalar Assur, Fələstin və Misir ölkələri ilə xammal və məhsullar mübadiləsi aparar, həmin ölkələrdən isə bəzək əşyaları və müxtəlif soyuq silahlar gətirirdilər. Atropatenanın ərazisində olan Təbriz, Ərdəbil, Urmiya, Marağa, Miyana, Zəncan, Naxçıvan, Maku və digər şəhərlr ölkə daxilində mühüm ticarət mərkəzlərinə çevrilmişdilər. Bu şəhərlər başqa dövlətlərlə təkcə quru ilə deyil, həm də dəniz yolu ilə ticarət əlaqləri yarada bilmişdilşr. Məşhur "Böyük ipək yolu" vasitəsilə Orta Asiya, Çin, Hindistan, Kiçik Asiya ölkələri, İberiya, Qafqaz Albaniyası ilə ticarət əlaqələri formalaşmışdı.

Ölkədə hazırlanmış xalçalar, bəzək şeyləri, yun məmulatları və s. ixrac olunaraq əvəzində lazım olan istehlak malları idxal olunurdu. Bu zaman satış üçün müxtəlif vergilər alınırdı ki, bu da müasir dövrdə gömrük vergiləri və rüsumları adlanır.

Albaniyada ilk orta əsrlərdə istehsalın və istehsal vasitələrinin inkişafı, şəhərlərin iqtisadi cəhətdən inkişafında mühüm əhəmiyyətə malik olan ticarətin, daxili və tranzit ticarətin daha da artmasına, genişlənməsinə səbəb oldu. Zaqafqaziya və o cümlədən Albaniyanın ərazisindən keçən tranzit ticarət yolları, ümumdünya ticarətinin inkişafında çox böyük rola malik idilər. Ümumdünya ticarəti, beynəlxalq mübadilələr yolları üzərində yerləşən ölkələrin və o cümlədən Albaniyanın iqtisadi və mədəni cəhətdən daha da geniş şəkildə inkişaf etməsinə böyük təsir göstərirdi. Qədim Zaqafqaziya, o cümlədən Albaniya, ümumdünya tranzit ticarəti yolları vasitəsilə Hindistandan, Çindən tutmuş Hind okeanı sahillərinə qədər yerləşən ölkələrlə qiymətli məhsullar mübadilə edilən bir əraziyə çevrilmişdi.

Ilk orta əsrlərdə Hindistandan gətirilən başlıca mallar əsasən bunlar idi: pambıqdan hazırlanmış parçalar, istiot, sarıkök, müxtəlif ədviyyat malları, qiymətli qaş-daş, mirvari, müxtəlif bəzək əşyaları, fil sümüyü, qara ağac, müxətəlif rənglər. Çindən ipək və ipək parçalar gətirilirdi. Qafqaz vasitəsilə Şərqə–bürünc , mis, qurğuşun, Misir və Suriya sənətkarları tərəfindən istehsal olunmuş, qızılı iplərlə nəqşlənmiş parçalar, Isgəndəriyyədə və Suriyada hazırlanmış şüşə qablar və digər mallar göndərilirdi.

Qədim dövrlərdə olan quru ticarət yolları ilk orta əsrlərdə də fəaliyyətdə idi. Bu yollar Kiçik Asiyanı Qara dəniz və Aralıq dənizi ilə birləşdirirdi. Zaqafqaziyanın, o cümlədən Albaniyanın ərazisindən keçən əsas ticarət yollarının öyrənilməsində və araşdırılmasında bizə böyük kömək göstərən ən mühüm mənbələrdən biri coğrafi xəritədir. Bu, IV əsrdə yaşamış roma coğrafiyaçısı Kastoriyanın adına yazılmış «Tabula Peftinqer» adı ilə tanınan coğrafi xəritədir. Bu mühüm əhəmiyyətə malik olan əsər Konrad Miller tərəfindən yenidən gətirilib və redaktə edilib nəşr olunmuşdur.

Kastoriyanın bu xəritəsi Albaniyanın, Iberiyanın və Ermənistanın tarixi coğrafiyasının öyrənilməsində böyük əhəmiyyətə malik bir mənbədir. Zaqafqaziya–Ermənistan, Iberiya-Kartli, Albaniya-Arran ərazisindən keçən ümumdünya ticarət yolunun «Tabula Peftinqer» xəritəsinin materialları əsasında araşdırılıb öyrənilməsilə D.I.Markvart, Y.A.Manandyan , S.T.Yeremyan, və Z.I.Yampolski məşğul olmuşlar.

Qədim yunan və latın müəllifləri Aristobul, Eratosfen, Patrokul və s. məlumatına görə, hələ miladdan əvvəl IV-VII əsrlər-dən başlayaraq Oks çayı (Amudərya) vasitəsilə Kaspi dənizinə, oradan da Kür çayı ilə Albaniya, Iberiya və Kolxidanın ərazisindən keçərək, Rion çayı vasitəsi ilə Qara dəniz sahilindəki Fazis şəhərinə (indiki Poti şəhərinə) gəlib çatan ticarət yolu mövcud idi. Albaniyanın ərazisindən keçən, iqtisadi və ticarət cəhətdən əhəmiyyətə malik bu böyük ticarət yolu ilk orta əsrlərdə də öz əhəmiyyətini itirməmişdir. Lakin buna baxmayaraq bəzi tədqiqatçılar (V.V.Bartold, Y.A.Manandyan, Tomson, V.Tarn) bu ticarət yolunun

əhəmiyyətini və ümumiyyətlə varlığını heçə çıxarmağa çalışırlar . Z.I.Yampolski qədim yunan-latın müəlliflərindən Patrokul, Aristobul, Eratosfen, Strabon, Pompeni Mel, Plini, Yuli Solin, Mark Terenski Varron və başqalarının məlumatlarını araşdıraraq, müəyyən düzəlişlər edərək həmin yolun Albaniyadan keçəndən sonra Iberiyaya və Kolxidadan keçərək Rioni çayı vasitəsilə Qara dəniz sahilindəki Fazis (indiki Poti) şəhərinə çatdığını göstərir.

Ilk orta əsrlərdə Albaniyanın ərazisindən keçən Kür çayının gəmiçilik üçün yararlı olduğunu ilk orta əsrlərin mənbələri də təsdiq edir. Ilk orta əsrlər tarixçisi Sebeosun verdiyi məlumatdan aydın olur ki, Kür çayının üzərində hər iki sahili birləşdirən bərə var imiş . Alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumatdan aydın olur ki, Kür çayının sahilində (Uti vilayəti hissəsində) liman və bunun yanında çayın üzərində hər iki sahili birləşdirən körpü olmuşdur.

Bizim eranın əvvəllərində indiki Şimali Azərbaycanın və Cənubi Dağıstanın ərazisini əhatə edən Albaniya dövləti haqqında tarixi mənbələrdə bu ərazidə neft, təbii qaz, dəmir, mis və s. kimi qiymətli ehtiyatların olduğu göstərilirdi ki, bunlar da sonradan ticarət subyektlərinə çevrilirdilər. Şirvanda (Bakıda) neft və duz məhsullarının üzərinə vergi qoyulmuşdur ki, bu da müasir dildə mədən vergisi və aksiz vergisi kimi dəyərləndirilir.

Beləliklə, ilk orta əsrlər dövrünün yazılı mənbələrinin, arxeoloji qazıntıların materiallarının və tədqiqatların araşdırılması göstərir ki, ilk orta əsrlərdə Albaniyada ticarət geniş şəkildə inkişaf etmişdi. Materialların araşdırılması göstərir ki, Albaniyanın ərazisindən ümumdünya əhəmiyyətli beynəlxalq quru, su ticarəti yolları keçirdi ki, bu da ölkədə iqtisadiyyatın bütün sahələrinin, tranzit və daxili ticarətin geniş şəkildə inkişaf etməsinə böyük imkan yaradırdı. Albaniya tədqiq etdiyimiz dövrdə ümumdünya əhəmiyyətli tranzit ticarətinin mərkəzlərindən birinə çevrilmişdir. Ilk orta əsrlər dövrünün yazılı mənbələrinin, məlumatların, arxeoloji materialların və tədqiqatların araşdırılması göstərir ki, Albaniya ilk orta əsrlərdə Hind okeanından tutmuş Qara dənizə qədər olan yerlərlə ticarət əlaqələrinə, Yaxın və Orta Şərq ölkələri ilə daha da geniş ticarət mübadiləsinə və sıx ticarət əlaqələrinə malik olmuşdur. Lakin yazılı mənbələrdə ticarət münasibətlərinin hansı formada tənzimlənməsi və gömrük vergi və rüsumlarının tətbiqi haqqında məlumatlar azdır. Və ya bu barədə olan məlumatlar Ərəb xilafəti dövründə yandırıldığı üçün ancaq mülahizə yürütmək olar. Çünki artıq iri şəhərlərdə - Ərdəbil, Muğan, Naxçıvan, Bərdə, Beyləqan, Qəbələ, Şəki, Şəmkir, Dərbənd (Bab-əl-Əbvab), Şabran, Şamaxı və digərlərində ticarət məhəllələri (o zamanlar "ravad" adlanırdı) yaranmışdı. Xarici ölkələrdən Azərbaycana müxtəlif parçalar, metal məmulatları, ətriyyatlar, ədvalar, xəzlər və s. gətirilir, ölkədən isə xam ipək, ipək parçalar, pambıq, xalçalar, boyalar, neft, mal-

qara, atlar və s. ixrac edilirdi. Ticarətə qoyulan gömrük vergi və rüsumları ölkə xəzinəsinin mühüm gəlir mənbəyinə çevrilmişdi.

Ərəblərin tətbiq etdiyi gömrük siyasəti

Mənbələr Xilafət dövründə Azərbaycandakı orta əsr feodal şəhərlərinin meydana gəlməsinin səbəb və şərtləri və bunların inkişafı haqqında çox az məlumatlara malikdir. Ölkənin iqtisadi sistemində Azərbaycan şəhərlərinin rolu, bunların daxili həyatı, quruluşu, şəhər əhalisinin müxtəlif təbəqələrinin qarşılıqlı münasibətləri və bunlara oxşar bir sıra digər problemlər də kifayət qədər öyrənilməmişdir. Şərti olaraq qeyd etmək olar ki, ərəblərdən əvvəlki dövrdə olan şəhərlər padşah və knyazların torpaqlarında salınırdı və adətən kənd mahalları – rustaklar bunlara aid edilirdi. Orta əsrlərdəki yazılı mənbələr və qazıntı materialları Azərbaycan və Arranda bir ençə kateqoriyadan şəhər olduğunu müəyyən etməyə imkan verir. Həmin dövrdə daha geniş surətdə ictimai əmək bölgüsü əmələ gəlir, sənətlər kənd təsərrüfatından ayrılır və şəhərlərdə mərkəzləşir. Şəhər kənddən ayrı düşür. Lakin həmin dövrdə Azərbaycan və Arran şəhərlərinin əksəriyyəti hələ mühüm ticarət-sənaye mərkəzi olmamışdı. Mənbələrdə təkcə "böyük" və "məşhur" adlanan şəhərlər ticarət-sənaye mərkəzi idi, bunlar da beynəlxalq tranzit ticarətinin əsas yolları üzərində salınmış şəhərlər olmuşdu. Bərdə, Dərbənd, Çoqa, Beyləqan (Paytakaran) belə şəhərlərdən idi. Həmin şəhərlərdə ruhani və dünyəvi zadəganlar, tacirlər, sələmçilər və əkinçiliklə əlaqəsini kəsmiş sənətkarlar yaşayırdılar. Mənbələrdə göstərilir ki, şəhərlərdə geniş istehlak şeyləri hazırlayan sənətkarlardan başqa "qızıl, gümüş, dəmir filizi və mis çıxarmaqda biliyi olan müxtəlif sənətkarlar da" var idi. Şəhərlərin ikinci kateqoriyası - əsas ticarət yollarından uzaqda yerləşən qapalı sənətkarlıq və ticarət mərkəzləridir. Şəki, Qəbələ, Amaras, Şamxor, Naxçıvan, Ərdəbil, Girdiman bu kimi şəhərlərdən idi. Bu dövrdə ticarət və mal mübadiləsi tədricən, bunların ardınca pul tədavülü artırdı. Ərəblərin istilası başlananda Azərbaycan və Arranda keçmişdə qala şəhəri olmuş bir sıra məşhur şəhərlər vardı, məsələn: Ərdəbil, Bərdə, Beyləqan, Qəbələ, Şamxor, Dərbənd, Çoqa, Naxçıvan, Şabran, Şamaxı, Qazaka (Şiz) və başqaları. Azərbaycanın (Arranın) bəzi şəhərlərinin əzəmətini və bunların strateji əhəmiyyətini həmin şəhərlər ətrafında çəkilən hasar və bürclərin qalıqları aydın göstərir. VI əsrin axırları – VII əsrin əvvəllərində Azərbaycanda və xüsusilə Arranda çoxlu yeni şəhərlər salınır və mövcud şəhərlər möhkəmləndirilir; buna səbəb hər şeydən əvvəl həmin ölkələrdə məhsuldar qüvvələrin daha da artması idi. Şəhərlər ticarət və sənət mərkəzi olur, məhsula tələbat artır, ölkənin təbii sərvətləri daha çox işlədilir . Azərbaycan və Arran ərəblər tərəfindən işğal edilməzdən əvvəl, habelə ərəblərin hökmranlığı dövründə həmin ölkələrdən keçən ticarət yollarının birinci dərəcəli əhəmiyyəti var idi: bu ticarət yolları bütün Xilafət sistemindəki ticarətdə heç də axırıncı rol oynamırdı. Bu ərazinin

ərəblər tərəfindən işğalı və Ön Asiyada çox geniş sahənin Xilafət çərçivəsində birləşdirilməsi ticarətin inkişafı üçün son dərəcə əlverişli şərait yaratdı, tacirlər üçün quru yol ilə və Xəzər dənizi ilə şimala (bulqarlar, slavyanlar) və Avropanın şimal-şərqinə gedən ticarət yollarını açdı. Avropa, Asiya və Afrikanın müxtəlif rayonlarında tapılan çoxlu sikkə dəfinələri əsasında təsəvvür etmək olar ki, Xilafətin hökmranlığı dövründə ticarət nə qədər genişlənmişdi və o zaman məlum olan təqribən bütün ölkələrlə Zaqafqaziya ölkələrinin ticarət əlaqələri nə qədər uzaqlara çatırdı. Dünya ticarətində Bizans və Ermənistanın rəhbər rolu tənəzzülə uğradıqdan sonra qonşu ölkələrlə ticarətdə Xilafətin ticarət balansında Azərbaycan və Arran şəhərlərinin rəhbər vəziyyəti daha da gücləndi. Azərbaycanın paytaxtı Bərdəyə keçirildikdən sonra ticarət mərkəzi olmaq etibarilə Dvinin əhəmiyyəti aşağı düşdü; o zaman Ermənistan şəhərlərinə nisbətən Bərdə, Gəncə, Şamxor, Dərbənd, Ərdəbil, Şabran və digər şəhərlər beynəlxalq ticarət həyatında daha əhəmiyyətli rol oynayırdı. Bunun səbəbi bu idi ki, Xilafətin ticarət əməliyyatı yeni yolla inkişaf edərək, başqa şəhərlərdə mərkəzləşmişdi. Y.A.Manandyan belə hesab edirdi ki, həmin dövrdə Şərqi Gürcüstan və Azərbaycanda ticarətin canlanması xəzərlər və slavyanlarla ticarətin inkişafı ilə əlaqədardır. Ş.A.Mesxia qeyd edir ki, bu zaman beynəlxalq ticarətdə Azərbaycanla birlikdə iqtisadi cəhətdən kifayət qədər inkişaf etmiş Gürcüstan padşahlıq və knyazlıqları da iştirak edirdilər, həm də bunlar digər xalqlarla ticarətdə vasitəçi kimi hərəkət edirdilər. Azərbaycan şəhərləri məhz ərəb hökmranlığı dövründə iqtisadi cəhətdən inkişaf etmişdir. Zaqafqaziyanın bu rayonunda, yeni şəhərlərin meydana gəlməsinin və Bərdənin sürətlə inkişafının səbəbi əsasən bunda idi ki, Şimali Qafqaz, Volqa və Don çayları hövzəsinin xalqları ilə ticarət əlaqələri sürətlə inkişaf etmişdi: bu cəhət isə Azərbaycan və Arranda əmtəə münasibətlərinin inkişafının başlıca amillərindən biri olmuşdu. Azərbaycan və Arran şəhərləri öz zəngin bazarları və yerli sənətkarların cürbəcür məhsulları ilə ticarət əməliyyatında iştirak edərək, Xilafətdə şimal-şərqi Avropa ölkələri arasında ticarət əməliyyatının inkişafına yardım edirdi. Xilafət dövründə ticarətin inkişafında Xəzər dənizi əhəmiyyətli rol oynayırdı. Xəzər hövzəsinin cənub hissəsində ticarətə Bağdad, Buxara və Səmərqənd bazarlarının yaxınlığı böyük təkan verirdi, çünki bunların inkişaf etmiş sənətkarlıq mərkəzi olan çoxlu Asiya ölkələri ilə geniş əlaqələri var idi. Xəzər sahilindəki limanlarda (Abaskun və Astrabaddan Dərbəndədək) fəal ticarət dənizçiliyi inkişaf edirdi. Məsələn, Astrabaddan ipək parça ixrac edilir, Dərbənd bazarları isə, demək olar, bütün Xəzər sahillərindən mal gətirən tacirlərin toplanış yeri idi. Müxtəlif tayfaların yaşadığı Qafqaz sıldırım və əyri-üyrü cığırları ticarət yolu salmaq üçün heç də münasib deyildi. Azərbaycan tacirləri, habelə, bu ölkədən keçən ərəb tacirləri Volqa ilə yuxarı qalxaraq, şimala doğru bulqarlara tərəf gedirdilər. Bu tacirlər orada öz mallarının 1/10 dəyəri hesabilə gömrük verir və yaxşı sövdə edirdilər, çünki islam

dinini qəbul edən bulqarlar ticarət işlərinə mane olmurdular. Bulqar və burtaslardan Azərbaycan, Arran və bütün Xilafət bazarlarına samur, dələ və tülkü xəzi xəz papaq, ox, balıq yapışqanı, qılınc, zirehli geyim, slavyan qullar mis, mum və s.gəlirdi. Ərəblər bizanslıların Qara dənizdən keçən əsas ticarət yollarını pozaraq, bu yolları şərqə, Xəzərə tərəf keçirmişdilər; bu isə Xəzər ətrafındakı şəhərlərin coşqun inkişafına səbəb olnıuşdu. Ərəblər Xəzər dənizi - Volqa ticarət yolunu nəzarət altına almağa başladılar. Ərəblərin hərbi siyasəti də böyük cənub-şimal ticarət yolunun cinahını qorumağa yönəldilmişdi, ərəblər şimalda Tiflisdən Dərbəndədək geniş ərazini öz əllərində tutduqlarına görə onların bu siyasəti müvəffəqiyyətli idi. Xəzər dənizində bütün limanlar ərəblərin əlində idi və ibn Havqəlin dediyinə görə bu limanlara "tez-tez bir limandan başqasına gedən tacir gəmiləri gəlirdi".

Mənbələrin yazdığına görə, Azərbaycan ərazisində dövlət tərəfindən gömrük vergiləri rəsmi olaraq IX əsrin əvvəllərindən müəyyən edilməyə başlamışdır. Bəlkə IX əsrdən qabaq da bu vergilər mövcud olmuşdur, lakin bu barədə olan məlumatlar Ərəb xilafəti dövründə yandırıldığı üçün, bu barədə ancaq mülahizə yürütmək olar. Çünki artıq iri şəhərlərdə - Ərdəbil, Muğan, Naxçıvan, Bərdə, Beyləqan, Qəbələ, Şəki, Şəmkir, Dərbənd (Bab-əl-Əbvab), Şabran, Şamaxı və digərlərində ticarət məhəllələri (o zamanlar "ravad" adlanırdı) yaranmışdı. Xarici ölkələrdən Azərbaycana müxtəlif parçalar, metal məmulatları, ətriyyatlar, ədvalar, xəzlər və s. gətirilir, ölkədən isə xam ipək, ipək parçalar, pambıq, xalçalar, boyalar, neft, mal-qara, atlar və s. ixrac edilirdi.

Ticarətə qoyulan gömrük vergi və rüsumları ölkə xəzinəsinin mühüm gəlir mənbəyinə çevrilmişdi. XI-XII əsrlərdə karvan və ticarət yollarının bir-biri ilə və xarici ölkələrlə birləşdiyi Azərbaycan şəhərlərindən daxili və xarici bazarlara neft, pambıq, ipək, duz, meyvə, balıq, boyaq, ədviyyat və s. göndərilir, Şərq və Qərblə ticarət əlaqələri saxlayırdılar.

Azərbaycanın müstəqil feodal dövlətlərinin gömrük siyasəti

IX-XII əsrlər feodal münasibətlərin dərinləşməsi, təsərrüfat həyatında, sənətkarlığın inkişafında, ticarət əlaqələrinin genişlənməsində böyük tərəqqi dövrü kimi qiymətləndirilir. Tarixin bu dönəmi, urbanizasiya prosesinin sürətlənməsi, islamın hakim dinə çevrilməsi və mənəviyyata dərin təsiri ilə səciyyələnir. İslamın yayılması ölkənin şimal və cənub bölgələrində maddi və mənəvi mədəniyyətindəki fərqləri aradan qaldırmağa, vahid, ümumAzərbaycan mədəniyyətinin formalaşmasına imkan verirdi.

XIII-XVII əsrlərdə isə feodal münasibətlər əvvəlcə durğunluq, sonra tənəzzül keçirir. İqtisadiyyatın, şəhərlərin dirçəlişinə səylər göstərilsə də, feodal cəmiyyətini durğunluqdan çıxarmaq, onun yüksəlişini təmin etmək mümkün olmur. Tədqiq olunan

dövrün sonunda şəhərlərin aqrarlaşması başlanılır, maddi və mənəvi mədəniyyətdə çökmə müşahidə olunur.

Babək xürrəminin rəhbərliyi ilə ərəb ağalığına qarşı azadlıq mübarizəsi xilafətin əsaslarına zərbə endirərək, ərəb imperiyasının parçalanması prosesini sürətləndirdi. IX-X əsrin əvvələrində Xilafətin ucqarlarında müstəqilləşmək meylləri gücləndi. Mərkəzi hakimiyyətdən yarımasılı və ya müstəqil feodal dövlətləri yaranmağa başladı. Bu dövlətlərin başçıları tədricən Xilafətin xəzinəsinə göndərilən vergilərin məbləğini azaldır, onu ödəməkdən imtina edir və beləliklə də müstəqillik əldə edərək, xilafətin yalnız dini rəhbərliyini qəbul edirlər . Belə yerli feodal dövlətlərindən ölkənin şimal rayonlarını əhatə edən Şirvanşahları (861-1538), Cənubi Azərbaycanda Saciləri, Salariləri, Rəvvadiləri göstərmək olar. Arran və bəzi Cənubi Azərbaycan torpaqlarını əhatə edən Şəddadilər dövləti də bu qəbildəndir. Bu dövlətlər xalqımızın orta çağ tarixində mühüm rol oynamışdır. Bunlardan əlavə, bir neçə kiçik feodal dövlət qurumları da yaranmışdır. Lakin onlar çox uzunömürlü olmayıb, siyasi vəziyyətindən asılı olaraq tarix səhnəsindən çıxmış və yaxud qonşu güclü dövlətlərin tərkibinə qatılmışdır. Sacilər dövlətinin, qısa müddət də olsa, bütün Azərbaycan topaqlarının öz sərhədləri daxilində birləşməsi mütərəqqi hal idi.

XI əsrin II yarısında Cənubi Azərbaycan və Arran Böyük Səlcuqlar dövlətinə daxil edilir. Şirvanşahlar səlcuqlu sultanlarından vassal asılılığını qəbul etməklə öz dövlətini qoruyub saxlayır. Bu dövrdə Azərbaycan ərzisində cərəyan edən etno-mədəni proseslərin nəticəsində türkdilli Azərbaycan xalqının formalaşması prosesi sona çatır.

Böyük Səlcuqlar imperiyasında feodallar arasında çəkişmələrin gücləndiyi, sabitliyin pozulduğu şəraitdə, XII əsrin birinci yarasında Arranda Azərbaycan Atabəyləri dövləti yüksəlir. Tədricən, Marağa istisna olmaqla, Cənubi Azərbaycan torpaqlarını da öz tərkibinə birləşdirir. Həmin dövrdə Şirvanşahlar müstəqilləşir və dövlətin nüfuzu artır. Azərbaycan torpaqlarını birləşdirmək uğrunda Şirvanşahların və Azərbaycan Atabəylərinin apardıqları mübarizə də faydalı idi. Azərbaycan Atabəylərinə hətta İraq Səlcuq sultanlığının idarəçiliyini nəzarət altına almaq müyəssər olmuşdu. Azərbaycan Atabəylərinin paytaxtı Gəncə, Naxçıvan, Təbriz şəhərləri, Şirvanşahların paytaxtı isə Şamaxı və Bakı şəhərləri idi.

IX-X əsrlərdən başlayaraq Azərbaycan dövlətlərinin qonşu ölkələrlə əlaqələri daha da genişlənir. Ölkədə mənəvi mədəniyyət yüksəlir və XII əsrdə özünün zirvə səviyyəsinə çatır. Ölkədə islam dini getdikcə kök salmağa başlayır, bəzi dağlıq rayonlarında –Şəki-Zaqatala və Dağlıq Qarabağ bölgələrində xristianlıq hələ qalmaqda idi.

Bütün bu sosial-iqtisadi, siyasi, mədəni və dini amillər Azərbaycan təsərrüfat həyatının ümumi yüksəlişini təmin edirdi. Məhsuldar qüvvələrin inkişafı sürətlənir,

əkin sahələri genişlənir, oturaq maldarlıq təsərrüfat həyatında özünə möhkəm yer tuturdu. Kənd təsərrüfatı ilə yanaşı sənət istehsalı, xüsusilə şəhər sənətkarlığı durmadan artır və XII yüzildə özünün yüksək inkişaf səviyyəsinə çatır. Ölkədə yaşayış məskənlərinin sayı çoxalır, şəhərlərin daxili və xarici quruluşunda dəyişikliklər yaranır, ticarətin inkişafı ölkədə yeni yol salınması, karvansara və körpü tikintisi işini gücləndirirdi. İslamın möhkəmlənməsi ilə Azərbaycan mədəniyyətində ümummüsəlman ənənələri özünü qabarıq büruzə verir, xüsusilə maddi mədəniyyətdə köklü dəyişikliklər yaranırdı. Müsəlman mədəniyyəti üçün səciyyəvi olan memarlıq tipləri, əhalinin məişətində müəyyən dəyişikliklər baş verirdi.

XIII əsr mənbələri düzən və dağətəyi ərazilərdə yerləşən şəhərlər üçün əmtəə malları kimi ipək, pambıq, kətan, düyü, taxıl, üzüm, fındıq, nar, əncir, lobya və s., dağlıq ərazilərdə yerləşən şəhərlər üçün isə (Dərbənd, Qəbələ və s.), kətan, xəz, dəri, alma, zəfəran və başqa kənd təsərrüfatı məhsullarının adını çəkirlərXIII əsrin əvvəllərinə aid bir mənbə "Beyləqanda çoxlu miqdarda bazarların olması" haqqında xəbər verir. Şəhərlərdə ticarətin geniş yayılmasını arxeoloji qazıntılardan tapılan ticarət əşyaları - tərəzi qolları, tərəzi gözləri, daş və metaldan olan çəki daşları və s. təsdiq edir

Karvan yolları üstündə karvansaralar - dayanacaqlar inşa edilirdi. Belə dayanacaqlarda tacirlər istirahət edir və quldurlardan mühafizə olunurdular. Bu tip tikilinin xarabalıqları Araz çayı sahilində, Naxçıvan MR-da tədqiq edilmişdir
Şəhərlərin özlərində də karvansaralar var idi. Burada başqa yerlərdən gələn tacirlər üçün hər cür şərait yaradılırdı. Şəhərlərarası ticarət şəhərlərin və onların iqtisadi rayonlarının həmin yerlərdə olmayan mallara tələbatını ödəyirdi. Məsələn, Bakı şəhəri bütün Azərbaycanı və qonşu Cənubi Qafqaz ölkələrini neft ilə təchiz edirdi. Həmin ərazidə tapılan qara çıraqlar bunu arxeoloji cəhətdən təsdiqləyir. Şabran şəhəri qonşu şəhərlərin zərgərlərini özünün məşhur məhəkdaşı ilə təmin edirdi. Bu daşla qızılın əyarı müəyyənləşdirilirdi. Bərdə başqa şəhərlərin toxucularını özünün mənbələrdə "qırmız" adlanan boyağı ilə təchiz edirdi və s.

IX-XII əsrlərdə Azərbaycanın əsas karvan ticarət yolları dörd istiqamətə yönəlmişdi: 1. Azərbaycanı əl-Cəzirə, Suriya və İraq ilə birləşdirən və sonuncunun vasitəsilə Hind okeanı vilayətlərinə istiqamətlənən marşrut; 2. Kiçik Asiya şəhərlərinə gedən karvan yolları; 3. Şimal-Şərqi və Cənub-Şərqi Avropaya istiqamətlənmiş yollar; 4. İran, Orta Asiya, Hindistan və Çinə gedən yollar . I qrupa daxil olan karvan yollarında Azərbaycanın cənub rayonları, xüsusilə Ərdəbil və Marağa fəal idi. Bu marşrut üzrə, karvan yolları vasitəsilə Şirvan və Arran şəhərləri müsəlman Şərqinin mühüm ticarət mərkəzləri - Bağdad və Qahirə ilə əlaqə saxlayırdılar. Ərdəbil-Bəlxab-Varsan-Beyləqan-Yunan-Bərdə yolu Arranın mərkəzi rayonlarını cənub şəhərləri ilə birləşdirirdi. Qərbə istiqamətlənmiş beynəlxalq ticarət yolları Dəbil və Tiflisdən

keçməklə iki qrupa ayrılır. Bərdə-Dəbil istiqamətində olan beynəlxalq ticarət yolu Azərbaycan şəhərlərini Kiçik Asiya ticarət mərkəzləri ilə əlaqələndirirdi. Bərdə-Gəncə-Şəmkir-Xunan-Tiflis karvan yolu üzrə ilə isə Azərbaycan şəhərləri Trabzon və Qara dəniz limanları ilə əlaqə saxlayırdılar . Xilafətin şimal ticarətində Volqa-Xəzər beynəlxalq ticarət yoluna üstünlük verməsi ilə Şimal-Şərqi və Cənub-Şərqi Avropaya istiqamətlənmiş şimal marşrutunun əhəmiyyəti daha da artmışdı. Bu marşrutda Bərdə, Şamaxı və Dərbənd şəhərləri başlıca məntəqələr idi. Xüsusilə Dərbənd vasitəçi mərkəz kimi "şimal və şərq" mallarının cəmləşdiyi anbar rolunu ifadə edirdi. Şimal marşrutunda Dərbəndin birbaşa su yolları Volqa-Xəzər marşrutunun fəallığını təsdiqləyir. IX-XI əsrlərdə Aralıq dənizi ölkələrilə ticarətdə Misir, Hind okeanı ölkələrilə ticarətdə İraq mühüm rol oynadığı kimi, Xəzər dənizi ölkələrilə aparılan ticarətdə də Azərbaycan, o cümlədən onun Dərbənd və Bakı kimi limanları böyük əhəmiyyətə malik idi.

Səfəvilərin həyata keçirtdikləri gömrük siyasəti

Azərbaycanda Səfəvilərin hakimiyyəti bərqərar olarkən, yəni XVI əsrin əvvəlində ölkə dərin iqtisadi tənəzzül vəziyyətində idi. İqtisadi həyatı normal hala salmaq və dövlət xəzinəsinə vəsait axınını artırmaq məqsədilə, Səfəvilər ilk vaxtlar, hətta kəndlilərin vəziyyətini müəyyən qədər yüngülləşdirməyə məcbur oldular. I Şah İsmayılın dövründə, XVI əsrin birinci onilliklərində daxili feodal müharibələrinin azalması da kənd təsərüffatının dirçəlməsinə təkan verdi.

XVI əsrdə Azərbaycan əhalisinin əsas məşğuliyyəti, əvvəllərdə olduğu kimi, əkinçilik idi. XVI əsrdə Azərbaycanın kənd əhalisinin sayı, ölkənin müxtəlif vilayətlərindən dövlət xəzinəsinə vergilərdən daxil olan pulların məbləği haqqında heç bir məlumat yoxdur. Bütövlükdə Azərbaycan kəndlərində natural təsərüfatın hökm sürdüyü şübhəsizdir. Lakin Təbriz, Şamaxı, Bakı, Gəncə, Ərdəbil, Naxçıvan, Marağa və s. kimi şəhərlərin ətraf kəndləri əmtəə təsərüfatı obyektləri idilər. Ölkənin xarici bazara xam ipək göndərən kənd mahallarına bu xüsusilə aid edilə bilər. Böyük ticarət – sənətkarlıq şəhərlərinin tərəqqi etməsi, bu şəhərlərin bazarlarını öz məhsulu ilə təchiz edən şəhər ətrafı kəndlərdə taxıl, bağçılıq və bostançılıq təsərüfatının inkişafına müsbət təsir göstərir.

XVI əsrdə əsas ticarət obyekti Azərbaycan ipəyi idi. Məhz əsas etibarilə xaricə göndərilən ipəyə görə, Səfəvilər dövlətinin ərazisində onun ixracını inhisara almaq uğrunda ingilis, venetsiyalı, türk və rus tacirləri arasında mübarizə gedirdi. Azərbaycan dünya bazarını xamna ilə təchiz edən başlıca tədarükçülərdən biri idi.

Səfəvi şahları xarici ticarətə və tacirlərə əzəldən hamilik edirdilər.

XVI əsrdə Azərbaycan Avropa və Asiyanın bir çox ölkələri ilə geniş əlaqələr saxlayırdı. Moskva dövləti ilə Səfəvilər dövləti arasında qızğın ticarət XVI əsrin ikinci yarısından (IV İvanın dövründə Şərq ticarətində Moskva dövlətinə mane olan

Kazan və Həştərxan xanlıqları Moskva dövlətinə birləşdirildikdən sonra) aparılmağa başlandı. Volqa və Xəzər dənizi yolunun işə salınması ilə eyni vaxtda Azərbaycan Qərbi Avropa dövlətlərini də (İngiltərəni, İsveçi, alman dövlətlərini) maraqlandırmağa başladı. Əgər Moskva knyazlığı öz tacirlərinin mənafeyini müdafiə edərək, sonralar tranzit ticarəti yolunda bir sıra maneələr qoymasaydı, bu ölkələr üçün Moskva dövləti vasitəsilə Asiya ilə ticarət böyük mənfəətlər gətirə bilərdi. Buna görə də, Volqa-Xəzər ticarət yolu əməli olaraq, əsasən, Moskva dövlətinin Azərbaycan və İranla ticarətinə xidmət edirdi. XVI əsrdə rusların ölkədən ixrac etdikləri başlıca mal Şamaxıda, Ərəşdə, Təbrizdə və digər şəhərlərdə istehsal edilən xamna və ipək məmulatları idi.

Rus- Azərbaycan ticarətinin əsas hissəsi Şamaxı və Bakı vasitəsilə həyata keçirilirdi. Məsələn, Şamaxıdakı Moskva tacirlərinin nümayəndəliyi öz sənətkarlıq məmulatı ilə qızğın ticarət edir, buradan isə ipək alırdı. Şəhər bazarlarında, Orta Asiyadan, Türkiyədən, Hindistandan və digər ölkələrdən gətirilmiş mallar da var idi. Azərbaycandan Moskva knyazlığına ipəkdən əlavə Bakı nefti də ixrac edilirdi. İpək və neft Moskva tərəfindən Qərbi Avropa ölkəıərinə satılırdı. Gilan tacirləri Bakı neftini Manqışlaq dayanacağına çatdırırdılar. Oradan isə neft karvan yolu ilə Xivə və Buxaraya, həmçinin də Orta Asiyanın digər şəhərlərinə göndərilirdi. Moskva ilə ticarətdə rusların Təbrizdə, Şamaxıda, Bakıda əldə etdikləri bəqqaliyyə malları, o cümlədən ədviyyat az yer tutmurdu. Moskva dövlətindən Azərbaycana xəz dəri (samur, sincab, qaraqonur tülkü, dələ, şimal tülküsü, safsar), silah əşyaları (dəbilqə, dəmir geyim, zireh, qismən odlu silah), həmçinin metal məmulatları (baltalar, bıçaqlar və i.a.) daxil edilirdi. Moskva yolu ilə Azərbaycana habelə mahud, qarazəy, məxmər, şüşə, kağız və s. kimi Avropa malları da gətirilirdi.

Səfəvilərin dövründə vergi yığımları üçün xüsusi orqanlar fəaliyyət göstərirdi. V.F.Minorski qeydlərində göstərir ki, zabitanəvis və ya müfradənəvislər adlandırılan çəxslər vergi yığımı ilə məşğul idilər. Texniki anlamı "vergiləri yığan" deməkdir. Avaraca idarəsindən fərqli olaraq mustoufiyi-malın ştatında olan mirzələr divana daxil olan pul məbləğlərini (vücuhat) qeydə alırdılar. "Təzkirətəl-mülük"ə əsasən, zabitanəvis darəsinə yığılmalı olan məbləğlər – yol vergiləri (vücuh-i rahdari), tütün ticarəti üçün vergilər, çobanbəyi (mal-qara üçün vergi) və s. idi. I Şah Təhmasib hakimiyyəti dövründə əhalinin sosial vəziyyəti ilə əlaqədar islahahatlar aparmış və fermanı ilə dəftərxanalarda hesablanan bütün məsvəflər (ixracat-i hükmi) ləğv etmışdı. O, hər il təxminən 80 min tümənə çatan vilayətlər üzrə tamğanı onlara güzəşt etdi, rəiyyətdən 10-20 illik vergini almaqdan imtina etdi.

Səfəvilər dövləti XVII –XVIII əsr məlumatlarına görə gömrük siyasəti dövlətin xəzinəsini doldurmağa xidmət edirdi . Beləki , mənbələrin göstəricilərinə görə Rəştdən Təbrizə Ərdəbil vasitəsi ilə mal aparan tacir Rəştdə, Laşemadanda, Kesmədə və Kəskərədə rahdari verməli idi. Parçadan ibarət qatır və at yükündək 40

qəpik, eşşək yükündən 20 qəpik, çəkilməli olan at və qatır yükündən 20 qəpik, eşşək yükündən isə 10 qəpik gömrük alınırdı . Bəndlər məntəqəsində parçadan ibarət qatır va at yükündən 30 və ya 40 qəpik, eşşək yükündən 15-20 qəpik, çəkilməli mallardan ibarət olan at və qatır yükündən 20, qəpik, eşşək yükündən isə 10 qəpik gömrük alınırdı.Ərdəbil şəhərində parçadan ibarət olan at və qatır yükündən 40 qəpik, eşşək yükündən 20 qəpik, çəkilən mallardan ibarət olan at və qatır yükündən 15 qəpik, eşşək yükündən isə 10 qəpik həcmində rahdari alınırdı. Keçid məntəqəsi olub, lakin ticarət əhəmiyyəti olmayan yerlərdə rahdari gömrüyü ticarət daha qızğın gedən şəhərlərə nisbətən az alınırdı. Misal üçün, Saruf keçid məntəqəsi ilə Təbrizi götürək. Sarufda parçadan ibarət at və qatır yükünə görə 20 qəpik, eşşək yükünə görə 10 qəpik, çəkilməli at və qatır yükünə görə 10 qəpik, eşşək yükünə görə 5 qəpik gömrük alındığı halda, Təbriz şəhərlərində müvafiq olaraq həmin mallardan 1 manat, 1 manat 20 qəpik və 50-60 qəpik rahdari alınırdı. Bundan əlavə, tacir Təbriz bazarında hər 10 manata 30 qəpik mizan haqqı da verməli idi. Rəştdən Təbrizə gedən başqa yollarda da bu qayda ilə gömrük alınırdı.

Rahdari gömrüyünün ağırlığı və həmçinin ölkədə baş verən bir çox siyasi çaxnaşmalar ticarətin gedişinə mane olurdu. Eyni zamanda ticarət yollarında baş verən qarətçilik halları XVIII əsrin əvvəllərində cox müşahidə edilmişdi. Bu da Səfəvilər dövlətinə gələn tacirləri narazı salirdı və iqtisadi cəhətdən zəifləməsini surətləndirirdi.

Rahdari gömrüyü

Rahdari XVI əsrdən tətbiq olunan gömrük rüsumudur. Rahdari sözü fars sözü olub (rah və -dardan rah-dar) “keçid gözətçisi, qolçu” deməkdir.

XVI- XVII əsrlərdə şəhərlərə satmaq üçün gətirilən mallardan həm şəhərə daxil olmaq və həmçinin də bazar meydanında satmaq üçün ayrıca gömrük alınırdı. Birinci rahdari, ikinci isə mizan (ölçü - çəki) gömrüyü adlandırılırdı. Rahdari gömrüyünü təkcə şəhərə daxil olanda deyil, bir şəhərdən başqasına gedəndə də vermək lazım gəlirdi. Əks təqdirdə rahdarlar (torpaqbasdı vergisini toplayanlar) taciri yolunu davam etməyə qoymurdular. Mizan puluna gəlincə isə, bazara gətirilən hər hansı bir mal tərəzidə çəkilir, sonra isə malın keyfiyyət və ağırlığına görə mal sahibindən pul alınırdı.

Səfəvi dövründə gətirilən eyni mala görə bir neçə dəfə gömrük haqqı ödənilməsi ilə bağlı göstərilir ki, XVII əsrin 30-cu illərində nəinki sərhəddə, ölkənin daxilində də, vacib ticarət şəhərlərində, keçid və körpülərin mövcud olduğu bir çox yerlərdə həm yerli əhali, həm də əcnəbilər müəyyən miqdar rüsum ödəməli idilər.

Gömrük məmurları tərəfindən gətirilən malların yoxlanılması şəhər darvazaları yaxınlığında və ya karvansaraylarda təşkil olunurdu. Müxtəlif mənbələr Səfəvi dövləti ərazisində gömrük məntəqələrinin çox sayda olması barədə məlumat verirlər.

Məsələn, Naxçıvandan Ərdəbilədək dörd gömrük məntəqəsi keçilirdi. Səfəvi dövləti ərazisində ən böyük gömrük məntəqələri Bəndər Abbasda və Mərənddə idi.

XVII əsrin sonunda rahdari vergisi artır. XVII-XVIII əsrlərin hüdudlarında ticari-gömrük yığımlarının 2-3 dəfə artma tendensiyası həm Səfəvi, həm də qonşu dövlətlərin tranzit yolları üçün səciyyəvi idi. Bu, əlbəttə ki, Səfəvi dövlətinin feodal iqtisadiyyatının ümumi tənəzzülü ilə əlaqədar şah xəzinəsinin gəlirlərinin azalmasından irəli gəlirdi. Xəzinə feodal əyanlarının yüksək təbəqəsinin gəlirlərinin azalmasını kompensasiya etmək məqsədilə şah hökuməti kəndlərdə və şəhərlərdə vergi yükünü də artırır. Bu da azmış kimi, yerli hakimlər və gömrük məmurları müəyyən edilmiş gömrük haqqını artıqlaması ilə toplayaraq, qarətçilərdən az fərqlənirdilər .

Beləliklə, XVII əsrin sonu XVIII əsrin əvvəlləri Səfəvi dövlətinin gömrük siyasəti belə ümumiləşdirilə bilər:

1) gömrük məntəqələrinin sayı artırılır;
2) rahdarların miqdarı çoxaldılır;
3) gömrük məntəqələrində tam nəzarətsizlik hökm sürür.

Gömrük haqqı yığımının faktiki kəmiyyəti fiksə edilmiş rəsmi gömrük tarifini xeyli üstələyirdi . Bəndər-Abbas gömrüyündə XVII əsrin sonunda gömrük rüsumu malın ümumi qiymətinin 14-16% həcmində hesablanırdı ki, bu da çox böyük göstərici idi .

Onsuz da feodalların həm kənddə və həm də şəhərdə hökmranlığı cəmiyyətdə kəskin şəkildə ifadə olunmuş təbəqələşmə və təbəqə imtiyazlarının mövcud olmaması, şəhər özünüidarəçiliyinin, şəhərlərin sosial-hüquqi statusunun olmaması və bir sıra digər amillər ona gətirib çıxardı ki, müsəlman şərqində orta əsrlərdə tacirlər xüsusi təbəqəyə çevrilmədilər. Səfəvilərin hakimiyyəti dövründə ticarət kapitalının feodal münasibətləri sistemi ilə əlaqəsi nəinki möhkəmlənir, hətta daha yüksək inkişaf pilləsinə qalxır .

Ticarət-gömrük yığımlarının dəfələrlə artması isə ticarətin iqtisadi stimulunu laxladırdı. Ticarətin bəzi sahələri, xüsusilə xarici ticarət az gəlirli və ya tam gəlirsiz olmağa başlayır ki, bu da iri tacirlərin əksəriyyətinin müflisləşməsinə və xırda tacirlərin bir təbəqə kimi silinməsinə gətirib çıxarırdı. XVII əsrin sonunda bütün Səfəvi dövlətində başlamış iqtisadi tənəzzül XVIII əsrin birinci yarısında ölkənin təsərrüfat həyatının bütün sahələrinə olduğu kimi öz mənfi təsirini ticarətə də göstərirdi.

XVI – XVIII əsrin ikinci yarısında Azərbaycan xanlıqlarının gömrük siyasəti

XVIII əsrdə Azərbaycan ərazisində müxtəlif xanlıqlar mövcud olduğundan bütün Azərbaycan əraisində vahid gömrük rüsumlarının tətbiq edilməsi mümkün deyildi. Hər bir xanlığı idarə edən xanın şəxsi maraqlarından , baş verən siyasi

hadisələrdən , bağlanan ticari müqvilələrdən asılı olaraq gömrük rüsumları tətbiq edilə bilərdi. Hər hansı konkret bir xanlığın ərazisində belə tətbiq edilən gömrük rüsumları tez-tez dəyişirdi.

Ayrı –ayrı xanlıqlarda ticarət bütün maneələrə baxmayaraq inkişaf edirdi. Əlverişli təbii limanda yerləşən Bakı şəhərinin ticarət sahəsindəki fəaliyyəti daha geniş idi. Buraya Rusiyadan, Mazandarandan, Gilandan, Azərbaycanın cənubundan çoxlu tacir gəlirdi. Çünki Bakıdan İran körfəzinədək rahat və təhlükəsiz yol vardı. İran körfəzindən karvan yolu ilə Bakıya gətirilən mallar Gürcüstana, oradan isə Qara dəniz vasitəsilə Qərbi Avropa ölkələrinə aparılırdı. Bakının coğrafı şəraiti yerli əhalini ticarətlə məşğul olmağa cəlb edirdi. Şəhərin varlı tacirləri, uzaq məsafələri qət etmək üçün gəmilər olmadığından, çox vaxt rus tacirlərinin gəmilərini iltizama yə yaxud icarəyə götürüb Xəzər dənizində mallarını Rusiyaya və İrana daşıtdırırdılar. Bakının ticarət məhsullarını əsasən neft, zəfəran və duz təşkil edirdi. Karvan ticarətində mühüm əhəmiyyət daşıyan şəhərlərdən biri də Təbriz idi.Yaxın Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da bazar şəhərin ən gur və qızğın yeri idi. Şəhər bazarlarında ticarət əsasən iki növdə gedirdi: topdansatış və pərakəndə satış. Pərakəndə satış bazar meydanında təsadüfı alıcı ilə tacir arasında aparılırdı. Topdansatış ticarət həm nağd, həm də hüquqi sənədlər əsasında gedirdi. Belə hallarda satıcı ilə alıcı arasında bir növ müqavilə bağlanılırdı.Müqavilələrdə hər iki tərəfın imza və ya barmaq yerlərindən əlavə, mütləq şahidlərində imzası olmalı idi. Hər hansı bir ev və ya dükan fərdi şəxslər tərəfindən kirayəyəverildiyi zaman da belə müqavilələr bağlanılırdı.

Azərbaycan şəhərlərinin hamısında ticarətin bütün növləri üzərində böyük gömrük qoyulmuşdu. Feodal malikanəsinin, demək olar ki, hər bir guşəsində - qala qapısından tutmuş, çayların keçidlərinə, hətta dini ocaqlara gedən yollaradək xanın rahdar və bacdarları durur, gəlib-gedənlərdən yolxərci alırdılar. Rahdar və bacdarların vəzifəsi, demək olar ki, eyni idi, hər ikisi gömrük toplayırdı. Lakin bununla belə, onların fəaliyyətində müəyyən fərq vardı:bacdarlar gəlmə tacir və səyyahlardan, bir növ, torpaqbasdı gömrüyü alır, rahdarlar isə həmin vergini xanlığın daxilində toplayırdılar.

Rahdari gömrüyü xanın ən böyük gəlirlərindən idi. Bu gömrüyün miqdarı, hər şeydən əvvəl, aparıb-gətirilən malın keyfıyyət və kəmiyyətindən asılı idi. Bu gömrük eyni zamanda ticarətin normal gedişinə böyük zərbə endirirdi. Çünki bütün keçid yollarını xanın silahlı dəstələri kəsmişdilər. Rahdari vermədən xanlığın daxilində bir yerdən başqa yerə getməyə heç kəsin ixtiyarı yox idi. XVIII əsrin ikinci yarısında ticarətin elə bir sahəsi yox idi ki, vergi ilə əhatə olunmasın. Vergilərin sayı və miqdarı o qədər çox idi ki, xanın vergi toplayanları vəzifələrinin öhdəsindən gələ bilmirdilər. Məhz buna görə də çox vaxt vergitoplamaq hüququnu iltizama verirdilər.

Ticarətin zəif inkişaf etməsinə baxmayaraq, Naxçıvan və İrəvan xanları xəzinəni əsasən ticarətdən yığılan vergilər hesabına doldururdular. Ona görə də xanlar ticarət vergilərinin toplanmasına ciddi fikir verir, bu məsuliyyətli işi ən yaxın adamlarına etibar edirdilər. Naxçıvan xanlığının ticarətində ən çox gəlir rahdari gömrüyündən əldə edilirdi. Demək olar ki, bazara gətirilən bütün mal və məhsullardan – növündən, sayından və cinsindən asılı olmayaraq rahdari gömrüyü alınırdı.

Xanlardan "vəzifəni" almış icarədarın bazara gətirilən bütün mallardan gömrük toplamaq hüququ olurdu. Məsələn, at və dəvə ilə gətirilmiş hər ipək, boyaq, sap və pambıq yükü üçün sahibkar icarədara 4 manat 20 qəpik və ya 2 manat 50 qəpik verməli idi.

Şəkər, dəmir məlumatı, həna, yağ, bal, tütün, mal piyi və s. satan tacir 2 manat 12 qəpik rahdari gömrüyü verməli idi. Boyaqçılara vacib olan qırmızı (marena) boyaq bitkisi, həmçinin İrandan gətirilmişmüxtəlif məhsullar üçün tacirdən 1 manat 60 qəpik miqdarında rahdari alınırdı. Xurma və saxsı qablar üçün də satıcı 25 qəpik gömrük verməli idi.

Məhsulun satılıb – satılmamasından asılı olmayaraq, satıcı geri qayıdarkən yuxarıda göstərildiyi kimi, rahdari gömrüyünü verməli idi. İrandan gətirilən toxunma parçalara görə 2 manat 40 qəpik həcmində gömrük alınırdı. Naxçıvan xanlığından aparılan üzüm, nar, noxud və düyü üçün gümüş pulla 62 qəpik, bu məhsulların şəhər bazarına gətirilməsi üçün isə daha artıq gömrük alınırdı.

Naxçıvanda malı mizan – tərəzidə çəkib vergi almaq hüququ da icarəyə verilirdi. Bu hüquq üçün mizandar dövlət xəzinəsinə 100 tümən verməli idi. Mizandar bir batman pambığı, balı, yağı, ipəyi, tütünü, boyağı və digər məhsulları mizan – tərəzidə çəkdiyinə görə gümüş pulla 16 qəpik alırdı. Bu vergi şəhərə satış üçün məhsul gətirən bütün tacirlərdən məcburi alınırdı. Əks təqdirdə onun öz malını satmağa ixtiyarı yox idi. Meyvə və quru meyvə satmaq hüququ olan şəxslər xəzinəyə ildə müəyyən məbləğ verməli idilər. Bazara gətirilmiş yemiş və qarpızdan başqa, digər təzə və quru meyvələrin hər yükü üçün icarədara 12 qəpik gümüş pul, həmkinin satdığı maldan "pay" verməli idi. Bu vergi yalnız şəhərə məhsul gətirənlərdən toplanırdı. Bazarda həmin meyvəni alıb istədikləri qiymətə satanlardan isə heç bir vergi alınmırdı.

Çörək və dənli bitkilər satmaq hüququ da 50 tümən həcmində icarəyə verilirdi. Bu hüququ almış şəxs – icarədar satılan hər btman buğda, arpa, darı üçün gümüş pulla 2 qəpik, düyüyə görə isə 4 qəpik gömrük alırdı.

Çörək və dənli bitkilər satmaq hüququ da 50 tümən həcmində icarəyə verilirdi. Bu hüququ almış şəxs – icarədar satılan hər batman buğda, arpa, darı üçün gümüş pulla 2 qəpik, düyüyə görə isə 4 qəpik gömrük alırdı.

Sabun satışından gömrük toplamaq hüququnu almış icarədar xəzinəyə hər il 60 tümən verməli idi. O, xanlıqda sabunun bişirilməsi və satılması üzərində nəzarət edir və haqqını alırdı. Naxçıvan yaxınlığında icarədarın icazəsi olmadan heç kəs sabunu nə bişirə, nə də sata bilərdi. Başqa xanlıqda sabun istehsal edənlər Naxçıvanda öz mallarını yalnız icarədara sata bilərdilər.

Tütün satışından gömrük toplamaq hüququ da ildə 15 tümənə icarəyə verilirdi. Şəhərdə yalnız icarədarın tütün satmağa ixtiyarı var idi. Ancaq xanlıqdan kənara tütün aparmaq qadağan edilmirdi və bunun üçün də vergi-gömrük alınmırdı.

Araz çayının üstündəki körüpüdən keçən yükə görə bu qaydada gömrük alınırdı. Hər at üçün (yüklü-yüksüz) 8 qəpik, hər qaramal üçün 8 qəpik, hər ailəyə görə 50 qəpik, dəfn olunmaq məqsədilə Xorasana aparılan müsəlman cənazəsi üçün 50 qəpik idi.

Dərbənd, Quba, Salyan sənətkarlıq və ticarət mərkəzləri idilər. Şəhər və mahal bazarlarında müxtəlif sövdələşmələr bağlanılırdı. Quba xanlığında (Salyanda) bir pud balıq üçün nərə balığından və ağ balıqdan 5 qəğik, uzunburun balıqdan 21-22 qəpik, qızıl balıqdan 25 qəpik, şamayının 3 pudundan 5 qəpik gömrük rüsumu alınırdı.

Ayrı-ayrı xanlıqlardan ibarət Azərbaycanda vahid pul sisteminin olmamışdı. Demək olar ki, bütün böyük şəhərlərdə-xüsusilə Şamaxı,Gəncə, Bakı, Şəki, Dərbənd, Şuşa (Pənahabadın) və digər xanlıq mərkəzlərində, hər xanın xüsusi mis və gümüş pulu zərb olunurdu. Xanlıqlar dövründə zərb olunan pullann sabit qiyməti yox idi. Ölkənin daxili vəziyyətindən asılı olaraq, yerli hakimlər pul vahidlərinin qiymətini artıra, yaxud aşağı sala bilərdilər. Belə bir vəziyyətin mövcud olması şəhərlərdə pul dövriyyəsinə, eyni zamanda ticarətin normal şəkildə aparılmasına ciddi maneə törədirdi. Azərbaycan şəhərlərindəki pul vahidləri əsasən İranda işlənilən pul terminlərinə uyğun gəlirdi: abbası, tümən, qran, ahıvə s.

XVIII əsrin ikinci yarısında Azərbaycan xanlıqlarında pul sistemi kimi çəki və ölçü vahidləri də müxtəlif idi. Demək olar ki, hər bir xanlığın özünəməxsus uzunluq ölçüsü və çəki daşları vardı. Bu isə xüsusilə gəlmə tacirlərlə yerli əhalinin alverinə ciddi maneçilik törədir, hərc-mərcliyə, narazılığa səbəb olurdu. Alıcı və satıcıların özünəməxsus ölçüsü vardı.

Çar Rusiyasının Azərbaysanda həyata keçirtdiyi gömrük siyasəti

XVIII əsrin sonu XIX əsrin əvvəllərində Rusiya imperiyasının Cənubi Qafqazda daşa fəal siyasət yeritməsi 1801-ci il Şərqi Gürcüstanın Rusiyaya birləşməsi ilə nəticələndi. Rusiyanın niyyəti Azərbaycanı tutmaq idi. 804-cü ildə başlamış Rusiya-İran müharibəsi 1813-cü ilin oktyabr ayının 12-də Qarabağın Gülüstan kəndində sülh müqaviləsinin imzalanması ilə başa çatdı. Gülüstan müqaviləsi Azərbaycanın Rusiya və İran arasında iki yerə bölünməsinin başlanğıcını qoydu. 1828-ci ildə bağlanan "Türkmənçay" myqaviləsindən sonra Azərbaysanın şimal

ərazisi Rusiyanın, cnub ərazisi isə İranın tərkibində qaldı. Azərbaycanı işğal edən Rus imperiyası İran və Türkiyə ilə həmsərhəd olan əraziləri tam nəzarətə götürmək üçün təcili tədbirlər planı hazırladı. Həmin tədbirlər planında Bakı şəhərində gömrükxananın açılması məsələsi də göstərilmişdir.

Bakı şəhərində gömrükxana İmperator 1 Aleksandr tərəfindən Rusiya İmperiyası Senatına 25 yanvar (9 fevral) 1807-ci il traixində təqdim olunmuş "Bakı şəhərində gömrükxananın təsis edilməsi barədə" 22,434 saylı Fərmanı ilə təsis edilmiş və Həştərxan gömrük dairəsinin tərkibinə daxil edilmişdi. Həmin fərmanda gömrükxananın ştatı təsdiq olunmuş, Bakı limanına gətirilən mallardan rüsum tutularkən 1751-ci ildə qəbul olunmuş rüsum dərəcələrindən istifadə olunması haqqında qərar qəbul edilmiş, habelə işçilərin əmək haqqlarının yığılacaq gömrük ödənişləri hesabına həyata keçirilməsi barədə göstəriş verilmişdir.

1809-cu ilin Sentyabr ayında Bakı gömrükxanası "Bakı liman və sərhəd gömrükxanası" adlanırdı . "Gülüstan" (1813) və "Türkmənçay" (1828) müqavilələrindən sonra Azərbaycanda Rusiyanın gömrüklə bağlı qərarları qüvvəyə mindi. Həmin vaxt Rusiya ərazisində 1811-ci ildə qəbul olunmuş gömrük tarifləri qüvvədə idi. Rusiya imperiyasının Maliyyə nazirliyinin 26 fevral 1812-ci il tarixli 2235 saylı qərarında göstərilirdi ki, "həmin ilin Yanvar ayının 1-dən qüvvədə olan Əsasnamənin 31-ci və 32-ci maddələrində göstərilən, qadağan olunmuş malları ölkəyə gətirən tacirlərlə bərabər, onları buraxan gömrük işçiləri də məsuliyyətə cəlb olunacaq". Bu Rusiya imperiyasının gömrük qaçaqmalçılığının qarşısının alınması haqqında qəbul etdiyi ilk sənəd idi. 1813-cü ildə Bakı gömrükxanasında reyestr üzrə aşağıdakı gömrük kitablarında qeydiyyatlar aparılırdı:

1) dəniz ilə gətirilən mallar və tutulan rüsumların yazıldığı kitab;
2) quru yolu ilə gətirilən mallar və tutulan rüsumların yazıldığı kitab;
3) dəniz ilə aparılan mallar və tutulan rüsumların qeydiyyatı kitabı;
4) quru yolu ilə aparılan mallar və tutulan rüsumların qeydiyyat kitabı;
5) dəniz gəmiləri ilə gələn sərnişinlərin qeydiyyat dəftəri;
6) quru yolu ilə gələnlərin qeydiyyatının aparıldığı dəftər və s.

Bakı gömrükxanası "Qafqaz və Zaqafqaziyada gömrük idarəetməsi barədə Əsasnamə"yə görə, 31 iyul 1831-ci il tarixindən Zaqafqaziya gömrük dairəsinin tabeliyinə verilmiş və 1832-ci ildən etibarən "Bakı anbar gömrükxanası" adını almışdır. Bakı gömrükxanası 4 may 1847-ildə Zaqafqaziya Karantin - Gömrük dairəsinin tabeliyində olan Bakı Karantin-Gömrük idarəsinə çevrilir.

Bakı Karantin-Gömrük kontoru 1-ci dərəcəli hesab edilməklə bərabər, 18 ştat (rəis, karantin üzrə direktor-həkim, katib-xəzinadar, 2 rüsum yığan, nəzarətçi, tərcüməçi, gəmi baxıcısı və 10 gömrükxana yoxlayıcısı) ayrılmışdır. Həmin

Əsasnamənin 4-cü paraqrafına görə Naxçıvan sahəsində aşağıdakı gömrük təşkilatları tabe edilmişdir:
1. Naxçıvan Baş Karantin-gömrük Kontoru və Culfa Karantin gömrükxanası;
2. Şərur Karantin-gömrük Zastavası - ikinsi dərəcəli;
3. Ordubad Karantin-gömrük Zastavası - ikinsi dərəcəli;
4. Ayırıcı karantin-gömrük Postları:
Şahtaxtı postu;
Naxçıvn postu;
Ordubad postu;
Aladərə postu;
Bazar postu.
5. Erivan Tranzit Postu.

Əsasnamənin 5-ci paraqrafına görə Bakı Karantin-gömrük Dairəsi iki sahəyə ayrılır:
1. Cəbrayıl - Erivan Quberniyasından İran sərhəddi boyu Astara çayına qədər olan məsafə buraya aid edilir;
2. Bakı - Bakı Quberniyasının Xəzər dənizinin sahili boyu Astara çayından başlayaraq Dağıstan Vilayətinə qədər olan sərhəd məsafəsi buraya aid edilir.
Cəbrayıl sahəsinə aşağıdakı gömrük təşkilatları daxil edilir:
1) Cəbrayıl Karantin-gömrük Kontoru, ikinci dərəcəli;
2) Biləsuvar Karantin-gömrük Zastavası, birinci dərəcəli;
3) Ayırıcı karantin-gömrük Postları:
Dağlıq Bəhramtəpə postu;
Aslandüz postu;
Maralyan postu;
Xudafərin postu.

Bakı sahəsinə aşağıdakı gömrük təşkilatları daxil edilir:
1) Astara Karantin-gömrük Zastavası - birinci dərəcəli;
2) Nizova Karantin-gömrük Zastavası - üçüncü dərəcəli;
3) Karantin-gömrük Zastavası - üçüncü dərəcəli:
Kür deltası zastavası;
Salyan zastavası;
Pereval zastavası;
Lənkəran zastavası.
4) Apşeron Daimi karantin-gömrük Postu;
5) Bakı ayırıcı karantin-gömrük Postu.

Bakı kontorunda isə cəmisi 2 türk (Zeynalabadan Əliyev və Nəsrulla İmam Əliyev) köməkçi vəzifəsində çalışmışdır. Azərbaycan ərazisində olan digər gömrük

təşkilatlarının - işçi heyəti 350 nəfər işçidən cəmisi 8-i türk olmuşdur, tamamilə ruslardan və qismən ermənilərdən ibarət olmuşdur. Hətta 3 gömrük təşkilətının rəisləri belə ermənilər təyin olunmuşdur. Bu siyasət 1970-ci ilə qədər davam etmişdir. İmperiyanın əsas məqsədi yerli peşəkar kadrların yetişməsinin qarşısını almaq olmuşdur .

XX əsrin əvvəllərində, Rusiya dövlətinin gəlirləri içərisində gömrük yığımları spirtli içkilərin ticarətindən əldə olunan gəlirlərdən sonra ikinci yeri tuturdu. Bu dövrdə rusiyada inqilabı hərəkat gücləndiyi üçün gömrük orqanlarının işi ikiqat artmışdır. Bakı inqilab şəhəri olduğu üçün İmperiyanını diqqəti Bakıya yönəlmişdir.

Arxiv sənədlərinə əsasən müəyyənləşdirmək olur ki, təxminən Bakı gömrükxanasından hər ay orta hesabla 700-750 nəfər keçirmiş. Məsələn, 1902-ci ilin Aprel ayı ərzində Bakı gömrükxanasından aşağıdakı ölkələrin vətəndaşları keçib getmişlər: Avstriya-Macarstan -2; Belçika -4; Buxara - 2; Böyük britaniya - 7;Almaniya - 2; Yunanstan - 7; İran - 619; Rusiya - 84; Türkiyə - 5; Fransa - 12; İsveçrə - 1. Bakı gömrükxanası 1 iyun 1911-ci ildə Tiflisdəki Qafqaz Gömrük dairəsinin idarəçiliyinə tabe etdirilir. 1911-ci ildən 1918-ci ilə qədər Bakı Gömrüyü Senat tərəfindən 21 yanvar 1911-ci ildə təsdiq edilmiş "Rusiya İmperiyası Gömrüklərinin Nizamnaməsi" əsasında fəaliyyət göstərmişdir. Bu dövrdə gömrükxana idxal və ixrac mallarının gömrük müayinəsini, gömrük rüsum və yığımlarının tutulmasını, gömrük anbarlarında gömrük sərhədini keçən malların müvəqqəti saxlancını, malların keçirilməsinə nəzarəti həyata keçirirdi.
Gömrüyün funksiyalarına həm də, yoluxucu xəstəliklərin müəyyən edildiyi tədbirdə bütün sərnişinlərin və gəmi heyətinin sahildə müəyyən olunmuş müddətlərdə təcrid edilməsi də daxil idi.

Azərbaycan Xalq Cumhuriyyətinin gömrük siyasəti

Azərbaycan Xalq Cümhuriyyəti (ADR) hakimiyyətə gəldikdən sonra gömrük işinin təşkilində ciddi dəyişiklik baş vermədi. Azərbaycan Demokratik Respubllikasının (1918-1920-ci illər) vaxtında bu sahədə konkret bir iş görülməsə də, dövlətçilik baxımından bütün siyasi addımlar atılmışdı. Bütün vergi siyasətinə maliyyə naziri Nəsib bəy Yusifbəyli rəhbərlik etmişdir. Yalnız gömrük idarəsi Maliyyə Nazirliyinin tabeçiliyinə verilmiş və dəftərxana işlərində müəyyən dəyişiklik edilmişdir. Belə ki, əgər 1918-ci ilin mart ayında tərtib olunan dəftərxana materialları qovluqda cəmləşdirildisə, artıq 19 avqust 1918-ci ildə bu materiallar yeni qovluqda toplanırdı. Sənədləşmə rus dilində aparılmışdır. Bu bəlanın əsas səbəbi isə əvvəlki dövrlərdə yerli kadrların qəsdən hazırlanmaması və hüquqi bazanın ancaq rus dilində olması idi. ADR hakimiyyəti ilk aylarında mövcud vəziyyəti araşdırmaq, problemlərlə tanış olmaqla yanaşı ölkənin milli maraqlarına uyğun olan iqtisadi siyasət

formalaşdırmaq, gömrük vergi və rüsumlarına yenidən baxmaq, yeni gömrükxanalar və gömrük postları açmaq, ölkənin Rusiya, Gürcüstan və Ermənistan olan dövlət sərhədlərini nəzarətə götürmək, gömrük orqanı işçilərinin sosial vəziyyətini yaxşılaşdırmaq, ölkədən çıxarılan milli sərvətlərin və tarixi əsərlərin qaçaqmalçılığının qarşısını almaq, keçmişdən miras qalmış üsul-idarəni dəyişdirmək, ölkənin dünya ölkələri tərəfindən tanınmasını təşkil etmək, və s. məsələlərlə məşğul olmağa başladı. Problemlərin çoxluğu və çətin həll olması ilk vaxtlar ciddi çətinliklər yaratsa da, tədricən məsələlər bir-bir həll edilməyə başladı.

Sərhədlərin qorunmasının təşkil olunmaması, gömrük işçilərinin təhlükəsizliyinin təmin edilməsi sahəsində müvafiq tədbirlərin görülməməsi, qaçaqmalçılığın çoxalmasına təkan verirdi. Müstəqilliyini qazanan ADR qısa bir zaman ərzində, təxminən 4 aydan sonra Rusiya, Gürcüstan və Ermənistanla sərhəd bölgəsində 50-dən çox Gömrükxana, gömrük postu və karantin-nəzarət postu açmışdır. Bunlardan 18-i Gürcüstanla sərhəddə, 20-si Ermənistanla sərhəddə, qalanı isə Rusiya ilə sərhəddə açılmışdır. Eyni zamanda 10-dək gömrük orqanı İranla sərhəddə açılmışdır. Gömrük işinin təşkilini daha da yaxşılaşdırmaq üçün Azərbaycan Respublikası gömrük işçilərinin say tərkibi artırıldı. Ştat cədvəlinə görə 1920-ci ildə gömrük işçilərinin sayı 336 nəfərə çatdırıldı. Yeni smetada gömrük işçilərinin əmək haqları nəzərə çarpacaq dərəcədə artırıldı.

21 oktyabr 1918-ci ildə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən təsdiq olunan "Müvəqqəti Tarif" cədvəlinə görə ölkədən çıxarılan aşağıdakı mallar ixrac gömrük rüsumuna cəlb olunurdu.

№	Məhsul	Vahid	Rüsum
1.	Düyüdən başqa digər taxıl məhuslları, o cümlədən kartof, noxud və paxlalılar	hər puda	20 rub
2.	Düyü		30 rub.
3.	Un və hər cür yarmalar		30 rub
4.	Çörək, bişirilmiş.		40 rub
5.	Mal, qoyun və digər piylər.		20 rub
6.	Pendir, hər cürəsi		20 rub
7.	Yumurta görə	hər 100 ədədinə	10 rub
8.	İnək və qoyun yağı, görə	hər puda	20 rub
9.	Kürü		100 rub
10.	Balıq, qurudulmuş, duzlu və s.		15 rub.
11.	Ev heyvanları: At - hər başa görə. İri buynuzlu mal-qara Xırda buynuzlular		 20 rub 25 rub. 15 rub.
12.	Tərəvəz, hər cürü - görə	hər puda	2 rub

13.	Meyvə və giləmeyvə, təzəsi qurudulmuşu		2 rub 5 rub.
14.	Qoz, şabalıd		3 rub.
15.	Çay		200 rub.
16.	Tütün		40 rub.
17.	Papiros	hər ədədə	2 qəpik
18.	Qənd, bal	hər puda	100 rub
19.	Araq, konyak	hər butulka	2 rub.
20.	Çaxır		50qp
21.	Sirkə		3 rub.
22.	Duz	hər puda	1 rub.
23.	Balıq yağı		100 rub
24.	Buynuz və dırnaqlar		1 rub
25.	Tüklər, - hər cürəsi		10 rub.
26.	Lələk və digər tüklər	hər puda	10 rub
27.	Yastıq və tük balışlar		5 rub.
28.	Piy (vosk)		20 rub.
29.	Şomular - hər cürəsi		80 rub.
30.	Dərilər: aşılanmamış aşılanmış		10 rub 40 rub.
31.	Dəri məmulatları		120 rub
32.	Gön çarıqlar		40 rub.
33.	Rezin məmulatları		100 rub.

Siyahıdan göründüyü kimi, Azərbaycandan xaricə təxminən 40-dan çox adda mal çıxarılmış. Bu həm ötən əsrin əvvəllərində ölkədən ixrac olunan malların çeşidləri haqqında təsəvvür yaradır, həm də dövlətin iqtisadi ticarət siyasətindən milli maraqları qoruması barədə kifayət qədər məlumat verir.

Ölkəyə rüsumsuz gətirilən mallar			
1.	Taxıl və taxıl məhsulları, kartof, noxud, düyü	11.	Meşə materialları və onlardan hazırlanmış məhsullar
2.	Un, vermişel və makaronlar	12.	Çini və şüşə məmulatlar
3.	Hər cürə meyvə və tərəvəzlər	13.	Rezin və hər cürə rezin məmulatları
4.	Şirniyyat	14.	Gübrələr, göydaş
5.	Çay, qənd, bal	15.	Kibrit
6.	Yağ, pendir	16.	Mektal və metal məmulatları
7.	Tütün	17.	Açılma maddələri
8.	Duz, sabun - hər cürəsi	18.	Dəryaz, oraq və digər biçici alətlər
9.	Heyvan və heyvan məhsulları	19.	Müxtəlif instrumentlər
10.	Şam, dəri və hər cür dəri	20.	Maşın və cihazlar

	məmulatları		

Ticarət, Sənaye və Ərzaq Nazirliyi Nazirlər Sovetinin təsdiqi ilə edilmiş aşağıdakı əlavə və dəyişikliklərə görə Azərbaycan ərazisindən çıxarılması qadağan olunmuşdur:

a) çörək və taxıl məhsulları;

b) benzin və digər məhsulları çıxartmaq üçün istifadə olunan bidonlar istisna olmaqla, hər cür dəmir və mis məmulatları, polad;

c) çay, qənd, sabun, kibrit və xam parça;

ç) əzcəxana malları;

e) dəmir yolu, poçt-teleqraf və telefon malları;

i) gündəlik istifadə üçün istifadə olunan məmulatlar (saat, zəncir, qolbağ, üzük, baş sancağı, köynək qol sancağı (zaponki) və s.) istisna olmaqla; qızıl, gümüş və platindən hazırlanmış məhsullar;

j) kağız və karton.

Sərəncamın sonrakı hissəsində bu malların ölkədən çıxarılması şərtləri və onları qanunsuz çıxartmaya görə nəzərdə tutulan cəzalar göstərilmişdir.

Eyni zamanda Bakı limanından istifadə edən Xəzərətrafı ölkədən gətirilən və tranzit yolla yük aparan gəmilərin daşıdığı yüklərin gömrük ödənişlərinə cəlb olunması şərtləri, habelə tranzit yüklərinin gömrük anbarında saxlanması qaydaları müəyyən edilmişdir. Belə ki, Azərbaycan Respublikasının bağladığı ikitərəfli sazişlərdə nəzərdə tutulan hallar istisna olmaqla, gömrük anbarlarında bir aydan artıq qaban yüklər, anbardan çıxarılarkən gömrük dəyərinin 1,5 miqdarı həcmində gömrük ödənişlərinə məruz qalırdı. Azərbaycan ərazisinə təmizlənmək üçün gətirilən çəltik, ölkə ərazisindəki düyü təmizləmə dəyirmanında təmizləndikdən sonra, yalnız 50%-i ölkədən çıxarıla bilərdi. Qalan 50%-i isə təmizləmə haqqı kimi ölkədə qalmalıdır. Yarımfabrikat düyü məhsullarının isə 80%-i ölkə sərhədlərindən kənara aparıla bilərdi. Düyünü təmizləyən dəyirman sahibləri isə, zəhməthaqqı kimi aldıqları düyünün 10%-i Ticarət, Sənaye və Ərzaq Nazirliyinə təhvil verməli idi. Hökumət sərəncamına görə ölkəni tərk edən vətəndaşlar özləri ilə rüsum ödəmədən aşağıdakıları apara bilərdilər: Şəxsi işləri ilə əlaqədar ölkə sərhədini keçən hər bir sərnişin özü ilə aşağıdakı ərzaq məhsullarını apara bilərdi: çörək - 10 funta qədər; pomidor - 2 funta qədər; qurudulmuş meyvələr - 10 funta qədər; təzə meyvələr – 15 funtadək, çay - 0,25 funtadək, qənd və kürü - 1 funtadək, yumurta 10 dənə, çaxır və digər içkilər 2 butulka, yol üçün lazım ola bilən qədər ev əşyaları. Göstərilənlərdən artıq olanlar müsadirə edilirdi.

1920-ci ilin fevral ayının 26-da Maliyyə Nazirliyi Azərbaycan ərazisindən tranzit keçirilən xalçalara gömrük rüsumları müəyyən etdi. Bu Azərbaycan Respublikasının

23 aylıq fəaliyyəti ərzində Hökumətin gömrük işinin təşkili və idarə edilməsi sahəsində son qərarı oldu. Çünki təxminən iki aya yaxın müddətdən sonra, dövlətçevrilişi nəticəsində hakimiyyət kommunistlərin əlinə keçdi.
1919-cu ilin martında F.Xoyski hökuməti istefa verdikdən sonra, N.Yusifbəyli Baş nazir (14 aprel 1919) oldu. Nəsib bəy parlamentdə hökumətin yeni proqramı ilə çıxış edərək, digər sahələrlə yanaşı qonşu dövlətlərlə ilk iqtisadi əlaqələr yaradılmasını da xüsusi qeyd etmişdir. Lakin 1920-ci ilin Aprel inqilabı bu
siyasətin başa çatdırılmasına imkan vermədi

Sovetlərin Azərbaycanda həyata keçitdikləri gömrük siyasəti

28 Aprel 1920-ci il Azərbaycan Demokratik Respublikası rus bolşevik işğalı nəticəsində süquta uğrayır və 30 dekabr 1922 il ZSFSR-in tərkibində, 5 dekabr 1936-ci ildən mütəmadi olaraq ASSR kimi fəaliyyət göstərib.

Artıq 1921-ci ilin əvvəllərində Azərbaycanın gömrük orqanları bütünlüklə Rusiyanın tabeçiliyində idi. İş o yerə çatmışdır ki, həm informasiya orqanları, həm də gömrük orqanları Azərbaycanın öz vətəndaşlarına, xaricə gedərkən əşya aparmağa icazə verməyə səlahiyyətinin olub-olmaması barədə mərkəzə sorğular göndərilməyə başladılar.

1921-ci ilin əvvəllərində Bakı gömrükxanasının strukturu aşağıdakı kimi idi:
1) Dəftərxana;
2) Müsadirə şöbəsi;
3) Mühasibat;
4) Gəmi kontoru.

Azərbaycan, 1922-ci il 31 mart tarixli dekretə görə 8 gömrük ərazisinin birinə - Zaqafqaziya dairəsinə daxil edilmişdir. Hakimiyyətə gələn bolşeviklər uzun müddət ölkənin iqtisadi siyasəti, xüsusilə də gömrük işinin təşkili və idarə edilməsi işi ilə məşğul olmadılar. Çünki onların əksəriyyətinin nə dövlətçilik təcrübəsi, nə də təhsilləri var idi.
AKP MK-nın Rəyasət Heyətinin 27 mart 1922-ci ildə keçirilən iclasının 6 №-li Protokolunda göstərilir ki, İclas Çaqin sədrliyi altında keçirilib. İclasın katibi İnozençsov, iştirak edənlər isə - Çaqin, Xanbudaqov, Musabəyov, Krılov və Bağırovdur. Gündəlikdə 17 məsələ var. Bu məsələlərdən 4-ü bilavasitə gömrük işinin təşkili ilə bağlı idi:
1) Dəmir yolu ilə daşınan yüklərin fraxt ödəmələri;
2) İrana aparılan və gətirilən yüklər barədə;
3) RSFSR sərhədində nəzarət məntəqələrinin təşkili haqqında;
4) Gömrük haqqında.

Həmin iclasda gömrük haqqında aşağıdakı qərar çıxarılır:
Qərara alındı:

a) Xarici İqtisadi Əlaqələr Prezidentinin 25.03.1922-ci il tarixli gömrük ödənişi kimi daxil olan ərzaq və digər əşyaların paylanması haqqındakı qərarı təsdiq edilsin və bölgü aşağıdakı şəkildə aparılsın: ərzaq malları 50%-i MK-ya, 50%-i isə Ərzaq Xalq Komissarlığına; qalan digər məhsullar və əşyalar bütünlüklə Xarici İqtisadi Əlaqələrin tabeçiliyinə verilsin.
b) Gömrük komissarı Abdul-Bağı vəzifəsindən çıxarılsın və MK-nın sərəncamına göndərilsin, katibliyə tapşırılsın ki, Musabəyovla birlikdə 3 gün ərzində yeni namizəd irəli sürülsün.
Qəbul olunan dekret ölkənin gömrük siyasəti sahəsindəki bütün hüquqları alınaraq Rusiya Federasiyasına verilir. Moskvanın bu siyasəti ötən əsrin 90-cı illərinə qədər davam etmişdir. SSRİ XTXK-nın təsdiq etdiyi gömrük təşkilatları statusuna görə aşağıdakı kimi idi:
İrəvan gömrükxanası - II dərəcəli
Alışar gömrükxanası - III dərəcəli
Şahtaxtı gömrükxanası - III dərəcəli
Naxçıvan gömrükxanası - III dərəcəli
Culfa gömrükxanası - I dərəcəli
Ordubad gömrükxanası - III dərəcəli
Mehri gömrükxanası - III dərəcəli
Mincivan gömrük postu
Xudafərin gömrük postu
Cəbrayıl gömrükxanası - III dərəcəli
Maralyan gömrük postu
Bəhram-Təpə gömrükxanası - III dərəcəli
Biləsuvar gömrükxanası - III dərəcəli
Arus gömrük postu
Kilvəz gömrükxanası - III dərəcəli
Astara gömrükxanası - I dərəcəli
Lənkəran gömrükxanası - III dərəcəli
Qızıl-Ağac gömrük postu
Kür-Dili gömrük postu
Bakı gömrükxanası - I dərəcəli

Gömrük işinin təşkili ilə əlaqədar SSRİ-nin qəbul etdiyi ilk böyük sənət 25 oktyabr 1924-cü ildə SSRİ MİK Prezidumımın tərəfindən təsdiq edilmiş "SSRİ-nin Gömrük Nizamnaməsi" idi. Bu Nizamnamə SSRİ MİK və XK Sovetinin 6 fevral 1925-ci ildə təsdiq edilmişdi.
SSRİ Xarici Ticarət Xalq Komissarlığı 2 fevral 1925-ci il tarixli 22 saylı qərarı ilə Gömrük İdarələrinin vahid ştat cədvəli təsdiq olundu.

Yeni ştat cədvəlinə görə gömrük idarələrinin strukturu aşağıdakı kimi olmalı idi:
Gömrük İdarəsi:
1. Tarif şöbəsi
2. Smeta-hesablaşma şöbəsi
3. İnzibati-təsərrüfat şöbəsi
4. Statistika şöbəsi
5. Operativ-məhkəmə şöbəsi
6. Qaçaqmalçılıqla mübarizə üzrə şöbə
7. Nəzarət şöbəsi.

1946-cı ilin əvvəlində Bakı gömrükxanasının strukturu genişləndirildi və aşağıdakı kimi oldu:
1) Ümumi şöbə;
2) Mühasibat;
3) Məhkəmə - müsadirə şöbəsi;
4) Yük şöbəsi;
5) Poçt sərnişin şöbəsi;
6) Gəmi şöbəsi.

Məhz Moskvanın yürütdüyü siyasətin nəticəsi idi ki, Azərbaycanın gömrük orqanlarında yaradılmasından keçən 120 il ərzində heç nə dəyişilməmişdi. Işçilərin milliyyəti ilə bərabər, onların sosial mənşəyi də göstərilib. 39 nəfər şəxsi heyətin cəmisi 7-si türkdür ki, onlardan da 3-ü kuryer, biri hesabdar, biri dəftərxana şöbəsinin müdiri , biri inspektor, biri isə ekspeditordur. Məhkəmə müsadirə şöbəsində bir nəfər də türk yoxdur. Mühasibat şöbəsindəki 11 nəfərdən biri türkdür. Çalışan 7 nəfər türkdən 4-ü bilavasitə İnzibati-təssərüfat şöbəsində çalışır. Həmin şöbənin isə gömrük işinin təşkili və idarəedilməsi ilə bağlılığı ən sonuncu yerlərdən birini tutur. Rusiya İmperiyasının siyasətində bu xətt ötən əsrin 70-ci illərinə qədər davam etmişdir.

3. Azərbaycan Respublikasında gömrük siyasəti və gömrük işinin təşkili

Plan:

1. **Gömrük siyasəti anlayışı**
2. **Gömrük siyasətinin tipləri**
3. **Gömrük siyasətinin tətbiqi vasitələri**
4. **Azərbaycan Raspublikasında gömrük siyasətinin məqsədi, istiqamətləri**

Gömrük siyasəti- ölkənin xarici iqtisadi fəaliyyətinin vacib bir sahəsidir. Tarixən bu siyasət, xarici ticarətin dövlət tənzimlənməsinin ilkin forması olmuşdur. Gömrük siyasətinin mahiyyəti – gömrük tarif qanunvericiliyində, müxtəlif istiqamətli beynəlxalq gömrük birlikləri ilə münasibətlərin yaradılmasında, sərbəst gömrük və ticarət zonalarının təşkil edilməsində öz əksini tapır. Gömrük siyasəti dövlətin iqtisadi və xarici ticarət siyasətinin ayrılmaz hissəsi olduğu üçün, hökumətin ümumi iqtisadi strategiyasının məqsəd və vəzifələrindən asılıdır.

Gömrük siyasəti, onun həyata keçirilməsi üçün başlıca zəmin olan gömrük xidmətinin fəaliyyətinə əsaslanır. Gömrük siyasətinin formalaşdırılması və həyata keçirilməsi çox mürəkkəb bir proses olub, hakimiyyətin hər üç qolunun - qanunvericilik, icra və məhkəmə hakimiyyətinin, həmçinin bu işdə maraqlı olan sahibkarlıq dairələrinin bilavasitə iştirakı ilə reallaşa biləcək bir məsələdir.

Gömrük siyasətinin tətbiqinin əsasən iki əsas səbəbi var:

- ***Dövlət gəlirlərinin formalaşması***
- ***İqtisadi təhlükəsizlik***

Daxili bazarın qorunması və milli iqtisadiyyatın inkişafına əlverişli şəraitin yaradılması üçün gömrük siyasətinin aşağıdakı formalarından daha çox istifadə olunur:

1. ***Himayədarlıq - (proteksionizm);***
2. ***Sərbəst ticarət - (fritredizm)***

Himayədarlıq (proteksionist) gömrük siyasəti yerli istehsalın inkişafı üçün daha əlverişli şərait yaradılmasına yönəldilib. Bu siyasət idxal edilən mallara gömrük vergi və rüsumların qoyulmasının daha yüksək səviyyəsini tətbiq etməklə əldə edilir.

Proteksionizmin təşəkkül tapmasının əsas səbəbi manifakturaların inkişafı ilə bağlı idi. Milli istehsalın hesabına dövlət xəzinəsinə daxilolmalar artdığına görə, dövlət onun inkişaf etməsində maraqlı olmağa və milli istehsalı xarici rəqabətdən qorumağa başladı. Beləliklə, proteksionizm dövlət siyasətinə çevrildi.

Bir ölkədə proteksionist xarici ticarət siyasətləri həyata keçirilməsində hökümətlərin istifadə etdiyi bağlıca arqumentlər aşağıdakılardır:

- Yerli sektorları və məşğulluğu qorumaq (gənc sektor tezisi),
- Milli təhlükəsizliyi qorumaq(müdafiə istiqamətli sektorlarla bağlıdır)
- İstehlakçıları etibarlı olmayan mallardan qorumaq,

- Proteksionist siyasət tətbiq edən ölkələrə cavab vermək,
- Siyasi hədəflərə çatmaq üçün təsir göstərmək,
- İnsan haqqlarını qorumaq.

Sərbəst ticarət - (fritredizm) siyasəti isə gömrük rüsumlarının minimum səviyyəsini nəzərdə tutur və daxili bazara xarici malların daha çox cəlb edilməsinə təhrik edir. Sərbəst ticarət isə ölkələr arasında olan maneələrin aradan qaldırılması deməkdir. Bu halda hər hansı bir dövlət başqa dövlətin daxili bazarını zəbt etməyə çalışmır.

Azad ticarət təlimi XIII əsrdə müdaxiləçi sistemlərə bir reaksiya olaraq ortaya çıxdı. Bu təlimə fizokratlarda, Devid Yumda və Adam Smitdə rast gəlinir. Azad ticarət anlayışı nəzəriyyəsinin təməlində Adam Smitin ölkələr arasındakı məhsuldarlığı və istehsalı artıracağı istiqamətindəki fikirləri durur. Ayrıca götürüldükdə bir ölkə, xüsusilə bəlli bir əmtəənin ən önəmli alıcısı və ya satıcısı kimi çıxış edirsə, xarici ticarətə məhdudiyyət qoyulmasından qazanc əldə edə bilər. Buna baxmayaraq praktikada yerli sənayelərin qorunması məqsədi ilə qoyulan məhdudiyyətlər müəyyən bir mərhələdən sonra ölkənin ümumi iqtisadi qazancı baxımından mənfi təsirlərə də səbəb olur.

Azad ticarət, ən qəti formasıyla David Rikardo və Con Stüart Millin əsərlərində yer almışdır. Bu yazıçılarda millətlər arasındakı ticarət sərbəstliyi beynəlxalq əmək bölgüsü təməlinə söykənir.

XIX əsrdə İngiltərədə Riçard Kobden və Mançester Birliyi, Fransada Frederik Bastiat və Mişel Çevaliyer tərəfindən müdafiə olunan azad ticarət, xüsusilə 1860-cı il Fransız-İngilis müqaviləsinin imzalanmasının müvəfəqiyyətə çatması ilə hiss olunsada, o tarixdən sonra II Dünya müharibəsinə qədər sürətli geriləmişdir.

Döyüş sonrasında beynəlxalq iqtisadiyyatın yenidən nizama qoyulması, azad ticarət mövzusundakı neoklasik qaydaların, xüsusilə Hekşer-Ulin nəzəriyyələrinin də təsiri ilə, sərbəst ticarətin tətbiq sahəsini yenidən genişləndirdi. II Dünya müharibəsindən sonra ölkələr arasındakı gömrük maneələrinin və valyuta məhdudiyyətlərin azaldılması məqsədi ilə intensiv səylər göstərilmişdir.

Bununla birlikdə qlobal və ya yerli böhranlar zamanı həm inkişaf etməmiş, həm də sənayeləşmiş ölkələr idxal kvotaları, vergilər və milli sənayelərə təşviq etmələr kimi üsullarla azad ticarət üzərindəki məhdudiyyətləri müəyyən ölçüdə davam etdirməkdədirlər.

Gömrük siyasətinin həyata keçirilməsinin əsas vasitələri -

- *gömrük rüsumları və yığımları (tarif və ya iqtisadi tənzimləmə),*
- *gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti əməliyyatları, xarici ticarətin icazələşdirilməsi (xüsusi icazə) və kvotalaşdırılması (qeyri-tarif və ya inzibati tənzimləmə)* təcrübəsi ilə bağlı olan müxtəlif gömrük məhdudiyyətləridir.

Gömrük siyasəti dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə xidmət etməlidir. ***İqtisadi təhlükəsizlik*** - ümumilikdə iqtisadiyyatın ölkənin sosial, siyasi, müdafiə qabiliyyətinin və mütərəqqi inkişafının kifayət edəcək səviyyəsini təmin edə

bilən vəziyyətini, tarazlaşdırma problemlərinin həlli yollarını, mümkün xarici və daxili təhlükələrə, onun iqtisadi maraqlarının xarici təsirlərdən asılı olmaması vəkifayət qədər zərərdən qoruna bilməsi qabiliyyətini nəzərdə tutur. Bu təhlükəsizlik özünü milli iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etdirilməsi üçün şəraitin yaradılmasında, onun strukturunun təzələnməsində, yerli mal istehsalçılarının haqsız xarici rəqabətdən qorunmasında və s. məsələlərdə özünü göstərir.

- Gömrük işi ilə bağlı başqa bir məsələ gömrük orqanları tarifindən ölkəyə qaçaq yolla gətirilən narkotik vasitələrin müsadirə edilməsidir. İlk baxışdan iqtisadi səmərə verməyən bir hal kimi gözə dəyən bu məsələ, əslində mühüm strateji əhəmiyyətə malikdir. Belə ki, narkoticarətin qarşısını alan gömrük orqanları, ölkəni narkotika bazarına çevrilməsinə imkan verməməklə çoxlu dövlət vəsaitlərinə qənaət etmiş olurlar. Çünki dövlət təkcə narkotika alverinə qarşı mübarizəyə deyil, eyni zamanda narkomanların müalicəsinə də heç bir vəsait xərcləmir və həm də ölkənin inkişafında mühüm potensial sayılan intellektual bazanı da qorumuş olur.
- Başqa bir misal: gömrük orqanları ölkənin gömrük ərazisinə keyfiyyətsiz məhsulları (ərzaq malları, dərman preparatları, uşaq yeməkləri və s.) buraxmamaqla əhalinin sağlamlığını qorumaqla bərabər dövlət vəsaitlərinin digər sosial qayğılara yönəldilməsinə şərait yaratmış olurlar.
- Eyni zamanda gömrük orqanları təhlükəli tullantıların ölkə ərazisinə gətirilməsinin qarşısını almaqla, ölkənin ekoloji zibilxanaya çevrilməsinə şərait yaratmırlar ki, bu da ölkə əhalisinin həyatının təhlükə altında qalmasına imkan vermir.

Azərbaycan Respublikası ikinci dəfə öz müstəqilliyini bərpa etdikdən sonra özünün sərbəst gömrük siyasətini yürütməyə başladı. Lakin bir sıra çətinliklər mövcud idi:

1. Azərbaycan Respublikasında ölkənin bütün sərhədlərini əhatə edə bilən gömrük şəbəkəsi yox idi.
2. keçmiş SSRİ-nin tərkibində olduğu üçün vahid gömrük siyasəti yürüdüldüyündən milli gömrük siyasəti yaranmamışdı.
3. milli gömrük kadrları azlıq təşkil edirdi və qısa bir zamanda bu kadrların hazırlanması üçün qanunvericilik bazası yox idi.

   Keçmiş SSRİ untitar federasiya olduğuna görə respublikaların heç birində sərbəst gömrük siyasəti yox idi. Milli gömrük siyasətinin formalaşması üçün isə vaxt lazım idi.

   Milli gömrük siyasəti olmadığı üçün milli kadrlar da yetişdirilmirdi. Çünki bütün gömrük sənədləşdirilməsi rus dilində aparılırdı. Bu isə nəinki milli dildə tədrisi, o cümlədən gömrük ili ilə bağlı ədəbiyyatın buraxılmasını da istisna edirdi. Mövcud qanunvericilik isə mərkəzçilik siyasətinə xidmət edirdi.
4. Azərbaycanın dövlət sərhədləri Ermənistan tərəfindən işğal altında saxlanılır.

   Azərbaycan Respublikasının Rusiya Federasiyası və Gürcüstan Respublikası ilə olan dövlət sərhədləri şəffaf olduğu üçün problemlər yaranmır. Ermənistan ölkəmizin

nəinki 20 %-ə yaxın ərazisini, eyni zamanda İran İslam Respublikası ilə olan dövlət sərhəddinin 100 km-dən çox hissəsini də işğal altında saxlayır. Bu isə gömrük orqanlarına, ölkənin bütün gömrük ərazisinə nəzarət imkanlarına kifayət qədər əngəllər yaratmış olur.

5. tədris bazasının təşkili üçün dərsliklər və dərs vəsaitləri yox səviyyəsində idi.

Müstəqillik əldə edən ölkəmiz bütün sadalanan çətinliklərə baxmayaraq milli iqtisadiyyatın inkişaf etdirilməsi ilə yanaşı gömrük orqanlarının sərbəst strukturlarının yaradılmasına və təşəkkül tapmasına da şərait yaratdı. Azərbaycan Respublikasında DGK 1992-ci ildə yaradıldı. Kadr dərsliyi aparmaqla yanaşı "Gömrük tarifi haqqında" Qanun, "Gömrük Məcəlləsi" və lazım olan digər qanunvericilik aktları qəbul olundu.

Müstəqil Azərbaycanın iqtisadi həyatında xarici ticarət əlaqələrinin mühüm rolu vardır. Milli istehsalı qorumaq üçün iqtisadiyyatın strukturunun yaxşılaşmasına, inkişafın strateji istiqamətlərində ehtiyatların mərkəzləşdirilməsinə, bəzi istehlak mallarının ucuzlaşdırılmasına, Azərbaycan mallarına xarici bazarların açılmasına və s. nail olmaq lazımdır. İstehsalın və istehlakın milli struktur xüsusiyyətləri, iqtisadi inkişaf səviyyəsi və digər amillər xarici ticarətin tənzimlənməsi sisteminə kompleks yanaşma tələb edir. Xarici ticarətin tənzimlənməsi isə idxal-ixrac əməliyyatlarına xüsusi dövlət nəzarəti tələb edir ki, bu da bilavasitə gömrük işinin təşkili ilə bağlıdır.

Azərbaycan Respublikasının gömrük siyasəti məqsədi :

- gömrük ərazisində gömrük nəzarəti və mal dövriyyəsinin daha səmərəli tənzimlənməsi,
- daxili bazarın qorunması,
- milli iqtisadiyyatın inkişafının stimullaşdırılması,
- dövlətin iqtisadi siyasətindən irəli gələn vəzifələrin həyata keçirilməsi,
- gömrük işinin beynəlxalq normalara uyğun aparılmasıdır.

Gömrük siyasətinin əsasını, xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsinin aşağıdakı **prinsipləri** təşkil edir:

1) *Respublikanın xarici siyasətinin tərkib hissəsi olan vahid xarici ticarət siyasəti;*
2) *xarici ticarət fəaliyyətinin vahid dövlət tənzimləmə sistemi və onun həyata keçirilməsinə nəzarət;*
3) *vahid valyuta nəzarəti siyasəti;*
4) *ölkənin gömrük ərazisinin bütövlüyü;*
5) *xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsində iqtisadi tədbirlərə üstünlük verilməsi;*
6) *xarici ticarət fəaliyyəti iştirakçılarının bərabərhüquqlu olması və hər hansı formada ayrı-seçkiliyə yol verilməməsi;*
7) *xarici ticarət fəaliyyəti iştirakçılarının hüquq və qanuni maraqlarının dövlət tərəfindən qorunması;*

8) *dövlətin və onun ayrı-ayrı orqanlarının xarici ticarət fəaliyyətinə yersiz (lazımsız) müdaxiləsi nəticəsində onun iştirakçılarına və bütünlükdə ölkə iqtisadiyyatına ziyan vurulmasının istisna edilməsi.*

Gömrük münasibətlərini tənzimləyən hüquqi aktlar aşağıdakılardır:

1. *Azərbaycan Respublikası prezidentinin fərmanları.*
2. *Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları.*
3. *Dövlət Gömrük Komitəsinin normativ aktları.*

Azərbaycan Respublikasının gömrük sahəsində beynəlxalq hüquqi əməkdaşlığı əsasən 4 istiqamətdə inkişaf edir:

1) *Beynəlxalq təşkilatlar, o cümlədən Ümumdünya Gömrük Təşkilatı və Ümumdünya Gömrük Təşkilatı ilə əməkdaşlıq;*
2) *Müstəqil Dövlətlər Birliyinin gömrük rəhbərləri şurası çərçivəsində əməkdaşlıq;*
3) *İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq;*
4) *Ayrı-ayrı dövlətlərin gömrük orqanları ilə ikitərəfli münasibətlər əsasında əməkdaşlıq.*

4. Gömrük nəzarəti

1) Gömrük nəzarətinin mahiyyəti və növləri
2) Gömrük nəzarətinin həyata keçirilmə formaları və metodları
3) Gömrük nəzarətinin xüsusiyyətləri

Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 17-ci maddəsinin 17-ci bəndinə əsasən: "Gömrük nəzarəti gömrük işi haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə, həmçinin icrasına nəzarət Azərbaycan Respublikasının gömrük orqanlarına həvalə edilmiş, Azərbaycan Respublikasının digər qanunvericiliyinə və Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrinə riayət edilməsini təmin etmək məqsədilə həyata keçirilən tədbirlər toplusudur."

Gömrük nəzarətinin iki növü xüsusilə fərqləndirilir:

1. Əmtəələrə (mallara) nəzarət;
2. Nəqliyyat vasitələrinə nəzarət.

Hər iki növ nəzarəti daha dərindən və daha əhatəli təsnifləşdirmək olar. Misal üçün, nəqliyyat vasitələri üzərində gömrük nəzarətini nəqliyyat növlərinə görə aşağıdakı kimi bölmək olar:

- dəniz gəmilərində gömrük nəzarəti;
- çay gəmilərində gömrük nəzarəti;
- dəmir yolu nəqliyyatında gömrük nəzarəti;
- təyyarələrdə gömrük nəzarəti;
- avtomobil nəqliyyatı vasitələrində gömrük nəzarəti;
- Boru xətlərində gömrük nəzarəti;
- Magistral elektrik ötürücü xətlərdə gömrük nəzarəti.

Mallara (əmtəələrə) gömrük nəzarətini isə aşağıdakı kimi bölmək olar:

- idxal (ölkəyə gətirilən) mallarına gömrük nəzarəti;
- ixrac (ölkədən çıxarılan) mallarına gömrük nəzarəti;
- tranzit (daşınan) mallara gömrük nəzarəti.

Gömrük nəzarətinin təşkilində malların fərdi xüsusiyyətlərinə də böyük əhəmiyyət verilir. Belə ki, əldə daşınan yüklərin, baqaj yüklərinin gömrük nəzarəti də vacib şərtlərdəndir.

Əməkdaşlıq edən ölkələrin gömrük orqanlarının gömrük nəzarətini təşkil etmələri baxımından bölgünü aşağıdakı kimi təsnif etmək olar:

- ikitərəfli gömrük nəzarəti (hər ölkənin gömrük orqanı ayrılıqda gömrük yoxlanışı aparır);
- birtərəfli gömrük nəzarəti (hər iki ölkənin gömrük orqanlarının əməkdaşları birlikdə gömrük yoxlanışı aparırlar).

Gömrük nəzarəti bir dəfə (təkqat) və təkrar (ikiqat) ola bilər.

Gömrük nəzarətinin bir dəfə (təkqat) keçirilməsi o halda olur ki, mallar və nəqliyyat vasitələri gömrük sərhədindən yalnız bir istiqamətə keçirilirlər.

Əgər hər hansı bir məhsul və nəqliyyat vasitəsi nisbətən qısa bir müddət ərzində gömrük sərhədindən iki dəfə keçirilərsə, onda təkrar (ikiqat) gömrük yoxlanışına məruz qalır.

Bəzi hallarda, gömrük nəzarətinin təkrarən həyata keçirilməsi üçün heç də həmişə gömrük sərhədinin iki dəfə keçilməsi vacib olmur. Misal üçün deyək ki, adətən, xarici limanlara gedən gəmilər və yaxud xaricdən qayıdan gəmilər təyinat üzrə limanlara yan aldıqda onlarda gömrük nəzarəti aparılmır. Çünki, onların yoxlanışı dəniz gömrük sərhədinə daxil olarkən keçirilir. Lakin, əgər həmin gəmidə qaçaqmal və yaxud da digər qadağan olunmuş mal olması barədə məlumat olarsa, onu həm sərhəd gömrük məntəqəsində, həm də çatıb yan aldığı limanda yoxlamaq olar. Bu isə ikiqat yoxlama deməkdir.

Belə qayda ilə digər nəqliyyat vasitələrini də yoxlamaq olar, belə ki, qaçaqmalı və ya qadağan olunmuş malın olması barədə məlumat daxil olduğu halda, bu qayda bütün nəqliyyat vasitələrinə şamil olunur.

Gömrük nəzarətinin həyata keçirilməsi üçün ayrı – ayrı metodlar (üsullar) tətbiq edilir.

Gömrük nəzarətinin metodu – onun həyata keçirilməsi fəndlərinin və qaydalarının məcmusudur.

Gömrük nəzarəti metodlarından aşağıdakıları göstərmək olar:

- adi gömrük nəzarəti – mallar və nəqliyyat vasitələri gömrük məntəqəsinə daxil olduqda həyata keçirilir;
- nəqliyyat vasitələri hərəkətdə olarkən (tranzit) gömrük nəzarəti;
- tam gömrük nəzarəti (Gömrük Məcəlləsində göstərilmiş istisna hallardan başqa, nəzarətin bütün formaları tətbiq edilməklə icra olunur);
- seçmə gömrük nəzarəti və s.

Yuxarıda qeyd olunan gömrük nəzarəti növləri, formaları və metodları praktik olaraq bir – birilə qarşılıqlı əlaqədə və sıx bağlı olaraq tətbiq edilirlər.

Gömrük nəzarəti nəzarət obyekti baxımından gömrük işinin əhatə etdiyi gömrük ərazisində cinayətlərin və hüquq pozuntularının qarşısının alınması üçün fəaliyyət göstərən operativ və xüsusi xidmət bölmələridir. Bu qrup xarici iqtisadi fəaliyyətlə məşğul olan iştirakçıların müxtəlif sahələr üzrə icra etdikləri əməliyyatlara nəzarət edir, gömrük rəsmiləşdirilməsini, gömrük baxışı və yoxlanışını, valyuta nəzarətini, tarif və qeyri-tarif tənzimlənməsini və digər gömrük rejimlərinin icrasını təmin edir.

Ümumiyyətlə, gömrük nəzarətinin fərqləndirici xüsusiyyəti və ən böyük qüsuru onun qabaqlayıcı tədbir olmaması, yəni cinayət və hüquq pozuntusu baş verdikdən sonra faktların yoxlanılmasıdır.

Tarixi baxımdan gömrük nəzarətinin formalaşması hər bir dövlətin milli hüquq sistemi çərçivəsində baş vermişdir. Hər bir dövlət gömrük nəzarətini öz milli maraqları və ehtiyacları baxımından qurmuş və həyata keçirmişdir. Lakin, zaman keçdikcə və iqtisadi inteqrasiya prosesləri gücləndikcə ayrı – ayrı dövlətlər tərəfindən müəyyən edilmiş gömrük nəzarətində mahiyyət və məzmunca eyni olan, oxşar və

yaxud bənzər əməliyyatların olması aşkarlanmış və bunların vahid bir formaya salınması ideyası qarşıya qoyulmuşdur.

Bu baxımdan, həm gömrük sənədlərinin unifikasiyası, həm gömrük rəsmiləşdirilməsi prosesinin təkmilləşdirilməsi, tətbiq edilən forma və metodların eyniləşdirilməsi, istifadə olunan texniki vasitələrin universallaşdırılması və digər bu kimi məsələlər gömrük nəzarəti qaydalarının tənzimlənməsi üçün beynəlxalq hüquq normalarının yaranmasına və tətbiqinə gətirib çıxarmışdır. Bunun nəticəsidir ki, ayrı – ayrı illərdə, misal üçün, 1944-cü ildə Çikaqo Konvensiyası, 1950-ci ildə Gömrük Əməkdaşlığı Şurası (GƏŞ), 1959-cu ildə Brüssel Gömrük Nomenklaturası, 1973-cü ildə Kioto Konvensiyası, 1994-cü ildə Beynəlxalq Gömrük Təşkilatı, 1995-ci ildə Ümumdünya Ticarət Təşkilatı və çoxlu sayda digər beynəlxalq qurumlar yaradılmışdır.

Bu faktlar bir daha əyani surətdə təsdiq edir ki, gömrük işi və gömrük nəzarəti təkcə bir ölkə çərçivəsində (qapalı) təşkil edilə bilməz və beynəlxalq iqtisadi inteqrasiya proseslərinə uyğun olaraq beynəlxalq səviyyədə və beynəlxalq hüquq normaları əsasında, lakin milli maraqlara cavab verən bir səviyyədə qurulmalıdır.

Gömrük nəzarətinin əsas formaları

Azərbaycan Respublikasında gömrük nəzarətinin təşkili və aparılması dövlət səviyyəsində gömrük işini aparan icra hakimiyyəti orqanı – Dövlət Gömrük Komitəsi tərəfindən həyata keçirilir. Bu nəzarət həyata keçirilərkən insanların həyat və sağlamlığı, heyvanlar və bitkilər üçün təhlükəsiz olan, həmçinin əmtəələrə və nəqliyyat vasitələrinə zərər vurmayan texniki vasitələr tətbiq edilə bilər.

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin **92.2-ci maddəsinə** əsasən gömrük nəzarətinin həyata keçirilməsi üçün aşağıdakı formalar müəyyən olunmuşdur:

1) **malların və nəqliyyat vasitələrinin yoxlanılması;**
2) **şəxsi yoxlama;**
3) **gömrük məqsədləri üçün lazım olan məlumatların, elektron və ya kağız üzərində yazılı formalarda sənədlərin, o cümlədən Azərbaycan Respublikasının dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların baytarlıq, fitosanitar, gigiyenik və digər sertifikatlarla (şəhadətnamələrlə) müşayiət olunmasının yoxlanılması;**
4) **gömrük auditi;**
5) **şəxslərin sorğu-sual edilməsi;**
6) **gömrük nəzarətindən keçməli olan mallara və nəqliyyat vasitələrinə, onların yerləşdiyi ərazilərə və binalara, müvəqqəti saxlanc və gömrük anbarlarında, sərbəst zonalarda yerləşən ərazilərə və binalara, həmçinin icrasına nəzarət gömrük orqanına həvalə edilmiş fəaliyyətin həyata keçirildiyi digər yerlərə gömrük baxışının keçirilməsi;**

1. Gömrük yoxlanışı.

Gömrük yoxlanışı dedikdə, elə inzibati tədbir başa düşülür ki, bu zaman malların və nəqliyyat vasitələrinin faktiki yoxlanması yolu ilə onun (onların) gömrük sərhədindən qanuni keçirilməsi müəyyənləşdirilir, qadağan olunmuş əşyaların daşınmasının qarşısı alınır, əmtəələrin gizli daşınması aşkar edilir və həmçinin müəyyən edilmiş qaydada əmtəələrin adları, onların qiymətləri və miqdarı öyrənilir.

AR Gömrük Məcəlləsinə görə gömrük yoxlanışı aşağıdakı hallar üçün nəzərdə tutulur:

- yoxlanılan obyektlərin gömrük sərhədindən keçirilməsinin qanuni yolla olmasını müəyyən etmək;
- sənədsiz malları və nəqliyyat vasitələrini aşkar etmək;
- ölkəyə gətirilməsi və ölkədən çıxarılması qadağan olunmuş əmtəələri, eləcə də daşınmasına müəyyən şərtlərlə icazə verilən malları aşkar etmək;
- əmtəələrin qeyri-qanuni daşınmasının qarşısını almaq;
- əmtəənin tarif üzrə adını, qiymətini, miqdarını və keyfiyyətini müəyyən etmək.

Gömrük baxışından fərqli olaraq gömrük yoxlanışı zamanı nəqliyyat vasitələri, taralar, bağlamalar, yük bölmələri açılaraq nəzərdən keçirilir ki, orada xəlvəti olaraq qadağan edilmiş mallar gizlədilə bilməsin. Bu məqsədlə nəqliyyat vasitəsində ola biləcək xəlvəti yerlər də yoxlanmalı və aşkar edilməlidir.

Gömrük yoxlanışı zamanı aşağıdakı mallara daha çox diqqət yetirilməlidir:

- aksiz vergisi tutulan mallar;
- yol-müşayiət sənədlərində bəyan edilmiş, adlarına görə aksiz əmtəələrinə yaxın olan spirtsiz içkilər, ərzaq malları, tütün, şüşə, ayaqqabı və digər mallar;
- əvvəllər gömrük-tranzit qaydalarını pozmuş nəqliyyat təşkilatlarının daşıdığı yüklər;
- nəqliyyatla daşınan və fiziki şəxslərə məxsus olan yüklər.

Gömrük yoxlanışı həyata keçirilərkən əsas diqqət gömrük rüsumu tutulan və eləcə də qeyri-tarif tənzimləmə tədbirləri tətbiq edilən mallara yönəldilir.

Gömrük yoxlanışı malmüşayətedici və nəqliyyat sənədlərindəki məlumatlar əsasında aparılır. Yoxlanışın nəticələri barədə həmin sənədlərdə - "Yoxlanılıb, uyğundur" – qeydi aparılır və bu qeyd tarix göstərilməklə yoxlayışı aparan əməkdaşın soyadı, imzası və şəxsi möhürü ilə təsdiqlənir.

2. Şəxsi yoxlama.

İlkin yoxlamadan sonra fiziki şəxsin aparılması və ya gətirilməsi qanunvericiliklə qadağan edilmiş, yaxud məhdudlaşdırılmış, habelə barəsində gömrük ödənişləri ödənilməmiş malları, Məcəllənin və gömrük işi üzrə digər qanunvericilik aktlarının müddəalarının pozulması faktını təsdiq edən əşyaları üzərində gizlətməsi və daşıması barədə əsaslı şübhə yarandıqda, gömrük orqanlarının vəzifəli şəxsləri onu saxlayır və gömrük nəzarətinin müstəsna forması kimi, şəxsi yoxlama aparırlar.

Gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən həyata keçirilən şəxsi yoxlama sanitar-gigiyenik tələblərə cavab verən təcrid olunmuş yerdə, iki hal şahidinin iştirakı

ilə aparılır. Yoxlama aparılan yerə başqa fiziki şəxslərin daxil olmasına və yoxlamanı müşahidə etməsinə yol verilmir.
Fiziki şəxsin bədənində narkotik vasitələri və psixotrop maddələri gizlətməsini müəyyən etmək məqsədilə tibbi müayinə tibb işçisi tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilməlidir. Üzərində şəxsi yoxlama aparılan fiziki şəxsin bədən üzvləri tibb işçisi tərəfindən yoxlanılmalıdır.
Gömrük orqanlarının şəxsi yoxlama aparan vəzifəli şəxsləri, hal şahidləri, bu prosesə cəlb edilən tibb işçiləri yoxlanılan fiziki şəxslə eyni cinsdən olmalıdır.
Şəxsi yoxlama zamanı fiziki şəxs üzərində gizlətdiyi malları (əşyaları) könüllü surətdə təqdim etmədikdə, gömrük orqanlarının vəzifəli şəxsləri nəzərdə tutulmuş qaydada fiziki qüvvə tətbiq etmək hüququna malikdirlər.
Şəxsi yoxlama aparılarkən, fiziki şəxsin üzərində aşkar edilən malın (əşyanın) bu Məcəllənin 64.1-ci maddəsində göstərilənlərə aid olması barədə kifayət qədər əsas olduğu halda, həmin mallar və əşyalar gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən qanunla nəzərdə tutulmuş qaydada götürülür.
Şəxsi yoxlama aparılması haqqında tələbləri nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada protokol tərtib olunur.
Protokol gömrük orqanının yoxlama aparan vəzifəli şəxsi, yoxlanılan fiziki şəxs, hal şahidləri, narkotik vasitələr və psixotrop maddələr gizlədilməsini müəyyən etmək məqsədilə tibbi müayinə aparıldıqda və ya fiziki şəxsin bədən üzvləri yoxlanıldıqda tibb işçisi tərəfindən imzalanır.

3. Sənədli yoxlama.

Gömrük nəzarətinin sənədli yoxlaması – fiziki və hüquqi şəxslərin mal və nəqliyyat vasitələrinə dair sənədlərinin yoxlanması və bu sənədlərin qanun, hüquq və təlimatlara uyğun doldurulması, eləcə də həmin sənədlərin obyektiv vəziyyəti əks etdirməsinin doğruluğu və pozuntulara yol verilib – verilməməsini dəqiqləşdirmək üçün həyata keçirilir.

Yüklərə sənədli nəzarət, gömrük nəzarətinin forması olmaqla sənədlərdə əks olunmuş informasiyanın fiziki mövcud olan mallarla tutuşdurulması, onların həqiqi yüklərlə identifikasiya edilməsini və yük gömrük bəyannaməsinə uyğun gəlməsini dəqiqləşdirmək məqsədi ilə həyat keçirilir.

Sənədli yoxlama həyata keçirilərkən hərtərəfli dəqiqləşdirmə üçün aşağıdakı qaydalardan istifadə olunur:

1. Sənəddəki göstəricilərin düzgünlüyünü müəyyən etmək (tarixi, imzaları, miqdar və məbləğ göstəriciləri və s.);
2. Sənədlərdəki riyazi hesablamaların yoxlanılması (aparılan riyazi əməliyyatlar, alınan nəticələr və taksirovkaların (qiymətləndirmələrin) doğruluğunun müəyyən edilməsi);
3. Sənədlərin normativlərlə tutuşdurulması (aparılmış əməliyyatların normativ aktlara uyğun gəlməsi, əməliyyatların sənəddə düzgün əks etdirilməsi və s.);

4. Sənədlərin bir – birilə tutuşdurulması metodu ilə yoxlama (bir əməliyyatla bağlı ayrı – ayrı ilkin sənədlərin tutuşdurulması, müxtəlif mühasibat sənədlərində onların eyniliyinin yoxlanması və s.);

5. Sənədlərin qarşılıqlı yoxlanması (bir – birilə əlaqəli təşkilatlarda eyni bir əməliyyat üçün eyni adlı sənədin müxtəlif nüsxələrinin tutuşdurulması).

Uçotun və hesabatların ilkin sənədlərə uyğun gəlməməsi aşağıdakı yollarla müəyyən edilir:

- məhsul (əmtəə, iş, xidmət) üçün ödənişləri təsdiq edən ilkin sənədlərin göstəricilərinin mühasibat uçotu və hesabatlarının göstəriciləri ilə tutuşdurulması;
- faktiki əməliyyatların ödəniş sənədləri ilə malmüşayətedici və digər sənədlərdəki göstəricilərin tutuşdurulması;
- məhsulun və əmtəənin alınması, işin görülməsi və xidmət göstərilməsini təsdiq edən sənədlərin yoxlanılması;
- faktiki satış göstəriciləri ilə ilkin ödəniş sənədlərinin, eləcə də gəlirlə sərf olunmuş pul vəsaitlərinin məbləğinin (məsrəflərin) tutuşdurulması.

Büdcəyə ödənilməmiş vergiləri müəyyən etmək üçün aşağıdakılar yoxlanılır:

- dürüst ilkin sənədlər əsasında vergi ödəyən obyektlər;
- vergi qanunçuluğu normalarına müvafiq olaraq vergi ödəyən obyektlər;
- müəssisənin büdcə ilə hesablaşmasında vergi ödənişini tənzimləyən qanunçuluq normalarına əməl edilməməsi;
- gömrük orqanı işçiləri tərəfindən vergi hesablanması;
- yoxlanılan müddət ərzində büdcəyə ödənməli olan və faktiki ödənilən vergilərin məbləği.

4. Gömrük auditi

Gömrük auditi gömrük orqanları tərəfindən, malların və nəqliyyat vasitələrinin buraxılışından, o cümlədən şərti buraxılışından sonra gömrük bəyannaməsində göstərilən məlumatların düzgünlüyünə əmin olmaq, eləcə də şəxsin mallar və nəqliyyat vasitələri barəsində sərəncam verilməsinə dair məhdudiyyətlərə, tələblərə və şərtlərə riayət etmək öhdəlikləri-nin yerinə yetirməsinin vəziyyətini müəyyənləşdirmək məqsədi ilə aparılır. Bunun üçün gömrük orqanları idxalatçının, ixracatçının, mal sahibinin, bəyannaməçinin, mallar barəsində səlahiyyəti olan digər şəxslərin və ya onların nümayəndələrinin həmin mallar və nəqliyyat vasitələri ilə əlaqədar apardığı əməliyyatlara və beynəlxalq ticarət sövdələşmələrinə dair kommersiya sənədlərini və məlumatları yoxlayırlar.

Gömrük auditi gömrük bəyannaməsində qeyd olunan malların gömrük nəzarəti altında olan mallar statusunu itirməsindən sonrakı 3 (üç) il ərzində və yalnız hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər barəsində həyata keçirilə bilər.

Gömrük auditi idxalatçının, ixracatçının, mal sahibinin, bəyannaməçinin, mallar barəsində səlahiyyəti olan digər şəxslərin və ya onların nümayəndələrinin

müvafiq tikililərində, ərazilərində, binalarında və onların istifadəsində olan digər yerlərdə aparıla bilər.

Gömrük auditinin həyata keçirilməsinin nəticələrinə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada və formada akt tərtib olunur. Həmin akt, gömrük auditinin başa çatdığı gündən başlayaraq, 10 (on) gün müddətində tərtib olunur. Gömrük auditinin nəticəsinə dair tərtib olunmuş aktın bir nüsxəsi barəsində gömrük auditi aparılmış şəxsə təqdim olunur.

Gömrük auditi aparılarkən cinayət və ya inzibati hüquqpozma əlamətləri aşkar olunarsa, hüquqpozmanın bilavasitə obyekti üzərində gömrük auditi başa çatdırılır, həmin auditin nəticəsinə dair təxirə salınmadan akt tərtib olunur və gömrük orqanları tərəfindən inzibati, yaxud cinayət-prosessual qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlər həyata keçirilir.

Gömrük və vergi orqanları əldə etdikləri məlumatları qanunvericiliklə müəyyən olunmuş qaydada mübadilə edə, müştərək gömrük auditi apara bilərlər.

Gömrük auditi ümumi və xüsusi formalarda həyata keçirilir. Ümumi gömrük auditi gömrük orqanının rəhbərinin və ya onu əvəz edən şəxsin yazılı qərarı əsasında həyata keçirilir. Gömrük orqanının ümumi gömrük auditinin aparılması barədə qərarının surəti audit keçirilməmişdən əvvəl barəsində gömrük auditi aparılacaq şəxsə təqdim olunmalıdır. Ümumi gömrük auditi 3 (üç) iş günündən artıq olmayan müddətdə aparılmalıdır. Auditin aparılması şəxsin istehsal və kommersiya fəaliyyətinin həyata keçirilməsinə mane olmamalıdır. Eyni mallara dair təkrar ümumi gömrük auditinin aparılmasına icazə verilmir.

Xüsusi gömrük auditi gömrük orqanının rəhbərinin və ya onu əvəz edən şəxsin yazılı qərarı əsasında həyata keçirilir. Gömrük orqanının xüsusi gömrük auditinin aparılması barədə qərarının surəti audit keçirilməmişdən əvvəl barəsində gömrük auditi aparılacaq şəxsə təqdim olunmalıdır. Xüsusi gömrük auditi aşağıdakı hallarda həyata keçirilir:

- xarici ticarət iştirakçılarına münasibətdə - ümumi gömrük auditinin və ya bu Məcəllə ilə müəyyən olunmuş gömrük nəzarətinin başqa formalarının tətbiqi nəticəsində gömrük rəsmiləşdirilməsi üçün təqdim olunan məlumatların qeyri-dəqiqliyini təsdiq edən dəlillər aşkar olunarsa və yaxud mallar üzərində sərəncam verilməsi və ya onlardan istifadə edilməsinə dair müəyyən olunmuş tələblərin və məhdudiyyətlərin pozulması ilə həyata keçirilərsə və bunun nəticəsində gömrük rüsumlarının, vergilərin ödənilmə qaydasının pozulması, həmçinin Azərbaycan Respublikasında xarici ticarətin dövlət tənzimlənməsini təmin edən qanunvericiliyə müvafiq olaraq müəyyən edilmiş məhdudiyyət və qadağalara əməl olunmaması faktı aşkar olunarsa;
- gömrük brokerlərinə, müvəqqəti saxlanc anbarlarının sahiblərinə, gömrük anbarlarının sahiblərinə və gömrük daşıyıcılarına münasibətdə - gömrük sərhədindən keçirilən malların uçotunun və onlar haqqında hesabatın düzgün aparılmaması, yaxud

bu Məcəllə ilə müəyyən olunan müvafiq fəaliyyət növünün həyata keçirilməsinin bu və ya digər tələb və şərtlərinin yerinə yetirilməməsi faktı aşkar olunarsa.

Xüsusi gömrük auditini həyata keçirən gömrük orqanları aşağıdakı hərəkətləri yerinə yetirmək hüququna malikdirlər:

- gömrük ərazisinə gətirilən mallarla aparılan əməliyyatlara dair sənədlər və məlumatlarla (o cümlədən elektron formada olan sənədlər və məlumatlarla) tanış olmaq;
- barəsində gömrük auditi aparılan şəxsin sərəncamında və ya istifadəsində olan ərazilərə və binalara daxil olmaq, həmçinin onun səlahiyyətli nümayəndəsinin iştirakı ilə malları yoxlamaq və baxış keçirmək;
- qanunla nəzərdə tutulmuş hallarda və qaydada malları götürmək.

Xüsusi gömrük auditi onun aparılması üçün zəruri olan ən qısa müddət ərzində, həmin yoxlamanın keçirilməsinə dair qərarın qəbul edildiyi tarixdən etibarən 2 (iki) aydan gec olmamaq şərti ilə başa çatdırılmalıdır. Şəxsə sənədlərin və məlumatların təqdim edilməsi haqqında tələbin verilməsindən, onların təqdim edilməsinə qədər olan dövr göstərilən müddətə daxil edilmir.

Xüsusi gömrük auditinin eyni şəxsə və eyni mala münasibətdə təkrarən aparılmasına icazə verilmir.

Xüsusi gömrük auditinin aparılması məqsədi ilə gömrük orqanları mallar barəsində səlahiyyəti olan və ya malların saxlancını həyata keçirən şəxslər, həmçinin dövlət nəzarəti tədbirlərini həyata keçirən orqanlar tərəfindən aparılmış inventarlaşdırmaların nəticələrindən, auditor rəylərindən, dövlət orqanları tərəfindən tərtib olunmuş aktlardan və rəylərdən istifadə etmək hüququna malikdirlər.

5. Şəxslərin sorğu-sual edilməsi

Gömrük orqanlarının vəzifəli şəxsləri gömrük ərazisinə daxil olan və ya bu ərazini tərk edən, bu Məcəllədə nəzərdə tutulmuş müvafiq prosedurlardan keçdiyi ərazidə və ya malların müvəqqəti saxlandığı ərazidə olan şəxsləri aşağıdakı məsələlər barədə sorğu-sual etmək hüququna malikdirlər: Dindirilmə başlayarkən aşağıdakılar nəzərə alınmalıdır:

- həmin şəxsdə gömrük ödənişləri ödənilməmiş, gətirilməsi və ya aparılması qanunvericiliklə qadağan edilmiş, yaxud hər hansı digər malların mövcudluğu;
- malların xassələri, xüsusiyyəti, mənşə ölkəsi, qiyməti, ona mülkiyyət hüququ, nəzərdə tutulan təyinat yeri;
- şəxsin və ya onun təmsil etdiyi idarə, müəssisə və təşkilatın bu Məcəllə ilə müəyyən edilmiş ödənişlər üzrə gömrük borcunun olub-olmaması;
- gömrük borcu mövcuddursa, onun xüsusiyyəti və məbləği. Bundan sonra dindirilən şəxsdən işlə bağlı izahat verməsi təklif olunur. İzahat alındıqdan sonra isə gömrük orqanının vəzifəli şəxsi dindirilən şəxsə suallar verə bilər.

Şəxsin onun şəxsiyyəti, ünvanı, səyahət marşrutu, səyahət sənədi və digər məsələlər barədə sorğu-sual edilməsi gömrük ərazisinə daxil olan nəqliyyat

vasitəsindən düşmüş və ya düşdüyü ehtimal edilən, həmçinin gömrük ərazisinə daxil olması faktını gizlətmiş və ya gizlətməsi ehtimal olunan şəxslərə şamil edilir.

Gömrük orqanlarının vəzifəli şəxsləri göstərilən şəxsləri aşağıdakı məsələlər barədə sorğu-sual etmək hüququna malikdirlər:

- şəxsin şəxsiyyətini təsdiq edən sənədlər;
- şəxsin yaşadığı ünvan;
- şəxsin səyahətinin məqsədi və marşrutu;
- şəxsin səyahət sənədi;
- şəxsin düşdüyü və ya düşməsi ehtimal edilən və gömrük ərazisindən yola düşməyə cəhd göstərdiyi və ya cəhd göstərməsi ehtimal edilən nəqliyyat vasitəsi.

Gömrük orqanlarının vəzifəli şəxsləri eyni zamanda nəqliyyat müəssisələrinin sahiblərini və onların işçilərini da sorğu-sual etmək hüququna malikdirlər.

Sorğu-sualla bağlı sənədlərin təqdim olunması və yoxlanılması

- Şəxs, gömrük orqanlarının vəzifəli şəxslərinin sorğu-sual aparılması üçün bu Məcəlləyə uyğun olaraq tələb etdiyi aidiyyəti sənədləri onlara təqdim etməlidir.
- Şəxsin təqdim etdiyi sənədlər gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən dərhal yoxlanılır və yoxlama başa çatdıqdan sonra ona qaytarılır.

6. Gömrük baxışı.

Gömrük baxışı – gömrük orqanının vəzifəli şəxsi tərəfindən həyata keçirilən inzibati fəaliyyət olmaqla, nəqliyyat vasitələrinin xarici görünüşünü, onda olan yüklərin – tarada və yaxud bükülmüş (qablaşdırılmış) halda olan malların açılmadan nəzərdən keçirilməsi və onların gömrük sərhədindən keçirilməsinin qanuni olmasını müəyyən etmək məqsədilə həyata keçirilir. Bu halda nəqliyyat vasitələrinin və malların identifikasiyası aparılır.

Malların və nəqliyyat vasitələrinin identifikasiyası yolu ilə gömrük nəzarəti onlara plomb, möhür vurulması, rəqəmli, hərfli və digər identifikasiya üsullarının tətbiqi, ştampların vurulması, malları və nəqliyyat vasitələrini təsvir edən çertyojların tərtibi, təsvirlərin, fotoların, illüstrasiyaların hazırlanması və eləcə də malmüşayətedici sənədlərin təsdiqlənməsi yolu ilə həyata keçirilir.

Gömrük baxışı icra edildikdən sonra malların və nəqliyyat vasitələrinin sərhəddən keçirilməsi və öz yolunu davam etdirməsinə icazə verən müvafiq imzalar, ştamplar və möhürlər gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən qoyulur. Qapalı, bağlı və bükülü olan mallar, nəqliyyat vasitələrinin yük olan bölmələri, konteynerlər gömrük təminatı və qorunmasının təmin edilməsi məqsədilə mütləq nişanlanmalıdırlar. Bu nişanlar vurularkən plombların, açarların, sarğıların və s. dəyişdirilməsi, açılması kimi əməllərin yolverilməzliyi nəzərə alınmalıdır.

Gömrük təcrübəsində yüklərin daşınması zamanı plombların, möhürlərin vurulması, sarğı və dolaqların möhkəm və etibarlı olması, daşınan malların qorunmasına xidmət edir. Bu səbəbdən də, yük vurulmuş maşınlar, konteynerlər və malların bükülməsi elə olmalıdır ki, onların plomb və möhürlərini açmadan oraya heç bir şey qoymaq və ya götürmək mümkün olmasın. Plomblanmış və möhürlənmiş

yüklərin açılması və yoxlanılması yalnız gömrük orqanları tərəfindən və yük sahibinin iştirakı ilə həyata keçirilə bilər. Yalnız qəza baş verdikdə və ya daşınan malların real məhv olmaq təhlükəsi yarandıqda bu identifikasiya nişanları açıla və ya pozula bilər ki, bu halda da, təcili olaraq gömrük orqanlarına xəbər verilməlidir.

Gömrük baxışı həyata keçirilərkən bu identifikasiya nişanlarının (plomb, möhür, sarğı, dolaq və s.) yerbəyer olması və pozulub – pozulmaması da yoxlanılır.

Gömrük orqanlarının praktik fəaliyyəti zamanı mallara və nəqliyyat vasitələrinə baxışın keçirilməsi, idxal – ixrac əməliyyatları zamanı malların ölkəyə gətirilməsi və ölkədən çıxarılması hallarında baş verir. Bunun üçün hüquqi əsas isə Beynəlxalq Daşımalar Üzrə Gömrük Konvensiyasının tətbiqi barədə Əsasnamədir.

Əgər yük yolda olarkən hər – hansı bir səbəbdən gömrük orqanlarının plombları və möhürləri zədələnərsə və ya pozularsa, eləcə də daşınan mallar zay olarsa (məhv olarsa), sürücü bu barədə ən yaxınlıqda olan gömrük orqanına, yaxud da əlaqədar dövlət orqanlarına (polisə, dövlət yol müfəttişliyinə) təcili olaraq xəbər verməlidir. Bundan sonra həmin orqanların nümayəndələri tərəfindən avtonəqliyyat vasitəsinə baxış keçirilməli və protokol tərtib edilməlidir. Bu protokolda bütün zəruri göstəricilər, o cümlədən qəzanın (xətanın) xarakteri və səbəbi, eləcə də yükün qorunması üçün görülmüş tədbirlər göstərilməlidir.

Əgər belə pozuntular və xətalar gömrük işçiləri tərəfində aşkar edilərsə, onda da yük daşınması qaydalarının pozulması barədə protokol tutulmalıdır.

7. Əyani (vizual) müşahidə.

Gömrük nəzarəti zonasında operativ vəziyyəti izləmək və qiymətləndirmək üçün müəyyən əyani müşahidə tədbirlərinin həyata keçirilməsi vacibdir.

Belə tədbirlərdən biri, vizual müşahidədir. Bu müşahidə konkret olaraq gömrük nəzarəti zonasında müəyyən şəxslərin (eləcə də, qeyri-müəyyən şəxslərin) davranışları barədə operativ məlumat əldə edilməsi işinə xidmət edir. Vizual müşahidənin təşkili fiziki şəxslər tərəfindən gömrük sərhədinin qeyri-qanuni keçilməsi cəhdlərini aşkar etmək, nəqliyyat vasitələri ilə və yaxud piyada gömrük sərhədini pozmaq hallarının, qaçaqmalçılığın qarşısını almaq məqsədilə həyata keçirilir.

Vizual müşahidə ilk növbədə ən vacib ərazilərdə – dəmir yolu stansiyalarında, dəniz limanlarında, təyyarə vağzallarında, avtovağzallarda aparılır.

Bu müşahidələrin əsas və başlıca məqsədi gömrük zonasında – quru və su sahələrində – gömrük qanunçuluğunun pozulmasına yol verməmək və hər cür iqtisadi təxribatların, qaçaqmalçılığın və oğurluq hallarının qarşısının alınmasıdır.

Vizual müşahidə, həmçinin gəmilərin qanunsuz və ya gizli daxili sulara girməsi, yaxud da xaricə yola düşməsi kimi faktları aşkar etməyə xidmət edir.

Bütün müşahidələrin aparılması üçün həm gömrük orqanı işçilərindən, həm də zəruri texniki vasitələrdən istifadə olunur. Gömrük işçiləri vizual müşahidə aparmaq üçün vağzal və limanlarda televiziya kameralarından, nəzarət monitorlarından istifadə

edirlərsə, dəniz və quru sərhədlərində durbinlərdən, qaranlıqda görmə cihazlarından və digər texniki vasitələrdən istifadə edirlər.

Vizual müşahidə və izləmə, fiziki şəxslər tərəfindən, qaçaqmalçılar tərəfindən və digər obyektlər tərəfindən gömrük qanunlarının və dövlət sərhədinin pozulmasının qarşısının alınması ilə yanaşı, oğurluq malların, narkotik maddələrin, silah-sursat daşınmasının, saxlanmasının və satışının qarşısının alınmasında müstəsna rol oynayır.

Əmtəələrin və nəqliyyat vasitələrinin uçotu.

Müvəqqəti saxlama anbarında, gömrük anbarlarında, rüsumsuz ticarət mağazalarının anbarlarında əmtəələrin uçotu və hesabatı müxtəlif formalarda aparılır. Bunların içərisində ən vacibi, müvəqqəti saxlama anbarlarında aparılan uçot kitabı və uçotun gömrük sənədidir. Belə sənəd kimi qısa bəyannamələr, YGB, YGB blanklarında doldurulmuş sənədlər, nəqliyyat və nəqliyyat müşayiətedici sənədlər istifadə oluna bilər.

Gömrük nəzarətində olan əmtəələr üzrə (sərbəst gömrük zonası ərazisində və sərbəst anbarlarda olan) müəssisələr, təşkilatlar və idarələr üçün gömrük orqanları tərəfindən aparılan, gətirilən, daxil olan, saxlanılan, hazırlanan, emal edilən, alınan və satılan əmtəələr barədə hesabat müəyyən olunur və bu əmtəələrin uçotunun aparılması tələb olunur.

Gömrük orqanına hesabat verilməməsi və uçotun aparılmasında qoyulmuş qaydalara əməl olunmaması xəbərdarlıq, yaxud da minimum əmək haqqının 5 mislindən 15 mislinədək cərimə kəsilməsi ilə nəticələnə bilər. Bu halda, verilmiş lisenziya da geri alına bilər.

Gömrük orqanlarının vəzifəli şəxsləri gömrük nəzarətini aşağıdakı üsullarla həyata keçirirlər:

1) gömrük təminatı vasitələrindən istifadə etməklə;
2) gömrük nəzarətinin həyata keçirilməsinə yardım üçün mütəxəssisləri və ekspertləri cəlb etməklə;
3) gömrük nəzarəti zonalarını yaratmaqla və qanunvericilikdə nəzərdə tutulmuş digər üsullarla.

Gömrük nəzarətinin həyata keçirilməsi zamanı gömrük orqanları aşağıdakı vasitələrdən istifadə edirlər:

1) texniki nəzarət vasitələrindən (detektorlar, rentgen aparatları, surətçıxaran avadanlıqlar, mexaniki, elektrik, elektron cihazlar, gömrük nəzarəti üzrə müşayiət qurğuları, qlobal mövqetəyinetmə sistemi (GPS) və s.);
2) dəniz (çay) və hava gəmilərindən;
3) gömrük orqanlarının informasiya resurslarından;
4) xidməti itlərdən və gömrük nəzarətinin məqsədlərinə nail olmaq üçün siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş digər vasitələrdən.

Gömrük əməliyyatlarında tətbiq edilən ilkin sənədlər.

1) *Gömrük əməliyyatlarında tətbiq edilən ilkin sənədlər*
2) *İdxal və ixrac əmtəələrinin göndərişi barədə kontraktın əsas şərtləri*
3) *Kontraktların nömrələnmə və imzalanma qaydaları*
4) *Fors-major*

Gömrük nəzarətinin həyata keçirilməsi üçün aşağıdakı sənədlər tələb olunur:

1. nəqliyyat sənədləri;
2. mallar və nəqliyyat vasitələri barədə məlumatları özündə əks etdirən bəyannamə.

Gömrük Məcəlləsinin 40.2-ci maddəsinə uyğun olaraq, tələb olunan sənədləri təqdim edən şəxs onlarda göstərilən məlumatların düzgünlüyünə və tamlığına görə cavabdehdir.

Gömrük sərhəd buraxılış məntəqələrində mallar və nəqliyyat vasitələri üzərində aparılan gömrük nəzarətinin mərhələləri

Gömrük sərhəd buraxılış məntəqələrində mallar və nəqliyyat vasitələri üzərində gömrük nəzarəti bir-birini tamamlayan üç əsas mərhələdə həyata keçirilir:

1. malları və nəqliyyat vasitələrini gömrük orqanına təqdim edən şəxs tərəfindən məlumatlandırma (bundan sonra - məlumatlandırma) və gömrük orqanları tərəfindən qeydiyyat (bundan sonra - qeydiyyat);
2. sənədli nəzarət;
3. çatdırılmaya nəzarət.

Məlumatlandırma və qeydiyyat mərhələsi malların və nəqliyyat vasitələrinin gömrük sərhədini keçərək gömrük ərazisinə faktiki daxil olduğu andan və ya gömrük ərazisini tərk etmək məqsədi ilə gömrük sərhəd buraxılış məntəqəsinə daxil olduğu andan başlanılır. Məlumatlandırma və qeydiyyat mərhələsinə aid hərəkətlər aşağıdakılardır:

1. gömrük ərazisinə gələn (gömrük ərazisindən çıxan) nəqliyyat vasitələrinin bilavasitə gömrük sərhəd buraxılış məntəqəsinə daxil olmasına icazə verilməsi;
2. gömrük nəzarəti məqsədi ilə gömrük orqanlarına təqdim edilməsi tələb olunan, mallar və nəqliyyat vasitələri barədə məlumatları əks etdirən sənədlərin qəbul edilməsi;
3. nəqliyyat vasitələri üzərində gömrük baxışının keçirilməsi;
4. nəqliyyat vasitələri üzərində gömrük baxışının nəticəsi üzrə gömrük qaydalarının pozulması və ya digər risk halları müəyyən edildikdə, gömrük yoxlanılmasının aparılması;
5. şəxsi yoxlama aparıldıqda, bu barədə protokolun tərtib olunması;
6. mallara və nəqliyyat vasitələrinə dair məlumatların qeydiyyatının aparılması.

Mallara və nəqliyyat vasitələrinə gömrük baxışı, nəqliyyat vasitəsinin və ya onun yük hissəsinin açılmadan, eləcə də malların qablaşdırılması pozulmadan gömrük orqanının vəzifəli şəxsi tərəfindən malların və nəqliyyat vasitələrinin, plomb və digər eyniləşdirmə vasitələrinin, fiziki şəxslərə məxsus malların xarici vizual müayinəsinin həyata keçirilməsini nəzərdə tutur. Məlumatlandırma və qeydiyyat mərhələsinə aid edilən hərəkətlər ardıcıl və ya eyni vaxtda həyata keçirilir. Nəqliyyat vasitələri gömrük nəzarəti zonasına faktiki daxil olmazdan əvvəl gömrük orqanlarında ilkin

məlumatların qeydiyyatının aparılması məqsədi ilə fiziki və ya hüquqi şəxslər tərəfindən Gömrük Məcəlləsində nəzərdə tutulmuş qaydada mallara və nəqliyyat vasitələrinə dair ilkin məlumatlar təqdim oluna bilər.

Sənədli nəzarət mərhələsinə aid edilən hərəkətlər aşağıdakılardır:

1. gömrük prosedurları əsasında gömrük qanunvericiliyinə riayət olunmasını təmin etmək məqsədi ilə nəzarət tədbirlərinin həyata keçirilməsi;
2. gömrük sərhəd buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin sənədlərinin, o cümlədən malların baytarlıq, fitosanitar və sanitariya nəzarəti məqsədi ilə sənədlərin, həmçinin Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq konvensiyalarla və müqavilələrlə müəyyən olunmuş sənədlərin yoxlanılmasının həyata keçirilməsi;
3. gömrük orqanlarına təqdim edilmiş malların və nəqliyyat vasitələrinin sənədlərdə göstərilən məlumatlarla uyğunluğunun müəyyən edilməsi;
4. yol vergilərinin hesablanması, icazə blanklarının verilməsi və onlara nəzarət;
5. ödənilməli olan gömrük ödənişlərinin alınmasının təmin edilməsi;
6. əqli mülkiyyət hüquqlarının qorunması üzrə bu Qaydaların 8.7-ci və 9.3-cü bəndləri ilə müəyyən edilmiş tədbirlərin həyata keçirilməsi;
7. gömrük nəzarətinin həyata keçirilməsi məqsədi ilə qanunvericiliklə müəyyən olunmuş digər tədbirlərin görülməsi.

Çatdırmaya nəzarət mərhələsi gömrük nəzarətində olan malların və nəqliyyat vasitələrinin, o cümlədən onlara dair sənədlərin gömrük ərazisində yerləşən göndərən gömrük orqanından təyinat gömrük orqanına çatdırılmasına nəzarəti əhatə edir və iki gömrük orqanı arasında daşınan mallar və nəqliyyat vasitələri üzərində gömrük nəzarətinin və gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsi qaydaları əsasında təşkil olunur. Çatdırmaya nəzarət mərhələsinə aid edilən hərəkətlər aşağıdakılardır:

1. gömrük nəzarətindən keçən malların və nəqliyyat vasitələrinin digər gömrük orqanına çatdırılması üçün sənədləşdirmənin aparılması;
2. çatdırılma üzrə müəyyən olunmuş müddətlərə nəzarət edilməsi;
3. gömrük ərazisini tərk etmək məqsədi ilə gömrük nəzarəti zonasına daxil olan nəqliyyat vasitələrinin faktiki çıxışının təsdiq edilməsi.

Çatdırmaya nəzarət mərhələsində riskli hallar müəyyən olunduqda, gömrük nəzarətinin müvafiq formalarından istifadə etməklə, nəqliyyat vasitəsilə bağlı əlavə gömrük nəzarəti həyata keçirilir.

Gömrük sərhəd buraxılış məntəqələrində mallar və nəqliyyat vasitələri üzərində gömrük nəzarətinin ardıcıllığı

Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçmə məqsədlərindən asılı olaraq gömrük sərhəd buraxılış məntəqələrində gömrük nəzarəti mərhələləri daxilində gömrük hərəkətlərinin biri və ya bir neçəsi həyata keçirilir. Bu hərəkətlər avtomobil, dəmir yolu, hava və dəniz nəqliyyat növləri ilə gömrük sərhədindən keçirilmə xüsusiyyətləri əsasında bu Qaydaların müvafiq müddəaları ilə tənzimlənir. Gömrük sərhəd buraxılış məntəqələrinin fəaliyyət xüsusiyyətləri və infrastruktur imkanları

nəzərə alınaraq, gömrük nəzarəti mərhələləri ardıcıl və ya eyni vaxtda həyata keçirilə bilər. Gömrük nəzarəti mərhələsində gömrük hərəkətlərinin yerinə yetirilməsində bir və ya bir neçə gömrük əməkdaşı iştirak edə bilər.

Avtomobil buraxılış məntəqələrində gömrük nəzarətinin xüsusiyyətləri

Məlumatlandırma və qeydiyyat mərhələsində gömrük orqanı tərəfindən həyata keçirilən gömrük hərəkətləri malların və nəqliyyat vasitələrinin hərəkət istiqaməti (gömrük ərazisinə gəlmə və ya gömrük ərazisindən getmə) əsasında müəyyən olunur və aşağıdakıları əhatə edir:

1. gömrük ərazisinə gətirilən malların və nəqliyyat vasitələrinin gömrük sərhədini keçdiyi andan gömrük nəzarətinə alınması;
2. gömrük orqanları tərəfindən malların və nəqliyyat vasitələrinin gömrük nəzarəti zonasında yerləşən gömrük baxışı yerinə çatdırılmasına icazə verilməsi;
3. malların və nəqliyyat vasitələrinin gömrük ərazisini tərk etməsi ilə bağlı gömrük hərəkətlərinin həyata keçirilməsi.

Gömrük təminatları olmayan nəqliyyat vasitələri üzərində risklər əsasında gömrük məqsədləri üçün gömrük baxışı və (və ya) gömrük yoxlaması aparılır. Gömrük nəzarətinin formalarının tətbiqi tamamlandıqdan sonra daşıma sənədində nəzarəti həyata keçirən gömrük orqanının vəzifəli şəxsi tərəfindən zəruri qeydlər aparılır. Gömrük nəzarətinin formalarının nəticəsi üzrə mallara və nəqliyyat vasitələrinə dair məlumatların qeydiyyatı üzrə hərəkətlərə başlanılır. Mallara və nəqliyyat vasitələrinə dair məlumatların qeydiyyatı mal müşayiət sənədlərində göstərilən məlumatlar və (və ya) qısa idxal (ixrac) bəyannaməsinin məlumat göstəriciləri əsasında aparılır. Malların və nəqliyyat vasitələrinin qeydiyyatı tamamlandıqdan sonra gömrük nəzarətinin növbəti mərhələsi olan sənədli nəzarət mərhələsinə başlanılır.

Sənədli nəzarət mərhələsinə aid edilən hərəkətlər aşağıdakıları əhatə edir:

1. gömrük sərhədindən keçirilmə məqsədlərini təsdiqləyən sənədlərin yoxlanılması (gömrük ərazisinə gəlmə, gömrük ərazisindən getmə, tranzit);
2. qeydiyyata alınmış mallara və nəqliyyat vasitələrinə dair məlumatların və sənədlərin yoxlanılması;
3. qadağa və məhdudiyyətlərə, eləcə də malların idxal-ixracı ilə bağlı bütün tənzimlənmə qaydalarına riayət olunmasının yoxlanılması;
4. qanunvericilikdə nəzərdə tutulmuş hallarda malların gömrük sərhədindən keçirilməsi üçün icazə sənədlərinin və ya məlumatların mövcudluğunun yoxlanılması;
5. qanunvericilikdə nəzərdə tutulmuş hallarda sənədli nəzarəti həyata keçirən gömrük orqanının vəzifəli şəxsi tərəfindən malların və nəqliyyat vasitələrinin gömrük yoxlanılması (gömrük yoxlanılması sənədli nəzarəti həyata keçirən gömrük orqanının vəzifəli şəxsinin tapşırığına əsasən, sənədli nəzarət mərhələsində gömrük hərəkətlərini aparan gömrük orqanının digər vəzifəli şəxsi və ya məlumatlandırma və qeydiyyat mərhələsində gömrük hərəkətlərini aparan gömrük orqanının vəzifəli şəxsi tərəfindən həyata keçirilə bilər);

6. mallar beynəlxalq yük daşınması kitabçası istifadə edilməklə daşındıqda, onların "Beynəlxalq yük daşınması kitabçası tətbiq etməklə beynəlxalq yük daşımaları haqqında 1975-ci il tarixli Konvensiya"nın tələblərinə uyğunluğu əsasında beynəlxalq yük daşınması kitabçasının rəsmiləşdirilməsi.

Gömrük orqanlarına həvalə edilmiş beynəlxalq avtomobil daşımalarını tənzimləyən "icazə" blanklarının verilməsinə nəzarəti və bu sahədə qanunvericiliyin tələblərinə riayət olunmasını təmin etmək məqsədi ilə aşağıdakılar həyata keçirilir:

1. "icazə" blanklarının verilməsi və buna görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumunun alınması;
2. yol vergilərinin hesablanması;
3. beynəlxalq avtomobil daşımalarına aid Azərbaycan Respublikası ilə hökumətlərarası sazişi olan xarici dövlətlərin yük və sərnişin avtomobil daşıyıcıları üçün giriş-çıxış və tranzit keçid hüququnu müəyyənləşdirən kvotaların və beynəlxalq icazələrin, həmçinin müntəzəm sərnişin daşımalarında qabaqcadan müəyyən edilmiş marşrut və hərəkət cədvəlinin yoxlanılaraq qeydə alınması.

Çatdırmaya nəzarət mərhələsində aşağıdakılar həyata keçirilir:

1. göndərən gömrük orqanından təyinat gömrük orqanına, məlumatları qeydiyyata alınmış malların və nəqliyyat vasitələrinin və sənədlərin çatdırılmasına nəzarətin təmin edilməsi və müvafiq rəsmiləşdirilmənin aparılması;
2. çatdırılmaya nəzarət mərhələsi üzrə məlumatları qeydiyyata alınmış malların və nəqliyyat vasitələrinin müəyyən olunmuş müddətlərdə gömrük orqanına çatdırılmasının yoxlanılması;
3 çatdırılma müddətlərinə riayət olunmadığı hallarda axtarış tədbirlərinin həyata keçirilməsi üzrə məlumatlandırılmanın aparılması;
4. çatdırılmanın təsdiqlənməsi.

Dəmiryol buraxılış məntəqələrində gömrük nəzarətinin xüsusiyyətləri

Dəmiryol buraxılış məntəqələrində məlumatlandırma və qeydiyyat mərhələsində gömrük orqanı tərəfindən həyata keçirilən gömrük hərəkətləri malların və nəqliyyat vasitələrinin hərəkət istiqaməti (gömrük ərazisinə gəlmə və ya gömrük ərazisindən getmə) əsasında müəyyən olunur və aşağıdakıları əhatə edir:

1. beynəlxalq daşımaları həyata keçirən operatorlar tərəfindən qatarların ölkəyə daxil olduğu ana qədər gömrük ərazisinə gələn sərnişinlər barədə təqdim olunan məlumatların yoxlanılması və təhlillərin aparılması;
2. beynəlxalq daşımaları həyata keçirən operatorlar tərəfindən qatarların yola düşməsi anına qədər gömrük ərazisindən kənar əraziyə yola düşən sərnişinlər barədə təqdim edilmiş məlumatların yoxlanılması və təhlillərin aparılması;
3. dəmiryol qatarının və onlarda daşınan yüklərin gömrük sərhədini keçdiyi andan gömrük nəzarətinə alınması;
4. dəmiryol qatarı ilə daşınan mallara dair məlumatların qeydiyyatının aparılması;
5. dəmiryol qatarı üzərində gömrük baxışının aparılması.

Dəmiryol qatarının və onlarda daşınan mallara dair məlumatların qeydiyyatı mal müşayiət sənədlərində göstərilən məlumatlar və (və ya) qısa idxal (ixrac) bəyannaməsinin məlumat göstəriciləri əsasında aparılır.
Sənədli nəzarət mərhələsinə aid edilən hərəkətlər aşağıdakıları əhatə edir:
1. dəmiryol qatarının və onlarda daşınan malların gömrük sərhədindən keçirilməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş sənədlərin faktiki təqdim edilməsinin yoxlanılması;
2. gömrük sərhədindən keçirilmə məqsədlərini təsdiqləyən sənədlərin yoxlanılması (gömrük ərazisinə gəlmə, gömrük ərazisindən getmə, tranzit);
3. məlumatları qeydiyyata alınmış dəmiryol qatarı və onlarda daşınan mallara dair məlumatların və sənədlərin yoxlanılması;
4. qadağa və məhdudiyyətlərə, eləcə də malların idxal-ixracı ilə bağlı bütün tənzimlənmə qaydalarına riayət olunmasının yoxlanılması;
5. qanunvericilikdə nəzərdə tutulmuş hallarda malların gömrük sərhədindən keçirilməsi üçün icazə sənədlərinin və ya məlumatların mövcudluğunun yoxlanılması;
6. qanunvericilikdə nəzərdə tutulmuş hallarda sənədli nəzarəti həyata keçirən gömrük orqanının vəzifəli şəxsi tərəfindən dəmiryol qatarının və onlarda daşınan malların gömrük yoxlanılması (gömrük yoxlanılması sənədli nəzarəti həyata keçirən gömrük orqanının vəzifəli şəxsinin tapşırığına əsasən, sənədli nəzarət mərhələsində gömrük hərəkətlərini aparan gömrük orqanının digər vəzifəli şəxsi və ya məlumatlandırma və qeydiyyat mərhələsində gömrük hərəkətlərini aparan gömrük orqanının vəzifəli şəxsi tərəfindən həyata keçirilə bilər).
Aparılan hərəkətlərin nəticəsi üzrə mal müşayiət sənədində gömrük orqanının qeydləri aparılır.

Beynəlxalq hava və dəniz limanlarında gömrük nəzarəti

Hava və dəniz nəqliyyatı və onlarda daşınan mallara dair məlumatların qeydiyyatı mal müşayiət sənədlərində göstərilən məlumatlar və (və ya) qısa idxal (ixrac) bəyannaməsinin məlumat göstəriciləri əsasında aparılır..

Gömrük rəsmiləşdirilməsi yerlərində gömrük nəzarəti

Gömrük rəsmiləşdirilməsi yerlərində malların və nəqliyyat vasitələrinin yerləşdirildiyi müvafiq gömrük prosedurunun tələblərinə riayət olunmasını təmin etmək məqsədi ilə gömrük nəzarəti həyata keçirilir. Gömrük rəsmiləşdirilməsi yerlərində gömrük nəzarəti mərhələlərinə aşağıdakılar aid edilir:
1. gömrük bəyannamələrinin qeydiyyatı və uçotu;
2. seçilmiş gömrük prosedurunun tələblərinə riayət edilməsinə nəzarət;
3. xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun olaraq malların kodunun və mənşə ölkəsinin müəyyənləşdirilməsinin düzgünlüyünə, məhdudiyyət və qadağalar üzrə qanunvericiliklə müəyyən edilmiş tələblərə riayət edilməsinə nəzarət;
4. valyuta nəzarəti və gömrük dəyərinin müəyyən edilməsinə nəzarət;
5. gömrük ödənişlərinə nəzarət;
6. gömrük baxışı;

7. gömrük bəyannamələrinin Gömrük Məcəlləsinin 151-ci maddəsi ilə müəyyən edilmiş şərtlərə uyğunluğunun yoxlanılması və təsdiqi.

Sənəd (sübut, şəhadət) dedikdə elə hüquqi qüvvəyə malik olan maddi obyekt başa düşülür ki, orada məzmun, səs və ya rəsmlə vaxt və məkana görə götürülməsi mümkün olan informasiya verilmiş olsun. Bu informasiya şəxsi və ya ictimai istifadə və saxlanmaq üçün yararlı olmaqla müəyyən məlumatları göstərməklə sübut üçün faktları əks etdirməlidir: xidməti məktub, işçinin yazılı izahatı, nəqliyyat qaiməsi, jurnalistin reportajı, pasport, gömrük qaydalarının pozulması haqqında protokol, diplomatik nota, doğum haqqında şəhadətnamə, diplom, qaimə, müqavilə, lisenziya və i.a. və s.

Müxtəlif xarici iqtisadi təsərrüfat əməliyyatlarının aparılmasını təsdiq edən sübut ilkin sənədlərdir. Bu sənədlər həm də mühasibat uçotunun aparılması və hesabatların tərtib edilməsi üçün hüquqi əsas hesab olunurlar. Məhz bu səbəbdən də ilkin sənədlər əməliyyatların baş verməsi və onların qanuni olmasını təsdiqləyən sübutlardır.

Gömrük nəzarətinin keçirilməsi üçün ilkin sənəd, saziş iştirakçılarının hüquq, vəzifə və cavabdehliyini müəyyən edən idxal və ixrac əmtəələrinin göndərişi barədə kontraktdır.

Kontraktın əsas şərtləri aşağıdakılardır:

- müqavilənin predmeti;
- əmtəə və ya xidmətin qiyməti və kontraktın ümumi məbləği;
- malların göndərilməsinin kommersiya (bazis) şərti (Azərbaycan Respublikası DGK 16.04.1999-cu il tarixli əmrilə təsdiq olunmuş Təlimata uyğun olaraq)
- əmtəənin göndərilmə müddəti;
- ödəniş şərti və hesablama forması;
- əmtəənin bükülməsi və markalanması;
- öhdəliklərin icrası üçün zəmanət;
- kontrakt şərtlərinin pozulması hallarında cərimə sanksiyaları;
- sığortalama;
- gözlənilməz hallar (fors - major);
- arbitraj.

Kontraktda sazişin xarakteri, əmtəənin xüsusiyyətləri və göndəriş şərtləri ilə bağlı digər şərtlər verilə bilər.

Mərkəzi Bankın tövsiyəsinə əsasən, xarici iqtisadi fəaliyyətlə məşğul olan təşkilatlara məsləhət bilinir ki, xarici iqtisadi kontraktlarda unifikasiya olunmuş, iki bölgü ilə ayrılmış üç qrupdan ibarət olan kontrakt nömrələrindən istifadə etsinlər.

HH /XXXXXXXX/ XXXXX və ya RRR /XXXXXXXX/ XXXXX; burada: ilk qrup iki hərifdən (HH) və ya üç rəqəmdən (RRR) ibarət Satıcı (Alıcı) ölkənin kodudur ki, bu da gömrük sənədlərinin tərtibatında istifadə olunan Beynəlxalq "Dünya ölkələri" təsnifatına uyğun gələn koddur. İkinci qrup səkkiz rəqəmdən ibarət koddur ki, bu da Milli "Müəssisə və təşkilatlar" təsnifatından götürülən Satıcı (Alıcı)

təşkilatın kodudur. Üçüncü qrup beş rəqəmli koddur ki, bu da Satıcı (Alıcı) təşkilat səviyyəsində tərtib edilən sənədin sıra (ardıcıllıq) sayıdır (nömrəsidir).

Kontraktın imzalanma tarixi aşağıdakı kimi tərtib olunur:

GG. AA. İİ, burada GG – gün (2 rəqəm); AA – ay (2 rəqəm); İİ – il (2 rəqəm – ilin son rəqəmi). Gün, ay və illəri göstərən hər iki rəqəm biri – birindən nöqtə ilə ayrılır.

Xarici ticarət kontraktında aşağıdakılar göstərilir:

- Kontraktın imzalanma yeri;
- Satıcı və Alıcı təşkilatların tam şəkildə yazılmış rəsmi adı;
- Xarici tərəfdaşın ölkəsi və əmtəənin göndərildiyi (alındığı) ölkə;
- Ölkələrin tam adları və onların gömrük tərtibatları məqsədilə istifadə edilən Beynəlxalq «Dünya ölkələri» təsnifatında verilmiş üçrəqəmli kodları.

Müqavilənin (Kontraktın) predmeti.

Müqavilədə (Kontraktda) aşağıdakılar göstərilir;

- Əmtəənin adı və tam xarakteristikası;
- Əmtəənin tam kommersiya adı, çeşidi, ölçüləri, modeli, komplekti (dəsti), istehsal olunduğu ölkə və əmtəəni təsvir etmək üçün məhsulun beynəlxalq və ya milli standartına istinad və digər məlumatlar;
- Əmtəənin taralaşdırılması, (qablaşdırılması, markalanması);
- Beynəlxalq "Yük, qablaşdırma və qablaşdırma materialları növləri üçün kodlar (qablaşdırma adları üçün əlavə kodlar) təsnifatı"na uyğun olaraq taranın və ya qablaşdırıcının adı;
- Əmtəənin markalanmasına izahat və tələblər.

Əmtəənin həcmi, çəkisi, miqdarı.

Yükün həcmi, onun tara ilə birlikdə çəkisi (brutto) və ya təmiz çəkisi (netto) razılaşdırılmış ölçü vahidi ilə verilir. Əgər lazım gələrsə, malın miqdarı xarici iqtisadi fəaliyyətdə əmtəə nomenklaturu (XİFƏN) cədvəlinə uyğun olan ölçü vahidlərinə görə göstərilə bilər.

Qiymət və məbləğ. Kontraktın ümumi məbləği və əmtəə vahidinin qiyməti valyuta ilə göstərilir. Bu halda əmtəə göndərilməsi şərtlərini müəyyən edən "Standart anlayışlar üzrə Beynəlxalq qaydalar (İNKOTERMS – 2000)" üzrə müəyyən olunan göndərişin bazis adına müvafiq qiymət göstərilir; valyutanın kodu və adı, gömrük sənədləşdirilməsində istifadə olunan Beynəlxalq «Valyutalar təsnifatı»nda verilmiş formada olmalıdır.

Əgər, kontrakt bağlanan zaman əmtəənin qiymətini və müqavilə üzrə ümumi məbləği valyuta ilə müəyyən edilə bilmirsə, onda qiymətin və ya onun alınması qaydasını izah edən elə bir formul (düstur) təklif edilir ki, müqavilənin hər bir şərti üzrə icra edilən iş üçün həm əmtəənin qiymətini, həm də ümumi məbləği dəqiq müəyyən etmək imkanı olsun.

Ödəmə şərtləri.

Müqavilədə ödəmə şərtlərinin izahı verilir. Ödəniş aparılacaq valyutanın Beynəlxalq təsnifat üzrə adı və kodu göstərilir, ödəmə vaxtı və əgər bu vaxt uzadılacaqsa onun şərtləri qeyd edilir. Eləcə də, göndərmə faktını təsdiq edən göndərilən əmtəələrin qiymətləri və nomenklaturunu təsdiqləyən Alıcının Satıcıya verəcəyi bütün məcburi (vacib) sənədlərin siyahısı göstərilməlidir.

Məsləhət görülür ki, ödəmənin akkreditiv forması və ya elə forması nəzərdə tutulsun ki, ixrac üçün ödənilən valyuta mədaxili, əvvəllər idxal üçün ödənilmiş, lakin alınmamış ödənişlərin ödənilməsinə zəmanət olsun.

Tərəflərin banklarının (filiallarının) tam adları və poçt ünvanları, hesab nömrələri, ödəniş rekvizitləri göstərilir.

Tədarük müddəti

Əmtəələrin tədarük qaydası – tədarükün tamamlanma vaxtı və ya əmtəənin konkret partiyalarla ödənilməsi qrafiki kontraktın fəaliyyət müddəti ərzinə uyğun verilməlidir. Bu müddət ərzində əmtəələrin tədarükü və müqavilə üzrə qarşılıqlı hesablaşmalar tamamilə başa çatmalıdır.

Fors – major

Qabaqcadan nəzərə alınması mümkün olmayan (fors – major) hallar, sövdələşmənin digər xüsusiyyətləri və şərtləri formalaşdırılır.

Ayrıca bəndlərdə və ya bölmələrdə sövdələşmənin digər şərtləri və cəhətləri razılaşdırılır (zəmanət öhdəlikləri, lisenziya ödənişləri, texniki yardım, avadanlıqların yığılması, sazlanması, quraşdırılması, işçilərin öyrədilməsi, informasiya və digər xidmətlər).

Mübahisələrə baxılması

Etirazların bildirilməsi və baxılması qaydaları, etirazlar üzrə ödəniş qaydaları, mübahisəli məsələlərin arbitrajda baxılması kontraktda verilməlidir. Kontrakt üzrə münasibətlərin hansı dövlətin hüquq qaydaları ilə tənzimlənəcəyi göstərilməlidir.

Sanksiyalar

Tərəflər öhdəliklərinə əməl etmədikdə – mal göndərilməsi gecikdirildikdə və (və ya) əmtəənin haqqının ödənilməsi gecikdirildikdə, eləcə də əmtəə keyfiyyətsiz və miqdarından az tədarük edildikdə tətbiq ediləcək sanksiyalar göstərilir.

Alıcının və satıcının ünvanları

Alıcı və Satıcının hüquqi və tam poçt ünvanı, əlaqə telefonları, faks, teleksləri (təşkilatların) göstərilir.

Tərəflərin imzaları

Müqavilə imzalamaq səlahiyyəti verilmiş Alıcı və Satıcı təşkilatların təmsilçilərinin möhürlə təsdiq edilmiş imzaları, soyadı, adı və atasının adı və vəzifəsi göstərilməklə verilir.

Gömrük əməliyyatlarında tərtib edilən əsas sənədlərin təsnifatı

1) *Gömrük nəzarəti üçün lazım olan sənədlər*
2) *Əmtəə - sərəncam sənədləri*

3) *Bəyannaməçinin gömrük rəsmiləşdirilməsi məqsədilə təqdim etməli olduğu sənədləri*
4) *"İxrac əməliyyatlarına valyuta nəzarəti Uçot Kartoçkası"*
5) *Yük daşımalarına nəzarət məqsədilə istifadə olunan sənədlər*

Gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən təsdiq olunan və verilən sənədlər gömrük sənədləri hesab olunurlar.

Gömrük sənədlərinə aiddirlər:

- mal daşınmasına nəzarət sənədi (DNS) – daşınan hər partiya əmtəə üçün dörd vərəqdə, əmtəələrin gömrükçülər tərəfindən daşındığı halda isə beş vərəqdə doldurulur və gömrük məqsədləri və gömrük nəzarəti üçün vacibdir. Mal daşınmasına nəzarət sənədlərinə aiddirlər: BYD kitabçalarının qoparılan vərəqləri (BYD Konvensiyası, 1975 – ci il), gömrük nəzarəti ilə daşınan əmtəələr üçün nəqliyyat və nəqliyyatı müşayiət edən sənədlər;
- yük gömrük bəyannaməsi (YGB);
- əmtəənin mənşə sertifikatı;
- rüsumların, aksizlərin və yığımların ödənməsi barədə arayışlar, təyinat yerində gömrük orqanlarına təqdim ediləcək sənədlər, daxili və sonradan tranzitlə daşınacaq əmtəələr üçün daşınmaya nəzarət sənədləri;
- nəqliyyat vasitələrinin (konteynerlərin) gömrük möhürü və plombu ilə əmtəə daşınmasına icazə verilməsi barədə şəhadətnamə (bu halda gömrük orqanları tərəfindən gömrük brokeri, gömrük daşıyıcısı kimi fəaliyyət göstərmək üçün lisenziya və ixtisas attestatı almış kadrlardan istifadə olunur).

Gömrük nəzarəti üçün lazım olan sənədlərə aşağıdakıları da aid etmək olar:

- keyfiyyət sertifikatı;
- bəzi əmtəələri hökmən müşayiət edən, digər dövlət orqanları tərəfindən verilən karantin, icazə sənədləri;
- xarici iqtisadi fəaliyyətlə məşğul olmaq üçün hüquqi və fiziki şəxslərə ixtiyar verən təsis sənədləri və digər müvafiq sənədlər.

Gömrük işində şəxsiyyəti təsdiq edən sənədlər kimi aşağıdakılar qəbul olunurlar:

- Azərbaycan ərazisində daimi yaşayan xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər üçün – Azərbaycan Respublikasında yaşamaq üçün arayış (müvəqqəti şəxsiyyət vəsiqəsi);
- AR – da müvəqqəti yaşayan xarici vətəndaşlar üçün milli pasport, yaxud onu əvəz edən sənəd;
- AR vətəndaşları üçün daxili vətəndaşlıq vəsiqəsi yaxud da pasport.
- AR hərbi xidmətçiləri üçün hərbi işçinin şəxsi vəsiqəsi və yaxud hərbi bilet.

Yuxarıda qeyd olunan sənədlər gömrük sərhədindən keçirilən əmtəələrə və nəqliyyat vasitələrinə gömrük nəzarətini həyata keçirmək üçün lazımdır.

Bununla yanaşı mühasibat uçotunun yekun sənədləri də gömrük nəzarəti obyektləri olurlar:

- mühasibat uçotu registrləri; tətbiq edilən mühasibat uçotu formalarından asılı olaraq bu sənədlər: jurnal – order, memorial orderlər, dövriyyə cədvəlləri, satıcılar və

alıcılarla hesablaşmaların analitik uçot cədvəlləri, əsas kitab və başqa sintetik mühasibat uçotu cədvəlləri daxildirlər. Bu sənədlərdə aparılmış təsərrüfat əməliyyatlarının uçotu barədə yekun məlumatlar, ilkin sənədlərin yekun məlumatları verilir ki, bunların əsasında da mühasibat uçotu aparılır;

- vedomostlar (cədvəllər) və bank uçotunun fərdi hesablarından çıxarışlar; bu sənədlər təşkilatların bankda olan hesablarındakı pul vəsaitlərinin hərəkəti barədə faktiki informasiyaları əks etdirməklə onların gəlirlərini və digər pul vəsaitlərini dəqiqləşdirməyə imkan yaradırlar;

- hesabat formaları, həmçinin dövlətə ödənən vergi hesabları (vergi bəyannaməsi); bu sənədlər, mühasibat balansları, maliyyə nəticələri barədə hesabat, gəlirdən vergi tutulmasının hesablanması, Əlavə Dəyər Vergisi üzrə vergi bəyannaməsi və başqalarıdır. Bu sənədlərdə maliyyə – təsərrüfat fəaliyyətinin nəticələrini əks etdirən yekun göstəricilər, bu fəaliyyətə uyğun vergilər barədə, təşkilatın vəsaitləri və əmlakı barədə məlumatlar verirlər.

Satıcının alıcıya təqdim etdiyi və əmtəə üzərində mülkiyyət hüququnun alıcıya keçdiyini təsdiq edən sənədlər ***əmtəə - sərəncam sənədləri*** adlanırlar.

Bu sənədlər aşağıdakılardır:

- nəqliyyat, müşayiətedici və sığorta sənədləri – dəmiryol qaimələri və onların surətləri – beynəlxalq yük daşımalarında dəmiryol qaimələrinin dublikatları;
- daxili yük daşımalarında dəmiryol qaimələrinin qəbzləri;
- baqaj qəbzi;
- konosament;
- ödəmə tapşırıqları;
- hesablaşma hesabından nağd pul verilməsi üçün sənədli əsas;
- məxaric kassa orderləri;
- çeklər;
- avto, su və hava nəqliyyatları üçün qaimələr;
- sığorta polisi və ya sertifikat.

Əmtəə - müşayiət sənədlərinə aiddir:

- əmtəənin keyfiyyəti haqqında sertifikat;
- yükləmə (boşaltma) sertifikatı;
- bükmə vərəqi;
- komplektləşdirmə cədvəli (vedemostu).

Anbar sənədlərinə aiddir:

- limanın ixrac əmtəələrin qəbulu aktı;
- limana gətirilmiş idxal mallarının gəmidən boşaldılması barədə əsas akt;
- xarici limandan yükün saxlanmaq üçün qəbul edilməsi barədə dok iltizamı (qəbz);
- varrant – iki hissədən ibarət olan xarici kommersiya anbarının sənədi. Birinci hissə - anbarın əmtəəni saxlamaq üçün qəbul etməsi barədə qəbz. İkinci hissə – girov

şəhadətnaməsidir ki, bunun əsasında həmin malları girov qoymaqla borc götürmək olar.

Texniki sənədlər – uzun müddətli istifadə üçün avadanlıq, maşın və digər texnikanın kontrakt əsasında alınması zamanı onların quraşdırılması və istismarını təmin etmək üçün lazım olan sənədlər toplusudur.

Texniki sənədlərə aiddir:

- maşın və avadanlıqların texniki pasportları;
- məmulatların formulyarları və izahatlar;
- qurma, quraşdırma, tənzimləmə, idarəetmə və təmir üzrə çertyojlar və təlimatlar;
- texniki spesifikasiya;
- ehtiyat hissələri, alətlərin, vəsaitlərin və sairənin müxtəlif sxemləri və cədvəlləri;

Vacib hesab edilən texniki sənədlərin siyahısı standartlar və ya texniki şərtlərdə verildiyi üçün onların siyahısı kontrakta əlavə olunur ki, bu da kontraktın ayrılmaz tərkib hissəsi hesab edilir. Texniki sənədlər alıcının istəyilə idxal edən ölkənin rəsmi dilində və ya digər dildə hazırlanır.

Hesablaşma sənədləri aşağıdakılardır:

- hesab – faktura;
- hesablaşma spesifikasiyası (əgər mal müxtəlif hissələrdən komplektləşdirilirsə və hər bir hissənin öz qiyməti varsa);
- köçürmə vekseli (Tratta).

Ödəmə sənədləri. Bunlar: çeklər; veksellər; akkreditivlər; kredit kartoçkalarının ottiskləri; ödəniş tapşırıqları, orderlər və ödəmə üzrə digər əmrlərdir.

Bank sənədləri aşağıdakılardır:

- valyuta köçürülməsi barədə ərizə;
- inkassa tapşırığı, akkreditiv açmaq üçün tapşırıq;
- çek;
- AR gömrüyünə depozit üçün vəsait köçürülməsi barədə tapşırıq;
- ixrac mədaxilinin bölüşdürülməsi barədə tapşırıq (o cümlədən, valyuta mədaxilinin bir hissəsinin məcburi satışı barədə);
- hesablaşma və valyuta hesabları üzrə əməliyyatlardan çıxarışlar.

Gömrük – valyuta nəzarətinin uçot kartoçkası Bu qayıtma sənədidir ki, ixrac əmtəələri üzrə valyuta mədaxilinə nəzarət etmək üçün banklara lazımdır və yük gömrük bəyannaməsi (YGB) məlumatlarının bir hissəsini özündə əks etdirir. Bu sənəd, AR DGK tərəfindən YGB məlumatları əsasında hər bir mal ixracı (göndərişi) zamanı tərtib olunur. Kartoçkalar təqvim ardıcıllığı ilə müəyyən edilmiş qaydada qruplaşdırılır və reyestrə salınır. Bu kartoçkalar əsasında ixrac edilən əmtəələrə görə mal göndərənlərin tranzit hesablarına daxil olan valyuta mədaxilinə nəzarət edilir və sonradan iki nüsxə xüsusi rabitə ilə AR DGK tərəfindən müvafiq banklara göndərilir.

Mal daşınmasına nəzarət sənədi (DNS), gömrük məqsədilə tutulur və gömrük nəzarəti üçün vacibdir. Bu sənəd hər bir əmtəə partiyası üçün dörd vərəqdə, əmtəənin daşıyıcıları gömrükçülər olduqda isə, beş vərəqdə doldurulur. Əgər daşınan əmtəə müxtəlif tarif dərəcələri üzrə olarsa, onda əlavə olaraq qoşma vərəqlər doldurulur. Bəzi hallarda qoşma vərəqlərin əvəzinə qeyd olunacaq malların adı olan əmtəələr siyahısından istifadə etməyə icazə verilir.

Yük daşınmasına nəzarət etmək üçün gömrük orqanları tərəfindən DNS kimi aşağıdakılardan da istifadə olunur:

- Beynəlxalq yük daşınması (BYD) kitabının qoparılma vərəqi – yük daşınmaları üzrə Beynəlxalq Gömrük konvensiyası əsasında (BYD konvensiyası, 1975-ci il) tərtib olunmuş sənəd.
- Gömrük sərhədində gömrük sənədləşdirməsi qaydalarının sadələşdirilməsi və unifikasiyası barədə sazişdə nəzərdə tutulmuş yük gömrük deklarasiyasının əlavə nüsxəsi və surəti.

Bu sənədlər gömrük məqsədi ilə və gömrük nəzarəti üçün lazımdırlar.

DNS ilə birgə gömrük məqsədilə və gömrük nəzarəti üçün aşağıdakı sənədlər də təqdim olunurlar:

• Əmtəələr və onların qiymətləri barədə məlumatlar olan hesab-faktura və ya hesab-proformalar da daxil olmaqla nəqliyyat və nəqliyyatı müşayiət edən sənədlər;

• Əmtəələrin gömrük rüsumundan və vergisindən azad edilməsini təsdiq edən sənədlər (əmtəələrin mənşəyi barədə sertifikat və yaxud digər sənədlər, hansılar ki, əmtəələrin humanitar yardım olmasını və ya xarici diplomatik nümayəndəlik üçün nəzərdə tutulduğunu təsdiq edirlər);

• "Gömrük nəzarəti altında əmtəə daşınması" Qaydalarında nəzərdə tutulan hallar olarsa, digər dövlət orqanları tərəfindən verilmiş icazənin (lisenziyanın) əsli, yaxud da notarius tərəfindən təsdiq olunmuş surəti (təyinatı üzrə gömrük orqanlarında qeydiyyatdan keçmiş və həmin orqanın vəzifəli şəxsi tərəfindən təsdiq edilmiş sənəd);

• Gömrük rüsumlarının və vergilərinin ödənilməsini təsdiq edən sənədlər, yaxud gömrük daşıyıcısının qeydiyyat kartoçkası (əgər əmtəə və sənədlər gömrükçülər tərəfindən daşınırsa), yaxud da gömrük orqanı tərəfindən gömrük müşayiəti barədə qərarı əks etdirən sənəd (əgər gömrük müşayiəti barədə qərar varsa);

• Gömrük möhürü və plombu ilə əmtəənin daşınmasında nəqliyyat vasitələrinə (konteynerlərlə) icazə verilməsi barədə şəhadətnamə;

• Əgər identifikasiya üçün möhür, plomb və fərdiləşdirmə nişanından istifadə etmək mümkün deyilsə, əmtəənin identifikasiyasını təmin edən sənədlər (əmtəələrin təsvir edilməsi, çertyojlar, böyüdülmüş şəkillər, fotolar, təsvirlər, mal müşayiətedici sənədlər və s.);

• "Gömrük nəzarəti altında əmtəə daşınması" Qaydalarında nəzərdə tutulduğu hallarda əvvəllər tərtib olunmuş yük-gömrük bəyannamələri.

Yük-gömrük bəyannaməsi (YGB) – əmtəə sahibi tərəfindən doldurulan unifikasiya olunmuş sənəddir ki, əmtəə AR gömrük sərhədindən keçirilərkən gömrük

orqanlarına təqdim olunur və onları maraqlandıran lazımi məlumatları əks etdirir. YGB – xarici ticarət statistikası və xüsusi gömrük statistikasını formalaşdırmaq üçün istifadə olunan ilkin baza sənədidir; AR gömrük sərhədindən yük keçirmək istəyən şəxslə gömrük orqanları arasında hüquqi münasibətləri yaratmaq və ya bərpa etmək üçün hüquqi sənəddir.

YGB komplekti dörd tikilmiş vərəqdən (barter əməliyyatları zamanı beş vərəq) (blankdan) ibarət özü surətlənən formadan (əsas sənəd) və əlavə vərəqlərdən ibarətdir ki, bu da YGB-nin ayrılmaz tərkib hissəsi olmaqla bəyan edilən əmtəələrdən əlavə daha üç adda əmtəə bəyan etməyə imkan verir. YGB-nin ayrılmaz hissəsi kimi həm də gömrük dəyər bəyannaməsi (GDB-1 və GDB-2) istifadə olunur. Bu formalar elan edilmiş gömrük dəyərinin təsdiq edilməsi üçün nəzərdə tutulmuşdur.

Bəyannamədən əlavə deklorant aşağıdakıları da təqdim etməlidir:

- Yükü daşıyan şəxslərin təsis sənədləri;
- Müqavilə (kontrakt) və ona əlavə olunan razılaşma (əgər nəzərdə tutulubsa);
- Hesab-faktura (invoys) və bank ödəniş sənədləri (əgər hesab ödənilibsə) və ya hesab-praforma (şərti-dəyər sazişləri üçün), həmçinin əmtəənin qiymətini təsdiq edən digər ödəniş sənədləri və mühasibat sənədləri;
- Nəqliyyat və sığorta sənədləri, əgər göndəriş şərtinə görə onlar varsa;
- Daşınma üçün hesab, yaxud rəsmi təsdiqlənmiş nəqliyyat xərcləri kalkulyasiyası (o halda ki, nəqliyyat xərcləri hesab-fakturaya daxil edilməyib);
- Göndərən ölkənin gömrük bəyannaməsi (əgər varsa);
- Qablaşdırma vərəqi;
- Əmtəələr üçün lisenziya (qoyulmuş qaydalar üzrə idxalına lisenziya tələb olunan mallar üçün);
- Əmtəənin mənşəyi barədə sertifikat; onun keyfiyyəti, təhlükəsizliyi və s. barədə sertifikat.

YGB – nin əsas vərəqi eyni adlı əmtəələr barəsində məlumatlar üçün istifadə olunur, əgər bu əmtəələr üçün eyni rejim müəyyən olunubsa. Bir YGB – də 100 adda əmtəə barədə məlumat vermək imkanı vardır; hər bir əsas vərəqə 33 qoşma əlavə oluna bilər. Kompüterlə və digər texnika ilə alınmış və eləcə də qeyri-standart nümunədə hazırlanmış blanklardan istifadə olunmasına yol verilmir. YGB–nin əlavə vərəqi əvəzinə spesifikasiyalardan, bükmə vərəqəsindən və ya əmtəələrin siyahısı, miqdarı, çəkisi və qiyməti göstərilən, həm də XİF ƏN üzrə kodları verilmiş əmtəə siyahısından istifadə etmək olar (Misal üçün, MDB ölkələrində, gömrük sənədləşdirməsinin sadələşdirilməsi və unifikasiyası barədə Saziş iştirakçıları olan dövlətlərdə istehsal olunmuş əmtəələr üçün).

YGB–nin və ona əlavənin blanklarının yayılması AR DGK və onun vəkil etdiyi orqanlar tərəfindən həyata keçirilə bilər.

Valyuta nəzarəti sənədi.

Valyuta nəzarəti mexanizminin əsas elementi "İxrac əməliyyatlarına valyuta nəzarəti Uçot Kartoçkası"dır. Bu sənəd baza sənədi hesab olunur, ixrac edən tərəfindən bankda tərtib edilir və valyuta nəzarəti üçün lazım olan bütün məlumatları özündə əks etdirir.

"İxrac əməliyyatlarına valyuta nəzarəti Uçot Kartoçkası"nda bank haqqında, ixrac edən haqqında, xarici alıcı barədə alıcının sahibkar kimi qeydiyyata alındığı ölkənin adı barədə məlumatlar olur.

"İxrac əməliyyatlarına valyuta nəzarəti Uçot Kartoçkası"nda aşağıdakılar hökmən göstərilməlidir:

- Xarici alıcının hüquqi ünvanı;
- Uçot Kartoçkasının tərtib olunması üçün əsas sayılan kontraktın nömrəsi;
- Kontraktın imzalanma tarixi;
- Kontrakt üzrə ixrac ediləcək əmtəənin adı və ümumi məbləği;
- Kontrakt üzrə sonuncu ödəniş haqqının ixrac edənin tranzit hesabına daxil olması tarixi.

"İxrac əməliyyatlarına valyuta nəzarəti Uçot Kartoçkası" iki nüsxədə tərtib olunur və aşağıdakılar tərəfindən (vəzifəsi, soyadı, adı və atasının adı göstərilməklə) imzalanmalıdır:

- İxrac edən tərəfdən–bankda ixrac edənin hesabına imza atmaq hüququ olan şəxs;
- Bank tərəfindən – bankın məsul işçisi olan şəxs.

İmzalanmış sənəd hər iki tərəfin möhürü ilə təsdiqlənməlidir.

Bağlanmış hər bir ixrac kontraktı üçün yeganə vəkalətli bank tərəfindən imzalanmış bir "İxrac əməliyyatlarına valyuta nəzarəti Uçot Kartoçkası" tərtib olunmalıdır ki, həmin kontrakt üzrə ixrac mallarından əldə edilən bütün valyuta mədaxili həmin banka daxil olsun. "İxrac əməliyyatlarına valyuta nəzarəti Uçot Kartoçkası" ilə eyni vaxtda ixrac edən, əsasında Uçot Kartoçkası tərtib edilmiş kontraktın əslini, yaxud da səlahiyyətli şəxs tərəfindən imzalanmış surətini banka təqdim edir.

İxrac edən tərəfin üzərinə cavabdehlik qoyulur ki, kontrakt əsasında tərtib olunmuş "İxrac əməliyyatlarına valyuta nəzarəti Uçot Kartoçkası"nın məlumatları həmin kontraktın bütün şərtlərinə uyğun gəlsin və kontrakt üzrə daxil olacaq ixrac malları üzrə bütün mədaxil tam həcmdə və müəyyən edilmiş müddətdə onun bankdakı tranzit valyuta hesablarına daxil olmasını təmin etsin.

Bankda təqdim olunmuş bütün sənədlər yoxlanılır, o cümlədən Uçot Kartoçkasındakı göstəricilərin kontrakta uyğunluğu, imzanın ixrac edən tərəfin məsul şəxsinin imzasına uyğunluğu müəyyən edildikdən sonra, bankın vəkalətli şəxsi ixrac edənin təqdim etdiyi İxrac əməliyyatlarına valyuta nəzarəti Uçot Kartoçkasını imzalayır.

Uçot Kartoçkasının birinci nüsxəsi kontraktın əsli və ya surəti ilə birlikdə ixrac edən tərəfə qaytarılır. İkinci nüsxə isə bankda dosye açmaq üçün əsas kimi saxlanılır.

Uçot Kartoçkası imzalandıqdan sonra bank həmin kontraktı hesablaşma xidmətinə götürür.

Əgər kontrakt şərtilə Uçot Kartoçkası göstəriciləri arasında fərq olduqda, kontraktda nəzərdə tutulan valyuta əməliyyatları mövcud qanunlara uyğun gəlmədikdə, Uçot Kartoçkası lazımi tələblərə müvafiq tərtib edilmədikdə, həmçinin kontraktın özündə Uçot Kartoçkasını tərtib etmək üçün məlumatlar çatışmadıqda bankın ixtiyarı vardır ki, Uçot Kartoçkasını imzalamaqdan imtina etsin.

Əgər tərəflər kontrakt şərtlərində hər hansı bir dəyişiklik edərlərsə və bu dəyişiklik Uçot Kartoçkası göstəricilərinə təsir edərsə, ixrac edən on gün ərzində, həm də malları gömrük sənədləşdirməsinə verməzdən əvvəl kontrakta edilən əlavə və dəyişikliklərin əslini və ya surətini təsdiq edilmiş halda banka təqdim etməlidir. Bu halda həm də bu dəyişiklik və əlavələri əks etdirən məlumatlar əlavə vərəq kimi Uçot Kartoçkasına möhürlə təsdiqlənmiş halda qoşulmalıdır.

Gömrük rəsmiləşdirilməsi zamanı gömrük orqanlarının vəzifəli şəxsləri Uçot Kartoçkasında olan göstəriciləri YGB-də və sərəncamda olan digər sənədlərin göstəriciləri ilə tutuşdurur, eləcə də sənədlərdə olan imzaların və möhürlərin düzgünlüyünü yoxlayırlar.

AR gömrük və valyuta qanunvericiliyinə əməl olunduğu halda gömrük rəsmiləşdirilməsini həyata keçirən gömrük orqanının vəzifəli şəxsi Uçot Kartoçkasının surətini və YGB-nin surətini imzalayır.

İddia-arbitraj sənədləri aşağıdakılardır:

- İddia məktubu;
- Məhkəməyə və yaxud arbitraja iddia ərizəsi (isk);
- Məhkəmə və yaxud arbitraj tərəfindən iddianın təmin və ya rədd edilməsi sənədi.

Əmtəənin əskik və ya zay olması sənədləri bunlardır:

- Əskikgəlmə barədə kommersiya aktı;
- Qəza sertifikatı.

Gömrük orqanları gömrük qanunları normaları ilə müəyyən olunmuş qaydada gömrük nəzarəti məqsədilə kontraktların faksimil, surət və çıxarışlarını qəbul edə bilərlər. Kontraktların surətləri və onlardan çıxarışlar kontrakt bağlayan müəssisənin rəhbərliyi tərəfindən rəsmi imzalanmalı və müəssisənin möhürü ilə təsdiqlənməlidir.

Əgər gömrük orqanının vəzifəli şəxsi, təqdim olunmuş sənədlərdəki göstəricilərin dəqiqliyinə şübhə edərsə, o həmin sənədlərin əslini tələb edə bilər. Kontrakt sahibləri barədə məlumatların doğruluğunu təsdiq etmək üçün onlardan qeydiyyat barədə, bank və digər vacib göstəriciləri əks etdirən rekvizitlər barədə rəsmi tərtib olunmuş və möhürlə təsdiqlənmiş yazılı izahat (məktub) almaq olar.

5. Gömrük prosedurları

Plan:

1. ***Gömrük proseduru anlayışı.***
2. ***Gömrük proseduru qrupları.***
3. ***Xüsusi gömrük prosedurları***
4. ***İdxal olunmuş malların kabotaj daşınması.***

Gömrük proseduru —gömrük nəzarəti altında olan mal və nəqliyyat vasitələrinin yerləşdirilə biləcəyi ixrac, təkrar ixrac, müvəqqəti ixrac, sərbəst dövriyyə üçün buraxılış, təkrar idxal və xüsusi gömrük prosedurlarından biridir.

Gömrük sərhədindən keçirilən bütün mallar və nəqliyyat vasitələri onların gömrük rəsmiləşdirilməsini həyata keçirən gömrük orqanlarına bəyan edilməlidir. Bəyanetmə malların və nəqliyyat vasitələrinin yerləşdirilməsi nəzərdə tutulan gömrük proseduru haqqında, habelə gömrük məqsədləri üçün lazım olan digər məlumatların müəyyən olunmuş formada (şifahi, kağız üzərində yazılı, elektron) gömrük orqanlarına verilməsi ilə həyata keçirilir.

Sərbəst zona xüsusi gömrük proseduru istisna olmaqla, başqa gömrük prosedurları altında yerləşdirilməsi nəzərdə tutulan daxili mallar həmin gömrük proseduruna uyğun olaraq gömrük bəyannaməsi ilə təmin edilməlidir.

Gömrük prosedurları aşağıdakılardır:

1. **sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru.**
2. **təkrar idxal gömrük proseduru altında yerləşdirilməsi.**
3. **tranzit xüsusi gömrük prosedurları.**
4. **Müvəqqəti saxlanc xüsusi gömrük proseduru.**
5. **Emal xüsusi gömrük proseduru**
6. **müvəqqəti idxal xüsusi gömrük proseduru.**
7. **müvəqqəti ixrac gömrük proseduru.**
8. **son istifadə xüsusi gömrük proseduru.**
9. **təkrar ixrac gömrük proseduru.**
10. **xaricdə emal xüsusi gömrük proseduru.**
11. **Rüsumsuz ticarət mağazaları**
12. **malların məhv edilmə halları.**
13. **Mallardan dövlətin xeyrinə imtina edilməsi.**

Daxili bazarda satılma, istifadə və ya istehlak üçün nəzərdə tutulan xarici mallar sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilir. Sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru aşağıdakıları əhatə edir:

1. qanunvericiliklə müəyyən olunmuş gömrük ödənişlərinin ödənilməsini;
2. ticarət siyasəti tədbirlərinin tətbiqini;
3. malların idxalı ilə bağlı müəyyən edilmiş digər prosedurların tamamlanmasını.

Sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilən xarici mallar daxili mallar gömrük statusunu alırlar. Malların sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Malların sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilməsi qaydaları

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmişdir .

Sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilən mallar geri aparılma öhdəliyi götürülmədən, Azərbaycan Respublikasının ərazisində qalır.

Xarici malların sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında gömrük rəsmiləşdirilməsi yerinə yetirildikdən sonra mallar gömrük nəzarətindən çıxarılaraq barəsində səlahiyyəti olan şəxslərə və ya onların nümayəndələrinə verilir. Həmin şəxslər qanunvericiliyə uyğun olaraq, malların üzərində sərəncam verməkdə sərbəstdirlər.

Sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilməsi nəzərdə tutulan malların gömrük rəsmiləşdirilməsi zamanı alınan gömrük ödənişləri Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktlarına əsasən həyata keçirilir.

Sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilmiş mallar üçün 14 (on dörd) gündən 60 (altmış) günədək gömrük borcunun ödənilməsinə möhlətin verilməsi Gömrük Məcəlləsinin 246-cı (***Gömrük borcunun ödənilməsinə möhlət verilməsi)*** maddəsinə əsasən həyata keçirilir. Sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilmiş malların gömrük rəsmiləşdirilməsi zamanı ticarət siyasəti tədbirlərinə əməl olunması yoxlanılır.

Sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilən malların gömrük rəsmiləşdirilməsinə dair sənədlər Gömrük Məcəlləsinin 150.3-cü və 150.4-cü maddələrinin tələblərinə uyğun müəyyən edilir.

(150.3. Gömrük bəyannaməsinin forması və malların bəyan edildiyi gömrük proseduru altında yerləşdirilməsi üçün onunla birgə təqdim olunan sənədlərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilərək rəsmi nəşrlərdə dərc olunur və müvafiq icra hakimiyyəti orqanlarının rəsmi internet saytlarında yerləşdirilir.

150.4. Malların bəyan edildiyi gömrük prosedurunun tətbiqi üçün tələb olunan elektron, yaxud kağız üzərində yazılı formalarda sənədlər gömrük orqanlarına gömrük bəyannaməsinin təqdim edildiyi vaxt verilməlidir.)

Sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilmiş malların gömrük rəsmiləşdirilməsi qaydaları

Sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilmiş malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi mallar barəsində səlahiyyəti olan şəxs və ya onun nümayəndəsi tərəfindən gömrük orqanına müraciəti (kağız üzərində yazılı və ya elektron formada) əsasında həyata keçirilir. Malların gömrük

rəsmiləşdirilməsi bəyannaməçinin gömrük orqanına konkret malların gömrük rəsmiləşdirilməsi ilə bağlı bəyannaməni (kağız üzərində yazılı və ya elektron formada) sənədləri təqdim etdiyi vaxtdan başlanır, zəruri gömrük əməliyyatları yerinə yetirildikdən, Gömrük Məcəlləsində nəzərdə tutulmuş gömrük ödənişləri ödənildikdən sonra başa çatır.

Malların sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilməsi ilə bağlı gömrük orqanlarının hərəkətləri

Gömrük orqanları tərəfindən gömrük bəyannaməsində göstərilən məlumatların, bəyan olunan malların yoxlanılması, malların bəyan edildiyi gömrük prosedurunun tətbiqi üçün tələb olunan sənədlərin təqdim edilməsi, icrasına nəzarət gömrük orqanlarına həvalə edilmiş qanunvericilik aktlarına riayət olunması, gömrük rüsumlarının, müvafiq vergilərin və digər gömrük ödənişlərinin alınması, mallardan gömrük ekspertizası üçün prob və nümunələrin götürülməsi və digər hərəkətlər Gömrük Məcəlləsinin müvafiq maddələrinə uyğun qaydada həyata keçirilir.

Malların buraxılışı

Bəyannaməçi, mallar barəsində səlahiyyəti olan şəxslər və ya onların nümayəndələri tərəfindən Gömrük Məcəlləsinin 163-cü maddəsi ilə müəyyən edilmiş şərtlər yerinə yetirildikdən, bəyan olunan mallarla əlaqədar qanunvericilikdə qadağaların və məhdudiyyətlərin olmadığı müəyyən edildikdən, gömrük bəyannaməsindəki məlumatlar yoxlanıldıqdan dərhal sonra gömrük orqanları sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilmiş malların buraxılışını həyata keçirir. Eyni gömrük bəyannaməsinin əhatə etdiyi bütün mallar gömrük orqanları tərəfindən eyni vaxtda buraxılır.

Sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilmiş malların gömrük rəsmiləşdirilməsi zamanı tərtib edilmiş gömrük bəyannaməsində məlumatların düzgün olmadığı müəyyən edildikdə, gömrük orqanları bəyannaməçidən müvafiq düzəlişlərin aparılmasını tələb edir. Həmin tələb yerinə yetirildikdən və müvafiq gömrük ödənişləri ödənildikdən dərhal sonra buraxılış həyata keçirilir.

Sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilmiş mallar gömrük bəyannaməsini təsdiq etmiş gömrük orqanına deyil, digər gömrük orqanına təqdim edildikdə, aidiyyəti gömrük orqanları həmin malların buraxılışı üçün zəruri olan məlumatları öz aralarında mübadilə etməlidirlər.

Müvafiq normativ hüquqi aktların tələblərinə əsasən, gömrük ərazisinə gətirilməsi qadağan olunmuş malların sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilməsinə yol verilmir.

İdxalı müvafiq dövlət orqanlarının icazə sənədləri alınmaqla aparılan malların gömrük rəsmiləşdirilməsi həmin icazə sənədləri təqdim olunmaqla həyata keçirilir.

Sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilmiş malların gömrük rəsmiləşdirilməsinin operativliyini və şəffaflığını artırmaq məqsədi ilə

müraciət edən şəxslərin qəbul edilməsi ardıcıllığının müəyyən olunması üçün gömrük orqanlarında elektron idarəetmə sistemindən ("elektron növbə") istifadə edilir.

«Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsi Qaydaları»nın təsdiq edilməsi haqqında Qərar № 229 ***Bakı şəhəri, 12 oktyabr 2012-ci il***

Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsi Qaydaları

Təkrar idxal ixrac olunmuş malların ixrac edildiyi vaxtdan 3 (üç) il ərzində eyni vəziyyətdə, yəni xarici ölkədə heç bir emala məruz qalmadan gömrük ərazisinə tam və bir hissəsi qaytarıldıqda, onların idxal gömrük rüsumlarından və vergilərdən tamamilə azad edilməklə və ticarət siyasəti tədbirləri tətbiq edilmədən, sərbəst dövriyyəyə buraxılışıdır. Sərbəst dövriyyədə olmuş və ya daxildə emal edilmiş mallar da təkrar idxal gömrük proseduru altında yerləşdirilə bilər.

Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsinə onların ixracı zamanı geri qaytarılması ehtimalı barədə gömrük orqanlarına bildirilib-bildirilməməsindən asılı olmayaraq icazə verilir.

Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsi şərtləri

Təkrar idxal gömrük proseduru altında yerləşdirilməsi üçün mallar aşağıdakı şərtlərə cavab verməlidir:

- Azərbaycan Respublikasının ərazisindən ixrac olunan daxili mallar olmalıdır;
- mallar ixrac edildiyi andan 3 (üç) il müddətində gömrük ərazisinə qaytarılmalıdır;
- təbii aşınma nəticəsində dəyişikliklər, normal şəraitdə daşınma və saxlanc itkiləri, mallar aparıldığı vəziyyətdə olmalıdır.

İxrac olunmuş malların gətirilmə tarixi gömrük rəsmiləşdirilməsi üçün tələb olunan sənədlərin qəbul olunduğu gündən hesablanmalıdır.

Təbii aşınma nəticəsində dəyişikliklər, normal şəraitdə daşınma və saxlanc itkiləri standartlarla və həmin kateqoriya mallara aid normativ aktlarla müəyyən edilməlidir.

Azərbaycan Respublikasının ərazisindən ixrac olunaraq aparılmış mallar təkrar idxal gömrük proseduru altında yerləşdirilərkən malların eyniləşdirilməsi, onların aparılma vaxtı və faktı, eləcə də həmin malların daxili mallar olması gömrük orqanının vəzifəli şəxsinə sübut edilməlidir. Göstərilən halların sübut edilməsi bəyannaməçiyə həvalə olunur.

Azərbaycan Respublikasının hüdudlarından kənarda mallardan istifadə edilməsi həmin malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsinə mane ola bilməz.

Malların təkrar idxalı zamanı gömrük orqanları malların geriyə gətirilməsinin onları aparmış şəxs tərəfindən deyil, malların təkrar idxalına müvafiq səlahiyyətə malik olan və malların eyniləşdirilməsini sübut və dəlillərlə təmin edə bilən başqa şəxs tərəfindən həyata keçirilməsinə icazə verirlər.

Azərbaycan Respublikasının hüdudlarından kənarda olduqda, malların saxlanmasını təmin etmək üçün kiçik təmir və sahmana salma işləri daxil olmaqla, digər

əməliyyatlar da aparıla bilər. Belə əməliyyatlar nəticəsində həmin malların dəyəri aparılma anında müəyyən edilmiş dəyərindən artıq olmamalıdır.

Malların aparılması və gətirilməsi zamanı dəyər münasibətləri milli valyuta əsasında müəyyən edilir. Müqavilədə və ya digər sənədlərdə istənilən başqa valyutada göstərilən dəyərin hesablanması, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən həmin günə müəyyən edilmiş rəsmi məzənnəyə uyğun milli valyuta ilə həyata keçirilir.

Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsinə nəzarətin təmin edilməsi məqsədi ilə gömrük orqanlarının təkrar idxal olunan malların gömrük ərazisindən aparıldığı gömrük orqanına təqdim olunmasını tələb etmək hüququ vardır.

Sərbəst dövriyyədə olmuş və ya daxildə emal edilmiş mallar da təkrar idxal gömrük proseduru altında yerləşdirilə bilər.

Təkrar idxal gömrük proseduru altında yerləşdirilmiş malların gömrük rəsmiləşdirilməsi

Təkrar idxal olunan malların gömrük rəsmiləşdirilməsi idxalçının və yaxud onun struktur bölməsinin fəaliyyət zonasında yerləşən gömrük orqanlarında həyata keçirilir.

Mallar təkrar idxal gömrük proseduru altında yerləşdirildikdə, bəyannaməçi gömrük orqanlarına aşağıdakı sənədləri təqdim etməlidir:

- müraciət ərizəsi və gömrük bəyannaməsi;
- təkrar idxal olunan mallara tələb olunduqda qanunvericilikdə nəzərdə tutulmuş dövlət orqanlarının icazəsi;
- təkrar idxal olunan malların ixrac zamanı rəsmiləşdirildiyi gömrük bəyannaməsinin nüsxəsi.

Təsdiqedici məlumatlar və ya sənədlər olmadığı təqdirdə, malların təkrar idxal proseduru altında yerləşdirilməsinə icazə verilmir.

1. tranzit (beynəlxalq və daxili tranzit);
2. saxlanc (müvəqqəti saxlanc və gömrük anbarlarında saxlanc);
3. sərbəst zona;
4. xüsusi istifadə (müvəqqəti idxal və son istifadə);
5. emal (daxildə və xaricdə emal).

İcazələrin və lisenziyaların verilməsi

Malların emal və ya xüsusi istifadə xüsusi gömrük proseduru altında yerləşdirilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada verilən gömrük orqanının icazəsi ilə həyata keçirilir.

Malların saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilməsi müvafiq icra hakimiyyəti orqanından lisenziya almış şəxslərin təsis etdiyi müvəqqəti saxlanc və gömrük anbarlarında həyata keçirilir.

Qanunvericilikdə başqa hallar nəzərdə tutulmamışdırsa, bu Məcəllənin 167.1-ci və 167.2-ci maddəsində qeyd olunan icazə və lisenziya aşağıdakı şəxslərə verilir:

1. rezidentlərə;

2. gömrük əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun aparılacağına zəmanət təqdim edən və gömrük borcunun yarandığı və yarana biləcəyi hallarda onun ödənilməsinə təminat verən şəxslərə;
3. müvəqqəti idxal və ya daxildə emal xüsusi gömrük prosedurları altında yerləşdirilmiş mallardan müvafiq olaraq istifadə edən, yaxud emal əməliyyatları aparan şəxsə.
Xüsusi gömrük proseduruna icazə sahibi icazənin verilməsindən sonra onun davam etdirilməsinə və ya məzmununa təsir edə bilən bütün amillər barədə gömrük orqanlarına məlumat verməyə borcludur.
Tranzit xüsusi gömrük proseduru istisna olmaqla, icazə sahibi, prosedur sahibi, habelə sərbəst zonada malların saxlancı, istehsalı, emalı, alğı-satqısı ilə məşğul olan şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada öz əməliyyatlarının uçotunu aparmalıdırlar.
Aparılan uçot gömrük orqanları tərəfindən müvafiq gömrük proseduruna, o cümlədən həmin gömrük proseduru altında yerləşdirilmiş malların eyniləşdirilməsinə, onların gömrük statusunun müəyyənləşdirilməsinə və daşınmasına nəzarətin həyata keçirilməsinə imkan yaratmalıdır.
Tranzit xüsusi gömrük proseduru, göndərən gömrük orqanına və təyinat gömrük orqanına təqdim olunan məlumatların gömrük orqanları tərəfindən müqayisəsi əsasında onun düzgün yerinə yetirildiyi müəyyən edildikdən sonra başa çatır.
Xüsusi gömrük proseduru başa çatmadıqda, gömrük orqanları müvafiq mallarla bağlı vəziyyətin tənzimlənməsi üçün bütün lazımi tədbirləri həyata keçirirlər.
Tranzit xüsusi gömrük proseduru istisna olmaqla, digər xüsusi gömrük prosedurları altında yerləşdirilmiş mallarla əlaqədar prosedur sahibinin hüquqları və öhdəlikləri müvafiq gömrük proseduru üçün müəyyən edilmiş şərtlərə əməl edən digər şəxslərə də müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada verilə bilər. Tranzit və sərbəst zona xüsusi gömrük prosedurları istisna olmaqla, digər xüsusi gömrük prosedurları altında yerləşdirilmiş mallar gömrük ərazisinin müxtəlif məntəqələri arasında gömrük qanunvericiliyinin tələblərinə riayət olunmaqla daşına bilər.
Xüsusi gömrük proseduru altında yerləşdirilmiş malların əvəzinə saxlanca qoyulan, istifadə edilən və ya emal edilən daxili mallar ekvivalent mallar hesab olunur.
Xaricdə emal prosedurunda ekvivalent mallar bu prosedur altında yerləşdirilmiş daxili malların əvəzinə emal olunan xarici mallardan ibarətdir.
Ekvivalent mallar əvəz etdikləri mallarla eyni keyfiyyətə, eyni texniki göstəricilərə və xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə eyni rəqəmli koda malik olmalıdırlar.
Gömrük orqanları gömrük prosedurunun gömrük nəzarəti baxımından qanunvericiliyin tələblərinə uyğun tətbiq olunmasının təmin edilməsi şərti ilə tranzit, müvəqqəti idxal və ya müvəqqəti saxlanc xüsusi gömrük prosedurları istisna edilməklə, digər xüsusi gömrük prosedurları daxilində ekvivalent mallardan istifadəyə icazə verirlər.

Beynəlxalq tranzit

Beynəlxalq tranzit xüsusi gömrük proseduru xarici malların gömrük rüsumları, əlavə dəyər vergisi və aksizlər alınmadan, ticarət siyasəti tədbirləri tətbiq olunmadan gömrük nəzarəti altında bir yerdən başqa yerə daşınmasıdır. Malların beynəlxalq tranzit xüsusi gömrük proseduru altında yerləşdirilərək daşınması aşağıdakı qaydada həyata keçirilir:

1. malların daşınması gömrük ərazisindən kənarda başlanır, yaxud başa çatır;
2. malların daşınması gömrük ərazisinin iki məntəqəsi arasında gömrük ərazisindən kənar ərazidən keçməklə baş verir.

daşınma aşağıda göstərilənlər əsasında həyata keçirilir:

1. beynəlxalq tranzit xüsusi gömrük proseduru;
2. beynəlxalq gömrük tranziti üzrə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr;
3. mallar Ümumdünya Poçt İttifaqının Aktları əsasında hüquqlara malik olan və öhdəliklər daşıyan subyektlər (poçt rabitəsi operatorları) tərəfindən və ya onlar üçün beynəlxalq poçt göndərişlərinin daşınmasında vasitəçilik edən şəxslər tərəfindən daşındığı halda, bu aktlara müvafiq olaraq beynəlxalq poçt göndərişlərinin mübadiləsi sistemi.

Xarici dövlətlərin və beynəlxalq təşkilatların rezidentlərin mənafeyinə zərər vuran ayrı-seçkilik və digər iqtisadi siyasət tədbirlərinə cavab kimi, müvafiq icra hakimiyyəti orqanı həmin dövlətlərin və müvafiq beynəlxalq təşkilatlara daxil olan dövlətlərin mallarının gömrük ərazisindən beynəlxalq tranzitinə qadağalar və məhdudiyyətlər tətbiq edə bilər.

Daxili tranzit

Daxili tranzit xüsusi gömrük proseduru daxili malların statusunu dəyişmədən gömrük ərazisinin bir yerindən başqa yerinə daşınmasıdır. Malların daxili tranzit xüsusi gömrük proseduru altında yerləşdirilərək daşınması gömrük orqanlarının icazəsi ilə həyata keçirilir. Malların beynəlxalq və daxili tranzit xüsusi gömrük prosedurları altında yerləşdirilərək daşınması qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Saxlanc

Saxlanc xüsusi gömrük proseduru müvəqqəti saxlanc və gömrük anbarı prosedurlarından ibarətdir.

Xarici mallar saxlanc xüsusi gömrük proseduru altında idxal gömrük rüsumları, idxal üzrə əlavə dəyər vergisi və aksizlər alınmadan, ticarət siyasəti tədbirləri tətbiq olunmadan gömrük və müvəqqəti saxlanc anbarlarında gömrük nəzarəti altında yerləşdirilir.

Saxlanc xüsusi gömrük prosedurunun sahibi aşağıdakılara görə cavabdehdir:

1. müvəqqəti saxlanc və ya gömrük anbarı xüsusi gömrük prosedurları altında yerləşdirilmiş malların gömrük nəzarətindən yayındırılmasına;
2. malların saxlancından irəli gələn öhdəliklərinin yerinə yetirilməməsinə;

3. gömrük və ya müvəqqəti saxlanc anbarlarının təsisi ilə əlaqədar verilmiş lisenziyada müəyyən edilən şərtlərə əməl edilməməsinə.

Prosedur sahibi malların müvəqqəti saxlanc və ya gömrük anbarı xüsusi gömrük prosedurları altında yerləşdirilməsindən irəli gələn öhdəliklərini yerinə yetirməməsinə görə qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

Müvəqqəti saxlanc xüsusi gömrük proseduru

Başqa gömrük proseduru altında yerləşdirilməsi üçün bəyan edilmə halları istisna olmaqla, mal sahibi tərəfindən gömrük orqanlarına təqdim edilmiş aşağıdakı xarici mallar onun tərəfindən müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilərək bəyan edilir:

1. sərbəst zonaya birbaşa gətirilmə istisna olmaqla, gömrük ərazisinə gətirilən mallar;
2. sərbəst zonadan gömrük ərazisinin digər hissəsinə gətirilən mallar;
3. barəsində beynəlxalq tranzit xüsusi gömrük proseduru başa çatmış mallar.

Malların müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilməsi üçün gömrük orqanları tərəfindən gömrük bəyannaməsi kimi qısa idxal bəyannaməsi və ya onu əvəz edən tranzit sənədi qəbul edilir.

Gömrük orqanları prosedur sahibindən yarana biləcək gömrük borcuna görə təminat tələb etmək hüququna malikdirlər. Malları müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında yerləşdirmək və ya həmin prosedur altında saxlamaq mümkün olmadıqda, gömrük orqanları mallarla bağlı vəziyyəti tənzimləmək üçün təxirə salınmadan bütün zəruri tədbirləri həyata keçirirlər.

Malların müvəqqəti saxlanc gömrük proseduru altında qalma müddəti onların və istifadə olunan nəqliyyat vasitəsinin xüsusiyyətləri nəzərə alınmaqla, gömrük bəyannaməsinin təqdim olunması üçün lazım olan vaxt nəzərə alınmaqla gömrük orqanı tərəfindən müəyyən edilir. Prosedur sahibinin əsaslandırılmış müraciəti olduqda, gömrük orqanı həmin müddəti göstərilən müddət çərçivəsində uzadır.

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən ayrı-ayrı malların xassələrindən və xüsusiyyətlərindən asılı olaraq daha qısa müddət müəyyən edildiyi hallar istisna olmaqla, malların müvəqqəti saxlanc gömrük proseduru altında qalma müddəti 4 (dörd) aydan çox olmamalıdır.

Mallar müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında qalma müddəti başa çatanadək başqa gömrük proseduru altında yerləşdirilmək üçün bəyan edilməli və ya gömrük anbarında yerləşdirilməlidir.

Müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilən malların mövcud vəziyyətdə qalmasını təmin etmək üçün onlar adi əməliyyatlara məruz qala bilərlər. Belə hallarda malların xarici görünüşünün və texniki göstəricilərinin dəyişdirilməsinə yol verilmir.

Müvəqqəti saxlanc bu Məcəllənin 180.3-cü maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi tələblərə cavab verən müvəqqəti saxlanc anbarlarında həyata keçirilir.

Müvəqqəti saxlanc anbarlarının tiplərinə, quruluşuna, təchizatına, orada yerləşdirilən mallarla əlaqədar əməliyyatlara, uçot və hesabatın aparılmasına, gömrük nəzarətinin həyata keçirilməsinə, anbar sahibinə dair tələbləri müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Gömrük anbarlarında saxlanc

Xarici mallar gömrük anbarı xüsusi gömrük proseduru altında müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş lisenziyası olan şəxslərin gömrük anbarlarında gömrük orqanlarının nəzarəti ilə yerləşdirilə və saxlanıla bilər. Gömrük anbarı istənilən şəxs tərəfindən istifadə edilə bilən açıq tipli və ya müəyyən malların saxlanılması üçün nəzərdə tutulan qapalı tipli ola bilər. Başqa mallara ziyan vura bilən və ya xüsusi saxlanc şəraiti tələb olunan mallar anbarın xüsusi avadanlıqla təchiz edilmiş yerlərində saxlanmalıdır.

Gömrük anbarı xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar gömrük anbarından müvəqqəti çıxarıla bilər. Fors-major halları istisna edilməklə, həmin malların gömrük anbarından müvəqqəti çıxarılması üçün gömrük orqanlarının icazəsi tələb olunur.

Gömrük anbarlarının tiplərinə, quruluşuna, təchizatına, orada yerləşdirilən mallarla əlaqədar əməliyyatlara, uçot və hesabatın aparılmasına, gömrük nəzarətinin həyata keçirilməsinə, anbar sahibinə dair tələbləri müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Gömrük anbarlarında daxili malların saxlanılması və emalı

Gömrük orqanları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada gömrük anbarında aşağıdakıların həyata keçirilməsinə icazə verirlər:

1. daxili malların saxlancına;
2. malların daxildə emal və ya son istifadə xüsusi gömrük prosedurları altında yerləşdirilərək, həmin prosedurlar üçün müəyyən edilmiş şərtlərə uyğun olaraq emalına.

Mallar gömrük anbarı xüsusi gömrük proseduru altında yerləşdirilərək 3 (üç il) müddətində saxlanıla bilər.

Gömrük anbarında saxlanc müddəti başa çatmış malların və nəqliyyat vasitələrinin bu Məcəlləyə uyğun olaraq satışından əldə edilən məbləğ onların daşınması, saxlancı və satışı ilə bağlı xərclər və ödənilməli olan gömrük ödənişləri çıxıldıqdan sonra müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada mal sahibinə verilir.

Sərbəst zona

Müvafiq icra hakimiyyəti orqanı gömrük ərazisində sərbəst zona yarada və ləğv edə bilər. Müvafiq icra hakimiyyəti orqanı hər bir sərbəst zonanın sahəsini, onun giriş və çıxış məntəqələrini müəyyənləşdirir.

Sərbəst zona qapalı olmalıdır. Onun sahəsinin perimetrləri, giriş və çıxış məntəqələri gömrük orqanlarının nəzarəti altında olur.

Sərbəst zonaya daxil olan və oranı tərk edən şəxslər, mallar və nəqliyyat vasitələri bu Məcəllədə və gömrük işi üzrə digər qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydada gömrük nəzarətindən keçməlidirlər.
Gömrük orqanlarının icazəsi əsasında sərbəst zonaya gətirilmiş mallarla adi əməliyyatlar, o cümlədən onların qorunması, qablaşdırılması, keyfiyyətinin yaxşılaşdırılması məqsədi ilə qablaşdırma yerlərinin qruplaşdırılması, çeşidlənməsi, markalanması və yenidən qablaşdırılması həyata keçirilə bilər.
Sərbəst zonada tikinti işləri gömrük orqanlarının icazəsi ilə aparılır.
Sərbəst zonada kommersiya və digər fəaliyyət növləri gömrük orqanlarına müəyyən edilmiş formada əvvəlcədən məlumat verilməklə, onların icazəsi ilə həyata keçirilir.
Sərbəst zonaya gətirilmiş mallar aşağıdakı hallarda gömrük orqanlarına təqdim edilir və müvafiq gömrük rəsmiləşdirilməsindən keçirilir:
1. gömrük ərazisindən kənar yerdən birbaşa sərbəst zonaya gətirildikdə;
2. digər xüsusi gömrük prosedurları altında yerləşdirilməsi başa çatan mallar sərbəst zona xüsusi gömrük proseduru altında yerləşdirildikdə;
3. idxal gömrük rüsumlarının qaytarılmasına və ya həmin rüsumların ödənilməsindən azad edilməyə əsas vermiş qərarın tətbiqi məqsədi ilə sərbəst zona xüsusi gömrük proseduru altında yerləşdirildikdə.

sərbəst zonaya gətirilən mallar aşağıda göstərilən vaxtdan sərbəst zona xüsusi gömrük proseduru altında yerləşdirilmiş hesab edilir:
1. mallar sərbəst zonaya daxili olduğu vaxtdan, əgər onlar artıq digər gömrük proseduru altında yerləşdirilməyibsə;
2. tranzit proseduru başa çatdığı vaxtdan, əgər mallar dərhal növbəti gömrük proseduru altında yerləşdirilməyibsə.
Malların sərbəst zona xüsusi gömrük proseduru altında qalması müddəti məhdudlaşdırılmır.

Sərbəst zonada olan daxili mallar

Daxili mallar sərbəst zonaya gətirilə, orada saxlanıla, daşına, istifadə və emal oluna, habelə istehlak edilə bilərlər. Belə hallarda mallar sərbəst zona xüsusi gömrük proseduru altında yerləşdirilmiş hesab edilmir.
Şəxslərin müraciəti əsasında gömrük orqanları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada aşağıdakı malların daxili mallar gömrük statusunu təsdiq edirlər:
1. sərbəst zonaya gətirilən daxili malların;
2. sərbəst zona daxilində emal əməliyyatlarına məruz qalmış daxili malların;
3. sərbəst zona daxilində sərbəst dövriyyəyə buraxılmış malların.

Sərbəst zonada olan xarici mallar

Xarici mallar sərbəst zonada olduğu müddətdə sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru, daxildə emal, müvəqqəti idxal və ya son istifadə xüsusi gömrük

prosedurları altında yerləşdirilə bilər. Belə hallarda mallar sərbəst zona xüsusi gömrük proseduru altında yerləşdirilmiş hesab edilmir.
Müvafiq gömrük prosedurlarına uyğun olaraq idxal gömrük rüsumları və vergilər ödəmək öhdəliyini yaratmayan sərbəst dövriyyəyə buraxılmış və ya müvəqqəti idxal edilmiş malların istifadəsinə və istehlakına maneçilik törətmir. Bu cür istifadə və ya istehlak zamanı sərbəst dövriyyə üçün buraxılış və ya müvəqqəti idxal gömrük prosedurları ilə əlaqədar heç bir gömrük bəyannaməsi tələb edilmir.
Sərbəst zonada yerləşən mallar gömrük ərazisindən ixrac və təkrar ixrac edilə və ya gömrük ərazisinin digər hissəsinə gətirilə bilər.
Sərbəst zona ləğv edildikdə, şəxslərə malların gömrük ərazisində yerləşən digər sərbəst zonaya aparılması və ya başqa gömrük proseduru altında yerləşdirilməsi üçün kifayət qədər vaxt verilməlidir.

Xüsusi istifadə

Müvəqqəti idxal xüsusi gömrük proseduru və onun əhatə dairəsi

Təkrar ixrac üçün nəzərdə tutulmuş xarici mallar müvəqqəti idxal proseduru altında yerləşdirilir. Bu mallardan gömrük rüsumlarından və vergilərdən tamamilə, yaxud qismən azad olunmaqla, habelə ticarət siyasəti tədbirləri tətbiq edilmədən gömrük ərazisində istifadə olunur.
Mallar uyğun olaraq gömrük rüsumlarından tamamilə azad olunduğu halda, onlar həmçinin, əlavə dəyər vergisindən və aksizlərdən də azad edilirlər.
Müvəqqəti idxal xüsusi gömrük prosedurundan yalnız aşağıdakı şərtlər daxilində istifadə olunur:
1. müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallardan normal istifadə nəticəsində baş verən dəyişikliklər istisna olmaqla, onların hər hansı başqa dəyişikliyə məruz qalması nəzərdə tutulmadıqda;
2. müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar təkrar ixrac edildiyi zaman, onların eyniləşdirilməsini təmin etmək mümkün olduqda;
3. gömrük qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, prosedur sahibi gömrük ərazisindən kənarda təsis edildikdə.
Malların müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Həmin qaydalarda beynəlxalq müqavilələrin müddəaları, malların xassələri və xüsusiyyətləri, onlardan istifadə şərtləri nəzərə alınmalıdır.
Müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilmiş malların təkrar ixracının və ya növbəti gömrük proseduru altında yerləşdirilməsinin müddətini gömrük orqanları müəyyənləşdirirlər. Bu müddət müvəqqəti idxal xüsusi gömrük prosedurunun məqsədi üçün kifayət qədər olmalıdır.
Malların eyni məqsəd üçün və eyni şəxsin məsuliyyəti altında olmaqla, müvəqqəti idxal proseduru altında yerləşdirilə biləcəyi maksimum müddət 24 (iyirmi dörd) ay təşkil edir. Müvafiq icra hakimiyyəti orqanı müxtəlif kateqoriyadan olan mallar üçün daha az və daha çox müvəqqəti idxal müddətləri müəyyən edə bilər.

Şəxs göstərilən müddət ərzində müvəqqəti idxal xüsusi gömrük prosedurunun məqsədinə nail olmadıqda, gömrük orqanları onun əsaslandırılmış müraciəti üzrə həmin müddəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada 12 (on iki) aya qədər uzadır.

Nəzərdə tutulmuş müddət başa çatanadək, müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar təkrar ixrac edilməli və ya başqa gömrük proseduru altında yerləşdirilməlidir.

Müvəqqəti idxal zamanı gömrük rüsumlarından və vergilərdən azadetmə

Gömrük rüsumlarından və vergilərdən qismən azad edilməklə müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallara tətbiq olunan gömrük rüsumları və vergilər üzrə aylıq ödənişlərin məbləği, onların müvəqqəti idxal proseduru altında yerləşdirildiyi tarixdə sərbəst dövriyyəyə buraxılışı üçün ödənilməli olan gömrük rüsumlarının və vergilərin məbləğinin 3 (üç) faizi miqdarında müəyyən edilir.

Gömrük rüsumlarından, vergilərdən qismən azad edilməklə müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallara görə alınan gömrük rüsumlarının və vergilərin ümumi məbləği, onların müvəqqəti idxal proseduru altında yerləşdirildiyi tarixdə sərbəst dövriyyəyə buraxılışı üçün ödənilməli olan gömrük rüsumlarının, vergilərin məbləğindən artıq olmamalıdır.

Müvəqqəti idxal edilən malların gömrük rüsumlarından və vergilərdən tamamilə və ya qismən azad edilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Son istifadə xüsusi gömrük proseduru

Son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar bu prosedurun məqsədinə uyğun olaraq gömrük rüsumlarından və vergilərdən azad edilməklə sərbəst dövriyyəyə buraxılır. Bu zaman həmin mallar gömrük nəzarəti altında qalır.

Son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar üzərində gömrük nəzarəti aşağıdakı hallarda başa çatır:

1. mallar gömrük rüsumlarından və vergilərdən azad edilmənin tətbiqi üçün qanunvericiliklə müəyyən edilmiş məqsədlərə istifadə olunduqda;
2. mallar ixrac və ya məhv edildikdə, yaxud onlardan dövlətin xeyrinə imtina olunduqda;
3. mallardan gömrük rüsumlarından və vergilərdən azad olunmanın məqsədləri üçün istifadə edilmədiyi aşkar olunduqda və bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş gömrük rüsumları və vergilər tam ödənildikdə;
4. mallar gömrük idxal rüsumları, vergilər alınmadan və ticarət siyasəti tədbirləri tətbiq edilmədən gömrük ərazisində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi yerlərdə (beynəlxalq hava və dəniz limanlarında və başqa yerlərdə) və qaydada yaradılan və fəaliyyət göstərən rüsumsuz ticarət mağazalarında gömrük nəzarəti altında satıldıqda.

Malların son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Emal

Hasilat norması

Gömrük orqanları emal xüsusi gömrük proseduru üzrə yerinə yetirilən əməliyyatların hasilat normasını və ya orta hasilat normasını müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi qaydada müəyyənləşdirirlər.

Hasilat norması və ya orta hasilat norması emal əməliyyatlarının həyata keçirildiyi və ya həyata keçirilməli olduğu faktiki şərait əsasında müəyyənləşdirilir.

Daxildə emal xüsusi gömrük proseduru və onun əhatə dairəsi

Daxildə emal proseduru altında yerləşdirilən xarici mallar aşağıda göstərilənlər tətbiq olunmadan gömrük ərazisində bir və ya bir neçə emal əməliyyatında istifadə edilir:

1. idxal gömrük rüsumları;
2. malların idxalı üzrə qanunvericilikdə nəzərdə tutulmuş əlavə dəyər vergisi və aksizlər;
3. ticarət siyasəti tədbirləri.

Malların təmiri və məhv etmə halları istisna olmaqla, daxildə emal prosedurundan yalnız o halda istifadə etmək olar ki, istehsal materiallarından istifadə edilməsinə baxmayaraq daxildə emal proseduru altında yerləşdirilmiş malları emal məhsulları ilə eyniləşdirmək mümkün olsun.

Aşağıda göstərilən mallar da daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirilə bilər:

1. sərbəst dövriyyə üçün buraxılış gömrük prosedurunun texniki şərtlərinə uyğunluğunun təmin edilməsi məqsədi ilə emal əməliyyatlarına məruz qalmalı olan mallar;
2. adi işləmə formalarına məruz qalmalı olan mallar.

Malların daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Gömrük orqanı müvafiq olaraq daxildə emal xüsusi gömrük prosedurunun başa çatma müddətini müəyyənləşdirir. Bu müddət 2 (iki) ildən artıq olmamalıdır.

Nəzərdə tutulan müddət xarici malların daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirildiyi tarixindən başlayır və emal əməliyyatlarının, habelə bu prosedurun başa çatdırılması üçün tələb edilən vaxtı əhatə edir.

Şəxsin əsaslandırılmış müraciəti olduqda, gömrük orqanları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada göstərilən müddətin uzadılması barədə qərar qəbul edir.

Malların daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirilməsi üçün gömrük orqanlarının verdiyi icazədə onun başlama və sona çatma müddətləri göstərilməlidir.

Emalı davam etmək məqsədi ilə müvəqqəti təkrar ixrac

Gömrük orqanının verdiyi icazəyə uyğun olaraq daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar, yaxud onların bir hissəsi, habelə emal edilmiş məhsullar emalı davam etmək məqsədi ilə xaricdə emal xüsusi gömrük prosedurunun şərtlərinə müvafiq olaraq gömrük ərazisindən kənara müvəqqəti təkrar ixrac edilə bilər.

Xaricdə emal xüsusi gömrük proseduru və onun əhatə dairəsi

Xaricdə emal xüsusi gömrük proseduru altında yerləşdirilən daxili mallar emal üçün gömrük ərazisindən müvəqqəti ixrac edilir. Bu mallardan əldə edilən emal məhsulları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hallarda və qaydada idxal gömrük rüsumlarından və vergilərdən tam və ya qismən azad edilməklə sərbəst dövriyyəyə buraxılır.

Aşağıdakı daxili malların xaricdə emalına icazə verilmir:

1. ixracı idxal gömrük rüsumlarının və vergilərin geriyə qaytarılmasına və ya qanunvericilikdə nəzərdə tutulmuş hallarda onlardan azad olunması ilə nəticələnə biləcək mallar;
2. təmiri üzrə əməliyyatların aparıldığı hallar istisna olmaqla, ixracdan əvvəl son istifadə ilə əlaqədar gömrük rüsumlarından və vergilərdən tam və ya qismən azad edilməklə sərbəst dövriyyəyə buraxılmış mallar;

3. ixrac edilməsi ixrac üzrə gömrük ödənişlərinin geriyə qaytarılması ilə nəticələnən mallar.

Gömrük orqanı müvəqqəti ixrac edilmiş malların emal olunduqdan sonra gömrük ərazisinə təkrar idxal edilərək, sərbəst dövriyyəyə buraxılması müddətini müəyyən edir. Bu müddət 2 (iki) ildən artıq olmamalıdır. Mallar bu müddət ərzində təkrar idxal edildikdə, idxal gömrük rüsumlarından və vergilərdən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada tamamilə və ya qismən azad olunurlar. Prosedur sahibinin əsaslandırılmış müraciəti olduqda, bu müddət növbəti 1 (bir) ilədək uzadılır.

Malların xaricdə emal xüsusi gömrük proseduru altında yerləşdirilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

İdxal olunmuş malların kabotaj daşınması

Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilmiş və ya bəyan edilmədən gömrük ərazisinə gətirilən malların gətirildiyi gəmi ilə deyil, başqa gəmi ilə gömrük məntəqələri arasında daşınması və boşaldılması gömrük nəzarəti altında kabotaj daşınma yolu ilə həyata keçirilə bilər.

Gömrük orqanları şəxsin müraciəti nəzərə alınmaqla kabotaj daşınma proseduru altında yerləşdirilmiş malların yüklənməsi və boşaldılması üçün yerləri, eləcə də yüklənmə və boşaldılmanın həyata keçirildiyi müddəti müəyyən edirlər.

Gömrük orqanları malların eyniləşdirilməsinə və digər tələblərin yerinə yetirilməsinə əmin olduqda, onların başqa mallarla birlikdə gəminin göyərtəsində kabotaj daşınmasına icazə verirlər.

Kabotaj daşınma proseduru altında yerləşdirilmiş malları daşıyan gəminin göyərtəsində bəyan edilməmiş, yaxud başqa gömrük prosedurları altında yerləşdirilmiş mallar olduqda, gömrük orqanları malların kabotaj daşınma proseduru altında yüklənməsinə və boşaldılmasına gəmi yükləmə və boşaltma yerinə gəldikdən sonra, mümkün qədər qısa müddətdə icazə verirlər.

Gömrük orqanları gəminin kapitanından və ya digər əlaqədar şəxslərdən gəmi haqqında məlumatları, kabotaj daşınma proseduru altında yerləşdirilmiş malların siyahısını və malların boşaldılacağı yerin, gömrük ərazisində yerləşən limanın və ya limanların adları göstərilən sənədlərin təqdim olunmasını tələb edirlər.

Gömrük orqanları gömrük nəzarəti altında qalmaqla idxalı, ixracı və ya gömrük ərazisindən tranzitlə keçirilməsi nəzərdə tutulan mallara müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada gömrük təminatının vurulmasını həyata keçirirlər.

Təhlükəsiz ixrac sxeminin məqsədi malların təhlükəsiz qaydada qablaşdırılmaqla, başqa mallardan ayrılıqda, heç bir kənar müdaxilə olmadan yüklənməsini, daşınmasını və təyinat yerində boşaldılmasını təmin etməkdir.

Təhlükəsiz ixrac sxemi üzrə ixrac olunan malların qablaşdırılması üçün təhlükəsiz bağlamalardan, onlara kənar müdaxilələrin qarşısının alınması və belə halların müəyyənləşdirilməsinə imkan verən gömrük təminatlarından istifadə olunmalıdır.

Müvafiq icra hakimiyyəti orqanı təhlükəsiz ixrac sxemi çərçivəsində malların qablaşdırılması, yüklənməsi, daşınması və boşaldılması qaydalarını müəyyən edir. Həmin qaydalarda malların daşınması üsullarına, malların yüklənməsinin, boşaldılmasının və saxlanılmasının təhlükəsiz yerlərinə, malları daşıyan şəxslərə münasibətdə təhlükəsizliklə bağlı tələblər də nəzərdə tutulmalıdır.
Malları təhlükəsiz ixrac sxemi çərçivəsində ixrac edən şəxs tərəfindən aşağıdakılar təsdiq edilməlidir:
1. təhlükəsiz ixrac sxemi çərçivəsində ixrac edilməsi nəzərdə tutulan malların gömrük orqanları tərəfindən təsdiq edilmiş təhlükəsiz bağlamaya yerləşdirildiyi vaxtdan ixrac edilənədək gömrük nəzarəti altında olması;
2. gömrük orqanlarının vəzifəli şəxslərinin nəqliyyat vasitələrinin saxlanılması və yoxlanılması ilə bağlı səlahiyyətlərinin təhlükəsiz bağlamalarda yerləşdirilmiş və gömrük nəzarətindən keçməli olan malları daşıyan nəqliyyat vasitələrinə də şamil olunması;
3. gömrük orqanlarının vəzifəli şəxslərinin ixrac olunması nəzərdə tutulan mallar barədə aşağıdakı şəxsləri sorğu-sual etmək səlahiyyəti:
1. təhlükəsiz bağlamaların içərisində yerləşdirilmiş və gömrük nəzarətindən keçməli olan malların mövcudluğu barədə gömrük orqanlarının vəzifəli şəxslərinin əsaslı şübhəsi yarandığı nəqliyyat vasitəsinə görə məsul şəxsi;
2. təhlükəsiz bağlamaların içərisində yerləşdirilmiş və gömrük nəzarətindən keçməli olan malların mövcudluğu barədə gömrük orqanlarının vəzifəli şəxslərinin əsaslı şübhəsi yarandığı tikilinin sahibini və ya istifadəçisini;
3. göstərilən şəxslər tərəfindən işə götürülmüş şəxsi.

Malların gömrük ərazisinə gətirilməsinin və ya bu ərazidən aparılmasının qadağan edilməsi

Milli təhlükəsizliyin, ictimai asayişin, insanların mənəviyyatının, həyat və sağlamlığının, mülkiyyət hüququnun, o cümlədən əqli mülkiyyət hüquqları obyektlərinin, heyvanlar və bitkilər aləminin, ətraf mühitin, xalqların bədii, tarixi və arxeoloji sərvətlərinin qorunması baxımından və Azərbaycan Respublikasının başqa maraqları nəzərə alınaraq, qanunvericiliyə və beynəlxalq müqavilələrə uyğun olaraq aşağıdakı malların gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması qadağandır:
1. saxta kağız və metal pullar;
2. gömrük ərazisinə idxalı və ya bu ərazidən ixracı qanunvericiliklə qadağan edilmiş narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları;
3. pornoqrafik materialları və ya əşyalar;
4. gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması müvafiq icra hakimiyyəti orqanı tərəfindən qadağan olunmuş mallar.
Qadağan olunmuş mallar gömrük ərazisinə gətirilərkən və ya bu ərazidən aparılarkən müsadirə edilməsi qanunla nəzərdə tutulmamışdırsa, dərhal müvafiq olaraq gömrük

ərazisindən çıxarılmalı və ya bu əraziyə qaytarılmalıdır. Həmin mallar onları gömrük sərhədindən keçirən şəxsin hesabına müvafiq olaraq çıxarılır və ya qaytarılır.

Malları gömrük ərazisindən çıxarmaq və ya bu əraziyə qaytarmaq dərhal mümkün olmadıqda, onlar gömrük orqanlarının müvəqqəti saxlancına verilir. Bu cür malların saxlanc müddətinin son həddi 3 (üç) sutkadır. Beynəlxalq müqavilələrlə müəyyən edilmiş öhdəliklərin yerinə yetirilməsi, dövlətin iqtisadi maraqlarının müdafiəsi, daxili bazarın qorunması baxımından, həmçinin rezidentlərin mənafeyinə zərər vuran xarici dövlətlərin və onların ittifaqlarının ayrı-seçkilik və digər iqtisadi siyasət tədbirlərinə qarşı cavab kimi, qanunvericiliyə və beynəlxalq müqavilələrə uyğun surətdə malların gömrük ərazisinə gətirilməsinə və ya bu ərazidən aparılmasına müvafiq icra hakimiyyəti orqanı tərəfindən məhdudiyyətlər müəyyən edilə bilər.

«Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş malların gömrük sərhədindən keçirilməsi üçün xüsusi icazə tələb olunur.

Rüsumsuz ticarət mağazalarının yaradılması və onların fəaliyyətinin tənzimlənməsi QAYDALARI

Mağazada idxal gömrük rüsumları, vergilər alınmadan və ticarət siyasəti tədbirləri tətbiq edilmədən son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilmiş və şəxsi istifadə (istehlak) üçün nəzərdə tutulan mallar satılır.

Mağazanın ərazisi (ticarət zalları, köməkçi otaqlar və anbarlar) gömrük nəzarəti zonası hesab edilir və həmin ərazidə yerləşdirilən mallar gömrük nəzarəti altında olur.

Mağazanın fəaliyyətinə nəzarət onların yaradıldığı ərazi üzrə gömrük orqanı tərəfindən həyata keçirilir.

Mağazanın yaradılmasına icazənin verilməsi

Mağazanın yaradılmasına icazə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi (bundan sonra - Komitə) tərəfindən verilir. İcazənin alınması üçün "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, kağız üzərində yazılı və ya elektron formada ərizə ilə müraciət edilir. Ərizədə qanunvericilikdə nəzərdə tutulmuş məlumatlarla yanaşı aşağıdakılar da göstərilir:

- şəxsə verilmiş vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN);
- bank hesabı barədə məlumat;
- mağazanın yerləşdiyi yer barədə məlumat.

Ərizəyə şəxsin mağazanın ərazisindən istifadə (icarə) hüququnu təsdiq edən sənədin surəti əlavə edilir.

Ərizə Komitəyə daxil olduğu gündən 30 (otuz) gün müddətində mağazanın ərazisinin bu Qaydalarla müəyyən edilmiş tələblərə uyğunluğu yoxlanılır və imtina üçün əsas olmadıqda mağazanın yaradılmasına icazə verilir. Təqdim edilmiş sənədlərdə və ya yoxlama zamanı çatışmazlıqlar aşkar edildikdə, bu barədə ərizəçiyə dərhal yazılı məlumat verilir. Çatışmazlıqlar 15 (on beş) gün müddətində aradan qaldırıldıqda müvafiq qərar qəbul edilir.

İcazə Komitənin sədri və ya onu əvəz edən şəxs tərəfindən imzalanır və möhürlə təsdiq edilir.

İcazədə aşağıdakılar göstərilir:

- Komitənin tam adı;
- icazəni almış şəxs barədə məlumatlar;
- mağazanın yerləşdiyi yer;
- icazənin qeydiyyat nömrəsi;
- icazənin verilmə tarixi;
- icazənin etibarlılıq müddəti.

İcazə sahibi barədə məlumatlarda dəyişikliklər olduqda, icazə itirildikdə və ya yararsız hala düşdükdə, icazə sahibi 3 (üç) iş günü müddətində yeni icazənin alınması üçün Komitəyə ərizə ilə müraciət etməlidir.

İcazə 5 (beş) il müddətinə verilir. Qüvvədə olan icazənin müddətinin bitməsinə 3 (üç) ay qalmış yeni icazənin alınması üçün müraciət edilə bilər.

İcazənin verilməsindən aşağıdakı hallarda imtina edilir:

- aşkar edilmiş çatışmazlıqlar aradan qaldırılmadıqda;
- təqdim edilmiş sənədlərdə yanlış məlumatlar olduqda;
- mağazada yerləşdirilən mallara gömrük nəzarətinin həyata keçirilməsi mümkün olmadıqda;
- mağazanın ərazisi və quruluşu bu Qaydalarla müəyyən edilmiş tələblərə uyğun olmadıqda.

Şəxs icazənin verilməsindən imtinaya əsas olmuş halları aradan qaldırdıqdan sonra icazə almaq üçün yenidən Komitəyə müraciət edə bilər.

Gömrük orqanlarına təqdim edilmiş malların məhv edilmə halları və QAYDASI

Məhv edilən mallara görə gömrük rüsumları və vergilər alınmır, habelə ticarət siyasəti tədbirləri tətbiq olunmur.

Malların məhvi və yaranan tullantıların zərərsizləşdirilməsi gömrük nəzarəti altında həyata keçirilir.

Malların məhv edilməsi həmin malların tamamilə məhv edilməsi ilə nəticələnən, onların sonrakı bərpasını və onlardan ilkin şəkildə istifadənin mümkünlüyünü istisna edən termik, kimyəvi, mexaniki və ya başqa təsir üsulları ilə həyata keçirilir.

Malların məhv edilməsi üsulları aşağıdakı tələblərə cavab verməlidir:

- malların istehlak xassələrinin bərpası imkanını istisna etməlidir;
- əhalinin sağlamlığının qorunması və ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyə riayət edilməsini təmin etməli və malların məhv edilməsi nəticəsində təhlükəli maddələrin və tullantıların (qalıqların) əmələ gəlməsinə səbəb olmamalıdır.

Malların məhv edilməsi Azərbaycan Respublikasının ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyinin tələblərinə əməl edilməklə həyata keçirilməlidir.

Malların məhv edilməsinin ətraf mühitə ziyan vura biləcəyinə əsaslar olduqda, ətraf mühitin mühafizəsi haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun

olaraq, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyi alınmalıdır.

Malların məhvinin təhlükəli və ya radioaktiv tullantıların (qalıqların) atılması, axıdılması və anbarlaşdırılması ilə bağlı olmasına ehtimal olduqda, belə məhvetməyə qanunvericilikdə nəzərdə tutulduğu hallarda Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyindən, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyindən, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyindən və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyindən müvafiq icazələr alınmaqla və onların iştirakı ilə yol verilir.

Malların məhv edilməsində ekoloji və səhiyyə tələbləri üzrə səlahiyyətli orqanlar Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyidir.

Malların məhv edilmə halları

Gömrük orqanlarına təqdim edilmiş mallar aşağıdakı hallarda məhv edilir:

- şəxsin müraciəti əsasında;
- qanunla müəyyən edilmiş hallarda gömrük orqanının təşəbbüsü ilə.

Şəxsin müraciəti əsasında malların məhv edilməsinə icazənin verilməsi, gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsi və malların məhv edilməsi nəticəsində əmələ gəlmiş bütün tullantılarla (qalıqlarla) bağlı məsələlər bu Qaydanın 3-cü - 5-ci hissələri ilə tənzimlənir.

mallar gömrük orqanlarının müraciəti əsasında məhkəmənin qərarı ilə məhv edilir.

Şəxsin müraciəti əsasında malların məhv edilməsinə icazə verilməsi

Şəxsin müraciəti əsasında, bu Qayda ilə müəyyən edilmiş tələblər nəzərə alınmaqla, aşağıdakı mallar məhv edilir:

- Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilərək gətirilən mallar;
- Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilmiş və gömrük anbarı, ixrac və təkrar ixrac gömrük prosedurları, tranzit, son istifadə, daxildə emal, xaricdə emal, müvəqqəti idxal və sərbəst zona xüsusi gömrük prosedurları altında yerləşdirilmiş mallar.

Şəxsin müraciəti əsasında aşağıdakı malların məhv edilməsinə yol verilmir:

- Azərbaycan Respublikasına gətirilməsi qadağan olunmuş malların;
- Azərbaycan Respublikasının və xarici ölkə xalqlarının mədəni, tarixi, arxeoloji sərvəti olan əşyaların;
- xüsusi təhlükəli heyvan xəstəlikləri və bitki karantini obyektlərinin yayılması hallarının qarşısını almaq məqsədi ilə aparılan tədbirlər istisna olmaqla, "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında" Konvensiyaya (CİTES) əsasən nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan heyvan və bitki növlərinin, onların hissələrinin və törəmələrinin.

Gömrük orqanları tərəfindən malların məhv edilməsinə aşağıdakı hallarda icazə verilmir:

- malların məhv edilməsi ətraf mühitə və insan sağlamlığına zərər vura bilərsə;

- malların məhv edilməsi dövlət üçün xərclərə səbəb ola bilərsə;
- gömrük orqanının malların məhv edilməsi prosesinə nəzarət etmək imkanı olmazsa.

Malların məhv edilməsinə məhvetmə nəticəsində onlar ilkin istehlak xassələrini və ya kommersiya dəyərini tamamilə itirdikdə yol verilir.

Malların məhv edilməsinə icazə verilməsinə dair qərar gömrük orqanının rəhbəri tərəfindən qəbul edilir.

Şəxsin müraciəti olduqda, qüsurlu malların gömrük ərazisindən aparılması əvəzinə onların məhv edilməsinə gömrük orqanları tərəfindən icazə verilir.

Şəxsin müraciəti əsasında malların məhv edilməsi zamanı gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsi

Şəxsin müraciəti əsasında malların məhv edilməsi əməliyyatı zamanı gömrük rəsmiləşdirilməsi aşağıdakı gömrük orqanları tərəfindən həyata keçirilir:

- Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilmiş (tranzit xüsusi gömrük prosedurundan başqa) malların məhvi seçilmiş gömrük prosedurunun gömrük rəsmiləşdirilməsini həyata keçirən gömrük orqanı tərəfindən;
- Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və ya tranzit gömrük proseduru altında yerləşdirilən və gömrük nəzarəti altında çatdırılma qaydalarına uyğun çatdırılan malların yerləşdiyi ərazi fəaliyyət zonasına daxil olan gömrük orqanı tərəfindən.

Malların məhv edilməsi malları gömrük orqanına təqdim edən və məhvetmə ilə bağlı müraciət edən şəxsin ərizəsi təqdim edilməklə və tələblərinə uyğun olaraq həyata keçirilir.

Ərizə ilə birlikdə gömrük orqanına aşağıda göstərilən sənədlər təqdim edilməlidir:

- mallar məhv edilənədək yerləşdirildiyi gömrük proseduruna dair gömrük bəyannaməsi;
- invoys - idxal olunan malların əmtəə dəyərini müəyyən edən sənəd;
- yol-nəqliyyat sənədləri;
- malın mənşəyini təsdiq edən sənəd;
- malın fitosanitar sertifikatı (bitki və bitkiçilik məhsulları üçün);
- malın uyğunluq sertifikatı;
- malın baytarlıq sertifikatı (dövlət baytarlıq nəzarətində olan yüklər üçün);
- malın gigiyenik sertifikatı (yeyinti məhsulları üçün);
- Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nda nəzərdə tutulan hallarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı və müvafiq dövlət orqanının rəyi.

Gömrük nəzarəti altında malların məhv edilməsinə dair ərizə və sənədlər qəbul edildikdən sonra gömrük orqanının vəzifəli şəxsi tərəfindən sənədlərdə göstərilən məlumatların həqiqiliyi yoxlanılır. Sənədlər yoxlanıldıqdan sonra təqdim edilən mallara gömrük orqanı tərəfindən baxış keçirilir. Baxış zamanı malın adı, xarici

iqtisadi fəaliyyətin mal nomenklaturası (bundan sonra - XİFMN) üzrə kodu, çəkisi, miqdarı və təsviri müəyyən edilir.
Malların məhv edilməsi gömrük orqanına müraciət edən şəxsin və ya onun nümayəndəsinin, o cümlədən göstərilən icazəni verən dövlət orqanının nümayəndəsinin iştirakı ilə gömrük nəzarəti altında həyata keçirilir.
Malların məhv edilməsinə dair akt malların məhv edilməsi üçün gömrük orqanına müraciət edən şəxs və ya onun nümayəndəsi, həmçinin gömrük orqanının və digər dövlət orqanlarının nümayəndələri tərəfindən imzalanır. Həmin şəxslərə aktın surəti verilir.
Gömrük orqanı malın məhv edilməsinə dair icazə verməkdən imtina etdiyi halda, imtinanın səbəbini göstərməklə şəxsə yazılı məlumat verir.
Şəxsin müraciəti əsasında malların gömrük nəzarəti altında məhvinin yerinə yetirilməsinə görə Gömrük Məcəlləsinin 232.1.3-cü maddəsinə uyğun olaraq gömrük yığımları alınır.
Şəxsin müraciəti əsasında malların məhvi və yaranan tullantıların (qalıqların) zərərsizləşdirilməsi onların sahibinin vəsaiti hesabına həyata keçirilir.

Dövlətin xeyrinə imtina edilməsinə icazə verilməyən malların siyahısı

1. "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının 2003-cü il 23 dekabr tarixli 564-IIQ nömrəli qanunu ilə müəyyən edilmiş mallar.
2. Raket-kosmik komplekslər və onların istehsalına və istismarına aid normativ-texniki sənədlər.
3. Radioaktiv materialların və partlayıcı maddələrin tullantıları.
4. Sənaye tullantıları.
5. Raket yanacağının bütün növləri, həmçinin onların istehsalı üçün lazım olan xüsusi materiallar və xüsusi qurğular.
6. Qüsurlu mallar.

Mallardan dövlətin xeyrinə imtina edilməsi qaydası

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 fevral tarixli 26 nömrəli qərarı ilə təsdiq edilmişdir.
Xarici mallardan və son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallardan prosedur sahibi, yaxud malın sahibi tərəfindən dövlətin xeyrinə imtina edilə bilər.
Dövlətin xeyrinə imtina edilmiş mallara görə gömrük rüsumları və vergilər tutulmur, habelə ticarət siyasəti tədbirləri tətbiq edilmir.
Mallardan dövlətin xeyrinə imtina edilməsi bu Qaydaya uyğun olaraq gömrük orqanının icazəsi ilə həyata keçirilir.
Mallardan dövlətin xeyrinə imtina edilməsi dövlət tərəfindən hər hansı bir xərcin çəkilməsinə səbəb olmamalıdır.
Mallardan dövlətin xeyrinə imtina edilməsi şərtləri

İxrac gömrük proseduru, son istifadə, daxili tranzit və ya xaricdə emal xüsusi gömrük prosedurları üçün bəyan edilən daxili mallar və nəqliyyat vasitələri müvafiq gömrük bəyannaməsi gömrük orqanı tərəfindən təsdiq olunduğu vaxtdan başlayaraq, dövlətin xeyrinə imtina olunanadək gömrük nəzarəti altında olurlar.

Aşağıdakı mallardan dövlətin xeyrinə imtina edilə bilməz:

- Azərbaycan Respublikasının ərazisinə gətirilməsi qadağan edilmiş mallardan;
- göstərilən mallardan;
- dövlətin xeyrinə imtina edilməsi dövlət üçün hər hansı bir xərcə səbəb ola bilən mallardan;
- malların dəyəri gömrük orqanının onların satılması ilə bağlı xərclərini ödəyə bilməyən mallardan;
- yararlılıq müddəti keçmiş və ya texniki normaların və standartların tələblərinə cavab verməyən mallardan.

Mallardan dövlətin xeyrinə imtina edilməsi üçün icazə verilməsinə dair qərar gömrük orqanının rəhbəri (onu əvəz edən şəxs) tərəfindən qəbul edilir.

Gömrük orqanları daşıyıcıya, anbar sahibinə və ya başqa şəxslərə malların daşınması, saxlanılması, yüklənməsi və digər əməliyyatların aparılması ilə bağlı xərcləri ödəmir.

Qanunvericiliklə müəyyən edilmiş hallarda gömrük ərazisinə gətirilməsinə və bu ərazidən aparılmasına məhdudiyyət qoyulmuş mallardan dövlətin xeyrinə imtina edilməsi müvafiq icazə sənədlərinin təqdim edilməsi şərtilə həyata keçirilir.

Mallardan dövlətin xeyrinə imtina edilməsi zamanı gömrük rəsmiləşdirilməsinin aparılması

Dövlətin xeyrinə imtina edilən malların gömrük rəsmiləşdirilməsi həmin malların yerləşdiyi ərazi gömrük orqanında gömrük nəzarəti zonasında həyata keçirilir.

Mallardan dövlət xeyrinə imtina edilərkən sənədlər gömrük orqanına elektron və ya kağız üzərində yazılı formada verilə bilər.

Mallardan dövlətin xeyrinə imtina edən şəxs malları öz vəsaiti hesabına gömrük orqanının təyin etdiyi yerə gətirməlidir.

Şəxsin dövlətin xeyrinə imtina etdiyi mallar dövlət mülkiyyətinə keçirilmiş mallardır və onlar barədə sərəncam verilməsi Gömrük Məcəlləsinin 57-ci fəslinə uyğun qaydada həyata keçirilir.

Bu mallardan dövlətin xeyrinə imtina edildikdə, həmin mallar üzrə yaranmış gömrük borcu ləğv edilir.

6. Gömrük rəsmiləşdirilməsi

Plan:

1. ***Gömrük rəsmiləşdirilməsinin əsas prinsipləri.***
2. ***Gömrük rəsmiləşdirilməsi mərhələləri.***
3. ***"Bir pəncərə-AİS" sistemi vasitəsilə həyata keçirilən gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi.***
4. ***YGB-nin doldurulması qaydaları. Bəyanetmə və gömrük bəyannaməsi. BYD daşınmaları şərtləri***
5. ***Malların daşıyıcısı, malları göndərən və alan, gömrük daşıyıcısı və gömrük orqanları arasında qarşılıqlı münasibətlər. Səlahiyyətli iqtisadi operator***

Gömrük rəsmiləşdirilməsi — bu Məcəllənin tələblərinə uyğun olaraq malların və nəqliyyat vasitələrinin müvafiq gömrük proseduru altında yerləşdirilməsi və bu prosedurun başa çatdırılması üzrə həyata keçirilən hərəkətlər;

Gömrük rəsmiləşdirilməsinin aparılması qaydası

Gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi və sürətləndirilməsi məqsədi ilə bağlanılan beynəlxalq müqavilələrə uyğun olaraq, bir sıra dövlətlərdə gömrük rəsmiləşdirilməsi üçün nəzərdə tutulan gömrük sənədlərindən istifadə edilə bilər. Məcəlləyə əsasən ayrı-ayrı gömrük əməliyyatı və ya gömrük proseduru ilə bağlı gömrük orqanının icazəsi tələb olunursa, həmin icazə onun alınması üçün müəyyən edilmiş şərtlərin yerinə yetirilməsindən dərhal sonra verilməlidir.

Məcəlləyə əsasən ayrı-ayrı gömrük əməliyyatı və ya gömrük proseduru ilə bağlı gömrük orqanının icazəsinin verilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsinin xüsusiyyətləri

Gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsinin xüsusiyyətləri aşağıdakılardan asılı olaraq fərqləndirilir:

1. gömrük sərhədindən keçirilən malların kateqoriyasına görə;

2. gömrük sərhədindən keçirilmə üçün istifadə olunan nəqliyyat vasitəsinin növünə görə;

3. malları keçirən şəxsə görə.

Malların mənşəyindən, göndərilmə və təyinat ölkəsindən asılı olmayaraq, gömrük rəsmiləşdirilməsi eyni qaydada həyata keçirilir.

Gömrük rəsmiləşdirilməsinin başlanması və başa çatması

Gömrük rəsmiləşdirilməsi bəyannaməçinin gömrük orqanına konkret malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi ilə bağlı bəyannamə və ya müvafiq sənədləri təqdim etdiyi, yaxud bu Məcəllədə nəzərdə tutulmuş hallarda gömrük rəsmiləşdirilməsini həyata keçirmək barədə niyyətini şifahi formada gömrük orqanına bildirdiyi vaxtdan başlanır.

Malların müvafiq gömrük proseduru altında yerləşdirilməsinə dair tələblərə uyğun olaraq zəruri gömrük əməliyyatları yerinə yetirildikdən və bu Məcəllədə nəzərdə tutulmuş gömrük ödənişləri ödənildikdən sonra gömrük rəsmiləşdirilməsi başa çatır.

Gömrük rəsmiləşdirilməsi başa çatmamış mallardan, nəqliyyat vasitələrindən istifadə edilməsi və onlar barəsində sərəncam verilməsi

Məcəllədə və gömrük işi üzrə digər qanunvericilik aktlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, gömrük rəsmiləşdirilməsi başa çatmamış mallardan və nəqliyyat vasitələrindən istifadə edilə, habelə onlar barəsində sərəncam verilə bilməz.

Müvafiq icra hakimiyyəti orqanı gömrük rəsmiləşdirilməsi başa çatmamış mallardan və nəqliyyat vasitələrindən istifadə edilməsi və onlar barəsində sərəncam verilməsinə dair şərtlər və məhdudiyyətlər müəyyən edir.

Gömrük rəsmiləşdirilməsi malları ixrac və ya idxal edənin, yaxud onların struktur bölmələrinin yerləşdiyi ərazi üzrə gömrük orqanlarının fəaliyyət zonasında, bu məqsədlər üçün ayrılmış yerlərdə aparılır. Gömrük orqanları tərəfindən gömrük rəsmiləşdirilməsinin aparıldığı iş vaxtını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Gömrük orqanlarının icazəsi ilə gömrük rəsmiləşdirilməsi başqa yerlərdə və iş vaxtından kənar saatlarda aparıla bilər. Müvafiq icra hakimiyyəti orqanı malların və nəqliyyat vasitələrinin ayrı-ayrı kateqoriyalarının gömrük rəsmiləşdirilməsinin aparılmasını müəyyən gömrük orqanlarına həvalə edə bilər. Gömrük rəsmiləşdirilməsinin operativliyini və şəffaflığını artırmaq məqsədi ilə müraciət edən şəxslərin qəbul edilməsi ardıcıllığının müəyyən olunması üçün elektron idarəetmə sistemi («elektron növbə») tətbiq edilir.

Mallar və nəqliyyat vasitələri barəsində səlahiyyəti olan şəxslər və ya onların nümayəndələri öz təşəbbüsləri ilə gömrük rəsmiləşdirilməsində iştirak edə bilərlər. Gömrük orqanları tələb etdikdə, göstərilən şəxslər və ya onların nümayəndələri gömrük rəsmiləşdirilməsində iştirak etməli və bu işdə gömrük orqanlarının vəzifəli şəxslərinə yardım göstərməlidirlər.

Gömrük sərhədindən malları keçirən şəxs, daşıyıcı, anbar sahibi, mallar və nəqliyyat vasitələri barəsində səlahiyyəti olan digər şəxslər və ya onların nümayəndələri gömrük orqanının tələbi ilə gömrük rəsmiləşdirilməsi nəzərdə tutulan malların və nəqliyyat vasitələrinin daşınmasını, çəkilməsini və ya kəmiyyət ölçüsünün başqa qaydada müəyyən edilməsini, yüklənməsini, boşaldılmasını, qablaşdırılmasını və ya yenidən qablaşdırılmasını, həmçinin bu cür malların və nəqliyyat vasitələrinin saxlandığı yerlərin açılmasını təmin etməlidir.

Daşıyıcının və onun nəqliyyat vasitələrinin bu Məcəllənin tələblərinə cavab verməməsi barədə gömrük orqanlarının kifayət qədər əsasları olduqda, malların daşınması, həmin nəqliyyat vasitəsi gömrük daşıyıcısı tərəfindən lazımi vəziyyətə gətirildikdən sonra, gömrük müşayiəti altında (malların, nəqliyyat vasitələrinin və onlara aid sənədlərin gömrük orqanının vəzifəli şəxsi tərəfindən müşayiət edilməsi) davam etdirilir.

Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üçün bu maddədə nəzərdə tutulmuş zəruri əməliyyatlar gömrük orqanlarının əlavə xərclərinə səbəb olmamalıdır.

Gömrük rəsmiləşdirilməsi Azərbaycan Respublikasının dövlət dilində aparılır.

Təbii fəlakətlər və digər fövqəladə hallar zamanı zəruri olan malların və nəqliyyat vasitələrinin, canlı heyvanların, tez xarab olan malların, radioaktiv maddələrin, kütləvi informasiya məqsədləri üçün materialların, Azərbaycan Respublikasının qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının, Azərbaycan Respublikası Mərkəzi Bankının ünvanlarına göndərilən və bu qəbildən olan başqa malların gömrük rəsmiləşdirilməsi güzəştli və sadələşdirilmiş qaydada həyata keçirilir.

«Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında «bir pəncərə» prinsipinin tətbiqi haqqında» Azərbaycan Respublikası Prezidentinin 11 noyabr 2008-ci il tarixli, 12 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədrinin 22 dekabr 2009-cu il tarixli 136 saylı əmri ilə Azərbaycan Respublikasına gətirilən mallar üzərində dövlət sərhədinin buraxılış məntəqələrindəki nəzarət orqanlarında müvafiq nəzarətin həyata keçirilməsi məqsədi ilə qanunvericilikdə müəyyən olunmuş qaydada sənədlər gömrük orqanına təqdim olunur. Bununla əlaqədar, «Dövlət sərhədinin buraxılış məntəqələrində «bir pəncərə» prinsipinin tətbiqi ilə bağlı mal və nəqliyyat vasitələri üzərində gömrük, baytarlıq, fitosanitar və sanitariya-karantin nəzarətinin həyata keçirilməsinin və beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə «icazə» blanklarının verilməsinin ardıcıllığını müəyyən edən müvəqqəti Texnoloji sxem» təsdiq edilmişdir.

Texnoloji sxemdə dövlət sərhədinin buraxılış məntəqələrində qanunvericilikdə müəyyən olunmuş qaydada gömrük, baytarlıq, fitosanitar və sanitariya karantin nəzarəti və beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə «İcazə» blanklarının verilməsi işlərinin bu məsələlər üzrə məsul olan gömrük əməkdaşları tərəfindən həyata keçirilməsi göstərilmişdir.

Azərbaycan Respublikası ərazisinə daxil olan Dəmir yolu, Avtomobil, Hava və Dəniz nəqliyyatı vasitələrində daşınan mallara tətbiq olunan nəzarət növlərinin ardıcıllığının xüsusiyyətləri aşağıdakı kimi müəyyən edilmişdir:

- Daşınmaya dair sənədlərdə baytarlıq, fitosanitar və sanitariya-karantin nəzarətinə aid edilən mallar olduqda gömrük nəzarətinin keçirilməsi üzrə məsul olan gömrük əməkdaşı aidiyyəti nəzarətin qanunvericilikdə müəyyən olunmuş qaydada həyata keçirilməsinin təmin edilməsi məqsədi ilə bu sahəyə məsul olan gömrük əməkdaşlarını dəvət edir. Gömrük, baytarlıq, fitosanitar və sanitariya-karantin nəzarəti üzrə məsul olan gömrük əməkdaşları tərəfindən müəyyən olunmuş qaydada nəzarət tədbirlərinin həyata keçirilməsi zamanı müvafiq sertifikatların və digər icazə sənədlərinin mövcudluğu yoxlanılır və bu sahələri tənzimləyən qanunvericilik aktlarından irəli gələn sərhəd nəzarəti üzrə yoxlama və prosedurlar həyata keçirilir.

Müəyyən olunan qaydalara uyğun dezinfeksiya tədbirləri aparılır (boş nəqliyyat vasitələri daxil olmaqla).

- Nəzarət növləri üzrə məsul olan gömrük əməkdaşları tərəfindən gətirilən mallara dair qanunvericilikdə müəyyən olunmuş nəzarət tədbirlərini həyata keçirirlər.
- Daşınmaya dair sənədlər qeydiyyatın aparılması, elektron qaydada işlənməsi və nəzərdə tutulduğu halda ödənişlərin tutulması məqsədi ilə «bir pəncərə» prinsipinə uyğun olaraq gömrük rəsmiləşdirilməsi mərkəzinə təqdim edilir.
- Qeydiyyat işlərinin həyata keçirilməsi zamanı müvafiq sənədlərin, o cümlədən nəzarət növləri üzrə yoxlanışı əks etdirən qeydlərin mövcudluğu yoxlanılır, «icazə» blanklarının verilməsi, dövlət rüsumlarının tutulması həyata keçirilir.
- Malların digər gömrük idarələrində rəsmiləşdirilməsi halları nəzərdə tutulduqda digər nəzarət növlərinin tamamlanması məqsədi ilə təyinat gömrük idarəsinə ünvanlanması üzrə qeydiyyat (elektron qeydiyyat daxil olmaqla) aparılır.
- Tranzit keçirilən mallar üzərində yuxarıda qeyd olunan gömrük, baytarlıq, fitosanitar və sanitariya-karantin nəzarəti qanunvericilikdə müəyyən olunmuş qaydada yoxlama və prosedurlar keçirildikdən sonra aidiyyəti qeydiyyat aparılaraq təyinatı üzrə buraxılır və ya sərhəddə yerləşən çıxış gömrük orqanına ünvanlanır.

Bəyanetmə

Gömrük qanunvericiliyində bəyanetmə dedikdə, gömrük rəsmiləşdirilməsi icraatı və gömrük nəzarətinin həyata keçirilməsi məqsədləri ilə mal və nəqliyyat vasitələri barədə səhih məlumatlarınmüəyyən edilmiş (şifahi, yazılı, digər) formada gömrük orqanlarına elan edilməsi başa düşülür.

Bir qayda olaraq bəyanetmə aşağıdakı əsas hallarda tələb olunur:

1) mal və nəqliyyat vasitələri - Azərbaycan Respublikasının gömrük sərhədindən keçirildikdə;

2) malların yerləşdirildiyi gömrük rejimi bu və ya digər səbəbdən Gömrük Məcəlləsinə müvafiq olaraq dəyişdirildikdə;

3) Azərbaycan Respublikası Qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hallarda (məsələn, rüsumsuz ticarət mağazası, yaxud sərbəst anbar rejimi altında yerləşdirilmiş mallar, verilmiş icazə geri alındıqda, yaxud ləğv edildikdə yenidən bəyan edilməlidir.

Mal və nəqliyyat vasitələrinin bəyan edilməsinin nəticələri gömrük orqanının vəzifəli şəxsləri tərəfindən aşağıdakı məqsədlər üçün istifadə edilə bilər:

- hüquq-mühafizə (qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasına qarşı mübarizə);
- vergi;
- xarici iqtisadi fəaliyyətin inzibati tənzimlənməsi (kvotalaşdırma, lisenziyalaşdırma);
- gömrük sərhəddində digər dövlət nəzarəti növlərinin təşkili (baytarlıq, fitosanitar, ekoloji və s.);
- xarici ticarət statistikasının aparılması və s.

Bəyanetmə gömrük-tarif tənzimləməsi mexanizmi üçün birinci dərəcəli əhəmiyyət kəsb edir. İlkin gömrük - tarif münasibətlərində (mal və nəqliyyat vasitələri bilavasitə gömrük sərhəddindən keçirilərkən) vergilərin və gömrük rüsumlarının ödənilməsi ilə bağlı öhdəliklər gömrük orqanının vəzifəli şəxsi tərəfindən gömrük bəyannaməsinin qəbul edilməsi ilə bağlıdır.
Gömrük bəyanetməsi prinsipini açıqlarkən qeyd etmək lazımdır ki, gömrük qanunvericiliyi gömrük rüsum və vergilərinin ödənilməsi öhdəliyini gömrük rəsmiləşdirilməsi və gömrük nəzarətindən keçirilən mal və nəqliyyat vasitələri barədə məlumatı özündə cəmləşdirən hər hansı sənədin deyil, yalnız xarici ticarət göndərişi barədə son məlumatları özündə əks etdirən gömrük bəyannaməsinin təqdim edilməsidir. Çünki declarant bəyannamədə göstərilən məlumatların dəqiqliyinə görə mövcud qanunvericiliklə məsuliyyət daşıyır.
Gömrük bəyanetmə prinsipi o deməkdir ki, ödənilməsi lazım olan gömrük ödənişlərinin hesablanması üçün lazım olan məlumatları və malları gömrük sərhədindən keçirən şəxsin özü və ya gömrük brokeri verməlidir.
Bəyanetmədən istifadə gömrük orqanlarına mal və nəqliyyat vasitələrinə seçmə nəzarət tətbiq etməyə imkan verir və çox mürəkkəb rəsmiləşdirilmə və nəzarət prosesini sadələşdirir. Əks halda mallar gömrükxanalarda yığılıb qalmış olar və iqtisadiyyat üçün mühüm əhəmiyyət kəsb edən xarici ticarət mübadiləsinə ləngedici, neqativ təsir göstərilmiş olardı.
Gömrük bəyanetmə prinsipinə alternativ kimi gömrük rüsumları miqdarının, mal və nəqliyyat vasitələrinin keyfiyyət və kəmiyyət xarakteristikalarının müəyyən edilməsinin inzibati üsulundan da istifadə edilə bilər. Lakin bu zaman gömrük orqanları deklarantın bəyan etdiyi məlumatları gömrük nəzarətinin nəticələri ilə müqayisə etmək imkanından məhrum olar, bu da gömrük nəzarətinin səmərəliliyinin azalmasına gətirib çıxarardı. Bundan başqa gömrük bəyannaməsindən istifadə edilməməsi meydana çıxan mübahisəli məsələlərin həllini çətinləşdirər, məhkəmə və inzibati araşdırma hallarının çoxalmasına səbəb olardı. Məhkəmədə əsas sübut rolunu oynayan yazılı bəyannamə olmadan belə mübahisələrin həlli çox çətin, hətta qeyri-mümkün olardı.

Bəyanetmə formaları
Bəyanetmənin forma və qaydaları Dövlət Gömrük Komitəsi tərəfindən müəyyən edilir. Əsas bəyanetmə formaları yazılı və şifahi formalar olaraq qəbul edilir. Qanunvericilik digər bəyanetmə formalarına da yol verir -bunlar məlumatların elektron ötürülməsi və konklydent hərəkətlər (konklydent hərəkət - şəxsin nə etmək istədiyini bildirən səssiz hərəkətlərə deyilir) hesab olunur. Müasir gömrük təcrübəsi konklydent hərəkətlər vasitəsi ilə bəyanetmədən beyənxalq hava limanlarında "yaşıl" və "qırmızı" dəhlizlər metodu tətbiq edilməklə istifadə olunmasını məqbul sayır.
Sərnişin yazılı bəyannamə təqdim etmədən, "yaşıl dəhliz" seçmə faktının özü ilə gətirilməsi, yaxud aparılması qadağan edilmiş, həmçinin, vergitutma obyekti olan

mallara bu anda sahib olmadığını elan etmiş olur. Bir qayda olaraq sərnişinin əl yükü və şəxsi baqajının gömrük rəsmiləşdirilməsi zamanı bəyannamə tətbiq edilir.
Yük gömrük bəyannamələrinin doldurulması qaydaları Bu qaydalar malların ixrac və sərbəst dövriyyə üçün buraxılış gömrük rejimləri üzrə yük gömrük bəyannaməsinin doldurulma qaydalarını müəyyən edir. Qaydalar Dövlət Gömrük Komitəsi sədrinin
17.06.1998-ci il tarixli 027 saylı əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 23.06.1998-ci ildə qeydə alınmışdır (Qeydiyyat N 110).
YGB dəsti dörd dəstləşdirilmiş əsas vərəqədən, bu qaydalarda nəzərdə tutulan hallarda isə əlavə vərəqələrdən ibarətdir. Barter əməliyyatlarının rəsmiləşdirilməsi zamanı YGB dəsti beş nüsxədən ibarət olmalıdır.
Qrafaların adlarının rus dilində yazıldığı, həmçinin informasiya şəbəkəsi xaricində əlavə qeydlərin olduğu blanklardan da istifadə olunmasına yol verilir.
YGB-nin əsas vərəqi eyni bir gömrük rejimi tətbiq olunan eyniadlı mallar (XİF MN üzrə mal mövqeyi 9-cu işarə səviyyəsinə qədər eyni təsnifat olunanlar) haqqında məlumatları göstərmək üçün istifadə olunur.
Bir neçə adda olan malların bəyan olunması zamanı əsas YGB-nin ayrılmaz hissəsi olan əlavə vərəqələrdən istifadə edilir. Əlavə vərəqələrin hər biri üç adda malı bəyan etməyə imkan verir.
Bir YGB-də 100-ə qədər adda olan mallar barəsində (eyni zamanda əsas vərəqə 33-dən artıq vərəqə əlavə oluna bəlməz) məlumat bəyan oluna bilər. Əlavə vərəqələrin doldurma qaydaları, əlavə vərəqdə bəyannaməçi tərəfindən doldurulmayan A qrafası istisna olmaqla, YGB-nin əsas vərəqələrinin uyğun
qrafalarının doldurulması qaydaları kimidir.
YGB-də pozub-düzəltmə və qaralama olmamalıdır. Düzəlişlər yanlış məlumatların üzərindən xətt çəkilməklə, düzgün məlumatları yazı makinası və ya əl ilə yazmaqla edilir.
YGB (Gömrük İttifaqının üzvü olan ölkələr üçün) kompüterdə və ya yazı makinasında Azərbaycan dilində (bəzi hallarda rus dilində) doldurulur. Ayrı-ayrı hallarda əgər dəyər göstəriciləri (faktura və gömrük dəyəri) 9 işarədən çox ədədlə ifadə edilərsə, onları əl ilə doldurmaq olar. Keyfiyyətsiz şəkildə doldurulmuş YGB-lərə gömrük orqanları tərəfindən gömrük bəyannaməsi kimi baxılmır.
YGB-nin hər hansı bir qrafasındakı mətn məlumatı, əvvəl doldurulmuş qrafanın mətn məlumatının təkrarı olarsa, bu halda həmin qrafada əvvəl doldurulmuş qrafaya – "bax, qrafa N" şəkildə istinad edilir.
Kodlara münasibətdə belə istinadlar edilə bilməz. YGB-nin hər hansı qrafasında lazımi məlumatların bəyan edilməsi üçün (müəssisənin adı, vaqonun, konteynerin nömrəsi və s.) yer olmadıqda, bu məlumatların bəyannamənin arxa tərəfindən yazılmasına icazə verilir. Bu yazı bəyannaməçinin imzası və möhürü ilə təsdiq olunur.
Kodlara münasibətdə belə istisnalar tətbiq olunmur.

YGB-nin əsas vərəqinin arxa tərəfində digər nəzarət orqanlarının ştamplar vurması və qeydlər aparması üçün icazə verilir. Bəyannaməçilərə bu qaydalarda nəzərdə tutulmayan məlumatların YGB blanklarında istifadəsinə icazə verilmir.
Gömrük orqanı göstərilən sxem üzrə YGB-nin əsas vərəqəsinin 7-ci qrafasında və hər bir A qrafasının aşağı hissəsinə qeydiyyat nömrəsi, YGB-nin qəbul tarixini yazmaqla, bəyannamə və əlavə vərəqləri qeydiyyatdan keçirir.
YGB-nin vərəqləri aşağıdakı qaydada bölüşdürülür:
- birinci vərəq - gömrük orqanında və xüsusi arxivdə saxlanılır;
- ikinci vərəq (statistik) - gömrük statistikası şöbəsində (bölməsində) qalır;
- üçüncü vərəq - bəyannaməçiyə qaytarılır;
- dördüncü vərəq isə:
a) malların ixracı zamanı bəyannaməçiyə - yük göndərənə qaytarılaraq, mal müşayiət sənədlərinə əlavə olunur və mallarla birlikdə sərhəd gömrük buraxılış məntəqəsinin fəaliyyət bölgəsində yerləşən gömrük orqanına göndərilir;
b) malların idxalı zamanı - gömrük rəsmiləşdirilməsini həyata keçirən bəyannaməçidə - malı alanda qalır.
Burada istifadə olunan əsas anlayışlar aşağıdakıları bildirir:
- "nəqliyyat sənədi" - gömrük sərhədinə qədər (malların ixracı zamanı), gömrük sərhədindən təyinat yerinə (malların idxalı zamanı), daşımalar üzrə müşayiət sənədləri də daxil olmaqla malların beynəlxalq daşımalarını həyata keçirmək üçün uyğun sənəddir;
- "malı göndərən" - gömrük bəyannaməsinə təqdim olunmuş malları nəqliyyat sənədində göstərilən, alana çatdırılması üçün daşıma müqaviləsinə uyğun olaraq daşıyıcıya verən və ya vermək istəyən, habelə, daşıyıcının xidmətlərindən istifadə etməyərək, alıcıya çatdıran hüquqi və ya fiziki şəxsdir;
- "malı alan" – nəqliyyat sənədinə müvafiq daşıyıcı tərəfindən və ya göndərənin göstərişi əsasında gömrük sərhədindən keçdikdən sonra, malların sərəncamına verildiyi nəqliyyat sənədində göstərilən hüquqi və ya fiziki şəxsdir;
- "maliyyə tənzimlənməsi üzrə məsul şəxs" - ödənişli əsasda xarici-ticarət əməliyyatları üzrə müqavilələr (alqı-satqı, konsiqnasiya müqavilələri, lizinq sazişləri və s.) bağlayan və onlar üzrə hesabatlara məsul olan vətəndaşlardır;
- "faktura dəyəri" - ödənişli əsasda xarici ticarət əməliyyatı şərtlərinə müvafiq olaraq malların faktiki ödənilmiş və ya ödəniləcək, habelə qarşılıqlı mal göndərişi ilə kompensasiya olunan qiymətdir;
- "gömrük dəyəri" - idxal olunan mallar üçün malların mövcud qanunvericiliyə uyğun olaraq müəyyən olunan dəyəridir; - ixrac olunan mallar üçün - ödənişli əsasda sövdələşmələr üçün - gömrük ərazisindən malların ixrac yerinə çatdırılması (daşınma, yükləmə, boşaltma, sığorta) üçün xərclər, habelə digər lazımi dəqiqləşdirmələr də nəzəra alınmaqla, ixrac olunan malların ödənilməsi və ya ödənilməli olan qiyməti əsasında təyin olunan dəyərdir;- ödənişsiz əsasda digər sövdələşmələr üçün - gömrük ərazisindən ixrac yerinə çatdırılması xərcləri nəzərə alınmaqla qiymətləndirilən və ya

eyniləşdirilmiş olan bircinsli malların dəyəri haqqında məlumat - kommersiya, nəqliyyat, bank, mühasibat və digər təsdiqedici sənədlə təyin olunan qiymətlər əsasında müəyyən olunan dəyərdir;
- "ticarət edən ölkə" - digər bir ölkənin vətəndaşı ilə milli mənsubiyyətindən asılı olmayaraq müqavilə bağlayan şəxsin qeydiyyata düşdüyü (yaşadığı) ərazinin olduğu ölkədir.
Gömrük qanunvericiliyində bəyanetmə yeri mal və nəqliyyat vasitələri üçün ayrılıqda müəyyən olunur.
Malların bəyanolunma yeri gömrük rəsmiləşdirilməsinin aparıldığı yer üzrə müəyyən olunur.
Nəqliyyat vasitələrinin bəyanolunma yerinin təyin edilmə qaydası nəqliyyat vasitəsinin növündən və daşınmanın xarakterindən (nəqliyyat, yaxud yük) asılıdır.
Malları daşıyan nəqliyyat vasitələri (çay, dəniz, hava gəmilərindən başqa) mallarla bir vaxtda bəyan edilir. Dəniz, çay və hava gəmiləri limanda Azərbaycan Respublikası ərazisinə gələrkən, yaxud onu tərk edərkən bəyan edilir. Sərnişin daşıyan digər nəqliyyat vasitələri, həmçinin boş nəqliyyat vasitələri gömrük sərhədini keçərkən bəyan edilir.
DGK nəqliyyat vasitələrinin ayrı-ayrı növlərinin bəyan edilməsinin xüsusi qaydalarını müəyyən edə bilər.

BYD (Beynəlxalq Yük Daşımaları) kitabçası (BYD Konvensiyası 1975-ci il) tətbiq edilməklə yük daşımaları barədə gömrük konvensiyasının Azərbaycan Respublikası ərazisində tətbiqinə Azərbaycan Respublikası Prezidentinin 31 mart 1997-ci il tarixli 527 saylı sərəncamı ilə başlanılmışdır.
"BYD kitabçası tətbiq edilməklə yük daşımaları barədə gömrük konvensiyasının Azərbaycan Respublikası ərazisində tətbiqi qaydaları haqqında" Əsasnamə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 25 may 1998-ci il tarixli 024 saylı əmri ilə təsdiq edilmiş, 26 may 1998-ci il tarixdə Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyası (ABADA) ilə razılaşdırılaraq, 30 may 1998-ci il tarixdə Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilmişdir (qeydiyyat nömrəsi - 104).
BYD konvensiyasına qoşulmuş Azərbaycan Respublikasında malların aralıq boşaltma-yükləmələri həyata keçirilmədən yol-nəqliyyat vasitələrində, nəqliyyat vasitələrindən ibarət qatarlarda və konteynerlərdə müqavilə tərəflərindən birinin göndərilmə gömrükxanasından bir və ya bir neçə sərhəddən keçməklə digər müqavilə iştirakçısı tərəfindən təyinat gömrükxanasına daşınmasına aiddir, bir şərtlə ki, BYD əməliyyatının başlanğıcı və sonu arasındakı müəyyən bir hissəsi avtomobil nəqliyyatı ilə həyata keçirilir.
Azərbaycan Respublikasında BYD prosedurasına əməl olunmaqla daşınan mallar aralıq gömrükxanalarında (idxal zamanı giriş, tranzit zamanı giriş və çıxış) idxal və ya ixrac rüsum və vergilərinin ödənilməsindən və depozitə qoyulmasından azad edilir.

Həmin gömrükxanalarda BYD kitabçalarının rəsmiləşdirilməsi üçün yığımlar tutulmur.
BYD Konvensiyasının müddəaları Azərbaycan Respublikasında ictimai mənəviyyat, ictimai asayiş, səhiyyə və ya gigiyena, eləcə də baytarlıq və ya fitosanitar nəzarət mülahizələrindən irəli gələn məhdudiyyətlərin tətbiq olunması üçün maneçilik törədilməsinə xidmət etməlidir.
Azərbaycan Respublikasının ərazisinə gətirilərkən gömrük rəsmiləşdirilməsi qaydası
Giriş gömrükxanasına aşağıdakı sənədlər təqdim olunmalıdır:
- göndərilmə ölkələrinin və tranzit ölkələrin gömrük orqanları tərəfindən doldurulmuş və rəsmiləşdirilmiş BYD kitabçası;
- icazəyə dair şəhadətnamə;
- yük və əmtəə nəqliyyat sənədləri.
Giriş gömrük xidmətlərinin vəzifəli şəxsləri BYD kitabçasının doldurulmasının müəyyən olunmuş qaydalara uyğunluğunu yoxlayır.
BYD kitabçası rəsmiləşdirilərkən aşağıdakılara xüsusi diqqət yetirilir:
- yük manifestinin doldurulmasına (yük manifestinə daxil edilmiş məlumatlar yük və malı müşayiət edən sənədlər göstərilən məlumatlara uyğun olmalıdır);
- BYD kitabçalarının kötüyündə göndərilmə gömrükxanasının və aralıq gömrükxanaların gömrük ştamplarının olmasına;
Gömrükxananın vəzifəli şəxsləri BYD kitabçasının oğurlanmış kimi nəzarətdə olmadığına və malların daşınmasının BYD kitabçasının kəsilməyən (qoparılmayan) vərəqinin 4-cü və üz qabığının 3-cü qrafasının düzgün doldurulduğuna əmin olmalıdırlar.
Giriş gömrükxanaları: nəqliyyat vasitələrinin və ya konteynerlərin yük bölmələrinin texniki vəziyyətini, konteynerlərdə icazə (buraxılma) şəhadətnamələrinin və buraxılma (icazə) lövhəciklərinin olmasını, nəqliyyat vasitələrinin və ya konteynerlərin yük bölmələrində gömrük möhür və plomblarının vəziyyətini yoxlayırlar, müstəsna hallarda yük bölmələrinə və ya konteynerlərə baxış keçirirlər.
BYD prosedurasında hər hansı qayda pozuntusu aşkar edildikdə, giriş gömrükxanası malları və nəqliyyat vasitələrini Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun olaraq tranzit gömrük rejimi və ya çatdırılma prosedurası altına sala bilər.
Əgər sənədli və faktiki nəzarət nəticəsində BYD prosedurasının hər hansı bir pozuntusu aşkar edilməmişsə, malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının ərazisi ilə bu proseduraya uyğun olaraq hərəkətinin mümkünlüyü barədə qərar qəbul edilir.
Malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının ərazisi üzrə BYD prosedurasına uyğun
olaraq hərəkət edə bilməsinin mümkünlüyü barədə qərar qəbul edildikdən sonra zəruri olduqda, əlavə gömrük təminatları qoyulur və bu barədə hər iki kəsilən vərəqdə "Xidməti istifadə üçün" qrafasında qeydiyyat aparılır, həmçinin malların gömrük dəyəri müəyyən edilir.

Malların gömrük dəyərinin müəyyən edilməsi üçün hesab-qaimələrdən, nəqliyyat və sığorta sənədlərindən, göndərilmə ölkələrinin gömrük bəyannamələrindən, qablaşdırma vərəqlərindən, malı müşayiət edən digər sənədlərdən istifadə olunur.
Nəqliyyat vasitəsinin gömrük nəzarəti zonasından çıxmasına nömrəli kəsilən vərəqin 23-cü qrafasında və 1 nömrəli kötüyün 6-cı qrafasında sənədli nəzarət üçün məsul vəzifəli şəxsin şəxsi nömrəli ştampı vurulması, imzası və tarix qoyulması yolu ilə icazə verilir.
Komplektin 1 nömrəli vərəqi giriş gömrükxanasında nəzarətə götürülür və ayrıca qovluqda saxlanılır.
Nəqliyyat vasitəsi və konteyner gəlib çıxdıqdan sonra təyinat gömrükxanasına aşağıdakı sənədlər təqdim olunmalıdır: giriş gömrükxanasının qeydləri olan BYD kitabçası; malların rəsmiləşdirilməsi üçün zəruri olan yük və müşayiət edən sənədlər.
Gömrük xidmətlərinin vəzifəli şəxsləri BYD kitabçalarının doldurulmasının müəyyən olunmuş qaydalara uyğunluğunu və BYD kitabçalarında giriş gömrükxanasının ştamplarının olmasını yoxlayırlar.
Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Cənablarının 11.11.2008-ci il tarixli 12 saylı "Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında «bir pəncərə» prinsipinin tətbiqi haqqında" Fərmanı ilə 2009-cu il yanvarın 1-dən Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında «bir pəncərə» prinsipi tətbiq edilir.
Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında «bir pəncərə» prinsipi üzrə vahid dövlət orqanının səlahiyyətləri Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə həvalə olunmuşdur. Beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə sərhəddə «İcazə» blanklarının verilməsi və buna görə «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğlərdə dövlət rüsumunun tutulması da DGK-ya tapşırılmışdır.
Azərbaycan Respublikasının ərazisindən malların aparılması zamanı gömrük rəsmiləşdirilməsi qaydası BYD prosedurasına əməl edilməklə malların daşınmasının rəsmiləşdirilməsi üçün doldurulmuş BYD kitabçası, nəqliyyat vasitəsinin gömrük möhür və plombları altında malların daşınmasına, buraxılmasına dair şəhadətnamə göndərilmə gömrükxanasına təqdim olunur.
Gömrük orqanları BYD kitabçasının doldurulmasının müəyyən olunmuş qaydalara uyğunluğunu yoxlayırlar. Bu zaman BYD kitabçasının üz qabığının birinci səhifəsində möhür və imzaların olmasına, BYD kitabçası sahibinin üz qabığının birinci səhifəsində, kəsilməyən vərəqdə, kəsilən vərəqlərin hamısında imzalarının uyğunluğuna, BYD kitabçasının etibarlılıq müddətinə xüsusi diqqət yetirilir. Göndərilmə gömrükxanasının vəzifəli şəxsləri BYD kitabçasının oğurlanmış kimi nəzarətdə olmadığına və malların daşınması üçün BYD kitabçasının kəsilməyən

vərəqinin 4-cü və üz qabığının 3-cü qrafasında göstərilən şəxs tərəfindən həyata keçirildiyinə əmin olmalıdırlar.
Göndərilmə gömrükxanaları nəqliyyat vasitələrinin yük bölmələrinin və konteynerlərin texniki vəziyyətini, konteynerlərdə buraxılma (icazə) şəhadətnamələrinin və buraxılma (icazə) lövhəciklərinin olmasını yoxlayır, malların nəqliyyat vasitəsinə və konteynerə yüklənməsinə nəzarət edirlər. Nəqliyyat vasitələrinin yük bölmələrinə və konteynerlərə gömrük möhürləri və plombları vurulur.
Rəsmiləşdirmə zamanı hər hansı bir qayda pozuntusu aşkar edildiyi halda, göndərilmə gömrükxanası həmin pozuntular aradan qaldırılanalək malların BYD prosedurasına uyğun olaraq daşınmasına icazə verməyə bilər.
Əgər sənədli və faktiki nəzarət nəticəsində BYD prosedurası tətbiqinin bütün şərtlərinə əməl olunduğu müəyyən edilmişsə, aşağıdakılar doldurulur:
BYD kitabçasının kəsilən vərəqlərinin hamısında 16-cı qrafa;
- 1 nömrəli kəsilən vərəqin "Xidməti istifadə üçün" qrafasında və 1 nömrəli kötüyün 5-ci qrafasında digər məlumatlar içərisində malların Azərbaycan Respublikasından aparılmasının müvafiq gömrük rejiminin kodu və malların faktiki aparılamasına nəzarət həyata keçirilirsə "Nəzarət" sözü də göstərilir;
- komplektin kəsilən vərəqinin 1 nömrəli kötüyü;
- komplektin hər iki kəsilən vərəqinin 18-23 qrafaları;
- 1 nömrəli kəsilən vərəqin 23-cü qrafasında və 1 nömrəli kötüyün 6-cı qrafasında gömrük orqanının vəzifəli şəxsinin nömrəli möhürü vurulur, imzası və tarix qoyulur.
Komplektin 1 nömrəli vərəqi BYD kitabçasından ayrılır və lazım gəldikdə nəzarətə götürülür.
Rəsmiləşdirilmiş BYD kitabçası xüsusi jurnalda qeydiyyata alınır. Rəsmiləşdirilmiş BYD kitabçası daşıyıcıya qaytarılır.
Mallar təkrar ixrac gömrük rejimi altına qoyulduqda, həmçinin aşağıda göstərilən gömrük rejimləri altında yerləşdirildikdə, onların Azərbaycan Respublikası ərazisində faktiki aparılmasına nəzarət göndərilmə gömrükxanası tərəfindən həyata keçirilir.
- müvəqqəti gətirilmə (idxal) (kod 31);
- gömrük anbarı (kod 74);
- gömrük nəzarəti altında emal (kod 52);
- malların azad iqtisadi zonalara idxalı (gətirilməsi) (kod 74);
- rüsumsuz ticarət mağazası (kod 72).
Bu halda göndərilmə gömrükxanası tərəfindən komplektin 1 nömrəli vərəqlərinin 20-ci qrafasında malların çatdırılma müddəti göstərilir. Göstərilən vərəqlərdə "Xidməti istifadə üçün" qrafasında daşınan malların gömrük dəyəri, 10-cu qrafada isə onların XİFƏN kodları göstərilməklə müfəssəl təsviri verilir. Əgər bütün məlumatların daxil edilməsi üçün 10 qrafa yetmirsə, iki nüsxədən ibarət qoşma vərəqlərdən istifadə olunmasına yol verilir. Qoşma vərəqlərdə, həmçinin, BYD kitabçasının nömrəsi, sahibinin adı və ünvanı da göstərilir. Qoşma vərəqlər gömrük orqanının vəzifəli

şəxslərinin şəxsi nömrəli möhürü ilə təsdiqlənir. Bu cür vərəqlərin olması barədə komplektin hər iki kəsilən vərəqinin 8-ci qrafasında qeydiyyat aparılır. Komplektin nömrəli vərəqi nəzarətə alınır və ayrıca qovluqda saxlanılır.
BYD kitabçası və göndərilmə gömrükxanasının qeydləri olan yük və malı müşayiət edən sənədlər çıxış gömrükxanasına təqdim edilir.
Gömrük xidmətlərinin vəzifəli şəxsləri BYD kitabçasının doldurulmasının müəyyən olunmuş qaydalara uyğunluğunu, komplektin 1 nömrəli kötüyündə göndərilmə gömrükxanasının ştamplarının olmasını, eləcə də həmin kötükdə göstərilmiş gömrük kodunu, nəqliyyat vasitələrinin yük bölmələrinin və ya konteynerlərin texniki vəziyyətini, nəqliyyat vasitələrinin yük bölmələrində və ya konteynerlərdə gömrük möhür və plombların vəziyyətini yoxlayır, müstəsna hallarda nəqliyyat vasitələrinin yük bölmələrinə və ya konteynerlərə baxış keçirirlər.
BYD kitabçasına əməl edilməklə malların daşınması zamanı Azərbaycan Respublikası Qanunvericiliyinin hər hansı bir pozulması halı aşkar edildikdə, çıxış gömrükxanası BYD kitabçasını nəzərdə tutulmuş qaydada qeyd-şərtlərlə rəsmiləşdirir.
Malların Azərbaycan Respublikası ərazisindən tranzit zamanı gömrük rəsmiləşdirilməsi giriş və çıxış gömrükxanalarında analoji qaydada aparılır.

Gömrük təmsilçisi
Hər bir şəxs gömrük orqanları ilə münasibətlərində bu Məcəllədə və gömrük işi üzrə digər qanunvericilik aktlarında nəzərdə tutulmuş fəaliyyəti həyata keçirmək üçün gömrük təmsilçisi təyin edə bilər. Gömrük təmsilçiliyi birbaşa (təmsil edilən şəxsin tapşırığı ilə onun adından və onun mənafeyi üçün), yaxud dolayı (təmsil edilən şəxsin tapşırığı ilə öz adından və onun mənafeyi üçün) ola bilər.
Gömrük təmsilçiliyi fəaliyyətini tənzimləyən qaydaları müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.
Gömrük təmsilçisi hansı şəxsin mənafeyi üçün fəaliyyət göstərdiyini və gömrük təmsilçiliyinin birbaşa, yaxud dolayı həyata keçirildiyini gömrük orqanına bildirməlidir. Gömrük təmsilçisi kimi fəaliyyət göstərdiyini bildirməyən, yaxud bunu bildirən, lakin müvafiq səlahiyyəti olmayan şəxs, öz adından və özünün mənafeyi üçün fəaliyyət göstərən hesab olunur. Gömrük orqanı gömrük təmsilçiliyini birbaşa, yaxud dolayı həyata keçirən şəxsdən ona müvafiq səlahiyyətin verildiyini təsdiqləyən sənədin təqdim olunmasını tələb etməlidir.
Gömrük brokeri
Gömrük brokeri malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə gətirilməsi, bu ərazidən aparılması, yaxud tranziti ilə əlaqədar olaraq dolayı gömrük təmsilçiliyini həyata keçirən hüquqi şəxsdir.
Gömrük brokeri öz fəaliyyətini bu Məcəlləyə və müvafiq icra hakimiyyəti orqanının qəbul etdiyi normativ hüquqi aktlara uyğun həyata keçirir. Gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi həyata keçirilərkən, gömrük brokeri malları gömrük

sərhədindən müstəqil keçirən şəxsin bütün vəzifələrini yerinə yetirir və onun kimi məsuliyyət daşıyır. Gömrük brokerinin təmsil etdiyi şəxslərlə münasibətləri tərəflər arasında bağlanmış müqavilə ilə tənzimlənir. Müvafiq icra hakimiyyəti orqanı gömrük brokerlərinin dövlət reyestrini müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi qaydalara uyğun olaraq aparır, onu nəşr edir, rəsmi internet saytında yerləşdirir və müvafiq məlumatların daimi yeniləşdirilməsini təmin edir. Şəxs gömrük brokerinin xidmətlərindən imtina edə bilər. Bu halda gömrük orqanının vəzifəli şəxsləri bəyannaməçiyə, mallar barədə səlahiyyəti olan digər şəxslərə gömrük bəyannaməsinin uyğun olaraq tərtib edilməsində, ona müvafiq düzəlişlər edilməsində və malların gömrük rəsmiləşdirilməsi üzrə digər əməliyyatların həyata keçirilməsində yardım göstərməlidirlər.
Müvafiq icra hakimiyyəti orqanı gömrük brokeri fəaliyyətini həyata keçirmək üçün müraciətlərə baxır və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada hüquqi şəxslərə gömrük brokeri fəaliyyəti üçün lisenziya verir. Hər gömrük sərhəd buraxılış məntəqəsi üzrə ən azı iki hüquqi şəxsə gömrük brokeri fəaliyyəti üçün lisenziya verilməlidir.
Gömrük brokeri fəaliyyətini həyata keçirmək üçün verilmiş lisenziyanın fəaliyyətinin dayandırılması və ləğv edilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

Müvafiq icra hakimiyyəti orqanından ixtisas attestatı almış mütəxəssislər gömrük brokeri adından gömrük rəsmiləşdirilməsi ilə əlaqədar hərəkətləri yerinə yetirmək hüququna malikdirlər. Mütəxəssislər gömrük rəsmiləşdirilməsi ilə əlaqədar əməliyyatları gömrük brokerinin adından yerinə yetirdikdə, onlar gömrük brokerini təmsil edən şəxs hesab olunurlar. Gömrük brokeri gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərin gömrük orqanları ilə münasibətlərindən irəli gələn vəzifələrini məhdudlaşdıra bilməz.
İxtisas attestatının verilməsi qaydalarını və gömrük rəsmiləşdirilməsi üçün mütəxəssislərin qarşısında qoyulan tələbləri müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.
İxtisas attestatlarının fəaliyyətinin dayandırılması və ləğv edilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.
Gömrük brokeri fəaliyyətinə lisenziyanın verilməsinə görə qanunvericiliklə müəyyən edilmiş məbləğdə dövlət rüsumu ödənilir. Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsinə görə ödənilən yığımın məbləğini müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Gömrük brokeri fəaliyyətini həyata keçirmək üçün verilmiş lisenziyanın fəaliyyəti dayandırıldıqda və ya lisenziya ləğv edildikdə, gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssisin ixtisas attestatının fəaliyyəti dayandırıldıqda və ya ləğv edildikdə, onların verilməsinə görə ödənilmiş dövlət rüsumu və yığım qaytarılmır.

Gömrük daşıyıcısı

Qanunvericiliyə uyğun olaraq yaradılmış və müvafiq icra hakimiyyəti orqanından gömrük daşıyıcısı fəaliyyətini həyata keçirmək üçün lisenziya almış hüquqi şəxslər gömrük daşıyıcısı ola bilərlər.
Gömrük daşıyıcısı öz fəaliyyətini bu Məcəlləyə və gömrük işi üzrə digər qanunvericilik aktlarına uyğun həyata keçirir. Gömrük daşıyıcısının malları və onlara aid sənədləri göndərənlərlə münasibətləri müqavilə əsasında qurulur.
Gömrük daşıyıcısı fəaliyyətini həyata keçirmək üçün lisenziyanın verilməsi, eləcə də onun fəaliyyətinin dayandırılması və ləğv edilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.
Gömrük daşıyıcısı fəaliyyətini həyata keçirmək üçün lisenziyanın verilməsinə görə qanunvericiliklə müəyyən edilmiş məbləğdə dövlət rüsumu alınır. Gömrük daşıyıcısı fəaliyyətini həyata keçirmək üçün lisenziyanın fəaliyyəti dayandırıldıqda və ya lisenziya ləğv edildikdə, onun verilməsinə görə ödənilmiş dövlət rüsumu qaytarılmır.

Səlahiyyətli iqtisadi operatorlar

Ümumdünya Gömrük Təşkilatının norma və standartlarına uyğun olaraq, səlahiyyətli iqtisadi operator — malların təyinat yerinə çatdırılmasının təhlükəsizliyinin təmin edilməsi və xarici ticarətin asanlaşdırılması məqsədilə gömrük nəzarətinin sadələşdirilmiş forma və üsullarından istifadə edən hüquqi şəxsdir.
Gömrük ərazisində təsis olunmuş və bu Məcəllədə müəyyən olunmuş şərtlərə cavab verən hüquqi şəxs səlahiyyətli iqtisadi operator statusunu almaq üçün müvafiq icra hakimiyyəti orqanına müraciət edə bilər.
Səlahiyyətli iqtisadi operatorun fəaliyyətini tənzimləyən tələbləri müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Səlahiyyətli iqtisadi operator statusunun verilməsi, müvəqqəti dayandırılması və ləğv olunması qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Müvafiq icra hakimiyyəti orqanı bu Məcəllədə nəzərdə tutulmuş gömrük prosedurlarının sadələşdirilmiş forma və üsullarından istifadə etmək üçün səlahiyyətli iqtisadi operatora müəyyən hüquqlar verir. Digər ölkələrin gömrük orqanları tərəfindən verilmiş səlahiyyətli iqtisadi operator statusu gömrük nəzarətinə xələl gətirməmək şərtilə beynəlxalq müqavilə əsasında tanına bilər. Səlahiyyətli iqtisadi operator statusu almış hüquqi şəxs sonrakı fəaliyyəti dövründə bununla bağlı müəyyən edilmiş şərtlərə əməl olunmasına mane olan və fəaliyyətinə mənfi təsir göstərən amillər barədə gömrük orqanlarına məlumat verməlidir.
Səlahiyyətli iqtisadi operator statusunun verilməsi üçün şərtlər aşağıdakılardır:
1. malların təyinat yerinə çatdırılmasının Ümumdünya Gömrük Təşkilatının müəyyən etdiyi təhlükəsizlik normalarına və standartlarına uyğun olaraq təmin edilməsi imkanının mövcudluğu;
2. gömrük və vergi qanunvericiliyinin tələblərinə riayət etməsi;
3. gömrük nəzarəti baxımından əhəmiyyət kəsb edən kommersiya və nəqliyyat sənədlərinin idarə edilməsinə dair qənaətbəxş sistemin olması;
4. gömrük ödənişlərini və digər ödənişləri həyata keçirmək üçün maliyyə imkanlarının olması;

5. fəaliyyət göstərdiyi sahədə azı 2 (iki) il təcrübəsinin olması;
6. müvafiq təhlükəsizlik və mühafizə standartlarının tətbiqi imkanlarının olması;
7. informasiya mübadiləsini lazımi səviyyədə təmin edən texniki bazasının olması.

Azərbaycan Respublikasının ərazisinə gətirilən malların gömrük dəyərinin bəyan edilməsinin qayda və şərtləri

1. Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi
2. Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılan nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi və onlar üzərində gömrük nəzarəti
3. Fiziki şəxslər tərəfindən nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisinə müvəqqəti gətirilməsi
4. Fiziki şəxslər tərəfindən gömrük ərazisindən müvəqqəti aparılan nəqliyyat vasitələrinin üzərində gömrük nəzarəti və onların gömrük rəsmiləşdirilməsi
5. Daimi yaşayış məqsədilə Azərbaycan Respublikasına köçüb gələn fiziki şəxslər tərəfindən nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsi
6. Nəqliyyat vasitələrinin tranziti
7. Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssis kimi fəaliyyət göstərilməsi üçün şərtlər
8. İxtisas attestatının fəaliyyətinin dayandırılması və ləğv edilməsi
9. Malların daşıyıcısı, malları göndərən və alan, gömrük daşıyıcısı və gömrük orqanları arasında qarşılıqlı münasibətlər. Səlahiyyətli iqtisadi operator
10. BYD daşınmaları şərtləri

7. Xarici-iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsi

Gömrük tarifi - Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallara tətbiq edilən və Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturasına (XİF MN) uyğun olaraq sistemləşdirilmiş gömrük rüsum dərəcələrinin məcmusudur.

"Tarif" – ərəb sözü olub **"siyahı"** deməkdir. Deməli, gömrük tarifi idxal və ixrac rüsumlarının siyahısıdır. Tarif dəyəri idxal və ixrac olunan malların qiymətinə görə tarif şəklində müəyyənləşdirilir. Gömrük tarifi daşıdığı funksiyaların xarakterindən asılı olaraq 2 yerə ayrılır:

1) Proteksionist funksiya;

2) Fiskal funksiya.

Proeksionizm(himayədarlıq) - daxili bazarın xarici rəqabətdən qorunması üçün dövlətin yürütdüyü iqtisadi siyasətdir. Daxili bazarı qorumaq üçün idxal rüsumlarının artırılmasının əsas səbəbi yerli malların rəqabət qabiliyyətinin aşağı olmasından irəli gəlir. Belə ki, yenicə müstəqilik əldə etmiş respublikamız köhnə texnologiya ilə dünya bazarı standartlarına cavab verən əmtəə istehsal edə bilmir. Eyni zamanda ölkəni xarici mallardan asılı vəziyyətə salmaq, nəinki iqtisadi təhlükəsizliyə, həm də milli təhlükəsizliyə ciddi problemlər yarada bilər. Bu isə müstəqilliyini tam möhkəmləndirməmiş bir ölkə üçün açınacaqlı nəticələrə gətirib çıxarar.

Odur ki, hər bir dövlət kimi Azərbaycan Respublikası da öz təhlükəsizliyini təmin etmək üçün proteksionist siyasətdən yararlanmağa çalışır.

Fiskal funksiya - "fisk" latın sözü olub, **"zənbil"** deməkdir. Bu funksiyanın mahiyyəti dövlət xərclərinin maliyyələşdirilməsini təmin etmək üçün ayrı-ayrı fiziki və hüquqi şəxslərin gəlirlərinin müəyyən hissəsinin dövlət xəzinəsinə cəlb edilməsidir. Ümumdövlət proqramlarının həyata keçirilməsi üçün vəsaitlərin dövlət büdcəsinə toplanması, məhz bu funksiya vasitəsi ilə həyata keçirilir.

Dünyanın bütün ölkələrində gömrük tarifindən istifadə olunur. Milli tarif sistemilə yanaşı, məhəlli (regional) tarifləri özündə birləşdirən vahid tarif sistemi vardır. Tariflərin lazımsız artırılmasının qarşısını almaq və onları danışıqlar yolu ilə aşağı salmaq, ticarət məneələrini aradan qaldırmaq və s. bu tipli məsələləri 1995-ci ilə qədər **Tarif və Ticarət üzrə Baş Saziş** (**GATT - General Agreementon Tariffs and Trade**). Həmin ildən sonra Ümumdünya Ticarət Təşkilatı (**WTO - World Trade Orhanization**) adlanan qurum tərəfindən tənzimlənir.

İkitərəfli və çoxtərəfli razılaşmalar əsasında güzəştlər müəyyənləşdirilir və tətbiq olunur. Bu preferensial rejim sayılır (preferensiya - bir dövlətin digərinə idxal gömrük rüsumları dərəcələrinin azalması üzrə verdiyi xüsusi güzəştlərdir). Belə güzəştlərin

tətbiqi milli istehsal mallarının xarici bazarlara çıxarılmasını əhəmiyyətli dərəcədə artıra bilər.

Bir sıra hallarda gömrük tarifi birtərəfli qaydada ixrac məhsullarının istehsalına tələb olunan mallara aşağı və ya sıfır dərəcəli idxal rüsum tətbiq etməklə, milli istehsalın və ixracın stimullaşdırılması üçün istifadə olunur.

Bildiyimiz kimi, rüsumlar yerli və dünya qiymətlərinin fərqi və ya fərqə uyğun müəyyənləşdirilir. Ölkə iqtisadiyyatının inkişaf səviyyəsi ilə gömrük rüsumlarının dərəcələri arasında müəyyən asılılıq mövcuddur. Belə ki, inkişaf etmiş ölkələrdə gömrük rüsumlarının dərəcələri aşağı olur. Çünki inkişaf etmiş ölkənin istehsal etdiyi məhsulun rəqabət qabiliyyəti yüksək olduğu üçün, daxili bazarın yüksək rüsumlar hesabına qorunmasına,

ixracın əlavə tədbirlərlə stimullaşdırılmasına və büdcənin gəlir hissəsinin gömrük ödənişləri hesabına doldurulmasına ehtiyac qalmır.

Gömrük-tarif tənzimlənməsinin hüquqi əsasını, 13 iyun 2013-cü ildə qəbul olunmuş Azərbaycan Respublikasının "Gömrük tarifi haqqında" qanun müəyyənləşdirilmişdir. Bu qanuna görə gömrük tarifinin

əsas məqsədləri aşağıdakılardır:

1) Azərbaycan Respublikası üzrə idxalın əmtəə strukturunu səmərəlilişdirmək;

2) Azərbaycan Respublikasının ərazisində malların gətirilməsi və çıxarılmasının, valyuta gəlirlərinin və xərclərinin əlverişli nisbətini təmin etmək;

3) valyuta sərvətlərinin Azərbaycanın gömrük ərazisinə gətirilməsi və çıxarılması üzərində səmərəli nəzarət təşkil etmək;

4) Azərbaycan Respublikasında malların istehsal və istehlak strukturunda mütərəqqi dəyişikliklər üçün şərait yaratmaq;

5) Azərbaycan Respublikasının iqtisadiyyatını xarici rəqabətin mənfi təsirindən qorumaq;

6) Azərbaycan Respublikası iqtisadiyyatını dünya təsərrüfatı ilə səmərəli inteqrasiyasına şərait yaratmaq.

"Gömrük tarifi" haqqında qanuna görə, Azərbaycan Respublikasının ərazisinə gətirilən, gömrük rüsumuna cəlb olunan və ya olunmayan malların siyahısı və tətbiq edilən rüsum dərəcələri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.Eyni zamanda, xarici iqtisadi tənzimlənən qeyri-tarif tədbirləri, ixrac gömrük rüsumlarının dərəcələri və onların tətbiq olunduğu malların siyahısı da Nazirlər Kabineti tərəfindən müəyyən olunur.

Azərbaycan Respublikasının əlverişli ticarət rejimi tətbiq etdiyi ölkələrin malları üçün ixrac gömrük rüsumları dərəcələrinin son həddi Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən müəyyən olunur.

Milli maraqların qorunması və ölkənin təhlükəsizliyinin təmin olunmsı üçün Xarici İqtisadi Fəaliyyətin (XİF) tənzimlənməsi həyata keçirilir. XİF-in dövlət tənzimlənməsinin metodları təsnifat əlamətlərinə görə 4 qrupa bölünür:

1) iqtisadi tənzimləmə metodları;

2) inzibati metodlar;

3) tarif metodları;

4) qeryi-tarif metodları.

Tarif metodu

Azərbaycan Respublikasında1 aprel 2004-cü ildən başlayaraq Azərbaycan Respublikasında spesifik gömrük rüsum dərəcələri advolar dərəcələrlə əvəz edilmişdir (Advalor latınca **"ad valorem"** sözündən götürülüb, mənası **"dəyərdən"** deməkdir). Belə ki, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 20 aprel

2004-cü il tarixli 58 saylı qərarı ilə **"Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük**

rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında" AR NKnın

2001-ci il 12 aprel tarixli 80 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən

mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri"ndə bəzi mallar üzrə spesifik gömrük idxal rüsum dərəcələri

advolar gömrük idxal rüsum dərəcələri ilə əvəz edilmişdir. Tarif dərəcəsi gömrük dəyərinin 15%-i miqdarında

qəbul olunmuşdur.

AR NK-nın bu qərarı Azərbaycan Respublikasında idxal əməliyyatlarının gömrük-tarif mexanizmi vasitəsi ilə tənzimlənməsi, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına uyğun olaraq gömrük tariflərinin tətbiqi mexanizminin daha da təkmilləşdirilməsi yolu ilə xarici iqtisadi əlaqələrin səmərəliliyinin artırılması, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi məqsədi ilə qəbul olunmuşdur. Malın dəyərini kombinə üsulu ilə hesabladıqda, əvvəlcə advalor, sonra isə spesifik qaydada hesablanır,

hər ikisi müqayisə edilərək ən böyüyü götürülür.

Gömrük rüsumları mövsümi və xüsusi olurlar.

Mövsümi rüsumlar malların ixracını və idxalını operaiv tənzimləmək üçün bəzi mallara tətbiq olunan rüsumlardır. Mövsümi rüsumlarda gömrük tarifində nəzərdə tutulmuş gömrük rüsumları dərəcələri tətbiq olunur və bu rüsumların qüvvədə olduğu müddət il ərzində 6 aydan çox ola bilməz

Xüsusi növ rüsumlar. Azərbaycan Respublikasının iqtsadi mənafeyini qorumaq üçün idxal edilən mallara müvəqqəti olaraq tətbiq edilir və aşağıdakı növlərə ayrılır:

- xüsusi rüsumlar;

- antidempinq rüsumları;

- kompensasiya rüsumları.

Bu rüsumların formalaşması və tətbiqi qaydaları "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hüquqi normalarla tənzimlənir.

Xüsusi rüsumlar aşağıdakı hallarda tətbiq olunur:

- əgər ölkənin gömrük ərazisinə gətirilən mallar, bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vuran və ya ziyan vura biləcək miqdarda və şərtlərdə gətirilmişdirsə, onda idxal mallarından müdafiə tədbiri kimi;
- digər dövlətlərin və onların ittifaqlarının (siyasi, iqtisadi, hərbi və s.) Azərbaycan dövlətinin mənafeyinə toxunan ayrı-seçkilik və digər hərəkətlərinə cavab tədbiri kimi.

Antidempinq rüsumları

Dempinq (ingiliscə **"dumping"** hərfi mənada **"dağıtma"** deməkdir) - xarici bazarlarda əmtəələrin dəyər - dəyməzinə, yəni istehsal xərclərindən aşağı qiymətlə satılması deməkdir. Dempinqin fərqləndirici xüsusiyyətləri, ölkədaxili aşağı və yuxarı qiymətlər arasındakı kəskin fərq və satış bazarında rəqibləri sıradan

çıxartmaq ekspansionist latınca **"expansio"** sözündən olub **"yayılma", "genişlənmə"** deməkdir. İqtisadi metodlarla hökmranlıq dairəsinin genişlən-dirilməsinə xidmət edir.

Antidempinq (dempinqin əksinə olan) rüsumları, idxal olunan malların qiyməti ölkənin gömrük ərazisinə gətirildiyi vaxtda ixrac olunduğu ölkədəki real dəyərindən aşağı olduqda və belə bir idxal bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vurduqda və ya bu hal istisna olunmadıqda, eyni zamanda həmin mallar ölkə daxilində istehsalının təşkilinə və ya genişləndirilməsinə maneəçilik törətdikdə tətbiq olunur. **Kompensasiya rüsumları** ("Gömrük tarifi haqqında" Qanun, 9-cu maddə):

Kompensasiya latınca "**compensatio"** sözündən olub, hərfi mənası **"ödəmə"** deməkdir.

Ölkənin gömrük ərazisinə gətirilən malların istehsalı və ya ixracı zamanı birbaşa və ya dolayı yolla subsidiyalardan (subsidiya latınca **"subsidium"** sözündən olub, hərfi mənası **"yardım", "kömək"** deməkdir.

Subsidiya, dövlətin büdcə vəsaiti hesabına yerli hakimiyyət orqanlarına, hüquqi və fiziki şəxslərə əsasən pul formasında göstərdiyi yardımdır) istifadə olunduqda və belə bir idxal bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vurduqda və yaxud bu hal istisna edilmədikdə, habelə ölkədə bu malların istehsalının təşkilinə və genişləndirilməsinə maneçilik törədildikdə kompensasiya rüsumları tətbiq edilir.
Xüsusi, antidempinq və kompensasiya rüsumları tətbiq edilməzdən əvvəl Azərbaycan Respublikasının müvafiq idarəetmə orqanlarının təşəbbüsü ilə qanunvericilik normalarına uyğun olaraq 10 gün müddətində təhqiqat aparılır. Bu zaman çıxarılacaq qərarlar kəmiyyətcə müəyyən edilmiş qərarlara əsaslanmalıdır.
Hər bir xüsusi hal üçün tətbiq olunacaq rüsum dərəcələri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir və bu dərəcələr təhqiqatın müəyyən etdiyi qiymətlərin dempinq azaldılmasının, subsidiyanın və aşkar olunan dəymiş ziyanın məbləğinə mütənasib olmalıdır.
Gömrük güzəştləri. Bütün gömrük güzəştləri mövcud qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunur.
Ölkənin ticarət siyasəti həyata keçirilərkən qarşılıqlı və birtərəfli qaydada, gömrük sərhədindən keçirilən mallar üzrə əvvəl ödənilmiş rüsumun qaytarılması, rüsum ödənişlərindən azadetmə, rüsum dərəcələrinin aşağı salınması, malın güzəştli gətirilməsi və ya aparılması üçün tarif kvotaları şəklində verilən güzəştlər tariff güzəştləri adlanır.
"Gömrük tarifi haqqında" Qanuna görə aşağıdakı hallarda güzəştlər verilə bilər.
1) Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə müəyyən olunmuş gömrük rejimlərinə uyğun olaraq gömrük nəzarəti altında ölkə ərazisinə müvəqqəti gətirilən və aparılan mallar;
2) Azərbaycan Respublikasının iştirakçısı olduğu hökumətlərarası sazişlərə müvafiq olaraq xaricdə investisiya əməkdaşlığı üzrə obyektlərin inşası üçün dəstlə göndərilən mallar;
3) Azərbaycan Respublikasının qanunvericilik aktlarına uyğun olaraq müəyyən edilən dövlət ehtiyacları üçün ölkənin gömrük ərazisindən çıxarılan mallar;
4) xarici sərmayənin iştirakı ilə yaradılan müəssisələrin və xarici müəssisələrin nizamnamə fonduna pay şəklində ölkənin gömrük ərazisinə gətirilən, həmçinin qanunvericiliyə uyğun olaraq Azərbaycan hökumətinin və ya onun səlahiyyətli dövlət orqanlarının məhsulların bölgüsü barədə bağladıqları sazişlərdə nəzərdə tutulmuş hallarda və Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən müəyyən edilmiş qaydada xarici sərmayələrin

öz xərcini ödəməsi dövründə həmin müəssisələrin özü tərəfindənistehsal edilərək ölkə ərazisindən çıxarılan müxtəlif növ mallar.

Əslində tarif tənzimlənməsi özündə bir neçə qarşılıqlı əməliyyatları əks etdirən mürəkkəb bir prosesdir.

Bunlardan bizim üçün daha maraqlı olanı malın mənşə ölkəsinin müəyyənləşdirilməsi və gömrük dəyərinin müəyyən edilməsidir.

Malın mənşə ölkəsinin müəyyənləşdirilməsi gömrük əməliyyatlarının sadələşdirilməsi və unifikasiyası **("Unifikasiya"** latınca **"uni" ("vahid")** və **"facio" - "edirəm"** sözlərindən götürülüb, mənası "vahid edirəm" yəni vahid şəklə, formaya, və ya sistemə salmaq deməkdir) barədə Kioto Konvensiyasında öz əksini tapmış beynəlxalq təcrübəyə əsaslanır.

Malın **"mənşə ölkəsi"** məfhumunu malın istehsal edildiyi ölkələr qrupu, gömrük ittifaqları, dövlətin bir hissəsi və yaxud konkret regionu başa düşülür.

Malın mənşəyinin bəyan edilən ölkə olduğunu müəyyənləşdirmək üçün, gömrük orqanı malın mənşəyi haqqında sertifikat **("Sertifikat"** fransızca **"certifikat",** latınca **"sertifiko"** sözündən olub, mənası **"təsdiq edirəm"** deməkdir. **Xarici ticarətdə səlahiyyətli orqanların verdiyi və əmtənin keyfiyyətini təsdiq edən sənədə sertifikat deyilir**) tələb edir.

8. Gömrük ödənişləri

Plan:

1. ***Gömrük ödənişləri, növləri***
2. ***Gömrük rüsumları, növləri dərəcələri***
3. ***Gömrük vergiləri***
4. ***Gömrük yığımları***

Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Gömrük tarifi haqqında", "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında və müvafiq icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarında nəzərdə tutulmuş hallarda gömrük orqanları tərəfindən aşağıdakı gömrük ödənişləri alınır:

- gömrük rüsumları;
- əlavə dəyər vergisi ;
- aksizlər;
- yol vergisi;
- gömrük yığımları;
- haqq;
- dövlət rüsumu.

Azərbaycan Respublikasının iqtisadi maraqlarının qorunması məqsədi ilə ixrac və idxal edilən mallara "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda və müvafiq icra hakimiyyəti orqanının normativ hüquqi aktlarında nəzərdə tutulmuş qaydada müvəqqəti olaraq xüsusi rüsumlar və mövsümi rüsumlar tətbiq oluna bilər.

Fiziki şəxslər tərəfindən gömrük sərhədindən kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallar keçirilərkən gömrük ödənişləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi sadələşdirilmiş qaydada alınır. Bəyan olunan mallara gömrük ödənişlərinin tətbiqi zamanı onların xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun kodu əsas götürülür.

Gömrük rüsumlarının dərəcələri göstərilməklə, bu dərəcələrin həm malların adları, həm də kodları üzrə axtarışının həyata keçirilməsinə, qanunla nəzərdə tutulmuş digər gömrük ödənişlərinin məbləğlərinin öyrənilməsinə imkan verən, malları gömrük sərhədindən keçirən şəxslərin istifadəsi üçün nəzərdə tutulan və istifadəsi sadə olan elektron avadanlıqlar gömrük sərhəd buraxılış məntəqələrində hər kəsin yaxşı görə biləcəyi yerlərdə yerləşdirilməlidir.

Gömrük rüsumları

Gömrük rüsumları bəyan edilən malların yerləşdirilməsi üçün seçilmiş gömrük prosedurunun tələbləri əsasında, normativ hüquqi aktlara uyğun olaraq tətbiq olunur. Konkret mallar üzrə gömrük rüsumlarının dərəcələrini müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Gömrük rüsumlarının dərəcələri rəsmi nəşrlərdə dərc olunur və müvafiq icra hakimiyyəti orqanlarının rəsmi internet saytlarında yerləşdirilir. Mallar

üzrə tarif güzəştləri, gömrük rüsumlarından azad edilmə, tarif preferensiyalarının və güzəştlərinin verilməsi halları və qaydaları "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununa və müvafiq icra hakimiyyəti orqanının normativ hüquqi aktlarına uyğun olaraq tənzimlənir.

Azərbaycan Respublikasında idxal gömrük rüsumları və bəzi mallara ixrac gömrük rüsumları tətbiq edilir.

İdxal gömrük rüsumlarının dərəcələrini müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. İxrac gömrük rüsumlarının dərəcələrini və onların tətbiq olunduğu malların siyahısını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Nəzərdə tutulmuş hallarda mövsümi, xüsusi, antidempinq və ya kompensasiya rüsumları tətbiq edilə bilər.

Gömrük rüsumları üzrə gömrük borcunun məbləği hesablanarkən Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin mal nomenklaturasında əks olunmuş ölçü vahidi və gömrük dəyəri əsas götürülür.

Gömrük rüsumunun dərəcələri gömrük sərhədindən malları keçirən hüquqi və fiziki şəxslərdən, sövdələşmə növündən və digər amillərdən asılı olaraq dəyişdirilə bilməz. Gömrük rüsumu dövlət büdcəsinə mədaxil edilir.

Gömrük rüsumu dərəcələrinin növləri

Azərbaycan Respublikasında gömrük rüsumu dərəcələrinin aşağıdakı növləri tətbiq edilir:

- advalor — malların gömrük dəyərinə nisbətən faizlə hesablanan;
- spesifik — mal vahidinə görə müəyyən olunmuş məbləğlə hesablanan;
- kombinə edilmiş — yuxarıda göstərilən hər iki növün birləşdirilməsi yolu ilə hesablanan.

Mövsümi rüsumlar

Malların ixracını və idxalını operativ tənzimləmək məqsədi ilə bəzi mallara dərəcələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən mövsümi rüsumlar tətbiq oluna bilər. Bu halda gömrük tarifində nəzərdə tutulmuş gömrük rüsumu dərəcələri tətbiq edilmir. Mövsümi rüsumların qüvvədə olduğu müddət bir ildə 6 (altı) aydan çox ola bilməz.

Xüsusi, antidempinq və kompensasiya rüsumları

Azərbaycan Respublikasının iqtisadi maraqlarını qorumaq məqsədi ilə Azərbaycan Respublikasının gömrük ərazisinə (bundan sonra — gömrük ərazisi) idxal edilən mallara müvəqqəti olaraq gömrük rüsumlarının aşağıdakı növləri tətbiq oluna bilər:

- xüsusi rüsumlar;
- antidempinq rüsumları;
- kompensasiya rüsumları.

Xüsusi rüsumlar aşağıdakı hallarda tətbiq edilir:

- Mallar gömrük ərazisinə eyni malların yerli istehsalçılarına ziyan vuran və ya ziyan vura biləcək kəmiyyətdə və şərtlərlə gətirildikdə, müdafiə tədbiri kimi;

- Digər dövlətlərin və ya onların ittifaqlarının Azərbaycan Respublikasının maraqlarına toxunan ayrı-seçkilik və digər hərəkətlərinə cavab tədbiri kimi.

Antidempinq rüsumları idxal olunan malların qiyməti gömrük ərazisinə gətirildiyi anda ixrac olunduğu ölkədəki real dəyərindən xeyli aşağı olduqda və belə bir idxal eyni malların yerli istehsalçılarına ziyan vurduqda və ya ziyan vurmaq təhlükəsi yaratdıqda, Azərbaycan Respublikasında onların istehsalının təşkilinə və ya genişləndirilməsinə maneə törətdikdə tətbiq edilir.

Kompensasiya rüsumları gömrük ərazisinə gətirilən malların ixrac ölkəsində istehsalı və ya həmin ölkədən ixracı zamanı birbaşa və dolayı subsidiyalardan istifadə olunduqda və belə idxal bu cür malların yerli istehsalçılarına ziyan vurduqda və ya ziyan vurmaq təhlükəsi yaratdıqda, bu malların istehsalının təşkilinə və genişləndirilməsinə maneə törətdikdə tətbiq edilir.

Xüsusi, antidempinq və ya kompensasiya rüsumlarının formalaşdırılması və tətbiqi qaydası müvafiq qanunla müəyyən olunur.

Aşağıdakılar gömrük idxal rüsumuna cəlb olunmur:

- xarici investisiya qoyulmuş müəssisələrin əcnəbi işçilərinin yalnız öz ehtiyacları üçün Azərbaycan Respublikasına gətirdikləri əmlak *(respublikaya qoyulmuş investisiyanın dəyəri və miqdarı, habelə iş görənin arayışı gömrük orqanlarına təqdim olunmaqla);*
- Beynəlxalq təşkilatların, xarici dövlətlərin hökumətlərinin, habelə dövlətlərarası və hökumətlərarası sazişlərə əsasən xarici hüquqi və fiziki şəxslərin ayırdıqları əvəzsiz *maliyyə və texniki yardımları, qrantlar*, kreditlər və *borclar, həmçinin bu kreditlər və borclar hesabına həyata keçirilən layihələrdə Azərbaycan tərəfinin payı* hesabına idxal olunan mallar;
- təmənnasız paylanılması üçün humanitar yardım kimi fiziki şəxslər tərəfindən gətirilən mallar*;*
- *fövqəladə halların qarşısının alınması və bu halların nəticələrinin aradan qaldırılması məqsədilə maddi-texniki təchizat sisteminin yaradılması, seysmikmüşahidə məntəqələrinin və qəza-xilasetmə dəstələrinin yerləşdiriləcəyi bazaların təşkili və onların fəaliyyəti üçün Azərbaycan Respublikasının Fövqəladə Hallar Üzrə Dövlət Komissiyasının təsdiqedici sənədi əsasında idxal olunan xüsusi texniki vasitələr, avadanlıqlar, cihazlar, alətlər, komplektləşdirici məmulatlar, ehtiyat hissələri, ləvazimatlar və materiallar;*
- *neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlərə uyğun olaraq Azərbaycan Respublikasına verilməsi nəzərdə tutulan əsas fondların, daşınar əmlakın və digər aktivlərin Azərbaycan Respublikasının Dövlət Neft Fonduna və ya hasilatın pay bölgüsü haqqında sazişlərdə Azərbaycan Respublikasını təmsil edən hüquqi şəxslərə hər hansı şəkildə təqdim edilməsi üzrə əməliyyatlar;*
- *Azərbaycan Respublikası vətəndaşlarının pasportları və şəxsiyyət vəsiqələri blankları, onların fərdiləşdirilməsi, «Giriş-çıxış və qeydiyyat» idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin yaradılması və tətbiqi, əl-barmaq izlərinin, güllə və*

gilizlər üzərindəki izlərin müəyyən edilməsi üçün gətirilən avadanlıqlar, məmulatlar, ləvazimatlar və materiallar, polisə telefon zənglərinin qəbulu üzrə xüsusi «102» xidmətinə — Zəng Mərkəzi Sisteminə (ZMS) daxil olan avadanlıqlar, məmulatlar, ləvazimatlar və materiallar, dəniz səviyyəsindən 1300 metrdən hündürlükdə yerləşən dağlıq ərazilərdə turizm sahəsində olan investisiya layihələrinin həyata keçirilməsi üçün, ehtiyaclarını yerli xammal və materiallar hesabına ödəmək mümkün olmadıqda, layihə çərçivəsində idxal edilən mallar;

- *lizinq müqaviləsinin obyekti olan qanunvericiliklə müəyyənləşdirilmiş təsnifat üzrə əsas vəsaitə aid, idxal gömrük rüsumundan azad olunan daşınar əşyaların xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturu üzrə siyahısı təsdiq edilsin (əlavə olunur);*
- *ixrac məqsədli neft-qaz fəaliyyəti ilə əlaqədar avadanlıq və materiallar (Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti tərəfindən ixrac məqsədli neftqaz fəaliyyəti üzrə Azərbaycan Respublikasına idxal olunan avadanlıq və materialların təsdiq olunmuş siyahısı gömrük orqanlarına təqdim edildiyi təqdirdə);*
- *Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi və onun tabeliyində olan müəssisələr tərəfindən müdafiə təyinatlı məmulatların yaradılması və istehsalı məqsədilə idxal edilən texnologiyalar, avadanlıqlar və dəstləşdirici hissələr;*
- *Xüsusi iqtisadi zonaya idxal edilən mallar (aksizli mallar istisna olmaqla);*
- *milli yığma komandaların hazırlığı ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydada ölkəyə gətirilən idman avadanlığı, texnikası və malları;*
- *Azərbaycan Respublikasının Dövlət Taxıl Fonduna tədarük edilməsi məqsədi ilə idxal olunan taxıl və taxıl emalı məhsulları;*
- *«Azərbaycan Milli Elmlər Akademiyasının təsdiqedici sənədi əsasında idxal gömrük rüsumundan azad olunan elmi cihazların və avadanlıqların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİF MN) üzrə Siyahısı» təsdiq edilsin (əlavə olunur);*
- *«Qeyri-neft sektorunda istehsalın təşviqi məqsədi ilə idxal gömrük rüsumundan azad olunan malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturu (XİF MN) üzrə Siyahısı» təsdiq edilsin (əlavə olunur);*
- *Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən alınan qeydiyyat şəhadətnamələri, sürücülük vəsiqələri, qeydiyyat nişanları, xidmətlə bağlı digər blanklar və büdcə vəsaiti hesabına idxal olunan avadanlıqlar.*

dövlətlərin, hökumətlərin və beynəlxalq təşkilatların, hüquqi və fiziki şəxslərin xətti ilə təmənnasız paylanılması üçün humanitar yardım kimi gətirilən malların gömrük rəsmiləşdirilməsində, həmin malları gətirən humanitar təşkilatlar Azərbaycan Respublikası ərazisində mövcud qaydada qeydiyyatdan keçməsi barədə sənədi, digər hüquqi və fiziki şəxslər isə Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının razılığını gömrük orqanlarına təqdim etməlidirlər.

Gömrük orqanları tərəfindən alınan vergilər

1. **Əlavə dəyər vergisi**

2. ***Aksizlər***
3. Yol

Əlavə dəyər vergisi

Azərbaycan Respublikasına ƏDV tutulan malları idxal edən şəxslər bu cür idxal malları üzrə ƏDV-nin ödəyiciləri sayılırlar.

Vergi tutulan idxalın dəyəri malların Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə uyğun olaraq müəyyən edilən gömrük dəyərindən və mallar Azərbaycan Respublikasına gətirilərkən ödənilməli olan rüsumlardan və vergilərdən (ƏDV nəzərə alınmadan) ibarətdir.

ƏDV-nin dərəcəsi

ƏDV-nin dərəcəsi hər vergi tutulan əməliyyatın və hər vergi tutulan idxalın dəyərinin 18 faizidir.

Azərbaycan Respublikasının ərazisinə gətirilən aşağıdakı mallar əlavə dəyər vergisindən azad olunur:

- xarici investisiyalı müəssisənin əcnəbi işçilərinin öz ehtiyacları üçün Azərbaycan Respublikasına gətirdikləri əmlak (işə götürənin arayışı gömrük orqanlarına təqdim olunmaqla);
- Azərbaycan Respublikasının ərazisində mövcud qaydada qeydiyyatdan keçmiş humanitar təşkilatlar, həmçinin Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının razılığı ilə digər hüquqi və fiziki şəxslər tərəfindən humanitar yardım kimi gətirilən mallar;
- texniki yardım da daxil olmaqla, təmənnasız yardım və xeyriyyə məqsədi ilə dövlətlərin, hökumətlərin və beynəlxalq təşkilatların xətti ilə gətirilən mallar;
- xarici iqtisadi fəaliyyətin mal nomenklaturuna daxil olan bütün növ avtonəqliyyat vasitələri istisna olmaqla, fiziki şəxslər tərəfindən Azərbaycan Respublikası ərazisinə gətirilən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan, ümumi dəyəri 1000 ABŞ dollarına ekvivalent və ya çəkisi 50 kiloqramdan artıq olmayan mallar;
- fövqəladə halların qarşısının alınması və bu halların nəticələrinin aradan qaldırılması məqsədi ilə maddi-texniki təchizat sisteminin yaradılması, seysmik müşahidə məntəqələrinin və qəza-xilasetmə dəstələrinin yerləşdiriləcəyi bazaların təşkili və onların fəaliyyəti üçün Azərbaycan Respublikasının Fövqəladə Hallar üzrə Dövlət Komissiyasının təsdiqedici sənədi əsasında idxal olunan xüsusi texniki vasitələr, avadanlıqlar, cihazlar, alətlər, komplektləşdirici məmulatlar, ehtiyat hissələri, ləvazimatlar və materiallar;
- Azərbaycan Respublikası vətəndaşlarının pasportları və şəxsiyyət vəsiqələri blankları, onların fərdiləşdirilməsi, *«Giriş-çıxış və qeydiyyat» idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin* yaradılması və tətbiqi, əl-barmaq izlərinin*, güllə və gilizlər üzərindəki izlərin* müəyyən edilməsi üçün gətirilən avadanlıqlar, məmulatlar, ləvazimatlar və materiallar*, polisə telefon zənglərinin qəbulu üzrə xüsusi «102» xidmətinə — Zəng Mərkəzi Sisteminə (ZMS) daxil olan avadanlıqlar, məmulatlar,*

ləvazimatlar və materiallar, dəniz səviyyəsindən 1300 metrdən hündürlükdə yerləşən dağlıq ərazilərdə turizm sahəsində olan investisiya

- *layihələrinin həyata keçirilməsi üçün, ehtiyaclarını yerli xammal və materiallar hesabına ödəmək mümkün olmadıqda, layihə çərçivəsində idxal edilən mallar*;
- qanunvericiliyə uyğun olaraq, dövlət müəssisələrini idarə etmək hüququna dair təsdiq edilmiş müqavilələrin icrası ilə bağlı investisiya proqramında istehsalın təşkili üçün nəzərdə tutulmuş mallar;
- aksizli malların aksiz markalarının saxta olub-olmamasını yoxlamaq üçün xüsusi avadanlıqlar (əl detektorları və lampalar), Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, konsulluq və başqa diplomatik nümayəndəlikləri tərəfindən ölkədən getmək və ölkəyə gəlmək üçün əcnəbi vətəndaşlara verilən blanklar, onların tətbiqinə nəzarət və istifadəsi üçün müvafiq avadanlıqlar, məmulatlar, ləvazimatlar və materiallar;
- *ixrac məqsədli neft-qaz fəaliyyəti ilə əlaqədar avadanlıq və materiallar (Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti tərəfindən ixrac məqsədli neftqaz fəaliyyəti üzrə Azərbaycan Respublikasına idxal olunan avadanlıq və materialların təsdiq olunmuş siyahısı gömrük orqanlarına təqdim edildiyi təqdirdə);*
- *Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi və onun tabeliyində olan müəssisələr tərəfindən müdafiə təyinatlı məmulatların yaradılması və istehsalı məqsədilə idxal edilən texnologiyalar, avadanlıqlar və dəstləşdirici hissələr;*
- *Gücü 750 meqavatdan artıq olan buxar-qaz elektrik stansiyalarının tikintisi üçün məcmu dəyəri 500 (beş yüz) milyon manatadək olan 84-cü, 85-ci və digər mal qrupları üzrə gətirilən mal və avadanlıqlar;*
- *Xüsusi iqtisadi zonaya idxal edilən mallar (aksizli mallar istisna olmaqla);*
- *Azərbaycan Respublikasının Dövlət Taxıl Fonduna tədarük edilməsi məqsədi ilə idxal olunan taxıl və taxıl emalı məhsulları;*
- *Neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlərə uyğun olaraq Azərbaycan Respublikasına verilməsi nəzərdə tutulan əsas fondların, daşınar əmlakın və digər aktivlərin Azərbaycan Respublikasının Dövlət Neft Fonduna və ya hasilatın pay bölgüsü haqqında sazişlərdə Azərbaycan Respublikasını təmsil edən hüquqi şəxslərə hər hansı şəkildə təqdim edilməsi üzrə əməliyyatlar;*
- *«Azərbaycan Milli Elmlər Akademiyasının təsdiqedici sənədi əsasında idxalda əlavə dəyər vergisindən azad olunan elmi cihazların və avadanlıqların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİF MN) üzrə Siyahısı» təsdiq edilsin (əlavə olunur);*
- *«Qeyri-neft sektorunda istehsalın təşviqi məqsədi ilə idxalda əlavə dəyər vergisindən azad olunan malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturu (XİF MN) üzrə Siyahısı» təsdiq edilsin (əlavə olunur);*
- *Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən alınan qeydiyyat şəhadətnamələri, sürücülük vəsiqələri, qeydiyyat*

nişanları, xidmətlə bağlı digər blanklar və büdcə vəsaiti hesabına idxal olunan avadanlıqlar.

- *Azərbaycan Respublikası Dövlət Neft Fondunun aktivlərində yerləşdirilməsi üçün idxal olunan qızıl.*

Azərbaycan Respublikasının qanunvericiliyi ilə əlavə dəyər vergisindən azad olunan mallardan başqa «Azərbaycan Respublikasının ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan digər malların siyahısı» təsdiq edilsin (əlavə olunur).

əlavə dəyər vergisindən azad olunan idxal edilən mallar təyinatı üzrə istifadə olunmadıqda, həmin mallar yenidən bəyan olunmalı və 10 gün müddətində əlavə dəyər vergisi ödənilməlidir. Əks təqdirdə, malları satanlara qarşı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görülür.

Aksiz və aksizli mallar anlayışı

Aksiz - qanunvericilikdə müəyyən edilən aksizli malların satış qiymətinə daxil edilən dolayı (istehlak) vergi növüdür.

Azərbaycan Respublikasında aksizli mallara aşağıdakılar aid edilir:

- içməli spirt, pivə və spirtli içkilərin bütün növləri;
- tütün məmulatları;
- neft məhsulları;
- minik avtomobilləri (xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı avtonəqliyyat vasitələri istisna olmaqla);
- istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr;
- idxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digərm məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz.

Vergi ödəyiciləri kimlərdir?

- Azərbaycan Respublikasında aksizli malların istehsalçıları;
- Azərbaycan Respublikasına aksizli malların idxalçıları;
- xaricdə özü və ya podratçı vasitəsilə aksizli malları istehsal edən və orada vergi ödəyicisi kimi uçotda olmayan Azərbaycan Respublikasının rezidentləri;

Onu da qeyd edək ki, aksizli mallar sifarişçinin göndərdiyi xammaldan Azərbaycan Respublikası ərazisində istehsal edildiyi hallarda, malların istehsalçısı (podratçı) aksizin ödəyicisidir. Bu halda istehsalçı (podratçı) aksiz məbləğlərini sifarişçidən almalıdır.

Aksizli malların istehsalçısı və sifarişçisi qarşılıqlı surətdə asılı olan rezident şəxslər olduqda, malın sahibi (sifarişçi) aksizin ödəyicisidir.

Vergitutma obyekti

- Respublika ərazisində istehsal edilən aksizli malların istehsal binasının hüdudlarından kənara buraxılması;

- idxal edilən aksizli malların gömrük xidmətinin nəzarətindən çıxması.

Qeyd edək ki, istehsal binalarına istehsalın olduğu ərazidə yerləşən anbarlar, köməkçi anbar sahələri və digər oxşar binalar aiddir.

Vergi tutulan əməliyyatın məbləği

Respublika ərazisində istehsal olunan mallar üzrə:

a) neft məhsulları üçün - vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən, o cümlədən barter əsasında aldığı və ya almalı olduğu haqqın topdansatış bazar qiymətindən (aksiz, yol vergisi və ƏDV çıxılmaqla) aşağı olmayan məbləği;

b) digər aksizli mallar üçün - istehsal olunan malların miqdarı.

Respublikaya idxal olunan mallar üzrə:

a) minik avtomobilləri, istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr üçün - vasitələrin mühərrikinin həcmi;

b) platinə görə vergi tutulan əməliyyat platinin hər qramı; qızıla, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarına görə - qızılın min çəki vahidindəki miqdarı; emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaza görə - almazın karatıdır

c) digər idxal malları üçün - topdansatış bazar qiymətindən aşağı olmayan malların gömrük dəyəri (aksiz, yol vergisi və ƏDV çıxılmaqla).

Vergi tutulan əməliyyatın vaxtı

Respublika ərazisində istehsal olunan mallar üçün – malların istehsal binasının hüdudlarından kənara buraxıldığı vaxt;

İdxal edilən mallar üçün - malların gömrük xidmətinin nəzarətindən çıxdığı vaxt.

Aksizdən azadolmalar

- Fiziki şəxsin fərdi istehlakı üçün **3 litr** alkoqollu içkinin və 600 ədəd siqaretin, 20 qram qızılın, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkdi ilmiş 0,5 karat almazın idxalı;
- Azərbaycan Respublikası Mərkəzi Bankının aktivlərində yerləşdirilmək üçün idxal olunan platin, qızıl və emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz, Azərbaycan Respublikası Dövlət Neft Fondunun aktivlərində yerləşdirilmək üçün idxal olunan qızıl;
- Azərbaycan Respublikasına avtomobillərlə gələn şəxslər üçün avtomobilin texniki pasportu ilə nəzərdə tutulmuş bakındakı yanacaq;
- Respublika ərazisindən tranzitlə daşınan mallar;
- Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 192-ci və 194-cü maddələrində nəzərdə tutulmuş hallarda, malların respublika ərazisinə müvəqqəti idxalı;

İstehsal ehtiyacları üçün aksizlərin əvəzləşdirilməsi

Aksizli malları (xammal və materialları) alan və bu malları vergi tutulan digər aksizli malların istehsalı üçün istifadə edən şəxs ödənilmiş aksizin məbləğini əvəzləşdirmək və ya geri almaq hüququna malikdir.

Ödənilmiş aksizin əvəzləşdirilməsi və ya geri qaytarılması üçün vergi ödəyicisi vergi orqanına aksizin ödənildiyini təsdiq edən elektron vergi hesab – fakturasını və ya müvafiq idxal sənədlərini təqdim etməlidir.

Artıq ödənilən verginin məbləği sənədlər vergi orqanına verildikdən sonra **45 gün ərzində** qaytarılır.

Əvəzləşdirmə üçün ərizə aksizin ödənilməsinə dair bəyannamə ilə birlikdə vergi orqanına verilir.

Təkrar ixrac zamanı aksizin qaytarılması

Sonradan təkrar ixrac məqsədi ilə idxal olunan mallar üçün aksiz malların idxal vaxtı ödənilir və sonradan təkrar ixracın faktiki həcminə müvafiq məbləğdə aksizi almış gömrük orqanları tərəfindən **15 gün ərzində** geri qaytarılır.

Bu rejim aksizlərdən azad edilən - təkrar ixrac üçün nəzərdə tutulan və girovla təminat verilən idxal mallarına tətbiq edilmir.

Vergi dərəcələri

Respublikada istehsal olunan mallar üzrə:

a) içməli spirtə, pivəyə, spirtli içkilərə və tütün məmulatlarına tətbiq edilən aksiz dərəcələri:

içməli spirt (o cümlədən tərkibində 80 %-dən az spirt olmayan denaturlaşdırılmamış etil spirti; tərkibində 80 %-dən az spirt olan denaturlaşdırılmamış etil spirti)	hər litrinə **2** manat
araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likyor və likyor məmulatları	hər litrinə **2** manat
konyak və konyak materialları	hər litrinə **6** manat
şampan şərabı	hər litrinə **2,5** manat
şərablar və şərab materialları	hər litrinə **10** qəpik
pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilər	hər litrinə **20** qəpik
siqarlar, ucları kəsilən siqarlar və siqarilla (nazik siqarlar)	**1000** ədədinə **10 manat**
tütündən hazırlanan siqaretlər və onun əvəzediciləri	**1000** ədədinə **4 manat**

b) neft məhsullarının **1 tonu üçün** tətbiq edilən aksiz dərəcələri

• Avtomobil benzini Aİ-95	**64.0**
• Avtomobil benzini Aİ-92,	**65.0**
• Avtomobil benzini Aİ-80	**66.00**
• Dizel yanacağı	**18.00**
• Ağ neft (KO-20)	**32,00**
• Reaktiv mühərrik yanacağı	**9.00**
• Nafta (ilkin emal benzini)	**13.00**
• Maye qaz	**22.00**
• Qaz benzini	**37,00**
• Mühərrik yanacağı DT-36	**24.00**
• Mühərrik yanacağı DT-20	**31.00**
• Soba mazutu	**3.00**
• Mühərrik yağı - M-12VB, M-14V2	**52,00**
• Sənaye yağları İ-12A, İ-20V, İ-40A, İ-8B1, İ-30V	**72,00**
• Turbin yağları T-22, T-30, T-46	**39,00**
• Transformator yağı T-1500	**54,00**
• Digər yağlar AK-15, S-11, XM-6, K-12, K-19,VM-4	**56,00**
• Kokslar KT-A, KT-T	**19,00**
• Koks KT-Q	**18,00**
• Bitum BN 60/90, BNB – 60/70	**11.00**
• Bitum MQO	**34,00**
• Bitum BNV, BNB–70/30, BNB–85/25	**31,00**

Respublikaya idxal olunan mallar üzrə:

a) minik avtomobillərinin mühərrikinin həcminə mütənasib olaraq tətbiq edilən aksiz dərəcələri:

Mühərrikin həcmi	Aksizin dərəcəsi
2000 sm^3-dək olduqda	hər **1** sm^3 **0,2** manat
3000 sm^3-dək olduqda	**400** manat + **2001** sm^3-dən başlayraq hər **1** sm^3 görə **1,5** manat
4000 kub sm^3-dək olduqda	**1900** manat + **3001** sm^3-dən başlayraq hər **1** sm^3 görə **4** manat
5000 kub sm^3-dək olduqda	**5900** manat + **4000** sm^3-dən çox hissəsi üçün hər sm^3 görə **-8** manat
5000 kub sm^3-dən çox olduqda	**13900** manat + **4000** sm^3-dən çox hissəsi üçün hər sm^3 görə - **10** manat

b) istirahət və ya idman üçün yaxtalara və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə aksiz onların mühərrikinin həcminin hər sm3 görə **3 manat** dərəcə ilə hesablanır;

c) platinin hər qramına görə 2 manat aksiz ödənilir;

d) qızılın, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının min çəki vahidindəki miqdarına görə

1000 çəki vahidində qızılın miqdarı	Aksizin dərəcəsi
375	80 qəpik
500	**1 manat**
585	**1 manat 20 qəpik**
750	**1 manat 50 qəpik**
958	**1 manat 80 qəpik**
999	**2 manat**

e) emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almazın 1 karatı üçün 200 manat (aksiz dərəcəsi) olmaqla, aşağıdakı qaydada hesablanır:

Çəki (karat)	Aksizin dərəcəsinin əmsalı
< **1 karat**	**200 manat * faktiki çəki**
1-2 karat	**2*200 manat**
2-3 karat	**3*200 manat**
3-4 karat	**4*200 manat**
4-5 karat	**5*200 manat**
> **5 karat**	**10*200 manat**

Misal:

1)0,6 karatlıq(< 1 karat) almaza görə ödəniləcək aksiz:

0.6 karat *200 manat = 120 manat

2) 4 karatlıq almaza görə ödəniləcək aksiz:

5 (əmsal)*200 manat=1000 manat

3) 2,5 karatlıq almaza görə ödəniləcək aksiz:

3(əmsal)*200 manat = 600 manat

f) digər aksizli mallara tətbiq olunan aksiz dərəcələri Nazirlər Kabinetinin müvafiq Qərarları ilə tənzimlənir.

İxracın vergiyə cəlb olunması

Aksizli malların ixracı sıfır (0) dərəcəsi ilə vergiyə cəlb olunur.

Elektron vergi hesab-fakturasının verilməsi

Aksizli malları göndərən vergi ödəyicisi malı qəbul edənə müvafiq qaydada tərtib olunmuş elektron vergi hesab-fakturasını verməlidir.

Mallar pərakəndə qaydada göndərildiyi hallarda elektron vergi hesabfakturası əvəzinə qəbz və ya çek də verilə bilər.

Qəbzlər, çeklər, müəyyən edilmiş qaydada tərtib edilməyən elektron vergi hesab-fakturaları və nağd aparılan əməliyyatların rəsmiləşdirildiyi sənədlər istehsal ehtiyacları üçün aksizin əvəzləşdirilməsinə əsas vermir və aparılan əvəzləşdirmə etibarsız hesab edilir.

Aksizin bəyan edilməsi

İstehsalçılar hesabat dövrü olan hər hesabat ayı üçün mövcud olmuş vergi tutulan əməliyyatlar barədə bəyannaməni növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına bilavasitə, poçt və ya elektron formatda İnternet vasitəsilə təqdim etməlidirlər.

Hesabat ayı ərzində vergi tutulan əməliyyat olmadıqda vergi orqanına müvafiq arayış forması təqdim olunmalıdır.

Vergi ödəyicisinin ləğvi (onun fəaliyyətinə xitam verilməsi) zamanı hesabat ayının əvvəlindən fəaliyyəti dayandırılan günə qədər olan dövrü əhatə edən bəyannamə vergi orqanına növbəti ayın 20-dən gec olmamaqla 30 gün müddətində təqdim olunmalıdır.

İdxalçılar idxal edilən malları gömrük qanunvericiliyinə uyğun olaraq gömrük orqanlarında bəyan edirlər.

Aksizin ödənilməsi:

İstehsalçılar hər hesabat ayı üçün vergi tutulan əməliyyatlar üzrə aksizləri növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Ödəyicinin aksizin ödənişi üzrə borcu olduqda, həmin borc yaranandan ödənilənədək həyata keçirilən vergi tutulan əməliyyatlar üzrə aksizlər sözügedən əməliyyatların aparıldığı vaxt ödənilir. Əks təqdirdə, yəni ödəniş aparmadıqda ödəyicinin malları istehsal binasının hüdudlarından kənara çıxartmağa hüququ yoxdur.

Malların idxalı zamanı aksiz gömrük orqanları tərəfindən gömrük rüsumlarının tutulduğu qaydada tutulur.

Aksizli malların üzərində vergi nəzarəti

Vergi orqanları aksizli malların markalanmasına nəzarəti ödəyicilərin müvafiq binalarında nəzarət postları, ölçü cihazları, plomblar qurmaqla və digər tədbirlər görməklə həyata keçirir.

Plombların vurulması və açılması arasındakı müddətdə nəzarət-öl-çü cihazlarının göstəricilərində dəyişikliklərin edilməsinə, texnoloji avadanlıqlardakı plombların zədələnməsinə, istehsal olunmuş məhsulların aksiz markası ilə markalanmamasına, tam uçota alınmamasına, aksiz markaların inventarizasiyasında kənarlaşmalara yol verilməsinə, eləcə də hazır məhsulun istehsal sahəsindən kənara çıxarılmasına görə Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq vergi ödəyicisinə 5000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Digər tərəfdən, İnzibati Xətalar və Cinayət Məcəllələrinin müddəa-larına uyğun olaraq qanun pozuntusuna yol vermiş şəxslərə qarşı aşağıdakı cəza tədbirləri görülə bilər:

aksizli məhsulların (malların) aksiz markası olmadan az miqdarda, yəni **500 manatadək olan məbləğdə** satılmasına, satış məqsədi ilə saxlanmasına və ya istehsal binasının hüdudlarından kənara çıxarılmasına görə həmin məhsullar (mallar) müsadirə edilməklə fiziki şəxslər **35** manatdan **40** manatadək miqdarda, vəzifəli şəxslər **80** manatdan **90** manatadək miqdarda, hüquqi şəxslər isə **200** manatdan **300** manatadək miqdarda cərimə edilir; aksizli məhsulların (malların) aksiz markası olmadan xeyli miqdar-da, yəni **500 manatdan 2000 manatadək olan məbləğdə** satışı, satış məqsədi ilə saxlanması, istehsal binasının hüdudlarından kənara çıxarılması və ya idxal edilməsi **1000** manatdan **3000** manatadək miqdarda cərimə və ya **1 ilədək müddətə** islah işləri və ya **2 ilədək müddətə** azadlıqdan məhrumetmə ilə cəzalandırılır;

eyni əməllər külli miqdarda, yəni **2000 manatdan yuxarı** olan məbləğdə, təkrarən və ya qabaqcan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə **5 ilədək müddətə** azadlıqdan məhrumetmə ilə cəzalandırılır;

saxta aksiz markalarını satış məqsədilə hazırlama, habelə əldə etmə və ya satma **1000 manatdan 2000 manatadək** olan miqdarda cərimə və ya **2 ilədək müddətə** islah işləri və ya **3 ilədək müddətə** azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

aksiz markası ilə markalanmalı olan məhsulların (malların) belə marka olmadan **500 manatadək olan məbləğdə** idxal edilməsinə görə aksiz markası olmayan məhsullar (mallar) müsadirə edilməklə fiziki şəxslər **150** manatdan **250** manatadək miqdarda, vəzifəli şəxslər **300** manatdan **500** manatadək miqdarda, hüquqi şəxslər **1000** manatdan **3000** manatadək miqdarda cərimə edilir.

Maliyyə sanksiyaları və faizlər

Aksiz bəyannaməsi və ya vergi öhdəliyinin yaranmaması barədə müvafiq arayışı əsas olmadan vaxtlı-vaxtında təqdim etməyən vergi ödəyicisinə vergi orqanının qərarına əsasən **40 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Verginin hesabatda göstərilən məbləği verginin hesabatda gös-tərilməli olan məbləğinə nisbətən azaldılmışdırsa, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim etməməklə yayındırılmışdırsa, vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin (kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla) **50 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Aksizli malların satış qiymətinə daxil edilən vergi qanunla müəy-yən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicilərindən ödənilməmiş vergi ödəməsi məbləğinin **0,1 faizi** miqdarında faiz tutulur. Bu faiz vergi ödənişlərinə münasibətdə bütün ötmüş müddətə, ancaq bir ildən çox olmamaq şərti ilə tətbiq edilir.

Yol vergisi

Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtomobil nəqliyyatı vasitələrindən:

minik avtomobilləri — 15 ABŞ dolları;

avtobuslar üçün oturacaq yerlərinin sayından və Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən asılı olaraq:

Ölkə ərazisində qaldığı müddət	*Oturacaq yerlərinin sayı 12-dək olanda*	*Oturacaq yerlərinin sayı 13-dən 30-dək olanda*	*Oturacaq yerlərinin sayı 31 və çox olanda*
1 gün üçün	*15 ABŞ dolları*	*20 ABŞ dolları*	*25 ABŞ dolları*
1 həftəyədək	*30 ABŞ dolları*	*40 ABŞ dolları*	*50 ABŞ dolları*
1 aya qədər	*100 ABŞ dolları*	*140 ABŞ dolları*	*175 ABŞ dolları*
3 aya qədər	*300 ABŞ dolları*	*400 ABŞ dolları*	*500 ABŞ dolları*
1 ilə qədər	*1050 ABŞ dolları*	*1400 ABŞ dolları*	*1750 ABŞ dolları»*

yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri üçün oxların sayından və Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən asılı olaraq:

Ölkə ərazisində qaldığı olanda	*müddət 4 (dörd) oxa qədər*	*4 (dörd) ox və çox olanda*
1 gün üçün	*20 ABŞ dolları*	*30 ABŞ dolları*
2 həftəyədək	*40 ABŞ dolları*	*80 ABŞ dolları*
1 aya qədər	*140 ABŞ dolları*	*280 ABŞ dolları*
3 aya qədər	*400 ABŞ dolları*	*800 ABŞ dolları*

1 ilə qədər	*1400 ABŞ dolları*	*2800 ABŞ dolları*

verginin məbləği ağır çəkili avtonəqliyyat vasitələri ilə yüklərin daşınmasına görə Azərbaycan Respublikasının ərazisində qət edilən yolun hər kilometri üçün aşağıdakı qədər artırılır:

nəqliyyat vasitələrinin yüklə birlikdə ümumi çəkisi:

37 tondan 41 tonadək olduqda	— 0,15 ABŞ dolları
41 tondan 51 tonadək olduqda	— 0,30 ABŞ dolları
51 tondan 61 tonadək olduqda	— 0,45 ABŞ dolları
61 tondan 71 tonadək olduqda	— 0,60 ABŞ dolları
71 tondan 81 tonadək olduqda	— 0,75 ABŞ dolları
81 tondan çox olduqda	— 1,8 ABŞ dolları

Təhlükəli yüklərin daşınmasına verginin məbləği aşağıdakı qədər artırılır:

az təhlükəli yüklər üçün	— 100 faiz;
təhlükəli yüklər üçün	— 200 faiz;
xüsusi təhlükəli yüklər üçün	— 400 faiz.

Gömrük yığımları

Gömrük yığımlarına aşağıdakılar aiddir:

1. *gömrük nəzarətinin həyata keçirilməsi ilə bağlı gömrük yığımları;*
2. *gömrük müşayiətinə görə gömrük yığımları;*
3. *malların saxlancına görə gömrük yığımları;*
4. gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsinə görə yığımlar;
5. *bankların və bank olmayan kredit təşkilatlarının müvafiq icra hakimiyyəti orqanının reyestrinə daxil edilməsinə görə yığımlar.*

Gömrük yığımlarının məbləğini müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Gömrük nəzarətinin həyata keçirilməsi ilə bağlı gömrük yığımları

Gömrük orqanları gömrük nəzarətini iş vaxtı ərzində həyata keçirərkən, bu Məcəllədə və digər normativ aktlarda nəzərdə tutulmuş hallar istisna olmaqla, aşağıdakıların yerinə yetirilməsinə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdə gömrük yığımları alırlar:

1. malların gömrük rəsmiləşdirilməsinə;
2. gömrük nəzarəti və rəsmiləşdirilməsi ilə əlaqədar olaraq bəyannaməçinin, mallar barəsində səlahiyyəti olan şəxslərin və ya onların nümayəndələrinin təşəbbüsü ilə malların gömrük ekspertizasının aparılmasına;
3. malların gömrük nəzarəti altında məhvinə.

Mallara və nəqliyyat vasitələrinə gömrük nəzarəti gömrük orqanlarının iş vaxtından kənar saatlarda və iş yerindən kənarda həyata keçirildikdə, gömrük yığımları ikiqat məbləğdə alınır.

Gömrük rəsmiləşdirilməsinə görə alınan gömrük yığımlarının miqdarı

Mal qismində Azərbaycan Respublikasının gömrük sərhədindən nəqliyyat vasitələri də daxil olmaqla keçirilən (o cümlədən müşayiət olunmayan baqajda və beynəlxalq poçt göndərişlərində) malların, habelə Azərbaycan Respublikasının Milli Bankı tərəfindən xarici ölkədə sifariş verməklə (hazırlanmasına, gətirilməsinə, sığortalanmasına və sairə çəkilən xərclər nəzərə alınmaqla) gətirilən milli valyutanın gömrük rəsmiləşdirilməsi üçün hər bir yük gömrük bəyannaməsinə və ya gömrük mədaxil orderinə görə malın gömrük dəyərindən asılı olaraq aşağıdakı qaydada gömrük yığımları alınır:

- *gömrük dəyəri 1000 manata qədər olduqda 10,0 manat;*
- *gömrük dəyəri 1001 manatdan 10000 manata qədər olduqda 50 manat;*
- *gömrük dəyəri 10001 manatdan 100000 manata qədər olduqda 100 manat;*
- *gömrük dəyəri 100001 manatdan yuxarı olduqda isə 275 manat.*

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri arasında hasilatın pay bölgüsü haqqında sazişlərə əsasən mənfəət karbohidrogenlərinin neft kəməri vasitəsi ilə ixracı, habelə dövlət zəmanətli kreditlər hesabına alınmış uçuş aparatlarının, pasport və şəxsiyyət vəsiqələri blanklarının, həmçinin, ixrac məqsədli neftqaz fəaliyyəti ilə bağlı avadanlıq və materialların gömrük rəsmiləşdirilməsi zamanı hər bir yük gömrük bəyannaməsi üçün malın dəyərindən asılı olmayaraq, 275 manat miqdarında gömrük yığımları alınır.

Hasilatın pay bölgüsü haqqında sazişlərin icrası ilə bağlı Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən aparılan malların, o cümlədən mənfəət karbohidrogenlərinin gömrük rəsmiləşdirilməsinə görə bu sazişlərin müvafiq müddəaları ilə müəyyən edilmiş miqdarda gömrük yığımları alınır.

Gömrük yük bəyannaməsinin hər bir əlavə vərəqi üçün sövdələşmə xarakterindən asılı olmayaraq, 10 manat miqdarında gömrük yığımı alınır.

Azərbaycan Respublikasının gömrük sərhədindən tranzit gömrük rejimi altında keçirilən malların gömrük rəsmiləşdirilməsinə 30 manat, hər əlavə tranzit yük bəyannamələri üçün isə 10 manat miqdarında gömrük yığımları alınır.

Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən (o cümlədən müvəqqəti gətirilən) nəqliyyat vasitələrinin qeydə alınması üçün vəsiqə verilməsinə görə:

- *yük və minik avtomobilləri, mikroavtobus və avtobuslar üçün — 20 manat;*
- *digər nəqliyyat vasitələri üçün — 15 manat miqdarında gömrük yığımı alınır.*

Malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikası gömrük orqanlarının iş vaxtından kənar vaxtda və ya iş yerindən kənarda rəsmiləşdirilməsinə görə gömrük yığımları ikiqat miqdarda alınır.

Aşağıdakı hallarda Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları alınmır:

- *qrant haqqında müqaviləyə (qərara) əsasən qrant kimi alınan maddi yardımlar;*
- *humanitar yardımlar;*
- *texniki yardımlar;*

- *Azərbaycan Respublikasının ərazisində yerləşən diplomatik nümayəndəliklərin rəsmi və onların heyət üzvlərinin şəxsi istifadəsi üçün keçirilən mallar və nəqliyyat vasitələri;*
- *elektrik enerjisinin qarşılıqlı ötürülməsi;*
- *fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan, ümumi dəyəri 1000 ABŞ dollarına ekvivalent və ya çəkisi 50 kq-dan artıq olmayan mallar;*
- *istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan, beynəlxalq poçt göndərişlərində ümumi dəyəri 200 ABŞ dollarına ekvivalent və ya çəkisi 20 kqdan*
- *artıq olmayan mallar;*
- *qeyri-rezident fiziki şəxslər (şəxsiyyəti təsdiq edən sənəddə iki təqvim ilindən yuxarı xarici ölkədə yaşadığı barədə müvafiq qeydlər olduqda) daimi yaşayış məqsədi ilə Azərbaycan Respublikasına köçüb gələrkən (və ya rezident fiziki şəxslər Azərbaycan Respublikasından köçüb gedərkən) 20.000 ABŞ dollarına ekvivalent dəyər həcmində ailə üçün zəruri olan məişət əşyalarını özləri ilə gömrük sərhədindən keçirərək, gömrük orqanlarına bəyan etməklə, müşayiət olunan baqajla və ya müşayiət olunmayan baqajla gətirildikdə (aparıldıqda);*
- *zəruri ehtiyacların ödənilməsi üçün şəxsi əşyalar gömrük qaydalarına əməl etməklə, müvəqqəti olaraq gətirildikdə (aparıldıqda);*
- *açılmış vərəsəlik hüququ əsasında əldə edilmiş malları (gətirilməsi və aparılması qadağan edilmiş mallardan başqa) Azərbaycan Respublikasının gömrük sərhədindən keçirildikdə.*

Gömrük rəsmiləşdirilməsinə görə alınan gömrük yığımlarının miqdarı, hesablanması və ödənilməsi

Gömrük rəsmiləşdirilməsinə görə alınan gömrük yığımlarının miqdarı mövcud qanunvericiliyə uyğun olaraq müəyyən edilir. Dövlət Gömrük Komitəsi müəyyən edilmiş gömrük yığımlarının miqdarına zərurət yarandıqda yenidən baxılması təklifi ilə çıxış edə bilər. Gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları qanunvericilikdə nəzərdə tutulmuş müəyyən hallar istisna olmaqla manatla ödənilir. Gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları ABŞ dolları ilə müəyyən edildikdə YGB-si qəbul edilən günə Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi məzənnəyə görə manatla alınır.

Sərbəst dövriyyə üçün buraxılış, təkrar idxal, rüsumsuz ticarət mağazası, gömrük ərazisində emal, gömrük nəzarəti altında emal, müvəqqəti idxal (ixrac), gömrük ərazisindən kənarda emal, ixrac, təkrar ixrac, məhvetmə gömrük rejimləri altında yerləşdirilmiş, habelə, fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən mövcud gömrük qanunvericiliyinə uyğun olaraq sadələşdirilmiş və güzəştli qaydada rəsmiləşdirilməklə müəyyən edilmiş miqdar və dəyər məhdudiyyətləri həcmində keçirilən, vahid dərəcə ilə gömrük rüsumlarına cəlb edilən malların (bu Qaydalarda və qanunvericilikdə nəzərdə tutulan hallar istisna olunmaqla)

gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları rəsmiləşdirilən malın gömrük dəyərinin 0,15%-i həcmində (10 ABŞ dollarına ekvivalent məbləğdən az olmayaraq) alınır.

Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsini aparan gömrük orqanının müəyyən etdiyi iş vaxtından kənar vaxtda və ya müəyyən etdiyi yerdən kənarda gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları ikiqat miqdarda alınır.

Gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları məbləği gömrük rüsumları və vergiləri üçün müəyyən edilən vergitutma obyektində nəzərə alınmır.

Müvəqqəti idxal (ixrac) gömrük rejimi altında yerləşdirilmiş mallardan gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları mallar həmin gömrük rejimi altında yerləşdirildikdə, habelə göstərilən gömrük rejiminin fəaliyyəti başa çatdıqda alınır.

Beynəlxalq müqavilələrdə və mövcud qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla Azərbaycan Respublikasının gömrük sərhədindən tranzit gömrük rejimi altında keçirilən malların gömrük rəsmiləşdirilməsinə görə 30 ABŞ dolları həcmində gömrük yığımları alınır.

Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq hüquqi şəxslər tərəfindən respublikaya gətirilən xarici valyutanın nominal dəyərinin 0,15 faizi həcmində gömrük rəsmiləşdirilməsinə görə yığım alınır.

Gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları gömrük bəyannaməsi qəbul edilənə qədər və ya gömrük bəyənnaməsinin qəbul edilməsi ilə eyni vaxtda ödənilir.

Gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə müəyyən edilmiş qaydada gömrük orqanlarının büdcədənkənar inkişaf fonduna köçürülür.

Gömrük rəsmiləşdirilməsinə görə alınan gömrük yığımlarından güzəştlər

Aşağıdakı hallarda malların gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları alınmır:

- humanıtar və texniki yardım (qrant) yüklərinin rəsmiləşdirilməsi zamanı;
- mallar dövlətin xeyrinə imtına rejimi altında yerləşdirildikdə;
- elektrik enerjisinin qarşılıqlı ötürülməsinin gömrük rəsmiləşdirilməsi zamanı;
- Azərbaycan Respublikasının ərazisində yerləşən diplomatık nümayəndəliklərin rəsmi istifadəsi üçün keçirilən malların gömrük rəsmiləşdirilməsi zamanı;
- Azərbaycan Respublikasının xarici dövlətlərin ərazisində yaradılan diplomatık və ona bərabər tutulan nümayəndəliklərinin fəaliyyət göstərməsi üçün respublikanın gömrük ərazisindən çıxarılan malların gömrük rəsmiləşdirilməsi zamanı;
- Azərbaycan Respublikası Milli Bankı tərəfindən gətirilən və ya aparılan Azərbaycan Respublikasının milli valyutasının gömrük rəsmiləşdirilməsi zamanı;
- mövcud qanunvericiliyə uyğun olaraq kommersiya bankları tərəfindən gömrük ərazisindən çıxarılan xarici valyutanın (köhnəlmiş əskınazların) gömrük rəsmiləşdirilməsi zamanı;

- gömrük rüsumları və vergiləri alınmayan, iqtisadi siyasət tədbirləri tətbiq edilməyən gömrük dəyəri 100 ABŞ dollarına ekvivalent malların gömrük rəsmiləşdirilməsi zamanı;
- gömrük dəyəri 10 ABŞ dollarına ekvivalent məbləğdən aşağı olan beynəlxalq poçt göndərişlərinin gömrük rəsmiləşdirilməsi zamanı;
- beynəlxalq və dövlətlərarası daşımalarda istifadə olunan Azərbaycan hava, su və dəmir yoluna məxsus zədələnmiş nəqliyyat vasitələrinin mal-nəqliyyat sənədləri əsasında rəsmiləşdirilməsi zamanı;
- xarici ölkələrdən tranzitlə keçirilən Azərbaycan mallarından;
- beynəlxalq Yük Daşıma Kitabçası tətbiq edilməklə tranzitlə keçirilən mallardan;
- Azərbaycan Respublikasının beynəlxalq müqavilələri və Sazişləri ilə müəyyən edilmiş hallarda gömrük sərhədindən keçirilən mallardan (bu barədə Dövlət Gömrük Komitəsi tərəfindən gömrük orqanlarına əlavə məlumat verilir).

Gömrük hərraclarında iştiraka görə haqq

Gömrük hərraclarında iştiraka görə onun iştirakçılarından müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdə haqq alınır.

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən bəzi fəaliyyət növlərinə lisenziyaların və beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə sərhəddə icazə blanklarının verilməsinə görə dövlət rüsumu

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən bəzi fəaliyyət növlərinə lisenziyaların verilməsinə görə qanunvericiliklə müəyyən edilmiş məbləğdə dövlət rüsumu alınır.

Beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə sərhəddə icazə blanklarının verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu alınır.

Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün dövlət rüsumunun dərəcələri

Dövlət rüsumu tutulmalı olan hərəkətlər	**Dövlət rüsumunun məbləği**
Giriş-çıxış və tranzit gedişinə görə:	
Beynəlxalq avtomobil daşımalarına aid Azərbaycan Respublikası ilə Hökumətlərarası Sazişi olan xarici dövlətlərin yük və sərnişin avtomobil daşıyıcıları üçün giriş-çıxış və tranzit keçid kvota ilə müəyyən edildiyindən artıq olduqda ödəniş haqqı:	
Yük avtomobilləri üçün hər bir icazə üçün	*—100 ABŞ dolları.*
Sərnişin avtobusları üçün hər bir icazə üçün	*—50 ABŞ dolları.*
Beynəlxalq avtomobil daşımalarına aid Azərbaycan Respublikası ilə Hökumətlərarası Sazişi olmayan yük və sərnişin avtomobil daşıyıcıları üçün:	

Yük avtomobilləri üçün hər bir icazə üçün	*—150 ABŞ dolları.*
Sərnişin avtobusları üçün hər bir icazə üçün	*—75 ABŞ dolları.*
Xarici avtomaşınların Azərbaycan Respublikası ərazisində yüklənməsinə görə.	hər bir icazə üçün 100 ABŞ dolları
Üçüncü ölkəyə və üçüncü ölkədən daşımalar üçün.	hər bir icazə üçün 600 ABŞ dolları
Xarici nəqliyyat vasitələrinin Azərbaycan Respublikası ərazisinə yüksüz daxil olması üçün:	
yük avtonəqliyyat vasitələrinin yüksüz daxil olması üçün;	hər bir icazə üçün 350 ABŞ dolları
avtobusların sərnişinsiz daxil olması üçün.	hər bir icazə üçün 80 ABŞ dolları
İri tonnajlı xarici yük avtonəqliyyat vasitələrinin Bakı, Sumqayıt və Gəncə şəhərlərinədaxil olması üçün.	hər bir icazə üçün 25 ABŞ dolları

Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün dövlət rüsumunun tutulmasının xüsusiyyətləri

Azərbaycan Respublikasının avtomobil daşıyıcılarına digər dövlətlərdə bu Qanunla müəyyən edilmiş bdövlət rüsumundan əlavə dövlət rüsumu tətbiq edildikdə həmin ölkələrin avtomobil daşıyıcılarına eyni qaydada dövlət rüsumu tətbiq edilir.

Azərbaycan Respublikasının ərazisinə daxil olarkən, beynəlxalq daşımalarda iştirak edən xarici dövlətlərə mənsub avtonəqliyyat vasitələrinin mühərriklə texnoloji bağlı olan yanacaq baklarındakı 200 (iki yüz) litr yanacaq rüsumsuz keçirilir, 200 (iki yüz) litrdən artıq yanacaq olduqda, hər bir litr artıq benzin üçün 0,3 ABŞ dolları məbləğində, hər bir artıq dizel yanacağı üçün isə 0,2 ABŞ dolları məbləğində gömrük rüsumu sərhəd-nəzarət buraxılış məntəqələrindəki gömrük orqanlarına ödənilir.

Göstərilən məbləğləri xarici avtodaşıyıcılar Azərbaycan Respublikası Mərkəzi Bankının həmin an üçün müəyyən etdiyi məzənnə üzrə manatla ödəyirlər.

Ratifikasiya olunan beynəlxalq müqavilələrə münasibətdə gömrük ödənişlərinin tətbiqi

"Hasilatın pay bölgüsü haqqında", "Əsas boru kəməri haqqında" sazişlərin və bu qəbildən olan digər beynəlxalq müqavilələrin icrası ilə bağlı gömrük ərazisinə gətirilən və bu ərazidən aparılan mallara gömrük ödənişləri həmin sazişlərin müddəalarına uyğun olaraq tətbiq edilir.

9. Gömrük dəyəri və onun təyin edilməsi üsulları

Plan:

1. *Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sistemi*
2. *Malların preferensial mənşəyi*
3. *Malların gömrük məqsədləri üçün dəyərləndirilməsi*
4. *Gömrük dəyərinin müəyyən edilməsi*
5. *Bəyannaməçinin hüquq və vəzifələri*
6. *Gömrük dəyərinin müəyyən edilməsi üsulları və onların tətbiqi qaydaları*
7. *Malların mənşəyi*
8. *Malların qeyri-preferensial mənşəyi*

malların gömrük dəyəri - advalor gömrük rüsumu dərəcəsinin tətbiqi məqsədi ilə malların dəyərinin müəyyən edilməsi;

Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sistemi

Malların gömrük dəyəri — gömrük ödənişlərinin hesablanması, başqa gömrük məqsədləri üçün malların dəyərinin müəyyən edilməsi, o cümlədən cərimələrin tutulması və gömrük qaydalarının pozulmasına görə Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə uyğun olaraq məsuliyyətin tətbiq edilməsi və gömrük statıstikasını aparmaq üçün istifadə olunur.

Malların gömrük dəyəri ixrac-idxal əməliyyatlarının mühasıbatlıqda əks etdirilməsində, xarici malgöndərənlər və malalanlarla hesablaşmalarda əsas götürülmür. İxrac-idxal əməliyyatlarının mühasıbat uçotunda əks etdirilməsində və xarici malgöndərənlərlə (malalanlarla) hesablaşmalar aparılmasında mal müşayiət sənədləri əlavə edilməklə hesablaşma sənədlərindəki (hesab-faktura, invoys və s.) qiymətlər, fakturalanmamış (yəni hesab-faktura, invoys olmadığı hallarda) göndərişlər üzrə isə kontrakt qiymətləri əsas götürülür.

Gömrük dəyəri, mal Azərbaycan Respublikasının gömrük ərazisindən keçirilərkən bəyannamə verən şəxs (deklarant) tərəfindən bu Qaydalarda, habelə Tarif və Ticarət üzrə Baş Sazişin (QATT, hal-hazırda Ümumdünya Ticarət Təşkilatı) ümumi prinsiplərində nəzərdə tutulan gömrük qiymətləndirilməsi qaydalarına uyğun olaraq müəyyən edilir.

Deklarantın seçdiyi üsulun düzgünlüyünə nəzarət, malın gömrük rəsmiləşdirilməsini aparan Azərbaycan Respublikasının gömrük orqanı tərəfindən həyata keçirilir.

Gömrük dəyəri üçün deklarantın təqdim etdiyi məlumatlar dürüst, obyektiv və sənədlərlə təsdiq edilən məlumatlar olmalıdır. Belə məlumat olmadıqda gömrük orqanları müvafiq düzəlişlər edərək özlərində olan məlumatlardan (analoji malların qiymətləri haqqında, o cümlədən ticarət şirkətlərinin kataloqlarında və digər məlumat kitablarında olan məlumatlardan) istifadə edə bilər.

Gömrük orqanı malın gömrük dəyəri bəyan edilərkən deklarant tərəfindən təqdim edilmiş məxfi xarakter daşıyan və kommersiya sirri olan məlumatlardan gömrük qiymətləndirilməsinin məqsədləri üçün istifadə edə bilər.
Məxfi xarakter daşıyan və kommersiya sirri olan məlumatların yayılmasına görə Azərbaycan Respublikasının gömrük orqanı və onun vəzifəli şəxsləri Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyır.
Deklarant tərəfindən bəyan edilən malın gömrük dəyərini dəqiqləşdirmək zərurəti yarandıqda və bu dəqiqləşdirmə qurtarana qədər deklarant, gömrük orqanına Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq əmlak girovu qoymaq və ya Dövlət Gömrük Komitəsinin reyestrinə salınmış bankın və digər kredit təşkilatının zəmanətini təqdim etmək şərti ilə bəyan edilən malın istifadə üçün ona verilməsi barədə müraciət edə bilər, yaxud keçirilən malın Azərbaycan Respublikasının gömrük orqanı tərəfindən müəyyən edilmiş gömrük dəyərinə uyğun olaraq gömrük ödənişlərini ödəməlidir.
Bəyan edilmiş gömrük dəyərinin dəqiqləşdirilməsi və ya Azərbaycan Respublikasının gömrük orqanına əlavə məlumatların təqdim edilməsi ilə bağlı xərclər deklarant tərəfindən ödənilir.
Gömrük qiymətləndirilməsi ilə əlaqədar olaraq deklarant tərəfindən malın gömrük rəsmiləşdirilməsi müddətinin uzadılması mal üzrə gömrük ödənişlərinə möhlət almaq üçün istifadə edilə bilməz.

Malların gömrük məqsədləri üçün dəyərləndirilməsi
Malların gömrük dəyəri bəyanetməni həyata keçirən şəxs tərəfindən bu Məcəllə və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş qaydada müəyyən olunur.
Malları gömrük məqsədləri üçün dəyərləndirən şəxs:
1. onların bəyan edilməsi ilə bağlı sənədləri və məlumatları bu Məcəllənin 95.2-ci maddəsində tələb olunan müddət ərzində saxlamalı;
2. gömrük orqanları tərəfindən tələb olunduqda, müəyyən edilmiş gömrük dəyərinin dəqiqliyini yoxlamaq üçün bəyanetmə ilə bağlı sənədləri və məlumatları onlara təqdim etməlidir.
Gömrük dəyərinə düzəlişlərin edilməsi
1. Apardıqları yoxlama, gömrük auditi və ya araşdırma nəticəsində dəyərləndirmənin "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olmaması, yaxud digər səbəblərdən düzgün olmadığı barədə qənaətə gəldikdə, gömrük orqanının vəzifəli şəxsi gömrük dəyərinə həmin qanunun tələbləri nəzərə alınmaqla müvafiq düzəlişlər edilməsi və onların əsaslandırılması barədə şəxsə yazılı bildiriş təqdim edir.
2. Bu malların gömrük orqanlarının nəzarətində qalmasından, hesablanmış gömrük ödənişlərinin ödənilməsindən asılı olmayaraq tətbiq edilir.
3. Şəxs uyğun olaraq ona təqdim edilən bildirişdə göstərilən gömrük dəyərinə təklif olunan düzəlişlə razılaşmadıqda, yuxarı gömrük orqanına və (və ya) məhkəməyə

müraciət edə bilər. Yuxarı gömrük orqanı və ya məhkəmə həmin müraciətə ən geci 10 (on) gün müddətində baxır. Bu barədə müraciətə baxılma müddətində dəbbə pulu hesablanmır.
4. Yuxarı gömrük orqanı və ya məhkəmə şəxsin müəyyən etdiyi gömrük dəyərini düzgün hesab etdikdə, malların saxlancı ilə bağlı xərclər gömrük dəyərinə düzəlişlər etmiş vəzifəli şəxsdən tutulur və həmin vəzifəli şəxs intizam məsuliyyətinə cəlb olunur.
Malın gömrük dəyəri
Gömrük dəyərinin müəyyən edilməsi
1. Malın gömrük dəyərinin müəyyən edilməsi (gömrük dəyərləndirilməsi) sistemi beynəlxalq təcrübədə qəbul olunmuş ümumi prinsiplərə (1994-cü il Tariflər və Ticarət üzrə Baş Sazişin (GATT) VII maddəsinə, GATT-ın VII maddəsinin Tətbiq edilməsinə dair Razılaşmaya və onun əlavələrinə) əsaslanır və gömrük ərazisinə gətirilən mallara şamil edilir.
2. Gömrük tarifinin tətbiqi məqsədi ilə malların gömrük dəyərləndirilməsi qaydaları Gömrük Məcəlləsinə uyğun olaraq bu Qanunla müəyyən edilir.
3. Məlumat daşıyıcısı vasitələrinin gömrük dəyərləndirilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.
8. Malın gömrük dəyərinin bəyan edilməsi
1. Mal gömrük sərhədindən keçirilərkən, gömrük dəyəri bəyannaməçi tərəfindən Azərbaycan Respublikasının gömrük orqanına (bundan sonra - gömrük orqanı) bəyan edilir.
2. Gömrük sərhədindən keçirilən malların bəyan edilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.
3. Gömrük dəyərinin bəyannaməçi tərəfindən müəyyən edilməsi nəzərdə tutulmuş üsullara uyğun həyata keçirilir.
4. Gömrük dəyərinin müəyyən edilməsinin düzgünlüyünə gömrük orqanı nəzarət edir.

Məlumatın məxfiliyinin qorunması
1. Gömrük orqanının malın gömrük dəyəri bəyan edilərkən təqdim edilmiş məxfi və konfidensial məlumatlardan gömrük dəyərləndirilməsinin məqsədləri üçün istifadə etmək hüququ vardır. Məhkəmə qərarının qəbul edildiyi hallar istisna olmaqla, məlumatı təqdim edən dövlət orqanının və ya şəxsin icazəsi olmadan bu məlumat, digər dövlət orqanları da daxil olmaqla, üçüncü şəxsə verilə bilməz.
2. Dövlət və ya kommersiya sirrinin, yaxud qanunla qorunan digər konfidensial məlumatların yayılmasına görə gömrük orqanının vəzifəli şəxsləri qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Bəyannaməçinin hüquq və vəzifələri

1. Bəyannaməçi tərəfindən bəyan edilmiş gömrük dəyəri və onun müəyyən edilməsi ilə bağlı məlumatlar dəqiq, kəmiyyəti müəyyən oluna bilən və sənədlərlə təsdiq edilmiş məlumatlara əsaslanmalıdır.
2. Bəyan edilmiş malın gömrük dəyərini dəqiqləşdirmək zərurəti yarandıqda, bəyannaməçi yarana biləcək gömrük borcunun ödənilməsi üçün Gömrük Məcəlləsində nəzərdə tutulan təminat növlərindən istifadə etməklə, bəyan edilən malın istifadə üçün ona verilməsi barədə gömrük orqanına müraciət edə bilər.

Gömrük orqanının hüquq və vəzifələri

1. Gömrük orqanının gömrük dəyərləndirilməsi məqsədi ilə ona təqdim edilən hər hansı məlumatın, sənədin və ya bəyannamənin düzgünlüyünü araşdırmaq hüququ vardır.
2. Aparılmış yoxlama, gömrük auditi və ya araşdırma nəticəsində dəyərləndirmənin Qanuna uyğun olmadığı, yaxud digər səbəblərdən düzgün olmadığı qənaətinə gəldikdə, gömrük orqanının vəzifəli şəxsi Qanunun tələbləri nəzərə alınmaqla gömrük dəyərinə müvafiq düzəlişlər edilməsi üçün bəyannaməçiyə yazılı bildiriş təqdim edir. Həmin bildirişdə gömrük dəyərinə təklif olunan düzəlişlər göstərilməli və onların edilməsi zərurəti əsaslandırılmalıdır.
3. Bəyannaməçi Qanuna uyğun olaraq ona təqdim edilmiş bildirişdə göstərilən gömrük dəyərinə təklif olunan düzəlişlə razılaşmadıqda, yuxarı gömrük orqanına və (və ya) məhkəməyə müraciət edə bilər. Yuxarı gömrük orqanı və ya məhkəmə həmin müraciətə ən geci 10 (on) gün müddətində baxır. Bu barədə müraciətə baxılma müddətində dəbbə pulu hesablanmır.
4. Yuxarı gömrük orqanı və ya məhkəmə bəyannaməçinin müəyyən etdiyi gömrük dəyərini düzgün hesab etdikdə, malların saxlancı ilə bağlı xərclər Qanuna əsasən gömrük dəyərinə düzəlişlər təklif etmiş vəzifəli şəxsdən tutulur və həmin vəzifəli şəxs intizam məsuliyyətinə cəlb olunur.

Gömrük dəyərinin müəyyən edilməsi üsulları və onların tətbiqi qaydaları

Azərbaycan Respublikasının «Gömrük Tarifi haqqında» Qanununun müddəalarına uyğun olaraq Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən malların gömrük dəyəri aşağıdakı üsullarla müəyyən edilir:
1) gətirilən malların sövdələşmə qiyməti ilə;
2) eyni malların sövdələşmə qiyməti ilə;
3) eynicinsli malların sövdələşmə qiyməti ilə;
4) dəyərin toplanması üsulu ilə;
5) dəyərin çıxılması üsulu ilə;
6) ehtiyat üsulu ilə.

Gətirilən malların sövdələşmə qiymətinə uyğun olaraq qiymətləndirilməsi gömrük dəyərinin müəyyən edilməsinin əsas üsuludur.

Bu üsuldan istifadə edilə bilmədiyi halda, göstərilən üsullardan hər biri ardıcıl olaraq tətbiq edilir və hər bir sonrakı üsulun tətbiqi gömrük dəyərini əvvəlki üsulla təyin etmək mümkün olmadıqda həyata keçirilir.

Dəyərin çıxılması və toplanması üsullarından istənilən ardıcıllıqla istifadə edilə bilər.
Azərbaycan Respublikasının «Gömrük Tarifi haqqında» Qanununun 12-ci maddəsinin 2-ci bəndinə əsasən gömrük sərhədindən keçirilən malın gömrük dəyərini müəyyən edən deklarant gömrük rəsmiləşdirilməsini aparan müvafiq gömrük orqanına aşağıdakı sənədləri təqdim etməlidir:
doldurulmuş gömrük dəyəri bəyannaməsi;
yük gömrük bəyannaməsi;
təsis sənədlərinin surətləri (hüquqi şəxsin təsis sənədləri və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin vergi orqanları tərəfindən uçota alınması haqqında şəhadətnamə);
müqavilə (kontrakt, saziş) və ona əlavələr (əgər bunlar nəzərdə tutulubsa);
nəqliyyat və sığorta sənədləri (mal göndərişində nəzərdə tutulubsa), hesab-faktura (invoys);
nəql edilməsi üzrə hesab sənədi və ya nəqliyyat xərclərinin kalkulyasıyası (nəqliyyat xərcləri hesab-fakturaya daxil edilmədiyi hallarda);
xüsusi razılıq (lisenziya), icazə (razılıq) əsasında idxal olunan mallar üzrə müvafiq icra hakimiyyəti orqanları tərəfindən verilmiş lisenziya, icazə (razılıq).
Bu sənədlər bəyan olunmuş gömrük dəyərini təsdiq etmək üçün kifayət olmadığı hallarda, deklarant qanunvericilikdə nəzərdə tutulmuş zəruri əlavə məlumatları təqdim etməlidir.
Gətirilən malların gömrük dəyərinin sövdələşmə qiyməti ilə müəyyən edilməsi (I üsul)
Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən malın gömrük dəyəri həmin mal Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilərkən gətirilən mal üçün faktiki ödənilmiş və ya ödənilməli olan sövdələşmə qiyməti (limana və ya digər gətirilmə yerlərinədək) əsasında müəyyən edilir. Gömrük dəyəri müəyyən edilərkən sövdələşmə qiymətində nəzərə alınmayan aşağıdakı xərc maddələri həmin qiymətə daxil edilir:
a) malın hava və ya dəniz limanınadək, yaxud Azərbaycan Respublikasının gömrük ərazisinə daxil olduğu digər hər hansı bir yerədək gətirilməsi xərcləri, o cümlədən:
nəqliyyat xərcləri;
malların yükləmə, boşaltma və yenidən yükləmə xərcləri;
sığorta xərcləri;
b) alıcının çəkdiyi xərclər:
malın alınması üçün komisyon xərcləri istisna olmaqla, komisyon və broker mükafatlandırılmaları üzrə xərclər;
konteynerlərin və çoxişlənən taranın dəyəri (əgər əmtəə nomenklaturasına uyğun olaraq, onlar qiymətləndirilən mallarla birlikdə tam surətdə nəzərdən keçirilirsə);
qablaşdırma materiallarının və işlərinin dəyəri də daxil olmaqla qablaşdırma dəyəri.
c) alıcı tərəfindən birbaşa və dolayı yolla pulsuz, yaxud qiymətləndirilən malların istehsalı və aparılması üçün satılması ilə əlaqədar istifadə edilməsi üçün aşağı qiymətə

təqdim olunmuş aşağıdakı malların və xidmətlərin dəyərinin müvafiq hissəsi, o cümlədən:
xammalın, materialların, hissələrin, yarımfabrikatların və qiymətləndirilən malların tərkib hissələri olan digər komplektləşdirici məmulatları;
qiymətləndirilən malların istehsalı zamanı istifadə olunan alətlərin, ştampların, qəliblərin və digər bu kimi əşyaların;
qiymətləndirilən malların istehsalı zamanı istifadə olunan materialların (sürtgü materiallarının, yanacağın və s.);
Azərbaycan Respublikası ərazisindən kənarda yerinə yetirilən və qiymətləndirilən malların istehsalı üçün bilavasitə lazım olan mühəndis, təcrübə-konstruktor, dizayn, bədii tərtibat, eskiz və çertyoj işlərinin;
intellektual mülkiyyət obyektlərinin istifadəsi üçün alıcının birbaşa və dolayı yolla sərf etməli olduğu lisenziyalaşdırma xərcləri və digər ödənişlər;
Azərbaycan Respublikası ərazisində qiymətləndirilən malların istifadə olunmasından, verilməsindən və ya təkrar satışından satıcının birbaşa, yaxud dolayı yolla əldə etdiyi gəlirin bir hissəsi.
Bu üsul istifadə olunduqda Ümumdünya Ticarət Təşkilatı (ÜTT — keçmiş QATT) tərəfindən müəyyən olunmuş aşağıdakı şərtlər nəzərə alınmalıdır:
1) ixrac olunan ölkədən idxal olunan ölkəyə satış sövdələşməsinin olması;
2) məhdudiyyətlik anlayışı;
3) kontrakt şərtləri;
4) ÜTT-nin müddəalarına uyğun olaraq faktiki qiymətin təshihi;
5) satıcı və alıcı arasında qarşılıqlı asılılıq.
1-ci şərt — satış sövdələşməsinin olması
Əgər bu halda satqı sövdəsi olmazsa, I üsul tətbiq edilə bilməz.
2-ci şərt — məhdudiyyətlik anlayışı aşağıdakılardan ibarətdir:
Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş məhdudiyyətlər;
malların təkrar satıla biləcəyi coğrafi bölgə məhdudiyyətləri;
malların qiymətinə əhəmiyyətli dərəcədə təsir etməyən məhdudiyyətlər.
Bu hallarda I üsuldan istifadə olunması məhdudlaşdırılır.
3-cü şərt — kontrakt şərtləri:
malın göndərilmə tarixi, əgər bu tarixə mal alınmazsa, idxalçı maldan imtına edir və malın qaytarılması barədə məsələ qaldırır. Bu halda I üsul tətbiq edilə bilməz;
kontraktda idxal olunan malın reklam edilməsi göstərildikdə, bu halda reklamın qiymətini müəyyən etmək mümkün olmadığından, malın gömrük dəyərinin təyin edilməsi üçün I üsul uyğun gəlmir.
Kontrakt üzrə xarici ölkədən Azərbaycana dəzgah gətirilir və həmin kontraktın şərtlərinə uyğun olaraq alıcı dəzgahı reklam etməlidir. Bu halda reklamın qiymətini müəyyən etmək mümkün olmadığından, gömrük dəyərinin təyin edilməsi üçün I üsul uyğun gəlmir.

Kontraktda malın faktiki qiyməti üzrə güzəştlərin verilməsi ilə ödənc şərtləri göstərilə bilər.
4-cü şərt — ÜTT müddəalarına uyğun olaraq faktiki qiymətin təshihi
Gömrük dəyərinin hesablanmasında alıcının ərazisinə malın gətirilməsi ilə əlaqədar nəqliyyat xərcləri çıxarılmalıdır. ÜTT-nin müddəalarına görə malın transaksiya qiyməti (idxaledici ölkə ilə sövdələşmə) faktiki qiymətə aşağıdakılar əlavə edilməlidir:
idxaledici ölkənin limanına qədər malın nəqledilmə xərcləri (Azərbaycan Respublikasının gömrük sərhədinə qədər);
boşaltma-yükləmə xərcləri;
yolda sığorta xərcləri.
Satıcı tərəfindən ödənilmiş komissiya haqları malın gömrük dəyərinə daxil edilir. İdxalçı tərəfindən ödənilmiş komissiya haqları malın gömrük dəyərinə daxil edilmir.
5-ci şərt — satıcı və alıcı arasında qarşılıqlı asılılıq
Deklarant bəyannamə sənədlərini doldurduqda, satıcı ilə alıcı arasında münasibəti və bu münasıbətin malın qiymətinə təsiri barədə məlumat yazmalıdır, hər iki suala «bəli» cavabı verildikdə, gömrük dəyərinin müəyyən edilməsi üçün I üsul tətbiq edilə bilməz.
Azərbaycan Respublikasının «Gömrük Tarifi haqqında» Qanununun 18-ci maddəsinin 2-ci bəndinin (q) yarımbəndinə əsasən bir-birindən qarşılıqlı asılı olan şəxslər dedikdə, aşağıdakı əlamətlərdən heç olmazsa birinə malik olan şəxslər nəzərdə tutulur:
sövdələşmə iştirakçılarından biri (fiziki şəxs) və sövdələşmə iştirakçılarından birinin vəzifəli şəxsi eyni zamanda digər sövdələşmə iştirakçısının da vəzifəli şəxsidirsə;
sövdələşmə iştirakçıları müəssisənin birgə sahiblərididirsə;
sövdələşmə iştirakçıları əmək əlaqələri ilə bağlıdırlarsa;
sövdələşmə iştirakçılarından biri digər iştirakçının payının və nizamnamə kapitalının beş faizindən azını təşkil etməyən və səs hüququ verən səhmlərinin sahibidirsə;
sövdələşmənin hər iki iştirakçısı üçüncü hüquqi və ya fiziki şəxsin bilavasitə və ya dolayı nəzarəti altındadırsa;
sövdələşmə iştirakçıları birlikdə üçüncü şəxsə bilavasitə və ya dolayı nəzarət edirlərsə;
sövdələşmə iştirakçıları və ya onların vəzifəli şəxsləri yaxın qohumdurlarsa.
Bu hallarda qarşılıqlı münasıbət sövdələşmənin qiymətinə təsir göstərməyibsə və bunu deklarant sübut edə bilərsə, I üsul tətbiq edilə bilər.
İdxal olunan malların deklarant tərəfindən təqdim olunmuş gömrük dəyərinin düzgünlüyünə gömrük orqanları nəzarət edirlər və bunun işin həyata keçirilməsində gömrük orqanları sövdələşmənin qiymətinin asılı olduğu kontraktda göstərilən malların göndərilmə şərtlərinə diqqət yetirməlidirlər.
Satıcı və alıcı kontraktları bağlayarkən Beynəlxalq Ticarət Palatasının tərtib etdiyi Qaydaları nəzərə almalıdırlar.

Gömrük dəyərinin düzgünlüyünə nəzarət edən gömrük orqanları malın bir ölkədə olan istehsalçıdan (satıcıdan), digər ölkədə olan istehsalçıya (alıcıya) çatdırılması ilə əlaqədar xərclərin strukturunu bilməlidir. Bu struktur 4 hissədən ibarətdir:
1. Malın istehsalı üçün dəyərin qiymətləndirilməsi (malın qiyməti);
2. İxracatçının ölkəsindəki xərclər (malın qablaşdırılması, markalaşdırılması (malın istehsalı üzrə məlumatlar, adı, netto çəkisi, mənşə ölkəsi), ölkə daxilində nəqliyyat, lisenziya xərcləri, ixrac üzrə vergi və rüsumlar, komisyon haqları);
3. İxracatçının sərhədindən idxalçının sərhədinə kimi xərclər (nəqliyyat, sığorta xərcləri);
4. İdxalçının ölkəsindəki xərclər (idxal üzrə lisenziya xərcləri, rüsum və vergilər, ölkə daxilində malın nəqliyyat və anbarlaşdırma xərcləri).
Yuxarıda qeyd edildiyi kimi, malın gömrük dəyəri bərabərdir: istehsalçı (satıcı) tərəfindən müəyyən edilmiş qiymət, üstəgəl ixracatçının ölkəsindəki xərclər, üstəgəl yolüstü xərclər. Bundan əlavə deklarant tərəfindən təqdim edilmiş malın gömrük dəyərinin həqiqiliyini müəyyən etmək üçün gömrük orqanları gətirilmiş malın miqdarına və keyfiyyətinə, faktiki qiymət üzrə güzəştlərə və valyuta kontraktının milli valyutaya hesablanmasından ötrü bəyannamə tarixinə xarici valyutanın manata olan məzənnəsini nəzərə almalıdırlar.
Eyni malların sövdələşmə qiyməti üsulu (II üsul)
Malın gömrük dəyərinin müəyyən olunmasında eyni malların sövdələşmə qiyməti üsulu — II üsulun tətbiq edilməsində eyni malların sövdələşmə qiyməti əsas götürülür.
Eyni mallar dedikdə, bütün xüsusiyyətlərinə, o cümlədən aşağıdakı parametrlərinə görə fərqlənməyən mallar ilə eyni olması başa düşülür:
təyinatı və xarakteristikası (fiziki xüsusiyyəti);
keyfiyyət, mal nişanın olması və bazardakı nüfuzu;
malın mənşə ölkəsi;
istehsalçı.
Eyni malların xarici görünüşündə cüz`i fərqlər olduqda, digər cəhətləri isə bu bəndin tələblərinə uyğun gəldikdə, həmin fərqlər malların eyni olduğunu inkar etmək üçün əsas sayıla bilməz.
Mallar aşağıdakı hallarda eyni hesab edilə bilməz:
qiymətləndirilən və müqayisə edilən mallar eyni bir ölkədə istehsal edilməyibsə;
həmin mallar eyni istehsalçı tərəfindən deyil, digər şəxs tərəfindən hazırlanıbsa;
malların layihələri, dizaynları, eksizləri, çertyojları Azərbaycan Respublikasında hazırlanıbsa.
Azərbaycan Respublikasının «Gömrük Tarifi haqqında» Qanununun 19-cu maddəsinin müddəalarına əsasən eyni malların sövdələşmə qiyməti gömrük dəyərini müəyyən etmək üçün o vaxt əsas götürülə bilər ki, bu mallar:
a) Azərbaycan Respublikası ərazisinə gətirilmək üçün satılsın (özgəninkiləşdirilsin);

b) qiymətləndirilən malların gətirilməsi ilə eyni bir vaxtda və ya 90 gündən artıq olmamaqla həmin vaxtdan əvvəl gətirilsin;
c) qiymətləndirilən mallarla eyni kommersiya şərtləri ilə və təxminən eyni miqdarda gətirilsin.
Əgər eyni mallar başqa miqdarda və ya başqa kommersiya şərtləri ilə gətirilibsə, deklarant onların qiymətlərində bu fərqlərə uyğun olaraq düzəlişlər etməli və bunların əsaslı olduğunu gömrük orqanları qarşısında sənədlərlə təsdiq etməlidir.
Əgər bu üsuldan istifadə olunarkən malların bir neçə sövdələşmə qiyməti aşkar olunarsa, bu zaman idxal edilən malların gömrük dəyərini müəyyən etmək üçün həmin qiymətlərin ən aşağı səviyyəyə malik olanı əsas götürülür.
Eynicinsli malların sövdələşmə qiyməti üsulu (III üsul)
Malın gömrük dəyərinin eynicinsli malların sövdələşmə qiyməti üsulu — III üsul ilə müəyyən edilməsində aşağıdakı şərtlərə riayət etməklə, idxal olunan mallarla eynicinsli olan malların sövdələşmə qiyməti əsas götürülür.
Eynicinsli mallar dedikdə, bütün xüsusiyyətlərinə görə eyni olması da, qiymətləndirilən mallarla eyni vəzifələri yerinə yetirən və kommersiya baxımından bir-birini əvəz edə bilən mallar başa düşülür.
Malların eynicinsliyi müəyyən edildikdə, aşağıdakı parametrlər nəzərə alınmalıdır:
təyinatı və xarakteristikası;
keyfiyyəti, mal nişanının olması və bazarda nüfuzu;
mənşə ölkəsi.
Bu üsul gömrük dəyərini müəyyən etmək üçün istifadə edildiyi halda, bu bənddə göstərilmiş şərtlərə riayət edilməklə gətirilən mallarla eynicinsli malların sövdələşmə qiyməti əsas götürülür.
Eynicinsli malların sövdələşmə qiyməti ilə gömrük dəyərinin müəyyən edilməsi üsulundan istifadə olunduqda, bu Qaydaların 4-cü bölməsinin 4.4 və 4.5 bəndləri tətbiq edilir.
4-cü bölmənin və bu bölmənin müddəalarına əsasən gömrük qiymətləndirilməsi üsullarından istifadə edildikdə:
a) müxtəlif ölkələrdə istehsal olunmuş mallar qiymətləndirildikdə, onlar eyni və ya eynicinsli hesab edilə bilməz;
b) əgər malların layihələşdirilməsi, onların üzərində aparılan təcrübə konstruktor, bədii tərtibat, dizayn, eskiz və çertyoj işləri Azərbaycan Respublikasının ərazisində yerinə yetirilibsə, belə mallar eyni və ya eynicinsli sayıla bilməz.
Dəyərin çıxılması üsulu (IV üsul)
Dəyərin çıxılması üsulu ilə gömrük dəyərinin müəyyən edilməsi qiymətləndirilən eyni və ya eynicinsli mallar Azərbaycan Respublikasının ərazisində öz ilkin vəziyyəti dəyişdirilmədən satıldıqda tətbiq olunur.
Malların gömrük dəyəri dəyərin çıxılması üsulu ilə müəyyənləşdirildikdə, onların gətirildiyi tarixdən ən çoxu 90 gün əvvəl Azərbaycan Respublikası ərazisində

qiymətləndirilmiş və satıcıdan heç bir asılılığı olmadan alıcıya satılmış eyni, yaxud eynicinsli malların ən böyük partiyasının qiymətləri əsas kimi qəbul edilir.
Mal vahidinin qiymətindən aşağıdakı xərc maddələri çıxılır:
a) komisyon mükafatlandırma üçün ödənilmiş xərclər, mənfəətə əlavələr və Azərbaycan Respublikasına gətirilən eyni növ malların satılması ilə əlaqədar ümumi xərclər;
b) malların idxalı və satışı ilə əlaqədar Azərbaycan Respublikasında ödənilməli olan idxal gömrük rüsumlarının, vergilərinin, yığımların və digər ödənişlərin cəmi;
c) Azərbaycan Respublikasında daşınma, yüklənmə, boşaldılma işlərinə, sığortaya sərf olunan xərclər.
Qiymətləndirilən eyni və eynicinsli malların gətirilmə anındakı vəziyyətdə satılması halları olmayıbsa, deklarantın xahişinə əsasən bu bölmənin 6.2. və 6.3 bəndlərinin müddəalarına riayət etmək şərti ilə, emal mərhələsini keçmiş mal vahidinin qiymətindən istifadə etməklə əlavə dəyərə düzəliş edilməlidir.
Dəyərin toplanması üsulu (V üsul)
Gömrük dəyəri bu üsulla müəyyən edilərkən, malın aşağıdakıların toplanması yolu ilə hesablanmış qiyməti əsas götürülür:
a) materialların dəyəri və istehsalçı tərəfindən qiymətləndirilən malın istehsal xərcləri;
b) ixrac edən ölkədən eyni növlü malların Azərbaycan Respublikasına satışı üçün səciyyəvi olan ümumi xərclər, o cümlədən nəqliyyat, yüklənmə yerinədək sığorta xərcləri və sairə;
c) Azərbaycan Respublikasına belə malların göndərilməsi nəticəsində ixrac edənin əldə etdiyi mənfəət.
Ehtiyat üsulu (VI üsul)
Əgər gömrük dəyəri bu Qaydaların 3-cü və 7-ci bölmələrində göstərilən üsulların ardıcıl tətbiqi nəticəsində deklarant tərəfindən müəyyən edilə bilmirsə və ya gömrük orqanları tərəfindən gömrük dəyərinin müəyyən edilməsində bu üsullardan istifadə oluna bilməməsi əsaslandırılırsa, onda qiymətləndirilən malların gömrük dəyəri beynəlxalq gömrük təcrübəsinə əsasən müəyyən edilir.
Ehtiyat üsulu tətbiq olunarkən Azərbaycan Respublikasının gömrük orqanı onun sərəncamında olan bütün qiymət məlumatlarını deklaranta təqdim edir.
Bu üsulla malın gömrük dəyərini müəyyən etmək üçün aşağıdakılar əsas götürülə bilməz:
1. gömrük ərazisində istehsal edilən malların həmin ərazidəki satış qiyməti;
2. müqayisə üçün seçilən iki alternativ dəyərdən gömrük məqsədləri üçün ən yüksək olanının qəbul edilməsini nəzərdə tutan sistem;
3. malların ixrac ölkəsinin daxili bazarındakı qiyməti;
4. eyni və ya eynicinsli mallar üçün müəyyənləşdirilmiş xərclərdən fərqli istehsal xərcləri;
5. gömrük ərazisindən fərqli hər hansı ölkəyə ixrac üçün nəzərdə tutulan malların qiyməti;

6. minimum gömrük dəyəri;
7. kortəbii müəyyən edilən və ya saxta dəyərlər.
İdxalatçı tələb etdiyi halda, o, gömrük orqanları tərəfindən müəyyən edilmiş gömrük dəyəri və bu dəyərin müəyyən edilməsi üçün istifadə olunan üsul barədə yazılı formada məlumatlandırılmalıdır.

MALLARIN MƏNŞƏYİ

Malların qeyri-preferensial mənşəyi

Malların qeyri-preferensial mənşəyinin müəyyən edilməsinin məqsədi onlar barəsində gömrük tarifini, mallarla ticarətin xüsusi sahələrini tənzimləyən tədbirləri və malların qeyri-preferensial mənşəyi ilə bağlı qanunvericiliklə müəyyən edilmiş digər tədbirləri tətbiq etməkdir.
Tamamilə bir ölkədə və ya ərazidə istehsal edilmiş mallar həmin ölkə və ya ərazi mənşəli mallar hesab olunur.
İstehsalında birdən çox ölkənin iştirak etdiyi mallar həmin malların son dəfə əhəmiyyətli dərəcədə dəyişikliyə məruz qaldığı ölkə mənşəli mallar hesab edilir.
Gömrük orqanları malların gömrük bəyannaməsində göstərilən mənşəyini təsdiq edən sənədin təqdim olunmasını bəyannaməçidən tələb etmək hüququna malikdirlər.
Malların qeyri-preferensial mənşəyinin müəyyən edilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.
Malların preferensial mənşəyi nəzərdə tutulmuş preferensial tarif tədbirlərindən və ya qeyri-tarif preferensial tədbirlərindən istifadə etmək üçün mallar preferensial mənşəyə dair qaydalara uyğun olmalıdır. Azərbaycan Respublikasının müəyyən ölkələrlə və ya beynəlxalq təşkilatlarla bağladığı beynəlxalq müqavilələrdə göstərilən preferensial tədbirlərin şamil olduğu mallar üzrə preferensial mənşə qaydaları bu müqavilələrdə öz əksini tapır. Gömrük orqanları Azərbaycan Respublikasının xarici ölkələrə və ya beynəlxalq təşkilatın üzv ölkələrinə birtərəfli qaydada qəbul etdiyi preferensial tədbirlərin şamil olunduğu mallara münasibətdə qaydaları tətbiq edirlər. Malların preferensial mənşəyinin müəyyən olunması qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

10. Valyuta Nəzarəti

Gömrük orqanları Azərbaycan Respublikasında valyuta nəzarətini həyata keçirən dövlət orqanlarından biridir. Gömrük orqanları gömrük işi ilə bağlı valyuta nəzarətini bu Məcəlləyə və "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirirlər.

Gömrük orqanları sərbəst zonaların perimetrləri istisna olmaqla, şəxslərin gömrük sərhədindən Azərbaycan Respub-likasının milli valyutasını, milli valyutada qiymətli kağızları və digər valyuta sərvətlərini keçirməsinə, malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi ilə əlaqədar valyuta əməliyyatlarına valyuta nəzarətini qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirirlər.

Gömrük orqanları tərəfindən valyuta nəzarəti həyata keçirilərkən aşkar edilmiş hüquqpozmalara görə təqsirli şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

1. Azərbaycan Respublikasında valyuta nəzarəti valyuta nəzarəti orqanları və onların agentləri tərəfindən həyata keçirilir.
2. Azərbaycan Respublikasında valyuta nəzarəti orqanları Azərbaycan Respublikasının Milli Bankı və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsidir.
3. Valyuta nəzarəti agentləri Azərbaycan Respublikasının Milli Bankı qarşısında hesabat verən müvəkkil banklardır.

Malların ixrac əməliyyatlarında valyuta vəsaitlərinin ödənişinə nəzarətin təşkili

İxrac əməliyyatlarında valyuta ödənişlərinə nəzarət bu Təlimatın 1 №-li Əlavəsi ilə təsdiq edilmiş «İxrac əməliyyatlarında valyuta ödənişlərinə nəzarətin texnoloji sxema»nə uyğun olaraq həyata keçirilir.

İlkin nəzarət. İlkin nəzarət ixrac əməliyyatının gömrük rəsmiləşdirilməsi zamanı aparılır. Bu zaman ixracatçı tərəfindən təqdim olunan aidiyyatı sənədlərin tamlığı və düzgünlüyü gömrük rəsmiləşdirməsini aparan müvafiq şöbə (Yük şöbəsi) tərəfindən yoxlanılır.

Konsiqnasiya yolu ilə ixrac əməliyyatları xarici şəxslərlə bağlanmış müqavilələrə əsasən respublika hüdudlarından kənarda satışı gömrük orqanlarında bəyan edildiyi gündən etibarən 180 günə qədər müəyyən olunmaqla malların ixracını nəzərdə tutur. Satışdan əldə edilən vəsaitlər, mallar satıldıqca 10 bank günündən gec olmayaraq ixracatçının ona xidmət göstərən müvəkkil bankdakı valyuta hesabına daxil olmalıdır. Konsiqnasiya ticarəti üçün ayrılan müddətdə mallar satılmadığı təqdirdə, 30 gün ərzində həmin mallar Azərbaycan Respublikasına qaytarılmalıdır.

Dövlət müəssisəsi olmayan ixracatçılar tərəfindən malların konsiqnasiya yolu ilə ixracı gömrük orqanlarında bəyan edilməklə aparılır. Bu zaman respublikanın dövlət

müəssisələrində istehsal olunmuş malların dəyəri, istehsalçıya tam ödənildikdən sonra ixrac oluna bilər.

Konsiqnasiya yolu ilə ixrac əməliyyatlarının rəsmiləşdirilməsində gömrük orqanları tərəfindən tələb olunan sənədlər:

- xarici tərəflə bağlanmış müqavilə (ixracatçı dövlət müəssisəsi olduğu halda Ticarət Nazirliyində qeydiyyatdan keçirilməklə; digər ixracatçılar tərəfindən isə gömrük orqanlarında bəyan edilməklə);
- ixrac olunan malın mənşə sertifikatı;
- istehsalçı ilə ixracatçı arasında bağlanmış müqavilə (ixracatçı qeyri-dövlət müəssisəsi olduqda);
- ixrac olunan mal dövlət müəssisəsində istehsal edilmişdirsə, ixracatçı qeyri-dövlət müəssisəsi olduğu halda, onun dəyərinin istehsalçıya tam ödənilməsini təsdiq edən müvafiq bank sənədi;
- konsiqnasiya müqaviləsində nəzərdə tutulan valyuta vəsaitinin vaxtında köçürüləcəyinə və yaxud mal satılmadığı halda həmin malın geri qaytarılmasına «Zəmanət öhdəliyi» (Əlavə № 4).
- Uçot kartoçkası (UK);
- Deklarant tərəfindən tərtib olunmuş Yük Gömrük Bəyannaməsi.

Barter əməliyyatları, dəyəri ödənilmədən ekvivalent məbləğdə qarşılıqlı mal (xidmət və əqli mülkiyyət) mübadiləsini nəzərdə tutur.

Barter əməliyyatlarında ekvivalent məbləğdə malların göndərilməsi və alınması müddəti 90 günədək müəyyən olunur. Ekvivalent məbləğdə qarşılıqlı mal mübadiləsi bu müddətdə başa çatmadığı təqdirdə, hesablaşma müqavilədə göstərilən valyuta ilə 10 bank günü ərzində yerinə yetirilməli və vəsait ixracatçının müvəkkil bankdakı valyuta hesabına köçürülməlidir.

Dövlət müəssisələri və Nizamnamə fondunda dövlətin pay haqqı 50%-dən yuxarı olan müəssisələr tərəfindən bağlanmış barter müqavilələri Ticarət Nazirliyində qeydiyyatdan keçirilməklə, digər müəssisələr tərəfindən bağlanmış barter müqavilələri isə, gömrük orqanlarında bəyan edilməklə həyata keçirilir.

Barter əməliyyatları üzrə ixrac edilən malların Yük Gömrük Bəyannamələrinin bir nüsxəsi mal bəyan olunduğu tarixdən etibarən 7 gün ərzində gömrük orqanları tərəfindən müvəkkil banklara və Ticarət Nazirliyinə göndərilir.

Malların barter (mübadilə) yolu ilə ixracı zamanı gömrük orqanları tərəfindən tələb olunan sənədlər:

- istehsalçı ilə ixracatçı arasında bağlanmış müqavilə (ixracatçı qeyri-dövlət müəssisəsi olduqda);
- ixrac olunan mal dövlət müəssisəsində istehsal edilmişdirsə, ixracatçı qeyri-dövlət müəssisəsi olduğu halda onun dəyərinin istehsalçıya tam ödənilməsini təsdiq edən müvafiq bank sənədi;

- xarici tərəflə bağlanmış barter müqaviləsi (ixracatçı dövlət müəssisəsi olduqda Ticarət Nazirliyində qeydiyyatdan keçirilmiş);
- ixrac olunan malın mənşə sertifikatı;
- ekvivalent məbləğdə malların vaxtında Azərbaycan Respublikasına gətiriləcəyi və yaxud valyuta vəsaitinin ixracatçının müvəkkil bankdakı valyuta hesabına köçürəcəyi barədə zəmanət öhdəliyi (Əlavə № 5);
- Uçot kartoçkası (UK);
- Deklarant tərəfindən tərtib olunmuş Yük Gömrük Bəyannaməsi.

Kreditə ixrac əməliyyatları, faktiki mal (xidmət və əqli mülkiyyət) ixracından sonra haqqı müəyyən şərtlərlə və hər hansı müddət ərzində ödənilən malların ixracını nəzərdə tutur.

Dövlət müəssisələri və Nizamnamə fondunda dövlətin pay haqqı 50%-dən yuxarı olan müəssisələr tərəfindən malların (xidmət və əqli mülkiyyətin) kreditə ixracı üzrə bağlanmış müqavilələr Ticarət Nazirliyində qeydiyyatdan keçirilməklə aparılır.

Digər ixracatçılar tərəfindən malların kreditə ixracı isə, gömrük orqanlarında bəyan edilməklə həyata keçirilir. Bu zaman respublikanın dövlət müəssisələrində istehsal olunmuş malların dəyəri istehsalçıya tam ödənildikdən sonra ixrac oluna bilər.

Kreditə ixrac əməliyyatlarında gömrük orqanları tərəfindən tələb olunan sənədlər:

- istehsalçı ilə ixracatçı arasında bağlanmış müqavilə (ixracatçı qeyri-dövlət müəssisəsi olduqda);
- ixrac olunan mal dövlət müəssisəsində istehsal edilmişdirsə, ixracatçı qeyri-dövlət müəssisəsi olduğu halda, onun dəyərinin istehsalçıya tam ödənilməsini təsdiq edən müvafiq bank sənədi;
- xarici tərəflə bağlanmış müqavilə (kreditə ixrac əməliyyatları dövlət müəssisələri tərəfindən həyata keçirildikdə, Ticarət Nazirliyində qeydiyyatdan keçirilməklə);
- malın mənşə sertifikatı;
- valyuta vəsaitlərinin köçürülməsinə zəmanət öhdəliyi (Əlavə № 6);
- Uçot kartoçkası (UK);
- Deklarant tərəfindən tərtib olunmuş Yük Gömrük Bəyannaməsi.

Müvəqqəti ixrac əməliyyatları xarici ölkələrdə xidmət göstərilməsi, lizinq əməliyyatlarının aparılması, sərgilərdə, yarmarkalarda iştirak və s. üçün malların yenidən işlənmədən (dəyişdirilmədən) Azərbaycan Respublikasına qaytarılması şərtilə ixracını nəzərdə tutur:

- Dövlət müəssisələri tərəfindən müvəqqəti olaraq göndərilmiş mallar üzrə bağlanmış müqavilələrdə nəzərdə tutulmuş müddət bitdiyi gündən həmin mallar 30 gün ərzində Azərbaycan Respublikasına qaytarılmalıdır. Bu mallar Ticarət Nazirliyinin icazəsi ilə istifadə olunduğu ölkələrdə satıla bilər. Valyuta vəsaiti mallar satıldığı gündən 10 gün müddətində ixracatçının Azərbaycan Respublikasında müvəkkil bankdakı hesabına daxil edilməlidir;

- Dövlət müəssisəsi olmayan ixracatçılar tərəfindən isə, müvəqqəti ixrac olunmuş mallar bu Təlimata və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olaraq müvafiq gömrük rüsumları ödənilməklə istifadə olunduğu ölkələrdə satıla bilər. Bu halda valyuta vəsaitləri mallar satıldığı gündən 10 gün müddətində ixracatçının Azərbaycan Respublikasında müvəkkil bankdakı hesabına daxil edilməlidir. Başqa halda, həmin mallar bağlanmış müqavilələrdə nəzərdə tutulmuş müddət bitdiyi gündən 30 gün ərzində Azərbaycan Respublikasına qaytarılmalıdır.

  Müvəqqəti ixrac əməliyyatları rəsmiləşdirilərkən gömrük orqanları tərəfindən aşağıdakı sənədlər tələb olunur:
- istehsalçı ilə ixracatçı arasında bağlanmış müqavilə (ixracatçı qeyri- dövlət müəssisəsi olduqda);
- ixrac olunan mal dövlət müəssisəsində istehsal edilmişdirsə, ixracatçı qeyri-dövlət müəssisəsi olduğu halda, onun dəyərinin istehsalçıya tam ödənilməsini təsdiq edən müvafiq bank sənədi;
- xarici tərəflə bağlanmış müqavilə (ixracatçı dövlət müəssisəsi olduğu halda Ticarət Nazirliyində qeydiyyatdan keçirilməklə);
- müvəqqəti ixrac olunan malın mənşə sertifikatı;
- müqavilə şərtlərinə uyğun olaraq müvəqqəti ixrac olunan malların geriyə qaytarılacağı barədə zəmanət öhdəliyi (Əlavə № 7);
- Uçot kartoçkası (UK);
- Deklarant tərəfindən tərtib olunmuş Yük Gömrük Bəyannaməsi.

  Son (sənədli) nəzarət — gömrük rəsmiləşdirməsi başa çatdıqdan sonra aparılır.

  Gömrük orqanının Yük şöbəsinə ixracatçı tərəfindən təqdim olunan sənədlər rəsmiləşdirilərək Maliyyə-Tarif şöbəsinə verilir və aşağıdakılar yerinə yetirilir:
- hər bir ixrac əməliyyatı üzrə dosye açılır, ixracatçının ərizəsi ilə birlikdə ərizədə göstərilən sənədlərin surətləri və bu Təlimatın 2-ci bəndindəki müvafiq ixrac rejiminə uyğun tələb olunan sənədlər əlavə edilir;
- Uçot kartoçkasındakı məlumatların düzgünlüyü yoxlanılmaqla, təqdim olunan YGB məlumatları ilə üzləşdirilir;
- Uçot kartoçkası tərtib olunmaqla, gələcəkdə valyuta vəsaitlərinin daxil olacağının və ya malın geri qaytarılacağının son müddətləri təyin olunur;
- Uçot kartoçkasına qeydiyyat nömrəsi verilməklə, UK reyestrinə salınır (Əlavə № 8) və onun surəti isə DGK Valyuta Nəzarəti şöbəsinə göndirilir;
- göndərilmiş malların müqabilində ödəniş vaxtının bitməsi barədə ixracatçıya və DGK Valyuta Nəzarəti şöbəsinə bildiriş göndərilir;
- valyuta vəsaitlərinin daxil olması barədə müvəkkil bank tərəfindən təsdiq edilmiş Uçot kartoçkası (A2-bölməsi) və ya malların geri qaytarılması barədə deklarant tərəfindən tərtib edilmiş idxal YGB ixracatçı tərəfindən gömrük orqanına təqdim edildiyi təqdirdə UK nəzarətdən çıxarılır.
- valyuta vəsaitlərinin vaxtında mədaxil olmaması və ya malların geriyə qaytarılması müddətinin başa çatması ilə əlaqədar (Fors-major baş verdiyi və yaxud ixracatçı

tərəfindən ixrac müqavilələrinə müvafiq olaraq nəzərdə tutulan arbitraj proseduralarının yerinə yetirilməsi halları istisna olmaqla) gömrük orqanı (Maliyyə-Tarif şöbəsi) mövcud qaydada araşdırma aparır, protokol tərtib edir və toplanmış materialları gömrük orqanının müvafiq (Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə) şöbəsinə təqdim edir. Aidiyyatı üzrə bu işi icra edən şöbə təhqiqat aparmaqla eyni zamanda qərar qəbul edir, həmçinin bu Təlimatın 2 №-li Əlavəsinin «V» bölməsinə uyğun olaraq ixracatçıya qarşı Gömrük Məcəlləsinin müvafiq maddəsinə əsasən sanksiya tətbiq edir və bu barədə Dövlət Gömrük Komitəsinin MT və VN Baş idarəsinə məlumat verir.

İxrac əməliyyatlarında hesablaşmalara nəzarət

İxracatçılar tərəfindən ixrac olunan (sövdələşmə xüsusiyyəti 21 və 41), malların (xidmət və əqli mülkiyyətin) Azərbaycan Respublikası ərazisindən çıxarılması gömrük orqanları tərəfindən yalnız onların haqqının qabaqcadan ödənildiyi və yaxud geri çağrılmayan akkreditiv açılması müvəkkil banklar tərəfindən «Uçot kartoçkası»nın «A 1» və «A 2» bölmələrində qeyd edilməklə təsdiq edildikdən sonra həyata keçirilir.

ixracatçılar tərəfindən aparılan ixrac əməliyyatlarının hesablaşmalar hissəsi, Azərbaycan Respublikası müvəkkil banklarının, malların gömrük sərhədindən çıxarılması isə gömrük orqanlarının nəzarəti altında həyata keçirilir.

Təlimatın tələblərinin pozulmasına görə məsuliyyət

İxracatçılar, bu Təlimatın tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar:

İxracatçılar, bu Təlimata uyğun xarici valyuta vəsaitlərinin (və ya malların geriyə) respublikaya vaxtında və tam həcmdə köçürülməsini (gətirilməsini) mövcud qaydada təmin etmədikləri təqdirdə, Azərbaycan Respublikası «Gömrük Məcəlləsi»nin 216-cı maddəsinə uyğun müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

İxrac əməliyyatlarında malların Azərbaycan Respublikası gömrük ərazisindən çıxarılmasına gömrük orqanları, bu malların müqabilində valyuta vəsaitlərinin ödənilməsinə isə müvəkkil banklar nəzarət edirlər.

Təlimatın tələblərinin pozulması halları aşkar edildiyi təqdirdə, gömrük orqanları və müvəkkil banklar müvafiq tədbirlər görülməsi üçün aidiyyatı dövlət orqanlarına təqdimat verməlidirlər.

«Azərbaycan Respublikası ərazisindən ixrac edilən malların müqabilində valyuta vəsaitlərinin ödənişinə nəzarət barədə Təlimat»a Əlavə № 1 İxrac əməliyyatlarında valyuta ödənişlərinə nəzarətin texnoloji sxemi Gömrük orqanlarında ixrac əməliyyatları müqabilində valyuta vəsaitlərinin ödənişinə nəzarət, təqdim olunan texnoloji sxem üzrə aparılır:

İxracatçı, gömrük orqanı tərəfindən verilmiş «İxrac əməliyyatlarına valyuta nəzarəti Uçot kartoçkası»nı (gələcəkdə — Uçot kartoçkası) 2 nüsxədə doldurur və onun «A»

bölməsini təsdiq edir, bütün hallarda «A1» bölməsini, sövdələşmə xüsusiyyəti 21 və 41 ilə aparılan ixrac əməliyyatlarında isə, həmçinin «A 2» böliəsini ona xidmət göstərən müvəkkil bankda təsdiq etdirir (Əlavə № 2).
İxracatçının («A» bölməsi) və müvəkkil bankın («A1» bölməsi) təsdiq etdiyi Uçot kartoçkası ixracatçı tərəfindən digər sənədlərlə birlikdə gömrük rəsmiləşməsi üçün gömrük orqanına (Yük şöbəsinə) təqdim olunur.
Malların gömrük rəsmiləşməsindən sonra gömrük orqanı (Maliyyə-Tarif şöbəsi) Uçot kartoçkasının «B» bölməsini rəsmiləşdirir, qeydiyyat nömrəsi qoyur və bir nüsxəsini ixracatçı vasitəsilə müvəkkil banka göndərir. Uçot kartoçkasının gömrük orqanında saxlanılan nüsxəsinin surəti son nəzarət üçün Dövlət Gömrük Komitəsinin Valyuta nəzarəti şöbəsinə verilir.
Malların ixracından xarici valyuta vəsaitinin (gələcəkdə valyuta vəsaiti) daxil olmasını müvəkkil bank, Uçot kartoçkasının «A2» bölməsində müvafiq qeyd aparmaqla təsdiq edir və təsdiq olunmuş Uçot kartoçkası valyuta nəzarətindən çıxarılması üçün ixracatçı tərəfindən gömrük orqanına təqdim edilir.
Gömrük orqanı Uçot kartoçkasını və ödəniş barədə müvafiq sənədi ixracatçıdan alaraq, uçot kartoçkasının «B» bölməsindəki «UK-nın nəzarətdən çıxarılması» qrafasını təsdiq edir. Mallar geri qaytarıldığı halda isə, idxal əməliyyatı üzrə Yük Gömrük Bəyannaməsinin nömrəsi, malın miqdarı, dəyəri yazılır və nəzarətdən çıxarılması barədə Dövlət Gömrük Komitəsinin Valyuta nəzarəti şöbəsinə məlumat verilir.
Valyuta vəsaiti müqavilədə nəzərdə tutulmuş müddətdə və mövcud qaydada daxil olmadıqda və yaxud satılmayan malların qaytarılması təmin edilmədikdə gömrük orqanı İxracatçını və Dövlət Gömrük Komitəsinin Valyuta Nəzarəti şöbəsini «Bildiriş»lə (Əlavə № 3) xəbərdar edir.
Azərbaycan Respublikası gömrük qanunvericiliyində nəzərdə tutulmuş müddət ərzində ixrac əməliyyatı üzrə valyuta vəsaiti daxil olmadığı və yaxud satılmayan mal geri qaytarılmadığı təqdirdə (Fors-major baş verdiyi və yaxud ixracatçı tərəfindən ixrac müqavilələrinə müvafiq olaraq nəzərdə tutulan arbitraj proseduralarının yerinə yetirilməsi halları istisna olmaqla) gömrük orqanı gömrük qaydalarının pozulması protokolu tərtib edir və Uçot kartoçkasının «V» bölməsini rəsmiləşdirir.
Gömrük qaydalarının pozulması ilə əlaqədar ixracatçıya tətbiq olunmuş cərimə sanksiyası həddi uçot kartoçkasının «V» qrafasında göstərilməklə DGK-nin Valyuta nəzarəti şöbəsinə verilir.
Rezidentlər valyuta sərvətlərini gömrük orqanlarında bəyan etməklə məhdudiyyət qoyulmadan Azərbaycan Respublikasına nağd şəkildə gətirə bilərlər.
Rezidentlər tərəfindən Azərbaycan Respublikası ərazisinə gətirilmiş valyuta sərvətlərinin məbləği 10.000 (on min) ABŞ dolları ekvivalentinədək olduqda onların

gətirilməsi gömrük orqanları tərəfindən "Şərnişin gömrük bəyannaməsi" (Əlavə № 1) ilə, 10.000 (on min) ABŞ dolları ekvivalentindən yuxarı məbləğdə olduqda isə "Sərnişin gömrük bəyannaməsi" və "Gömrük vəsiqəsi" (GA – 5 №-li forma, Əlavə №2) ilə rəsmiləşdirilir.

Rezidentlər Azərbaycan Respublikasına əvvəllər nağd şəkildə gətirilmiş valyuta sərvətlərindən 50.000 (əlli min) ABŞ dolları ekvivalentinədək məbləği gömrük orqanlarında bəyan etməklə Azərbaycan Respublikasından nağd şəkildə çıxara bilərlər.

Rezidentlər tərəfindən Azərbaycan Respublikasına əvvəllər nağd şəkildə gətirilmiş valyuta sərvətləri ölkə ərazisindən nağd çıxarılarkən gömrük organlarına "Sərnişin gömrük bəyannaməsi" (nağd gətirilmiş valyuta sərvətlərinin məbləği 10.000 (on min) ABŞ dolları ekvivalentinədək olduqda) və "Sərnişin gömrük bəyannaməsi" və "Gömrük vəsiqəsi" (nağd gətirilmiş valyuta sərvətlərinin məbləği 10.000 (on min) ABŞ dolları ekvivalentindən çox olduqda) təqdim edilməlidir.

Rezidentlər Azərbaycan Respublikasına əvvəllər nağd şəkildə gətirilmiş 50.000 (əlli min) ABŞ dolları ekvivalentindən artıg məbləğdə valyuta sərvətlərini valyuta gətirilən ölkənin bank və ya digər kredit təşkilatı tərəfindən bu vəsaitlərin həmin rezidentə nağd verilməsini təsdiq edən arayışı təqdim etməklə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi qaydada müvəkkil banklar vasitəsi ilə Azərbaycan Respublikasından kənara köcürə bilərlər.

Rezidentlər əvvəllər Azərbaycan Respublikasına köçürülmüş valyuta sərvətlərindən 50.000 (əlli min) ABŞ dolları ekvivalentinədək məbləği müvəkkil
banklar tərəfindən verilmiş "Azərbaycan Respublikasına əvvəllər köçürülmüş xarici valyuta sərvətlərinin verilməsi haqqında" bank arayışı (Əlavə № 3) əsasında, gömrük orqanlarında bəyan etməklə Azərbaycan Respublikasından nağd şəkildə çıxara bilərlər.

Rezidentlər tərəfindən adambaşına 10.000 (on min) ABŞ dolları ekvivalenti məbləğində valyuta sərvətləri (fond sərvətləri istisna olmaqla) sənəd təqdim edilmədən, gömrük orqanlarında bəyan edilməklə Azərbaycan Respublikasından nağd şəkildə çıxarıla bilər.

Xarici ölkələrə xidməti ezamiyyətə gedən rezidentlər, həmin şəxsləri ezamiyyətə göndərən təşkilatlara xidmət göstərən müvəkkil bankların təsdiqedici sənədlərində (ezamiyyə xərclərinin ödənilməsi barədə bank arayışı, Əlavə №-4) göstərilən məbləğlərdə ezamiyyə və nümayəndəlik xərclərinin ödənilməsi üçün xarici valyuta sərvətlərini Azərbaycan Respublikasından nağd şəkildə çıxara bilər.

Qeyri-rezidentlər tərəfindən valyuta sərvətlərinin Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması

Qeyri-rezidentlər valyuta sərvətlərini gömrük orqanlarında bəyan etməklə məhdudiyyət qoyulmadan Azərbaycan Respublikasına nağd şəkildə gətirə bilərlər.
Qeyri-rezidentlər tərəfindən Azərbaycan Respublikası ərazisinə gətirilmiş valyuta sərvətlərinin məbləği 10.000 (on min) ABŞ dolları ekvivalentinədək olduqda onların gətirilməsi gömrük orqanları tərəfindən "Şərnişin gömrük bəyannaməsi" (Əlavə № 1) ilə, 10.000 (on min) ABŞ dolları ekvivalentindən yuxarı məbləğdə olduqda isə "Sərnişin gömrük bəyannaməsi" və "Gömrük vəsiqəsi" (GA – 5 №-li forma, Əlavə №2) ilə rəsmiləşdirilir.
Qeyri-rezidentlər Azərbaycan Respublikasına əvvəllər nağd şəkildə gətirilmiş valyuta sərvətlərindən 50.000 (əlli min) ABŞ dolları ekvivalentinədək məbləği gömrük orqanlarında bəyan etməklə Azərbaycan Respublikasından nağd şəkildə çıxara bilərlər.
Qeyri-rezidentlər tərəfindən Azərbaycan Respublikasına əvvəllər nağd şəkildə gətirilmiş valyuta sərvətləri ölkə ərazisindən nağd çıxarılarkən gömrük organlarına
"Sərnişin gömrük bəyannaməsi" (nağd gətirilmiş valyuta sərvətlərinin məbləği 10.000 (on min) ABŞ dolları ekvivalentinədək olduqda) və "Sərnişin gömrük bəyannaməsi" və "Gömrük vəsiqəsi" (nağd gətirilmiş valyuta sərvətlərinin məbləği 10.000 (on min) ABŞ dolları ekvivalentindən çox olduqda) təqdim edilməlidir.
Qeyri-rezidentlər Azərbaycan Respublikasına əvvəllər nağd şəkildə gətirilmiş 50.000 (əlli min) ABŞ dolları ekvivalentindən artıg məbləğdə valyuta sərvətlərini valyuta gətirilən ölkənin bank və ya digər kredit təşkilatı tərəfindən bu vəsaitlərin həmin qeyri-rezidentə nağd verilməsini təsdiq edən arayış təqdim etməklə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi qaydada müvəkkil banklar vasitəsi ilə Azərbaycan Respublikasından kənara köcürə bilərlər.
Qeyi-rezidentlər əvvəllər Azərbaycan Respublikasına köçürülmüş valyuta sərvətlərindən 50.000 (əlli min) ABŞ dolları ekvivalentinədək məbləği müvəkkil banklar tərəfindən verilmiş "Azərbaycan Respublikasına əvvəllər köçürülmüş xarici valyuta sərvətlərinin verilməsi haqqında" bank arayışı (Əlavə № 3) əsasında, gömrük orqanlarında bəyan etməklə Azərbaycan Respublikasından nağd şəkildə çıxara bilərlər.
Qeyi-rezidentlər, onları ezamiyyətə göndərən təşkilatın təsdiqedici sənədlərində (ezam olunma barədə əmrdən çıxariş və ya ezamiyyə vəsiqəsi və ezamiyyə haqqının verilməsi barədə kassa məxaric orderinin qəbzi) göstərilən məbləğdə valyuta sərvətlərini Azərbaycan Respublikasından nağd şəkildə çıxara bilərlər.
Qeyri-rezidentlər sənəd təqdim edilmədən 1.000 (bir min) ABŞ dolları ekvivalentinədək valyuta sərvətlərini Azərbaycan Respublikasından nağd şəkildə çıxara bilərlər.

Gömrük orqanlarının məsul şəxsləri rezident və qeyri-rezidentlərə bu Qaydaların tələblərindən irəli gələn şərtlərin qeyri-qanuni yollarla əldə edilmiş vəsaitlərin ölkə ərazisindən tranzit daşınmasının məhdudlaşdırılması məqsədi ilə tətbiq olunduğunu izah edirlər.
Dövlət Gömrük Komitəsi Azərbaycan Respublikası ərazisinə gətirilən valyuta sərvətləri haqqında aylıq məlumatları növbəti ayın 20-dək, 50.000 (əlli min) ABŞ dolları ekvivalentindən artıq məbləğdə gətirilən valyuta sərvətləri barədə isə məlumatları 7 gün müddətində müəyyən olunmuş qaydada Mərkəzi Banka göndərir.

Bu Qaydaların müddəalarını pozan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada məsuliyyət daşıyırlar.
Azərbaycan Respublikasında rezident və qeyri-rezidentlərin valyuta əməliyyatlarının rejimi haqqında;
Azərbaycan Respublikası rezidentlərinin xarici valyuta əməliyyatları;
Rezidentlərin hesablarına daxilolmalar;

Azərbaycan Respublikası rezidentlərinin müvəkkil banklardakı xarici valyuta hesablarına vəsaitlər sərbəst şəkildə mədaxil edilə bilər.
Aşağıdakı mənbələrdən daxil olan vəsaitlərin mədaxil edilməsi üçün xüsusi şərtlərə əməl edilməlidir:
Azərbaycan Respublikasının ərazisində mal satılmasından və xidmət göstərilməsindən əldə edilmiş vəsaitlər;
Bu hallarda, Azərbaycan Respublikasının ərazisində xarici valyuta ilə mallar satılması və xidmətlər göstərilməsi üçün müvafiq lisenziya tələb olunur. Əgər ölkə ərazisində satılmış malların və ya göstərilmiş xidmətlərin müqabilində ödənilən vəsaitlər respublika kənarından köçürülərsə, belə daxilolmalara yol verilir.
Rezidentlər tərəfindən ixrac edilən malların, işlərin, xidmətlərin (bundan sonra, "mallar") müqabilində qeyri-rezidentlər tərəfindən rezidentlərə nağd şəkildə ödənişlər;
Bu hallarda aşağıdakı tələblərə əməl edilməlidir:
- müqavilədə, kontraktda və ya bu əqdi təsdiq edən digər razılaşma sənədlərində (bundan sonra, “müqavilə”) ödənişin nağd hesablaşma yolu ilə aparılması nəzərdə tutulmalıdır;
- vəsaitlər yalnız malı alan qeyri-rezidentdən və ya həmin qeyri-rezident tərəfindən müvafiq surətdə müvəkkil edilmiş fiziki şəxsdən qəbul edilməlidir;
- qeyri-rezidentlər (qeyri-rezident tərəfindən müvəkkil edilmiş fiziki şəxs) tərəfindən əvvəlcədən respublikaya gətirilmiş xarici valyuta vəsaitləri gömrük orqanlarında bəyan edilməlidir.

- vəsaitlər ölkəyə gətirilməsi və gömrük orqanlarında bəyan edilməsi tarixindən 10 gün müddətində rezidentin kassasına mədaxil edilməlidirr;
- rezidentlər vəsaitləri xəzinələrinə qəbul etdikdən sonra 2 iş günü ərzində bankdakı hesabına mədaxil etməlidir.

Banklar vəsaitləri qəbul edərkən aşağıdakı sənədləri tələb etməlidir:
- ixrac müqaviləsinin əsli;
- mədaxil-kassa orderinin surəti;
- vəsaitlərin nağd şəkildə respublikaya gətirilməsini təsdiqləyən gömrük sənədləri;
- qeyri-rezident tərəfindən müvəkkil edilmiş fiziki şəxs olan nümayəndənin səlahiyyətlərini təsdiq edən vəkalətnamə;
- valyuta gətirilən ölkənin müvafiq bank və ya digər kredit təşkilatı tərəfindən bu vəsaitin ona nağd şəkildə verilməsini təsdiq edən sənəd (vəsaitin məbləği 50 min ABŞ dolları ekvivalentindən artıq olduqda).

Sənədlərin düzgün tərtib olunması yoxlanıldıqdan sonra bank vəsaitləri rezidentdən qəbul edir və həmin sənədlərin surətlərini özündə saxlayır. Vəsaitlərin respublikaya gətirilməsini sübut edən gömrük sənədlərinin və valyuta qətirilən ölkənin müvafig bank və ya digər kredit təşkilatı tərəfindən bu vəsaitin nağd şəkildə verilməsini təsdiq edən sənədin əsli, həmin sənədləri son icra edən bankda saxlanmalıdır. Əgər gömrük bəyannaməsi və arayış tamamilə icra olunmursa bank bu sənədlərin əslində müvafiq qeyd aparır və surətlərini özündə saxlayır.

Rezidentlərin hesablarından köçürmələr. Azərbaycan Respublikasının rezidentlərinin hesablarından vəsaitlər aşağıdakı istiqamətlərdə köçürülə bilər:

Respublika daxilində:

a) respublikaya idxal olunan və respublika daxilində satılan malların, həmçinin respublikada göstərilən və ya respublikaya idxal olunan (rezidentlərin xeyrinə ölkə xaricində göstərilən) xidmətlərin müqabilində digər rezidentlərin və ya qeyri-rezidentlərin Azərbaycan Respublikasının ərazisində yerləşən filiallarının, nümayəndəliklərinin, digər ayrıca bölmələrinin və ya qeyri-rezident tərəfindən müvəkkil edilmiş hər hansı bir şəxsin xeyrinə ünvanlanmış köçürmələr;

b)Azərbaycan Respublikasının digər rezidentlərinin nizamnamə kapitalında iştirak;

c) qrant, ianə, sosial yardım və sponsorluq; ç) kreditlərin və kredit faizlərinın ödənilməsi üçün;

d) müvəkkil banklarda depozitlərin yerləşdirilməsi üçün;

e) manata və ya digər valyutalara konvertasiya olunmaq üçün;

f) rezidentin respublika daxilində yerləşən filial və nümayandəliklərinə, digər ayrıca bölmələrinə, tabelikdə olan müəssisələrə ünvanlanmış və ya həmin müəssisələrdən baş idarələrinə məqsədlənmiş köçürmələr (baş idarənin müvafiq qərarı olduğu halda);

Belə köçürmələr malların satılması müqabilində icra edilərsə, tənzimlənmə dairəsinə aid edilir.
g) təsisçilərə dividendlərin ödənilməsi üçün;
h) rezidentin özünün digər müvəkkil banklarda olan valyuta hesablarına köçürmələr;
Respublikadan kənara:
a) idxal müqaviləsi üzrə respublikaya gətirilən malların, həmçinin respublikada göstərilən və ya respublikaya idxal olunan xidmətlərin müqabilində köçürülən vəsaitlər. Bu hallarda ödəniş aşağıdakı üsullarla aparıla bilər:
avans ödənişləri; Avans yolu ilə ödənişlər əməliyyatın eyniləşdirilməsini təmin edən sənədlər (müqavilə, proforma–invoys, ödəniş sənədləri, sifariş və sair sənədlər) əsasında aparılır.
mallar idxal edildikdən, işlər görüldükdən və ya xidmətlər göstərildikdən sonra; Bu halda və hazırki Qaydaların göstərilən köçürmələr icra edilərkən, idxal müqaviləsi və gömrük bəyannaməsinin əslində (üz tərəfində) ödənişin həyata keçirilməsi barədə qeyd aparılır, qeydiyyat bankın məsul işçisinin imzası, ştampı ilə təsdiq edilir və həmin sənədlərin surətləri bankda saxlanılır.
Ödəniş işlərin görülməsi, xidmətlərin göstərilməsi ilə əlaqədar olduqda, banka, idxal gömrük bəyannaməsinin əvəzinə işlərin görülməsi və ya xidmətin göstərilməsini təsdiq edən sənəd təqdim olunmalıdır.
İdxal müqavilələri üzrə malın dəyərini yalnız malı alan təşkilat ödəyə bilər. İdxal müqavilələrinin dəyərinin üçüncü şəxs tərəfindən ödənilməsinə Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra – Mərkəzi Bank) fərdi icazəsi ilə yol verilir. Müqavilədə mal göndərənə ödəniləcək vəsaitlərin üçüncü şəxsin bank hesabına ödənilməsi nəzərdə tutularsa, belə ödənişlər icra edilə bilər;
Respublikaya idxal olunan mallar (işlər, xidmətlər) müdafiə və milli təhlükəsizlik ehtiyacları üçün nəzərdə tutulduqda və göstərilən köçürmələrin icrası üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin xüsusi tapşırığı (qərarı, sərəncamı, müraciəti, dərkənarı) olduqda köçürmə əməliyyatları idxal müqavilələri, gömrük bəyannamələri və ödənişlərin, o cümlədən avans ödənişlərinin aparılmasını təsdiq edən hər hansı digər sənəd tələb olunmadan icra edilməlidir. Bu halda Azərbaycan Respublikası Nazirlər Kabinetinin xüsusi tapşırığını təsdiq edən sənədin surəti bankda saxlanılır.
b) reeksport və vasitəçilik üzrə köçürmələr; Belə köçürmələr malı alan və ya xidmətlər göstərilən ölkədən vəsaitlər daxil olunanadək icra edilərsə, nəzərdə tutulmuş avans ödənişi rejimi tətbiq olunur;
c) icra olunmamış ixrac müqavilələri üzrə geri qaytarılan vəsaitlər;
ç) rezidentlərin xaricdə yerləşən filial və nümayəndəliklərinə, həmçinin törəmə və tabelikdə olan müəssisələrinə məqsədli köçürmələr; Belə köçürmələr malların

satılması və ya xidmətlərin göstərilməsi müqabilində icra edilərsə tənzimlənmə dairəsinə aid edilir.
d) vergi qanunvericiliyinə riayət etmək şərti ilə, rezidentlərin xarici təsisçilərinə dividendlərin ödənilməsi məqsədi ilə köçürmələri;
e) xarici banklardan cəlb edilmiş kreditlərin və kredit faizlərinin ödənilməsinə yönəldilmiş köçürmələr; Bu hallarda rezidentlər kredit müqaviləsini, həmin vəsaitin ölkə daxilində istifadəsini və ya bu vəsaitlər hesabına alınmış malların və xidmətlərin idxal olunmasını təsdiq edən sənədlərin əslini banka təqdim etməklə ödənişləri apara bilər. Köçürmə həyata keçirildikdən sonra sənədlərin surətləri bankda saxlanılmalıdır.
Kredit ölkədən kənarda istifadə olunubsa, rezidentlər kredit müqaviləsini və həmin vəsaitin ölkə xaricində istifadəsinə dair sənədi banka təqdim edir. Əməliyyatın sağlam xarakter daşıması bankda şübhə doğurmadıqda xarici banklardan cəlb edilmiş kreditlərin və kredit faizlərinin ödənilməsinə yönəldilmiş köçürmələr icra edilə bilər. Əməliyyat icra edildikdən sonra təqdim edilmiş sənədlərin üzərində bankın qeydiyyatı aparılır və surətləri bankda saxlanılır.
ə) xarici müəssisə və təşkilatlardan cəlb olunmuş maliyyə yardımlarının, digər borcalmaların və onlar üzrə faizlərin ödənilməsinə yönəldilmiş köçürmələr. Bu hallarda rezidentlər göstərilən sənədləri banka təqdim edilməklə ödənişləri apara bilər. Köçürmə həyata keçirildikdən sonra sənədlərin surətləri bankda saxlanılmalıdır.
Cəlb olunmuş maliyyə yardımları və digər borcalmalar ölkədən kənarda istifadə olunubsa, rezidentlər müvafiq müqaviləni və həmin vəsaitin ölkə xaricində istifadəsinə dair sənədi banka təqdim edir.
Əməliyyatın sağlam xarakter daşıması bankda şübhə doğurmadıqda xarici müəssisə və təşkilatlardan cəlb olunmuş maliyyə yardımlarının, digər borcalmaların və onlar üzrə faizlərin ödənilməsinə yönəldilmiş köçürmələr icra edilə bilər. Əməliyyat icra edildikdən sonra təqdim edilmiş sənədlərin üzərində bankın qeydiyyatı aparılır və surətləri bankda saxlanılır.
f) əvvəllər Azərbaycan Respublikasına köçürülmüş xarici valyuta vəsaitləri; Bu halda pul vəsaitinin həmin rezidentin hesabına əvvəllər köçürülməsini sübut edən bank hesabından çıxarış təqdim edilməklə maneəsiz icra edilə bilər. Vəsaitlərin rezidentin hesabına xaricdən və əksinə köçürülməsi məqsədi bu Qaydaların 2.2.2a, b, c, ç, e, ə yarımbəndlərinin tənzimlənmə obyektidirsə, onda ödənişlər həmin yarımbədlərin tələblərinə əməl edilməklə aparılmalıdır.
g) əvvələr Azərbaycan Respublikasına nağd şəkildə qətirilmiş xarici valyuta vəsaitləri; ödənişin icrası üçün müvəkkil banka nağd şəkildə qətirilmiş xarici valyuta vəsaitinin məbləği 10 (on) min ABŞ dolları ekvivalentinədək olduqda "Sərnişin gömrük bəyannaməsi", 10 (on) min ABŞ dolları ekvivalentindən artıq olduqda "Sərnişin gömrük bəyannaməsi" və "Gömrük vəsiqəsi", eyni zamanda, fiziki şəxsin

Azərbaycan Respublikasına daxil olmasını təsdiq edən viza qeydiyyatı olan (viza rejimi tətbiq edilən ölkədən gətirilərsə) pasportu təqdim edilməlidir. Əvvəllər nağd şəkildə gətirilmlş xarici valyuta vəsaitlərinin məbləği 50 (əlli) min ABŞ dolları ekvivalentindən artıq olarsa, əlavə olaraq valyuta gətirilən ölkənin müvafiq bank və ya digər kredit təşkilatı tərəfindən bu vəsaitin ona nağd şəkildə verilməsini təsdiq edən sənədlər (bank hesabından çıxarış, kassa qəbzləri və s.) təqdim edilməlidir. Təqdim edilmiş sənədlərin əslində (üz tərəfində) ödənişin həyata keçirilməsi barədə bankın məsul işçisinin imzası və ştampı ilə təsdiq edilmiş qeydiyyat aparıldıqdan sonra, onların və viza qeydiyyatının surəti bankda saxlanılır.

Vəsaitlərin köçürülməsi məqsədi tənzimlənmə obyektidirsə, onda ödənişlər həmin yarımbədlərin tələblərinə əməl edilməklə aparılmalıdır.

ğ) Şəxsi məqsədlər üçün köçürmələr. Hər bir rezident fiziki şəxs müvəkkil banklardakı hesabları vasitəsilə bir əməliyyat günü ərzində 1000 (min) ABŞ dolları ekvivalentinədək məbləğdə xarici valyutanı ödənişin məqsədi göstərilməklə sərbəst şəkildə ölkədən xaricə köçürə bilər.

Hər bir rezident fiziki şəxs müvəkkil banklardakı hesabları vasitəsilə xarici ölkələrdə yaşayan və ya müvəqqəti qalan yaxın qohumlarına (yaxın qohum kimi ata, ana, baba, nənə, ər, arvad, oğul, qız, qardaş, bacı, övladlığa götürülənlər nəzərdə tutulur) istənilən məbləğdə xarici valyutanı təsdiqedici sənədləri (Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi, qanuni nümayəndənin hüquqlarını təsdiq edən sənəd, doğum haqqında şəhadətnamə, nikah haqqında şəhadətnamə) təqdim etməklə sərbəst şəkildə köçürə bilər. Banklar tərəfindən rezident fiziki şəxslərin köçürmələri icra edilərkən bu Qaydaların 1 N–li Əlavəsində göstərilən ərizə forması doldurulmalı və təsdiqedici sənədlərin surətləri ilə birlikdə bankda saxlanmalıdır.

h) pensiyalar, məhkəmə, arbitraj, notarial və digər inzibati orqanların xərcləri, məhkəmə orqanlarının qərarları əsasında ödənilən alimentlər və digər oxşar köçürmələr;

x) kapitalın ölkədən çıxarılması ilə bağlı köçürmələr. Belə köçürmələr rezidentlər tərəfindən istənilən ölkəyə aşağıdakı məqsədlər üzrə və şərtlər daxilində aparıla bilər:

- birbaşa investisiyalar, yəni gəlir əldə etmək və müəssisənin idarə edilməsində iştirak etmək hüququna malik olmaq məqsədi ilə müəssisənin nizamnamə kapitalına qoyulan sərmayələrin köçürülməsi;
- qiymətli kağızların əldə edilməsi məqsədilə köçürmələr;
- torpaq və yerin təki də daxil olmaqla binalar, qurğular, eləcə də daşınmaz əmlaka aid edilən digər əmlak üzərində mülkiyyət hüququnun, habelə daşınmaz əmlak üzərində başqa hüquqların ödənilməsi üzrə köçürmələr;
- rezidentin xarici bankdakı hesabına depozit qoyulması məqsədilə köçürmələr.

Rezidentlər kapitalın hərəkəti ilə bağlı köçürmələri aparmaq üçün əməliyyatın məqsədini, məbləğini və şərtlərini təsdiqləyən sənədlərin (o cümlədən, müqavilə və digər təsdiqedici sənədlər) əslini müvəkkil banka təqdim edir. Sənədlər əməliyyatın bəyan edilmiş məqsədini əsaslandırdıqda və əməliyyatın sağlam xarakter daşıması şübhə doğurmadıqda müvəkkil bank ödənişi icra edə bilər. Əməliyyat icra edildikdən sonra təqdim edimiş sənədlərin üzərində bankın qeydiyyatı aparılır və surətləri bankda saxlanılır.

i) digər məqsədlərlə:

- beynəlxalq təşkilatlarda, konfranslarda, sərgilərdə, fuarlarda iştirak haqları;
- xarici ölkələrin dövri nəşrlərinə yazılış haqları; elanların yerləşdirilməsi haqları;
- güvvədə olan qanunvericiliyə əsasən respublika kənarına ödənilən vergilər, rüsumlar və cərimələr;
- təhsil, müalicə haqlarının ödənilməsi və bu məqsədlərlə respublika vətəndaşlarına göstərilmiş maddi yardım üçün köçürmələr;
- müəlliflik hüquqlarından istifadə haqlarının və françayzinqin ödənilməsi üçün köçürmələr.

Bu hallarda ödənişin məqsədini və mədləğini təsdiqləyən müqavilələr, arayışlar, invoys və ya digər təsdiqedici sənədlərin əsli müvəkkil banka təqdim edilir, müvəkkil bank təqdim olunmuş sənədlərin əməliyyatın elan edilmiş məqsədini əsaslandırdığına əmin olarsa, onları məqbul sayarsa və ümumiyyətlə əməliyyatın sağlam xarakteri şübhə doğurmazsa ödənişi icra edə bilər. Təqdim edilmiş sənədlərin üzərində bankın qeydiyyatı aparıldıqdan sonra surəti bankda saxlanılır.

Yuxarıda sadalanmayan digər əməliyyatlar sağlam xarakter daşıdıqda Mərkəzi Bankın fərdi icazəsi ilə aparıla bilər.

Rezidentlər müvəkkil banklardakı hesablarından xarici valyuta vəsaitlərini məhdudiyyət qoyulmadan nağd şəkildə çıxara bilərlər.

Azərbaycan Respublikası qeyri-rezidentlərinin xarici valyuta əməliyyatları

Qeyri-rezidentlərin hesablarına daxilolmalar.

Azərbaycan Respublikasının qeyri-rezidentlərinin müvəkkil banklardakı xarici valyuta hesablarına vəsaitlər sərbəst şəkildə mədaxil edilə bilər:

Aşağıdakı mənbələrdən daxil olan vəsaitlərin mədaxil edilməsi üçün xüsusi şərtlərə əməl edilməlidir:

Azərbaycan Respublikasının ərazisində mal satılmasından və xidmət göstərilməsindən əldə edilmiş vəsaitlər;

Bu hallarda, Azərbaycan Respublikasının ərazisində xarici valyuta ilə mallar satılması və xidmətlər göstərilməsi üçün lisenziya tələb olunur. Əgər ölkə ərazisində satılmış malların və ya göstərilmiş xidmətlərin müqabilində ödənilən vəsaitlər respublika kənarından köçürülərsə, belə daxilolmalara yol verilir.

Azərbaycan Respublikasından ixrac edilən malların (işlərin, xidmətlərin) müqabilində digər qeyrirezidentlər tərəfindən nağd ödənilmiş vəsaitlər;
Bu hallarda aşağıdakı tələblərə əməl edilməlidir:
- müqavilədə ödənişin nağd hesablaşma yolu ilə aparılması nəzərdə tutulmalıdır;
- vəsaitlər yalnız malı alan qeyri-rezidentdən və ya həmin qeyri-rezident tərəfindən müvafiq surətdə müvəkkil edilmiş fiziki şəxsdən qəbul edilə bilər;
- qeyri-rezidentlər tərəfindən (qeyri-rezident tərəfindən müvəkkil edilmiş fiziki şəxs olan nümayəndə) əvvəlcədən respublikaya gətirilmiş xarici valyuta vəsaitləri gömrük orqanlarında bəyan edilməlidir.
- vəsaitlər ölkəyə gətirilməsi və gömrük orqanlarında bəyan edilməsi tarixindən 10 gün müddətində qeyrirezidentin kassasına mədaxil edilməlidir;
- qeyri-rezidentlər vəsaitləri xəzinələrinə qəbul etdikdən sonra 2 iş günü ərzində bankdakı hesabına mədaxil etməlidir.
Banklar vəsaitləri qəbul edərkən aşağıdakı sənədləri tələb etməlidir:
- ixrac müqavilələrinin əsli;
- mədaxil-kassa orderinin surəti;
- vəsaitlərin nağd şəkildə respublikaya gətirilməsini təsdiqləyən gömrük sənədləri;
- qeyri-rezident tərəfindən müvəkkil edilmiş fiziki şəxs olan nümayəndənin səlahiyyətlərini təsdiq edən vəkalətnamə;
- valyuta gətirilən ölkənin müvafiq bank və ya digər kredit təşkilatı tərəfindən bu vəsaitin ona nağd şəkildə verilməsini təsdiq edən arayış (vəsaitin məbləği 50 min ABŞ dolları ekvivalentindən artıq olduqda).
Sənədlərin düzgün tərtib olunması yoxlanıldıqdan sonra bank vəsaitləri qeyri-rezidentdən qəbul edir və həmin sənədlərin surətlərini özündə saxlayır. Vəsaitlərin respublikaya gətirilməsini sübut edən gömrük sənədlərinin və valyuta qətirilən ölkənin müvafiq bank və ya digər kredit təşkilatı tərəfindən bu vəsaitin nağd şəkildə verilməsini təsdiq edən sənədin əsli, həmin sənədləri son icra edən bankda saxlanmalıdır. Əgər gömrük bəyannaməsi və arayış tamamilə icra olunmursa bank bu sənədlərin əslində müvafiq qeyd aparır və surətlərini özündə saxlayır.

Azərbaycan Respublikası qeyri-rezidentlərinin hesablarından köçürmələr

Respublika daxilində:

a) respublikaya idxal olunan və respublika daxilində satılan malların, həmçinin respublikada göstərilən və ya respublikaya idxal olunan (Azərbaycan Respublikası ərazisində təsərrüfat fəaliyyəti ilə məşqul olan qeyri-rezidentlərin xeyrinə ölkə xaricində göstərilən) xidmətlərin müqabilində digər rezidentlərin və ya qeyri-rezidentlərin Azərbaycan Respublikasının ərazisində yerləşən filiallarının, nümayəndəliklərinin və ya qeyri-rezident tərəfindən müvəkkil edilmiş hər hansı bir şəxsin xeyrinə ünvanlanmış köçürmələr;

b) Azərbaycan Respublikasının rezidentlərinin nizamnamə kapitalında iştirak;
c) qrant, ianə, sosial yardım və sponsorluq;
ç) kreditlərin və kredit faizlərinın ödənilməsi üçün;
d) müvəkkil banklarda depozitlərin yerləşdirilməsi üçün;
e) manata və ya digər valyutalara konvertasiya olunmaq üçün;
ə) qeyri-rezidentin respublika daxilində yerləşən filial və nümayandəliklərinə, digər ayrıca bölmələrinə, tabelikdə olan müəssisələrinə ünvanlanmış və ya həmin müəssisələrdən baş idarələrinə məqsədlənmiş köçürmələr (baş idarənin müvafiq qərarı olduğu halda); Belə köçürmələr malların (işlərin, xidmətlərin) satılması müqabilində icra edilərsə, tənzimlənmə dairəsinə aid edilir.
f) təsisçilərə dividendlərin ödənilməsi üçün;
g) qeyri-rezidentin özünün digər müvəkkil banklarda olan valyuta hesablarına köçürmələr;

Respublikadan kənara:

a) idxal müqavilələri üzrə respublikaya gətirilən malların (işlərin, xidmətlərin) həmcinin respublikada göstərilən və ya idxal olunan xidmətlərin müqabilində köcürülən vəsaitlər. Bu əməliyyatlar aşağıda göstərildiyi kimi aparıla bilər:

- avans ödənişləri; Avans yolu ilə ödənişlər əməliyyatın eyniləşdirilməsini təmin edən sənədlər (müqavilə, proforma–invoys, ödəniş sənədləri, sifariş və sair sənədlər) əsasında aparılır.

- mallar idxal edildikdən və ya xidmətlər göstərildikdən sonra; Bu halda və hazırki göstərilən köçürmələr icra edilərkən, idxal müqavilələrinin və gömrük bəyannaməsinin əslində (üz tərəfində) ödənişin həyata keçirilməsi barədə qeyd aparılır, qeydiyyat bankın məsul işçisinin imzası, ştampı ilə təsdiq edilir və həmin sənədlərin surətləri bankda saxlanılır. Ödəniş işlərin görülməsi, xidmətlərin göstərilməsi ilə əlaqədar olduqda, banka, idxal gömrük bəyannaməsinin əvəzinə işin görülməsini, xidmətin göstərilməsini təsdiq edən sənəd təqdim olunmalıdır.

İdxal müqavilələri üzrə malın (işin, xidmətin) dəyərini yalnız malı alan (iş görən, xidmət göstərən) təşkilat ödəyə bilər. İdxal müqavilələrinin dəyərinin üçüncü şəxs tərəfindən ödənilməsinə Mərkəzi Bankın fərdi icazəsi ilə yol verilir. Müqavilədə mal göndərənə (iş görənə, xidmət göstərənə) ödəniləcək vəsaitlərin üçüncü şəxsin bank hesabına ödənilməsi nəzərdə tutularsa, belə ödənişlər icra edilə bilər;

b) xarici banklardan cəlb edilmiş kreditlərin və kredit faizlərinin ödənilməsinə yönəldilmiş köçürmələr; Bu hallarda qeyri-rezidentlər kredit müqaviləsini, həmin vəsaitin ölkə daxilində istifadəsini və ya bu vəsaitlər hesabına alınmış malların və xidmətlərin idxal olunmasını təsdiq edən sənədlərin əslini banka təqdim etməklə ödənişləri apara bilər. Köçürmə həyata keçirildikdən sonra sənədlərin surətləri bankda

saxlanılmalıdır. Əgər kredit ölkədən kənarda istifadə olunubsa, həmin kreditin və ya kredit faizlərinin ödənilməsi üçün Mərkəzi Bankın fərdi icazəsi tələb olunur.
c) xarici müəssisə və təşkilatlardan cəlb olunmuş maliyyə yardımlarının, digər borcalmaların və onlar üzrə faizlərin ödənilməsinə yönəldilmiş köçürmələr; Bu hallarda rezidentlər göstərilən sənədləri banka təqdim edilməklə ödənişləri apara bilər. Köçürmə həyata keçirildikdən sonra sənədlərin surətləri bankda saxlanılmalıdır. Əgər cəlb olunmuş maliyyə yardımları, digər borcalmalar ölkədən kənarda istifadə olunubsa, həmin borcların və ya onlar üzrə faizlərin ödənilməsi üçün Mərkəzi Bankın fərdi icazəsi tələb olunur.
ç) əvvəllər Azərbaycan Respublikasına köçürülmüş xarici valyuta vəsaitləri; Bu halda ödəniş, pul vəsaitinin həmin qeyri-rezidentin hesabına əvvəllər köçürülməsini sübut edən bank hesabından çıxarış təqdim edilməklə maneəsiz icra edilə bilər. Vəsaitlərin qeyri-rezidentin hesabına xaricdən və əksinə köçürülməsi məqsədi bu Qaydaların 3.2.2. a, b, c, e yarımbəndlərinin tənzimlənmə obyektidirsə, onda ödənişlər həmin yarımbəndlərin tələblərinə əməl edilməklə aparılmalıdır.
d) əvvələr Azərbaycan Respublikasına nağd şəkildə qətirilmiş xarici valyuta vəsaitləri; ödənişin icrası üçün müvəkkil banka nağd şəkildə qətirilmiş xarici valyuta vəsaitinin məbləği 10 (on) min ABŞ dolları ekvivalentinədək olduqda "Sərnişin gömrük bəyannaməsi", 10 (on) min ABŞ dolları ekvivalentindən artıq olduqda "Sərnişin gömrük bəyannaməsi" və "Gömrük vəsiqəsi", eyni zamanda, fiziki şəxsin Azərbaycan Respublikasına daxil olmasını təsdiq edən viza qeydiyyatı olan (viza rejimi tətbiq edilən ölkədən gətirilərsə) pasportu təqdim edilməlidir. Əvvəllər nağd şəkildə gətirilmlş xarici valyuta vəsaitlərinin məbləği 50 (əlli) min ABŞ dolları ekvivalentindən artıq olarsa, əlavə olaraq valyuta gətirilən ölkənin müvafiq bank və ya digər kredit təşkilatı tərəfindən bu vəsaitin ona nağd şəkildə verilməsini təsdiq edən sənədlər (bank hesabından çıxarış,kassa qəbzləri və s.) təqdim edilməlidir. Təqdim edilmiş sənədlərin əslində (üz tərəfində) ödənişin həyata keçirilməsi barədə bankın məsul işçisinin imzası və ştampı ilə təsdiq edilmiş qeydiyyat aparıldıqdan sonra, onların və viza qeydiyyatının surəti bankda saxlanılır.
Vəsaitlərin köçürülməsi məqsədi tənzimlənmə obyektidirsə, onda ödənişlər həmin yarımbəndlərin tələblərinə əməl edilməklə aparılmalıdır.
e) Respublika iqtisadiyyatına qoyulmuş xariçi investisiyaların repatriasiyası; Xariçi investisiya anlayışı altında "İnvestisiya fəalyyəti haqqında" və "Xariçi investisiyanın qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş fəalyyət başa düşülür.
Xariçi investisiyalar təsdiqləyıci sənədləri təqdim etmək şərti ilə (vəsaitlərin nağd şəkildə respublikaya gətirilməsini sübut edən gömrük sənədləri, valyuta qətirilən ölkənin müvafig bank və ya digər kredit təşkilatı tərəfindən bu vəsaitin ona nağd

şəkildə verilməsini təsdiq edən arayış (50.000 ABŞ dolları ekvivalentindən çox olduqda) və ya vəsaitlərin respublikaya köçürülməsini sübut edən şəxsi hesabdan cıxarış və həmin vəsaitlərin müxtəlif fəaliyyət növləri obyektlərinə qoyulması barədə təsdiqləyici sənəd), sərbəst şəkildə repatriasiya edilə bilər. Bundan əlavə, müvafiq vergiləri və rüsumları ödədikdən sonra xariçi investorların investisiya ilə əlaqədar qanuni əsaslarla əldə etdikləri gəlirləri və başqa məbləğləri, o çümlədən kompensasiyaları və zərərin ödənilməsi məbləğlərini xariçə köcurməsinə icazə verilir. Vergilərin ödənilməsi faktı vergi orqanlarının və agentlərinin müvafiq arayışı ilə təsdiq edilməlidir.

ə) Azərbaycan Respublikasında əldə edilmiş əmək haqqının, dividendlərin və digər gəlirlərin köcürməsi;

Bu halda banka aşağıdakı sənədlər təqdim edilməlidir:

- fiziki şəxs qeyri-rezidentlər dividendləri, faiz gəlirlərini, əmək haqqını və ona bərabər tutulan digər gəlirlərini köçürərkən həmin vəsaitlər uzrə ödəmə mənbəyində vergilərin tutulması barədə arayış.
- bütün digər hallarda əməliyyat üzrə vergilərinin ödənilməsi barədə vergi orqanlarının və ya agentlərinin arayışı.

f) digər məqsədlərlə:

 beynəlxalq təşkilatlarda, konfranslarda, sərgilərdə, fuarlarda iştirak haqları;

 xarici ölkələrin dövri nəşrlərinə yazılış haqları; elanların yerləşdirilməsi haqları;

 qüvvədə olan qanunvericiliyə əsasən respublika kənarına ödənilən vergilər, rüsumlar və cərimələr;

 təhsil, müalicə haqlarının ödənilməsi və bu məqsədlərlə respublika vətəndaşlarına göstərilmiş maddi yardım üçün köçürmələr;

 müəlliflik hüquqlarından istifadə haqlarının və françayzinqin ödənilməsi üçün köçürmələr.

Bu hallarda ödənişin məqsədini və mədləğini təsdiqləyən müqavilələr, arayışlar, invoys və ya digər təsdiqedici sənədlərin əsli müvəkkil banka təqdim edilir, müvəkkil bank təqdim olunmuş sənədlərin əməliyyatın elan edilmiş məqsədini əsaslandırdığına əmin olarsa, onları məqbul sayarsa və ümumiyyətlə əməliyyatın sağlam xarakteri şübhə doğurmazsa ödənişi icra edə bilər. Təqdim edilmiş sənədlərin üzərində bankın qeydiyyatı aparıldıqdan sonra surəti bankda saxlanılır.

g) şəxsi məqsədlər üçün xırda köçürmələr; Hər bir qeyri-rezident fiziki şəxs müvəkkil banklardakı hesabları vasitəsilə bir əməliyyat günü ərzində 1000 (min) ABŞ dolları ekvivalentinədək məbləğdə xarici valyutanı ödənişin məqsədi göstərilməklə sərbəst şəkildə ölkədən xaricə köçürə bilər.

Yuxarıda sadalanmayan digər əməliyyatlar sağlam xarakter daşıdıqda Mərkəzi Bankın fərdi icazəsi ilə aparıla bilər.

Qeyri-rezidentlər müvəkkil banklardakı hesablarından xarici valyuta vəsaitlərini nağd şəkildə maneəsiz çıxara bilərlər.

Hesab açmadan fiziki şəxslər tərəfindən müvəkkil banklar vasitəsilə xarici valyuta əməliyyatlarının aparılması

Rezident fiziki şəxslərin xeyrinə Azərbaycan Respublikasından kənardan aşağıdakı mənbələrdən xarici valyuta köçürmələri müvəkkil banklar vasitəsi ilə bank hesabı açılmadan məhdudiyyətsiz məbləğdə qəbul edilə bilər:

a) Fiziki şəxsin özü tərəfindən;

b) Qeyri-rezident fiziki şəxs tərəfindən;

c) Digər rezident-fiziki şəxs tərfindən.

Rezident və qeyri-rezident fiziki şəxslər bu Qaydalarla müəyyən edilmiş rejim çərçivəsində 1000 (bir min) ABŞ dolları ekvivalentinədək məbləğdə xarici valyuta vəsaitlərini hesab açmadan müvəkkil banklar vasitəsilə xaricə köçürə bilər. Müəyyən olunmuş limit çərçivəsində hər bir rezident *və qeyri-rezident* fiziki şəxs tərəfindən bir əməliyyat günü ərzində bir belə köçürmə icra edilə bilər.

Qeyri-rezident fiziki şəxslərin xeyrinə Azərbaycan Respublikasına xaricdən valyuta köçürmələri müvəkkil banklar vasitəsi ilə bank hesabı açılmadan məhdudiyyətsiz məbləğdə icra edilə bilər.

Qeyri-rezident fiziki şəxslərin müvəkkil banklarda bank hesabı açmadan Azərbaycan Respublikasından kənara xarici valyuta köçürmələrinə yol verilmir.

Xaricdən Azərbaycan Respublıkasına fiziki şəxslərin xeyrinə köçürülmüş valyuta vəsaitləri bu Qaydaların şərtlərinə əməl edilməklə bank hesabı açılmadan:

- naqd şəkildə verilə bilər;
- köçürmə ünvanlanan şəxsin tapşırıqı ilə onun müvəkkil bankdakı hesabına mədaxil edilə bilər.

Müvəkkil bankda hesab açmadan xarici valyutanın Azərbaycan Respublikasından köçürülməsi ərizəsində (Əlavə 2), habelə, Azərbaycan Respublikası ərazisinə köçürülmüş xarici valyutanın nağd çıxarılması və ya bank hesabına köçürülməsi üçün ərizədə aşağıdakı məlumatlar əks olunmalıdır:

a) ödənişi icra edən şəxsin adı, atasının adı, soyadı, şəxsiyyəti təsdiq edən sənədin adı, seriya və nömrəsi, kim tərəfindən və nə vaxt verilməsi (vəsaitlər Azərbaycan Respublikasından kənara köçürüldükdə);

b) ödənişin ünvanlandığı şəxsin adı, atasının adı, soyadı, ünvanı, şəxsiyyətini təsdiq edən sənəd barədə tam məlumat (Azərbaycan Respublikasına daxil olmuş vəsaitlər nağd çıxarıldıqda və ya bank hesabına köçürüldükdə);

c) köçürmənin məbləği və məqsədi;

d) tarix və fiziki şəxsin imzası;

Müvəkkil bankda hesab açmadan xarici valyutanın Azərbaycan Respublikasından köçürülməsi, habelə, Azərbaycan Respublikasına köçürülmüş xarici valyutanın naqd şəkildə çıxarılması (və ya bank hesabına köçürülməsi) üçün fiziki şəxslər tərəfindən müvəkkil banklara pasport və ya şəxsiyyəti təsdiq edən digər sənəd təqdim edilməlidir.

Əməliyyatlar fiziki şəxsin nümayəndəsi tərəfindən icra edilərsə, müvəkkil banka şəxsiyyəti təsdiq edən sənədlə yanaşı, qanunvericiliyə müvafiq qaydada tərtib edilmiş vəkalətnamə təqdim olunmalıdır.

Müvəkkil banklar fiziki şəxslərdən, öz daxili proseduralarına əsasən, köçürmələrin sağlam xarakterini təsdiq edən əlavə məlumatlar tələb edə bilər.

Fiziki şəxslər tərəfindən yuxarıda müəyyən olunmuş tələblərə cavab verməyən sənədlər təqdim olunduqda, habelə bu Qaydalara müvafiq surətdə tələb olunan sənədlər təqdim edilmədikdə müvəkkil bank əməliyyatı icra etmir.

Müvəkkil bankda hesab açmadan xarici valyutanın Azərbaycan Respublikasından köçürülməsi ərizəsində (ödəniş tapşırığında) və Azərbaycan Respublikası ərazisinə köçürülmüş xarici valyutanın nağd çıxarılması üçün sifarişdə fiziki şəxs tərəfindən əməliyyatın sahibkarlıq fəaliyyəti ilə əlaqədar olmaması barədə qeyd olmalıdır. Hesab açılmadan əməliyyatların aparılması üçün təqdim edilmiş bütün sənədlərin surəti müvəkkil bankda saxlanmalıdır.

Konvertasiya əməliyyatlarının rejimi

Rezident və qeyri-rezidentlər hesablarındakı vəsaitlərini müvəkkil banklar vasitəsi ilə məhdudiyyət qoyulmadan konvertasiya edə bilərlər.

Rezident və qeyri-rezidentlər nağd xarici valyuta vəsaitlərini müvəkkil bankların tabeliyində fəaliyyət göstərən mübadilə məntəqələri vasitəsi ilə konvertasiya edə bilərlər.

Rezident və qeyri-rezidentlər xarici valyutanın müvəkkil banklar vasitəsilə alınması üçün, banka valyutanın alınması məqsədini bəyan etməklə sifariş təqdim etməlidir.

Konvertasiya əməliyyatlarına görə komisyon haqları sifarişçi və bankın qarşılıqlı razılığı əsasında müəyyən edilir.

11. Gömrük işində qeyri-tarif tənzimlənməsi üsulları

Dünya təcrübəsində qeyri-tarif məhdudiyyətlərinə münasibət kifayət qədər ziddiyyətlidir. Ümümdünya Ticarət Təşkilatı rəsmi olaraq belə tədbirlərin ləğv edilməsi və müstəsna olaraq tarif üsullarından istifadə edilməsi məsələsini qoyur. Həmin təşkilata üzvlük ərəfəsində olan Azərbaycan Respublikası üçün bu tələblərə münasibət mühüm əhəmiyyət kəsb etməkdədir.

Bununla bərabər tələblərin birmənalı şəkildə qəbulu digər məsələlərdə arzuolunmaz nəticələrə də gətirib çıxara bilər. Belə ki, Ümümdünya Ticarət Təşkilatının, Tarif və Ticarət üzrə Baş Sazişin (QATT) üzvü olan ölkələr xarici ticarətdə qeyri-tarif tənzimləmə metodlarından həm əvvəl, həm də indi istifadə etməkdədirlər.

Bəzi qeyri-tarif məhdudiyyətlərinin aradan qaldırılması sadəcə olaraq qeyri-mümkündür. Belə ki, qeyri-tarif məhdudiyyətləri daxili iqtisadi siyasətin digər ölkələrlə iqtisadi əlaqələrinə təsirinin təcəssümü kimi çıxış edir.

Bununla belə, beynəlxalq ticarət sistemi tərəfindən qanuniləşdirilmiş qeyri-tarif tənzimləmə tədbirləri, daha doğrusu xarici malların idxalının kəskin artımı ilə milli iqtisadiyyata vurulan zərərin qarşısının alınması məqsədi güdən müdafiə tədbirləri, həmçinin xarici ixracatçılar tərəfindən qeyri-sağlam rəqabətin qarşısının alınmasına yönəlmiş digər tədbirlər mövcuddur.

İdxal əməliyyatlarında qeyri-tarif məhdudiyyətlər (QTM) - xarici malların daxili bazara nüfuz etməsinin qarşısını alan məhdudlaşdırma - qadağan xarakterli tədbirlər kompleksidir. Bu tədbirlərin məqsədi yalnız idxaledən ölkənin rəqabət qabiliyyətinin gücləndirilməsi deyil, həm də milli sənayenin müdafiəsi, əhalinin həyat və sağlamlığının, ətraf mühitin, əxlaqın, dinin və milli təhlükəsizliyin qorunmasıdır. Bundan başqa QTM ixrac əməliyyatlarında da istifadə edilir.

Birbaşa və dolayısı yolla xarici ticarəti tənzimləyən tədbirlər, adətən, səkkiz qrupa bölünür: tarif, paratarif, qiymətlərə nəzarət, maliyyə, lisenziyalaşdırma, kəmiyyət nəzarəti, inhisarçı tədbirlər, texniki tədbirlər.

ÜTT/QATT tövsiyələrinin yerinə yetirilməsi ilə əlaqədar olaraq hal-hazırda Azərbaycanda bu tədbirlərin əksəriyyəti tətbiq edilmir.

Qeyri-tarif tədbirlərinin rəngarəng olmasına baxmayaraq onları iki böyük qrupa bölmək olar: iqtisadi və inzibati tədbirlər.

İqtisadi QTM-ə aşağıdakılar aiddir:

- xüsusi növ rüsumlar;

- müxtəlif vergi və yığımlar;

- idxal depozitləri;

- valyuta tənzimlənməsi tədbirləri.

İnzibati QTM daha çoxcəhətlidir:

- embarqo (qadağa);
- lisenziyalaşdırma və kvotalaşdırma;
- ixracın məhdudlaşdırılması;
- (inhisarçı) tədbirlər;
- proteksionist məqsədlər üçün standart və texniki normalardan istifadə edilməsi;
- əlavə gömrük sənədləri və əməliyyatları.

İqtisadi məhdudiyyətlər bazar mexanizmi vasitəsi ilə təsir göstərərək idxal və ixrac mallarını bahalaşdırır, inzibati məhdudiyyətlər isə bazar münasibətlərindən başqa idxal mallarının daxil olmasını və ixrac mallarının xaricə çıxarılmasını məhdudlaşdırır. İqtisadi QTM tətbiq edildikdə istehlakçı öz seçimini özü müəyyən edir və daha bahalı idxal, yaxud ucuz milli mal alacağına qərar verir.

İnzibati QTM tətbiq edildikdə dövlət faktik olaraq daxili bazarın əmtəə strukturunu müəyyən edir, yəni daxili bazarı həm idxalın təsirindən qoruyur, həm də çətin tapılan milli məhsulun çatışmazlığının qarşısını alır.

Bu halda istehlakçı sərbəst əmtəə seçimindən məhrum olur. QTM əsas qruplarına diqqət yetirək:

A. Paratarif tədbirləri

Paratarif tədbirləri gömrük sərhədindən keçirilən mallara tətbiq edilən elə ödəniş və yığımlara deyilir ki, gətirilən malın dəyərini gömrük rüsumundan əlavə olaraq artırır (ya müəyyən faiz, ya da mal vahidinə əmsal). Gömrük rüsumlarının və onunla bağlı olaraq fiskal gömrük gəlirlərinin aşağı düşməsi ilə dövlətin büdcə gəlirlərinin artırılmasında paratarif tədbirlərə meyl etməsi təbii olur. Ümumiyyətlə idxal olunan mallara sərhəd vergiqoymaları müxtəlif vergi və yığımlar onların ödənilməsinin sadələşdirilməsi və idxalçı ölkənin maliyyə qurumlarının maraqlarının təmin edilməsi məqsədilə bilavasitə gömrük orqanları tərəfindən tutulur. Bu vergi və yığımları, adətən, idxalçı ödəyir, lakin alqı-satqı müqaviləsi tərtib edilərkən tərəfdaşlar tərəfindən nəzərə alınır.

Paratarif tədbirlərə aşağıdakılar daxildir:

1) gömrük əlavələri - ticarət-siyasi məqsədlərlə, büdcənin doldurulması, yaxud milli istehsalın müdafiəsi üçün tətbiq edilən əlavə vergi və rüsumlar;

2) əlavə yığımlar - daxili analoqu olmayan, idxal mallarından gömrük rüsum və vergilərindən artıq (əlavə) tutulan ödənişlər. Onlar xarici ticarətlə bağlı fəaliyyətin müəyyən növlərinin maliyyələşdirilməsi üçün nəzərdə tutulur. Bunlara, adətən, xarici valyutanın köçürülməsinə qoyulan vergi, idxal lisenziyası üçün yığım, liman yığımları, statistik vergi, nəqliyyat vasitələrinə vergi aid edilir;

3) daxili (bərabərləşdirici) vergi və yığımlar - milli mallardan idxal ölkəsində tutulan dolayı verigələrə ekvivalent olan vergi və yığımlar. Onlara ƏDV, aksiz,

emissiya yığımları, məhsula görə vergi, sair inzibati yığımlar aid edilir. Bərabərləşdirici vergilərin və yığımların məqsədi xarici və milli eyni (və ya analoji) mallara bərabər vergi rejimi yaratmaqdır;

4) diskretləşdirilmiş gömrük qiymətləndirilməsi - gömrük rüsum və yığımlarının hesablanması üçün gömrük dəyərinin inzibati yolla müəyyən edilməsi praktikası.

B. Qiymətlər üzərində nəzarət tədbirləri

Qiymətlər üzərində nəzarət tədbirləri daxili qiymətlərin stabilləşdirilməsi və ya səviyyəsinin saxlanılması məqsədi ilə, həmçinin xarici rəqiblərin əliəyri ticarət təcrübəsinin vura biləcəyi zərərin qarşısını almaq üçün tətbiq edilir.

Belə tədbirlərə aşağıdakılar aiddir:

1) qiymətlərin inzibati qaydada müəyyən edilməsi - idxalçı ölkənin hakimiyyət dairələri istehsalçı və istehlakçının daxili qiymətlərini nəzərə alaraq, qiymətlərin aşağı və yuxarı hüdudlarını müəyyən edir, yaxud bu qiymətləri dünya bazar qiymətləri ilə bağlayırlar. Rəsmi qiymətlərin müəyyən edilməsi, minimal idxal qiymətləri və ya idxalın baza qiymətləri üsulundan istifadə olunur.

2) ixrac qiymətlərinin "könüllü" məhdudlaşdırılması - ixracatçının öz mallarının qiymətlərini müəyyən səviyyədən aşağı endirməməyi dəstəkləməyə razı olduğu məhdudlaşdırıcı bağlaşmalar;

3) sürüşkən yığımlar - idxal edilən kənd təsərrüfatı və ərzaq mallarının idxal qiymətlərinin daxili qiymətlərlə eyni səviyyəyə gətirilməsi üçün nəzərdə tutulmuş əlavə ödənişlər.

4) antidempinq tədbirlər - ixracatçıdan milli istehsalçılara vurulan zərərə görə kompensasiyanın tutulmasından ibarət olub, dempinq faktı və ondan irəli gələn ziyan aşkar edildikdə idxalatçı ölkənin müvafiq orqanı tərəfindən ixracatçının ticarət təcrübəsinin təhqiqatının yekunlarına görə tətbiq edilir.

Antidempinq rüsumlar özünü doğrultmayan aşağı qiymətlərlə mal göndərişinin başlanğıcı anından tutulur. Antidempinq ittihamlarının təşəbbüsçüləri kimi konkret məhsulun milli istehsalçıları çıxış edir.

5) Kompensasiya tədbirləri - əgər idxal olunan mallar subsidiyalaşdırılırsa və belə subsidiyalaşdırılma milli istehsala zərər vurduğunu təhqiqat təsdiq edirsə, əlavə maliyyə ödənişləri tətbiq edilir. Kompensasiya tədbirləri kompensasiya idxal rüsumları şəklində də ola bilər. Bundan başqa, çox zaman onlar qadağanedici hədlərə də çata bilir və hətta ixrac qiymətlərini artırmaqla da aşmaq olmur.

C. Maliyyə tədbirləri

Maliyyə tədbirlərinə - idxalçıların xarici valyutaya onlar üçün valyutanın qiymətlərinə, həmçinin ödəniş şərtlərinə müdaxiləsini tənzimləyən tədbirlər aid edilir. Bu tədbirlər idxalın dəyərini yüksəldə bilərlər. Bu kateqoriya QTM-ə aşağıdakılar aid edilir:

1) idxalın dəyərinin, eləcə də idxal vergisinin qabaqcadan ödənilməsi.
Buraya idxal depozitivlərinin, əvəzi ödənilən depozitlərin açılması, nağd ödəniş və gömrük rüsumlarının qabaqcadan ödənilməsi də daxildir;
2) valyuta məzənnələri çoxluğu.
Bu müxtəlif kateqoriyalı mallar üçün müxtəlif məzənnələrin müəyyən edildiyi dövlət tənzimlənməsi mexanizmidir. Rəsmi məzənnə, adətən, daha zəruri mallar üçün saxlanılır, digər mallar kommersiya məzənnəsi və ya xarici valyutanın hərraclar vasitəsi ilə alınması hesabına ödənilir.
3) xarici valyuta yığılmasına rəsmi məhdudiyyətlər.
Ölkə daxilində valyuta əməliyyatları aparılmasına müxtəlif icazə, viza və s. (onların qadağan edilməsi də daxil olmaqla) alınmasını nəzərdə tutur.
4) ödənişə müddətin müəyyən edilməsi, və ödənişinin növbəliliyi.
Bu tədbirlərlə dövlət malların göndərildiyi tarixdən idxal hesablamalarının bitməsinə qədər yol verilən minimal müddətləri müəyyən edir. Bu müddətlər adətən istehlak malları və sənaye xammalı üçün 90, 180 və ya 360 gün, investisiya malları üçün 2-5 il müəyyən edilir.

Ç. Kəmiyyət nəzarəti tədbirləri

Kəmiyyət nəzarəti tədbirləri ilk növbədə idxal-ixrac əməliyyatlarının kvotalaşdırılması və lisenziyalaşdırılması deməkdir. Kvotalaşdırma (fiziki həcm və dəyər üzrə) və lisenziyalaşdırma (müəyyən malların göndərilməsi və ya gətirilməsinə, bəzən də müəyyən ölkələrə, yaxud onlardan ticarətinə xüsusi icazənin alınması) idxal və ixracın ənənvi qeyri-tarif tənzimlənməsi üsullarıdır. Onların məqsədi hər hansı malın idxal və ya ixracını ümumilikdə, yaxud hər hansı ölkəyə məhdudlaşdırmaqdan ibarətdir. Bu tədbirlər, adətən, bir-biri ilə bağlıdır, çünki, lisenziyalaşdırma kvotanın fərdi idxalatçılara və ixracatçılara müəyyən həcm bitənə qədər lisenziya vermək yolu ilə bölüşdürülməsi mexanizmi kimi çıxış edir.
Kəmiyyət nəzarəti tədbirləri vasitəsi ilə dövlət səviyyəsində iqtisadi, xarici ticarət və hətta siyasi xarakterli məsələlər həll edilir: ölkə daxilində analoji rəqabət edən malların istehsalçı və istehlakçısının müdafiəsi, daxili bazarın stabilliyinin dəstəklənməsi, valyuta ehtiyatlarına qənaət, digər ölkələrdən qarşılıqlı güzəştlərin əldə edilməsi və s.
1) Lisenziyalaşdırma - idxal və ixraca müvafiq hakimiyyət orqanlarının öz mülahizəsinə, yaxud hər hansı konkret meyarlara əsasən verdiyi xüsusi icazələrin (lisenziyaların) tətbiqidir. Beynəlxalq ticarətdə lisenziyalaşdırma rəngarəngliyi ilə seçilir. Lisenziyada idxal və ya ixracın həyata keçirilməsi qaydası da müəyyən edilə bilər. Lisenziyalaşdırma dünya təcrübəsində ticarətin arzuolunmaz həcmlərini müəyyən müddət ərzində məhdudlşdırıldığı zaman həyata keçirilən müvəqqəti tədbir kimi təfsir edilir.

Xarici valyutadan səmərəli istifadə olunması zərurəti lisenziyalaşdırma üçün obyektiv əsas ola bilər. Bu yolla xarici ticarət və tədiyyə balanslarının tarazlanmasına nail olunur. Gömrük rüsumlarından istifadə edilmədikdə və ya onların təsiri səmərəsiz olduqda lisenziyalaşdırma zərurəti meydana çıxır. Bu iş həm qarşılıqlı güzəşt əldə edilməsi, həm də diskriminasiya məqsədi ilə görülə bilər. Onu da qeyd etmək lazımdır ki, lisenziyalaşdırma müvəqqəti tədbir hesab edildiyindən əvvəllər bağlanılmış dövlətlərarası ticarət sazişlərinə yenidən baxılmasını nəzərdə tutmur.

2) Kvotalaşdırma - (“kvota” latınca **“guot”** sözündən götürülüb, mənası **“nə qədər”** deməkdir) fərdi, tarif, mövsümi, qlobal və digər faiz məhdudiyyətləri vasitəsi ilə idxalına icazə verilmiş malların fiziki həcm və ya dəyərinin maksimum hədlərini müəyyən edən kəmiyyət məhdudlaşdırılması tədbirləridir.

Fərdi kvotalar - idxalına icazə verilmiş malların ümumi miqdarının mal göndərən ölkələr üzrə paylaşdırılmasını nəzərdə tutur. Tərtibat formasına görə belə kvotaları iki növə ayırırlar:

Mütənasib kvotalar bütün kvotalar çərçivəsində keçən dövr (baza) ərzində idxalda hər ölkənin payına görə təyin olunur, ikitərəfli kvotalar bir tərəfin əks tərəfə ticarət-siyasi öhdəliklərinin qarşılığı olaraq verilir (bəzən ikitərəfli saziş bağlanır), seçmə kvotalar hər hansı bir ölkə və ya ölkələr qrupundan alınan malların digər regionlardan alınanlara nisbətən məhdudlaşdırılması məqsədi ilə verilir.

Tarif kvotaları gömrük vergitutmasının daha əlverişli rejimində müəyyən həcmdə idxala icazə verir. Bu həcmdən artıq idxal üçün daha az əlverişli rejim (idxalın faktiki qadağanına qədər) tətbiq edilir.

Mövsümü kvotalar ilin müəyyən fəsillərində ölkə daxilində istehsalın yüksək olduğu dövrlərdə (ən çox kənd təsərrüfatı məhsulları üçün) tətbiq edilir. İdxalın müəyyən vaxt dövrü nəzərə alınmadan məhdudlaşdırılması konkretləşdirilməmiş kvotalar adlanır.

Qlobal kvotalar hər hansı malın müəyyən müddət ərzində və malgöndərən ölkələr arasında bölüşdürülmədən ümumi idxalının həcmini müəyyən edir. Belə yanaşma idxalçıya mal göndərən ölkəni seçmək azadlığı verir.

Faiz kvotaları bəzi hallarda idxal kvotaları ixracın həcmindən faiz nisbətindən müəyyən edilir. Kvotalar, həmçinin, milli istehsalı stimullaşdırmaq məqsədi ilə bir malın daxili bazarda tədarük həcmindən faizlə də hesablana bilər. İdxalı səhiyyə, təhlükəsizlik, ətraf mühitin qorunması mülahizələrinə görə idxalı nəzarətdə olan mallara da belə kvotalar müəyyən edilə bilər.

3) müəyyən bir malın idxalınının qadağa edilməsi tamamilə və istisna olmadan da tətbiq edilə bilər. Müvəqqəti və mövsümi qadağanlar qoyulması da mümkündür.

Lisenziya verilməsinə imtina edilməsi (adətən, tədiyyə balansı mülahizələrinə görə) idxala faktiki qadağan kimi qiymətləndirilə bilər. Bəzi hallarda ölkənin ticarət balansında böyük kəsiri olduğu dövlətlərdən idxala qadağa tətbiq edilə bilər.

Müəyyən bir ölkədən idxal və ixraca (ümumilikdə xarici ticarətə) qadağa qoyula bilər ki, buna da embarqo deyilir. Bu hal məcburi tədbir olub beynəlxalq təcrübədə qəbul edilmişdir, prinsipial xüsusiyyətlərə malik olub açıq və gizli (örtülü) formalarda edilə bilər. Belə qadağanın açıq forması adətən BMT-nin qərarlarına əsaslanır və xarici ticarətin tamamilə kəsilməsini nəzərdə tutur. Məsələn, BMT tərəfindən İraqa qoyulan embarqo.

Örtülü qadağanlara xarici gəmilərin daxili sulara buraxılmaması və ya ayrı-ayrı idxal mallarının ölkənin pərakəndə satış şəbəkəsinə buraxılmasını aid etmək olar.

4) İxracın məhdudlaşdırılması barədə sazişlər qarşılıqlı razılığın (kompromis) nəticəsi olub, ixracatçının ixrac həcmini "könüllü olaraq" idxalatçının məcburi tədbirlərini gözləmədən məhdudlaşdırmaq barədə razılığıdır.

Belə sazişlər həm dövlətlər səviyyəsində, həm də ayrı-ayrı istehsal sahələri səviyyəsində bağlana bilər. Bu tipli sazişlər həm ikitərəfli, həm də çoxtərəfli sazişlər ola bilər.

D. Monopolist (inhisarçı) tədbirlər

Monopolist tədbirlər dedikdə təsərrüfat subyektlərinin müəyyən qrupuna müstəsna hüquqlar verən tədbirlər nəzərdə tutulur. Monopoliya, adətən, idxalın ixraca münasibətini nəzarətdə saxlamaq hesabına tədiyyə balansının tarazlığa gətirilməsi problemini həll edir. Belə tədbirlərin başlıca növləri aşağıdakılardır:

1) müəyyən malların idxalına dövlət inhisarı;

2) milli müəssisələrin xidmətindən məcburi istifadə.

Dövlət inhisarının bariz nümunələrinə İkinci Dünya müharibəsindən əvvəlki Almaniyanı və keçmiş Sovetlər İttifaqını göstərmək olar.

E) Texniki tədbirlər

Malın keyfiyyətinin, təhlükəsizliyinin, yaxud inzibati şərait, terminologiya, simvollar, sınaq və sınaq üsulları, qablaşdırmaya olan tələblər, markalanma da daxil olmaqla xüsusiyyətlərinin nəzarətinə əsaslanan QTM tədbirlərinə texniki tədbirlər deyilir.

Texniki tədbirlərin aşağıdakı növləri var:

1. Texniki tənzimləmə, yəni məhsula bilavasitə və ya dolayı yolla texniki tələblər müəyyən edilməsi. Belə tədbirlər aşağıdakılardır: məqsədi insan və heyvanların həyat və sağlamlığının qorunması olan sanitariya tənzimlənməsi; bitkilərin qorunmasına yönəlmiş fitosanitar tənzimlənməsi; ətraf mühitin və təbiətin qorunması; insanların təhlükəsizliyi; milli təhlükəsizlik tədbirləri.

Bu tədbirlər müvafiq təlimatlar hazırlanmaqla həyata keçirilir. Təlimatlar gömrük orqanlarının nəzarət fəaliyyətini reqlamentləşdirir.

Hazırkı şəraitdə texniki tənzimlənmənin bir neçə növü var:
a) ətraf mühiti çirkləndirən xammal və materialların idxalının qadağan edilməsi, yaxud məhdudlaşdırılması;
b) hazır məhsullara - istismarı atmosferin və havanın çirklənməsinə gətirib çıxaran sənaye avadanlıqlarına, nəqliyyat vasitələrinə və s. münasibətdə proteksionist tədbirlərdən istifadə edilməsi.
Məsələn, 1992-ci il ildən Qərbi Avropada təyyarə və yük nəqliyyatı üçün səs-küyün yol verilən səviyyəsi və yanmış mühərrik qazlarının tərkibi üzrə sərt normalar müəyyən edilmişdir. Bundan başqa neftin sızmasının qarşısının alınması məqsədilə neftdaşıyan tankerlərin ikiqat dib (döşəmə) və yükləmə boşaltma qurğuları ilə təchiz edilməsi tələbi də bu qəbildəndir.
v) istehlakçının maraqlarını malın nöqsanından və istifadə zamanı mümkün olan ziyandan qorumaqla malın keyfiyyətinə olan tələblər. Bunlar ilk növbədə məişət elektrotexnikası, tibb preparatları, yeyinti məhsulları, uşaq malları və sairələrinə aiddir.

Azərbaycanın ÜTT-nin təklif etdiyi aşağıdakı sazişləri qəbul edib:
• Sanitar və fitosanitar tədbirlərin tətbiqi haqqında Saziş
• Ticarətdə texniki maneələr haqqında Saziş;
• Mənşə qaydaları haqqında Saziş;
• İdxal lisenziyalaşdırılması prosedurları haqqında Saziş;

Gömrük statistikası və xarici iqtisadi fəaliyyətin mal nomenklaturası

Ölkələrin bir çoxu və beynəlxalq təşkilatlar xarici fəaliyyət təcrübəsi və gömrük tənzimlənməsi işlərində aşağıdakı 2 təsnifat sistemindən istifadə edirdilər:
1) Gömrük Əməkdaşlığı Şurasının Nomenklaturası (GƏŞN) və ya Brüssel Gömrük Nomenklaturası (BGN)
2) BMT-nin Beynəlxalq Standart Ticarət Təsnifatı (BSTT).
Nomenklatura – (latınca "nomenklatura" – "siyahı", "adların cədvəli" deməkdir) elm, texnika və praktiki fəaliyyətin hər hansı bir sahəsində istifadə olunan terminlər və adların sistemi (toplusu) deməkdir.
Mal nomenklaturası — malların beynəlxalq təcrübədə qəbul olunmuş təsnifat sisteminə uyğun olaraq aparılan Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin mal nomenklaturasıdır.
Xarici iqtisadi fəaliyyətin mal nomenklaturası - malların qrupunu, mövqeyini, yardımçı mövqeyini, alt yardımçı mövqeyini rəqəm işarəsi və ya rəqəm işarələri qrupu (kodlar) şəklində özündə birləşdirən təsnifatdır.
Xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının şərh etmə qaydaları və istənilən təsnifatlandırma səviyyəsindəki mövqelərə dair şərhlər (qeydlər) xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının ayrılmaz hissəsidir.
Xarici iqtisadi fəaliyyətin mal nomenklaturasından tarif və qeyri-tarif tədbirlərinin tətbiqi və xarici ticarətin gömrük statistikasının aparılması üçün istifadə edilir.
Azərbaycan Respublikasında istifadə edilən xarici iqtisadi fəaliyyətin mal nomenklaturası *Ümumdünya Gömrük Təşkilatının* malların təfsiri və kodlaşdırılmasının *Harmonikləşdirilmiş Sisteminə*, *Avropa Birliyinin Kombinə Edilmiş Sisteminə* və *Müstəqil Dövlətlər Birliyinin* xarici iqtisadi fəaliyyətin vahid mal nomenklaturasına uyğun olmalıdır.
Xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının aparılması
xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının beynəlxalq əsaslarına edilən dəyişikliklərin və əlavələrin, bu əsasların təfsiri üzrə beynəlxalq şərhlərin (qeydlərin) və qərarların izlənməsini təmin edir;
xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının onun beynəlxalq əsaslarına uyğunlaşdırılması üzrə təkliflər hazırlayır;
müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının işlənib hazırlanması, ona dəyişikliklər və əlavələr olunması barədə təkliflərin hazırlanmasını təmin edir;

xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının beynəlxalq əsaslarının hazırlanması, ona dəyişikliklər və əlavələr edilməsi, onun təfsiri və tətbiqi üzrə məsələlərlə məşğul olan beynəlxalq təşkilatlarda Azərbaycan Respublikasını təmsil edir;
xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının nəşrini təmin edir;
xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının, onun beynəlxalq əsaslarının təfsiri üzrə beynəlxalq şərhlərin (qeydlərin) və qərarların nəşrini təmin edir;
müvafiq icra hakimiyyəti orqanlarını xarici iqtisadi fəaliyyətin mal nomenklaturası və onun təfsiri üzrə beynəlxalq izah və qərarlarla təmin edir;
xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının aparılması üzrə digər funksiyaların yerinə yetirilməsini təmin edir.
Hal-hazırda Azərbaycan Respublikasının gömrük orqanlarında, dünya təcrübəsində istifadə olunan malların kodlaşdırılması və təsvirinin harmonikləşdirilmiş sistemi (HS) əsasında yaradılmış mal nomenklaturasından istifadə olunur.
Malların kodlaşdırılması təsnifat sisteminə uyğun olaraq işarə və ya işarələr qrupu şəklində müəyyənləşdirilmiş texniki üsuldur. Malların kodlaşdırılmasının əsas məqsədi gömrük orqanlarında iqtisadi əməliyyatların (gömrük rüsumunun alınması, gömrük dəyərinin müəyyənləşdirilməsi, hesabatın aparılması və s.) daha səmərəli aparılması və xarici ticarətin mal strukturunun öyrənilməsidir.
Təsnifatlaşdırılan malların (obyektlərin) siyahısında hər birinin öz konkret yeri və şərti işarəsi ilə qeyd olunması kod adlanır.
Kod işarə formasında olub rəqəmlərlə, hərflərlə və ya rəqəm - hərf kombinasiyası ilə ifadə olunur.
Beynəlxalq aləmdə Brüssel Gömrük Nomenklaturası adı ilə tanınan, habelə BMT Standart Beynəlxalq Ticarət Təsnifatı (SBTT) mal nomenklaturalarının 12 beynəlxalq və milli mal təsnifatları sisteminin bazaları əsasında "malların təsviri və kodlaşdırılmasına dair harmonikləşdirilmiş sistem nomenklaturası" (HSN) yaradıldı və həmin toplu 1985-ci ildə Brüsseldə imzalanaraq 1988-ci ilin 1 yanvarından qüvvəyə mindi.
HSN-dən, Avropa Birliyi ölkələri də daxil olmaqla, 41 ölkə tərəfindən istifadə olunur.
Ümumdünya Gömrük Təşkilatının üzvü olan ölkələr tərəfindən malların təsnifatı
6 rəqəmə qədər detallaşdırılmaqla,
9-14 rəqəmə qədər kodlaşdırılmanın aparılması ilə xarici iqtisadi fəaliyyətin milli mal nomenklaturaları sistemləri işlənib hazırlanmışdır.

HSN-nin də, digər iqtisadi təsnifedicilər kimi, öz spesifik strukturu vardır. Onun əsas elementləri təsnifat sistemləri və kodlaşdırılmaqdan ibarətdir. Ümumilikdə bu toplu 6 pilləli sistemdən ibarətdir:

1) *bölmələr - 21;*
2) *qruplar - 97;*
3) *yarımqruplar - 33;*
4) *mal mövqeləri - 1241;*
5) *yarımmövqelər - 3553;*
6) *submövqelər (subpozisiyalar) - 5019.*

Azərbaycan Respublikasında dövlətlərarası təsnifatlandırıcı kimi MDB hökumət başçılarının qərarı ilə 3 noyabr 1995-ci ildə təsdiq edilmiş Müstəqil Dövlətlər Birliyi XİF MN 1 yanvar 1999-cu ildən tətbiq olunur. AR XİF MN, milli kombinə edilmiş tarif statistika təsnifatı olub, 10 rəqəmli kod sisteminə malikdir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası 10 rəqəmli kod sisteminə AR Nazirlər Kabinetinin 22 dekabr 2003-cü ildə qəbul olunmuş 161 saylı qərarı ilə keçmişdir.

Burada 1-6 rəqəmlər Ahəngdar sistemə görə malın kodu, 7-8-ci rəqəmlər Avropa Birliyinin kombinə edilmiş nomenklaturasına uyğun kodu, 9 və 10-cu rəqəmlər isə ənənəvi milli malların kodudur. Hələlik mal mövqeləri daha dərin detallaşdırılmadığından 9 və 10-cu rəqəmlər sıfır qəbul edilir

Xüsusi gömrük statistikası aşağıdakı sahələr üzrə aparılır:

- Bəyannamə statistikası – gömrük proseduru növləri üzrə malların idxal və ixracının hesabatı;
- Gömrük ödənişlərinin statistikası – gömrük rəsmiləşdirilməsi yığımları, idxal gömrük rüsumları, əlavə dəyər vergisi, aksizlər, gömrük yığımları;
- Valyuta nəzarətinin statistikası – ixrac olunan malların miqdarı və dəyəri, valyuta qazanclarının miqdarı və vaxtında daxil olması;
- Ölkə mülkiyyətinə yönəldilmiş malların statistikası – qaçaqmalçılıq və xarici ticarət dövriyyəsi qaydalarının pozulması nəticəsində müsadirə olunan malların dəyəri, qoyulmuş cərimələrin miqdarı;
- Beynəlxalq poçt göndərişlərinin statistikası – Azərbaycan Respublikasına gətirilən və Azərbaycan Respublikasından aparılan poçt göndərişləri;
- Beynəlxalq daşımaların statistikası – Azərbaycan Respublikasından gedən və Azərbaycan Respublikasına gələn nəqliyyat vasitələrinin hesabatı;
- Sərnişin dövriyyəsinin statistikası – Azərbaycan Respublikasının sərhədini keçən fiziki şəxslərin hesabatı.

Gömrük statistikasının formalaşması üçün statistik informasiyanın əsas mənbələri aşağıdakılardır:

1) yük gömrük bəyannamələri;
2) yükü müşayiət edən sənədlər;
3) dövlət orqanlarının lisenziyası və icazələri;

4) hesabat (uçot) jurnalları;

5) gömrük sərhədindən keçən mallar barəsində lazımi məlumat olan digər sənədlər.

- Xarici ticarətin gömrük statistikasının aparılması üçün ilkin məlumatlar malların gömrük rəsmiləşdirilməsində təqdim olunan YGB – dəki məlumatlar sayılır.
- *Boru kəməri* (neft, neft məhsulları, qaz və s.) və *elektrik ötürücü xətləri* ilə nəql edilən malların uçotu, boru kəmərlərinin və ya elektrik ötürücü xətlərinin sərhəd və ya nəzarət-bölüşdürücü məntəqələrində malların qəbulunu təsdiq edən sənədlərə müvafiq olaraq, onların göndərilmə miqdarları üzrə bəyan edilməsi xüsusiyyətlərinə görə aparılır.
- Xarici ticarətin gömrük statistikası
  "Azərbaycan Respublikası xarici ticarətin gömrük statistikası metodologiyası"
  əsasında aparılır. Metodologiya DGK sədrinin *15.02.1999-cu il tarixli 011 saylı* əmri ilə təsdiq edilmişdir. İlkin hesabatlarda isə Azərbaycan Respublikasının xarici ticarətinin ümumi yekunu, xarici ticarətin qitələr və ölkə qrupları üzrə bölgüsü haqqında məlumatlar olur.
- Gömrük statistikasının məlumatları Azərbaycanın xarici ticarətinin vəziyyəti, xarici ticarətin milli və beynəlxalq göstəricilərinin tutuşdurulması və s. üçün lazımi şərait yaradır.

Xarici ticarətin gömrük statistikasının məqsədləri

- xarici ticarət axınının əsas tendensiyasının, strukturunun və dinamikasının təhlili;
- xarici iqtisadi fəaliyyətin tənzimlənməsində tarif və qeyri-tarif tədbirlərinin tətbiq edilməsinin nəticələrinin təhlili;
- xarici ticarət siyasəti və xarici ticarətin dövlət tənzimləməsi sahəsində qərarların qəbul olunması üçün AR Prezidenti Administrasiyasının, AR NK-nin, AR MM-nin, AR İqtisadi İnkişaf Nazirliyinin, AR Maliyyə Nazirliyinin, AR Vergilər Nazirliyinin, AR Səhiyyə Nazirliyinin, AR Kənd Təsərrüfatı Nazirliyinin, AR Nəqliyyat Nazirliyinin, AR Mərkəzi Bankının və AR Dövlət Statistika Komitəsinin XTGS ilə təmin edilməsi;
- gömrük ödənişlərinin dövlət büdcəsinə daxil olmasına nəzarətin həyata keçirilməsi;
- makroiqtisadi göstəricilərin proqnozlaşdırılması;
- miqdar, dəyər və orta qiymət indekslərinin hesablanması;
- xarici iqtisadi fəaliyyətin inkişafına və xarici ticarət əlaqələrinin genişləndirilməsinə yardım edilməsi;
- dövlətin həyata keçirdiyi xarici iqtisadi siyasət tədbirlərindən irəli gələn digər məsələlərin həll edilməsi.

Xarici ticarətin gömrük statistikasının əsas göstəriciləri

- Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (bundan sonra - XİFMN) üzrə malın kodu;
- XİFMN üzrə malın adı;

- malın hərəkət istiqaməti (idxal, ixrac);
- hesabat dövrü;
- malın statistik dəyəri (ABŞ dolları ilə);
- malın netto çəkisi (kq);
- XİFMN üzrə əlavə ölçü vahidi;
- əlavə ölçü vahidi üzrə malın miqdarı;
- malın təyinat ölkəsi;
- malın mənşə ölkəsi;
- malı göndərən ölkə;
- ticarət edən ölkə;
- malı sərhəddən keçirən nəqliyyat növü;
- sövdələşmənin xarakteri.

Xarici ticarətin gömrük statistikasının aşağıdakı bölmələr üzrə ayrı-ayrılıqda və ya toplu şəklində nəşr edilməklə yayılır:

- Azərbaycan Respublikasının xarici ticarətinin ümumi yekunları;
- idxal və ixracın aylar üzrə dinamikası;
- mallar üzrə idxal və ixrac;
- ölkələr üzrə idxal və ixrac;
- hər hansı ölkəyə görə mallar üzrə idxal və ixrac;
- hər hansı mala görə ölkələr üzrə idxal və ixrac;
- ölkə qrupları üzrə idxal və ixrac;
- gömrük ödənişləri.

Gömrük statistikasının ilkin formaları

1 saylı TM,
4 saylı TM,
6 saylı TM,
7 saylı TM,
11 saylı TM
12 saylı TM
formalarında olur.

1 saylı TM formasında gömrük prosedurları üzrə rəsmiləşdirilmiş idxal və ixrac YGB-nin sayı göstərilir

4 saylı TM-də isə valyuta gəlirlərinin miqdarı və müddəti barədə məlumatlar öz əksini tapır ki, bu da valyuta nəzarətinin statistikasının aparılmasına xidmət edir.

6 saylı TM formasının göstəriciləri ilə bərabər, YGB-nin 47-ci qrafasının göstəriciləri gömrük ödənişləri statistikasının formalaşmasına xidmət edir. Statistik formada bir ay ərzində hesablanmış gömrük ödənişlərinin cəmi (gömrük rəsmiləşdirilməsinə görə

yığımlar, ixrac və idxal rüsumları, ƏDV, aksizlər, plandankənar gömrük gəlirləri) göstərilir.

7 saylı TM forması isə rüblük olub, beynəlxalq yükdaşımaların statistikasının aparılmasına imkan verir. Buraya bütün nəqliyyat vasitələrinin növləri (avtomobil, avtobus, təyyarə, dəniz gəmiləri, dəmiryol vaqonları və s.) göstərilir (gedən və gələn).

11 TM və 12 TM saylı formalar qaçaqmalçılığın statistikası üçün istifadə olunur.

1. təcili;
2. aylıq;
3. rüblük;
4. illik.

- Azərbaycanın MDB ölkələri və digər dövlətlərlə olan xarici ticarətin inkişafı barədə;
- əsas malların idxalı və ixracı barədə.

Rüblük hesabatlar

dövlət idarələrinə və beynəlxalq təşkilatlara rübün sonundan 40 gün keçdikdən sonra göndərilir. Rüblük məlumatlar həmin rübdən sonra 90 gün ərzində "Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikası" məcmuəsi şəklində nəşr edilir. Bu hesabatda ölkənin xarici ticarətinin ümumi yekunları, ayrı-ayrı ölkələr və ölkə qrupları ilə olan xarici ticarət, XİFMN üzrə ölkənin idxalı və ixracı, ölkələr və mallar üzrə idxal-ixrac, xarici iqtisadi əlaqə iştirakçılarının kateqoriyaları üzrə idxal-ixrac malları, habelə barter əməliyyatları üzrə ixrac malları barədə məlumatlar olur.

İllik hesabatlarda

Azərbaycan Respublikasının xarici ticarətinin ümumi yekunu, xarici ticarətin qitələr və ölkə qrupları üzrə bölgüsü haqqında məlumatar olur (MDB, AB, OPEK və s.) . İllik məlumatlar növbəti ilin ikinci rübünün sonunadək "Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikası" məcmuəsi şəklində nəşr edilir.

Gömrük statistikasının aparılması ilə bağlı olan hüquqpozmalar, aşağıdakı ola bilər:

- sənədlərdən aldatma yolu ilə istifadə etməklə malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi (AR İXM 260-cı maddə);

- malların və nəqliyyat vasitələrinin bəyan edilməməsi və ya düzgün bəyan edilməməsi (AR İXM 261-ci maddə).

- malların və nəqliyyat vasitələrinin bəyanetmə qaydasının pozulması (AR İnzibati Xətalar Məcəlləsi, maddə 274);

- gömrük orqanına gömrük bəyannaməsinin, sənədlərin və əlavə məlumatların təqdimedilmə müddətlərinin pozulması (275-ci maddə);

- gömrük orqanına hesabat təqdim edilməməsi və uçot aparılması qaydasına riayət edilməməsi (İXM, 277-ci maddə);

Xüsusi gömrük statistikasının aparılması qaydaları

Xüsusi gömrük statistikası Azərbaycan Respublikasının xarici ticarətinin gömrük statistikası ilə bağlı olmayan, Azərbaycan Respublikasının gömrük orqanlarının (bundan sonra – gömrük orqanları) fəaliyyətinin müxtəlif istiqamətlərini əks etdirən və onların fəaliyyətini optimallaşdırmaq və tənzimləmək üçün nəzərdə tutulmuş sistemləşdirilmiş məlumatlar məcmusudur.

Xüsusi gömrük statistikasının predmeti gömrük orqanlarının fəaliyyətinin müşahidə edilməsi və öyrənilməsi, habelə bu fəaliyyətin statistik və ya mühasibat uçotu şəklində faktiki məlumatlarla əks etdirilməsidir.

Bu Qaydalar gömrük orqanları tərəfindən aşağıdakı tədbirlərin həyata keçirilməsi üçün xüsusi gömrük statistikası məlumatlarının yığılması, emalı, hesabatların formalaşdırılması və təqdim edilməsi məsələlərini tənzimləyir:

- gömrük orqanlarının fəaliyyətinin idarə edilməsi və onların fəaliyyət strategiyasının müəyyən edilməsi məqsədi ilə xüsusi gömrük statistikası məlumatlarının təhlili;
- gələcək təkmilləşdirmə istiqamətlərinin müəyyən edilməsi və ayrı-ayrı gömrük orqanlarının bütün gömrük xidmətində tətbiq edilməsi faydalı olan uğurlu fəaliyyətlərinin aşkar edilməsi.
- Xüsusi gömrük statistikasının məlumatları gömrük orqanları tərəfindən yalnız gömrük məqsədləri üçün istifadə olunur.
- Gömrük məqsədləri aşağıdakılar hesab edilir:
- gömrük əməliyyatlarının sadələşdirilməsi ilə əlaqədar gömrük nəzarətinin gücləndirilməsi;
- əməliyyat-axtarış fəaliyyətinin effektivliyinin artırılması;
- gömrük işi sahəsində cinayətlərə və gömrük hüquqpozmalarına qarşı mübarizənin gücləndirilməsi;
- yeni informasiya sistemlərini, müasir texnologiyaları və innovasiya layihələrini tətbiq etməklə gömrük əməliyyatlarının sürətləndirilməsi;
- qanunla müəyyən edilmiş qaydada maliyyə və valyuta nəzarəti tədbirlərinin həyata keçirilməsi, gömrük rüsumlarının və digər gömrük ödənişlərinin vaxtında və tam həcmdə dövlət büdcəsinə köçürülməsinin təmin edilməsi;
- gömrük işi sahəsində islahatların aparılmasının təmin edilməsi, gömrük orqanlarının strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi;
- gömrük orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədi ilə kurs və təlim proqramlarının təkmilləşdirilməsi və inkişaf etdirilməsi;

- qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələrin yerinə yetirilməsi.

Xüsusi gömrük statistikası uçotunun əhatə dairəsi

Xüsusi gömrük statistikası uçotunun əhatə dairəsi gömrük orqanlarının fəaliyyətinin müxtəlif istiqamətləri haqqında məlumatlardır.

Gömrük orqanlarının fəaliyyət istiqamətlərinə aşağıdakı müşahidə obyektləri daxildir:

1. gömrük ödənişlərinin tutulması;
2. gömrük dəyərinə nəzarət;
3. valyuta nəzarəti;
4. risklərin idarə edilməsi sistemi;
5. gömrük prosedurları;
6. əməliyyat-axtarış fəaliyyəti;
7. gömrük işi sahəsində cinayətlərlə və gömrük hüquqpozmaları ilə mübarizə;
8. vəzifəli şəxslərin peşə hazırlığı;
9. gömrük işində texnologiyalardan, rabitə vasitələrindən və informasiya sistemlərindən istifadə.

Xüsusi gömrük statistikası məlumatlarının yığılması və formalaşdırılması

Xüsusi gömrük statistikası məlumatlarının yığılması aşağıdakı sənədlərdə olan məlumatlar əsasında həyata keçirilir:

- gömrük orqanlarının fəaliyyətinin təmin edilməsinə və gömrük infrastrukturunun inkişaf etdirilməsinə aid edilən;
- gömrük qanunvericiliyinə uyğun olaraq hüquqi və fiziki şəxslər tərəfindən təqdim olunan.

Xüsusi gömrük statistikası məlumatlarının yığılması və formalaşdırılması

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin (bundan sonra – Komitə) aparatının struktur bölmələri, ərazi və ixtisaslaşdırılmış gömrük idarələri və Komitənin tabeliyində olan digər qurumlar tərəfindən Komitənin fəaliyyətinin nəticələri haqqında Komitə rəhbərliyini və digər mərkəzi icra hakimiyyəti orqanlarını məlumatlandırmaq məqsədi ilə Komitənin və ya digər mərkəzi icra hakimiyyəti orqanlarının hüquqi aktları əsasında hazırlanan xüsusi gömrük statistikasının formaları (bundan sonra - formalar) əsasında həyata keçirilir.

Formaların hazırlanması üçün həmin formaların tərtib olunmasına müəyyən tələbləri əks etdirən hüquqi aktla təsdiq edilmiş statistik hesabat formasından-nümunədən istifadə edilir.

Formaların xarici görünüşünə və məzmununa olan tələbləri aşağıdakılardır:

1. formanın adı;
2. formanın nömrəsi;

3. statistik məlumatın təqdim olunma dövrü (və ya tarixi);
4. formanın kim tərəfindən, kimə və hansı müddətdə təqdim edilməsi və informasiyanın təqdim edilmə dövriliyi;
5. cədvəl şəklində məlumat hissəsi (bölmə və alt bölmələrdən ibarət ola bilər);
6. formanın doldurulması üçün göstərişlər (göstərişlərdə formanın doldurulma qaydaları, statistik göstəricilərin formalaşdırılması və məlumatların təqdim olunması xüsusiyyətləri);
7. formanın tərtib olunmasına məsul şəxsin soyadı, adı, əlaqə telefonunun nömrəsi (xidməti, iş).

Formanın məlumat gömrük orqanlarının fəaliyyət istiqamətlərini xarakterizə edən məlumatlardan tərtib olunur. Məlumatların siyahısı Komitənin göstərilən istiqamətdə işi aparan struktur bölmələri, ərazi və ixtisaslaşdırılmış gömrük idarələri və tabeliyində olan digər qurumlar tərəfindən müəyyən olunur.

Komitənin informasiya resurslarından alına bilən məlumatlar formaların tərkibinə daxil edilməməlidir.

Xüsusi gömrük statistikası məlumatlarının təqdim edilməsi

Gömrük orqanları xüsusi gömrük statistikası məlumatlarını Komitənin struktur bölmələrinə formaların təsdiq olunduğu hüquqi aktda qeyd olunan müddətdə təqdim edirlər. Göstərilən məlumatlar Komitənin informasiya sistemlərindən, informasiya texnologiyalarından, onların təminat vasitələrindən və qoruyucu proqram texniki vasitələrdən istifadə edilməklə elektron formada təqdim olunur.

Komitənin aparatının struktur bölmələri, ərazi və ixtisaslaşdırılmış gömrük idarələri və tabeliyində olan digər qurumlar xüsusi gömrük statistikası məlumatlarını ümumiləşdirərək Komitənin rəhbərliyinə və digər struktur bölmələrinə, habelə qanunvericiliklə müəyyən olunmuş qaydada digər mərkəzi icra hakimiyyəti orqanlarına təqdim edirlər.

Azərbaycan Respublikası Xarici Ticarətinin Gömrük Statistikasının metodologiyasının» tətbiqi ilə əlaqədar olaraq statistik dəyərin hesablanmasına dair Təlimat

I. Təlimatın məqsədi

Xarici ticarət dövriyyəsinin dəyər qiymətləndirilməsi ölkənin beynəlxalq əlaqələri üzrə onun iqtisadi vəziyyətinin əsas göstəricisidir. Bu zaman nəzərə almaq lazımdır ki, alqı-satqı sövdələşmələrində alıcı və satıcının götürdükləri öhdəliklərdən asılı olaraq malın bir ölkədən digərinə göndərilməsi üzrə xarici ticarət müqaviləsi Beynəlxalq ticarət palatası tərəfindən hazırlanmış qaydalara əsasən 13 göndərmə kommersiya şərti əsasında bağlanılır («İnkoterms»).

Xarici ticarət müqavilələrinin bağlanılması zamanı müxtəlif göndərilmə ticarət şərtlərinin nəzərə alınması və bundan asılı olaraq malın faktiki dəyərinin hesablanması metodologiyası müxtəlif olduğundan, ayrı-ayrı malların dəyərləri üzrə məlumatların sadəcə olaraq toplanması yolu ilə yekun məlumatın bütün mal dövriyyəsi üzrə alınması kifayət deyil. Belə ki, malların dəyər qiymətləndirilməsi müxtəlif cinslidir və müxtəlif elementlərdən təşkil olunmuşdur. Odur ki, bütün idxal və ixrac olunan mallar üçün eyni cinsli dəyər qiymətləndirilməsi göstəricisinin alınması üçün, bütün malların qiymətlərini vahid bazisə gətirmək lazımdır.

Bu Təlimatın məqsədi gömrük statistikasının metodologiyasına uyğun olaraq malların statistik dəyərinin vahid valyutaya gətirilməsinin və hesablanmasının ümumi qaydalarının şərh edilməsidir.

II. Malların göndərilmə kommersiya (bazis) şərti anlayışı və onların təsnifatı

Xarici ticarət üzrə alqı-satqı müqaviləsində göndərmə kommersiya (bazis) şərtləri xüsusi şərt olaraq, malın bir ölkədən digər ölkəyə çatdırılması zamanı alıcı və satıcının öhdəliklərinin araşdırılmasında, mal üzrə mülkiyyət hüququnun başqasına keçməsində, onun itirilməsində, malın xarab olmasında və ya çatdırılmaması zamanı cavabdehliyi müəyyən edir.

Malların göndərilməsinin kommersiya şərti, həmçinin bazis şərti də adlanır. Ona görə ki, o satıcı-ixracatçıdan alıcı-idxalatçıya malın çatdırılması ilə əlaqədar olan xərclərin kim tərəfindən ödənilməsindən asılı olaraq malın sövdələşmə qiymətinin bazisini (əsasını) müəyyən edir.

Sövdələşmə qiymətinə o xərclər daxil edilir ki, satıcı öz öhdəliyinə müvafiq olaraq göndərmə kommersiya şərti üzrə onların ödənişini öz üzərinə götürür və hesab-fakturaya daxil edir.

Azərbaycan Respublikası ərazisində gömrük işinin beynəlxalq qaydalarla aparılmasına keçilməsi ilə əlaqədar «İnkoterms-90» qaydalarına müvafiq olaraq 13 göndərilmə kommersiya şərti əsasında müqavilə bağlanıla bilər. Bu təsnifat elə təşkil olunub ki, bütün 13 terminin qısa hərflərlə ifadəsi 4 latın hərfinin — «E», «F», «C», «D» biri ilə başlayır. Buna müvafiq olaraq ümumi xüsusiyyətlərinə görə onları 4 qrupa bölmək olar.

Birinci qrupa «E» göndərmənin bu kommersiya şərti yalnız bir termindən ibarətdir. EXB — «zavoddan» — EXW (EX WORKS).

«Zavoddan» ifadəsinin mənası odur ki, satıcı malı öz müəssisəsində alıcıya verdiyi andan öhdəliyini yerinə yetirmiş olur (məsələn, zavodda, fabrikdə, anbarda və s.). Bu göndərilmə kommersiya şərti ilə satıcı malın nəqliyyat vasitəsinə yüklənməsinə və ixrac gömrük vergilərinin ödənməsinə (əgər başqa şərtlər olmamışdırsa) cavabdehlik

daşımır. Alıcı isə malın satıcı-müəssisədən təyinat yerinə qədər daşınması ilə əlaqədar bütün riskləri və xərcləri özü çəkir.
İkinci qrupa «F» göndərmənin bu kommersiya şərti üç termindən ibarətdir — FSA, FAS, FOB (FCA, FAS, FOB).
FSA — «franko daşıyıcı». Bu terminin mənası odur ki, satıcı malı ixrac gömrük rəsmiləşdirilməsindən keçirdikdən sonra, alıcı tərəfindən təyin olunmuş daşıyıcıya, razılaşdırılmış yerdə və ya məntəqədə təhvil verdikdə çatdırılma üzrə öz öhdəliyini yerinə yetirmiş olur.
FAS — «gəmi bortu boyunca sərbəst» kommersiya şərtinin mənası odur ki, dəniz daşınmalarında satıcı malı razılaşdırılmış yükləmə limanına gətirərək, onu gəmi bortu boyunca sahildə və ya lixterlərdə yerləşdirdikdə öz öhdəliyini yerinə yetirmiş olur. Bu andan etibarən malların korlanması və ya xarab olması üzrə öhdəliklər satıcıdan alıcıya keçir. FAS şərtində tələb olunur ki, malın ixrac rəsmiləşdirilməsini alıcı yerinə yetirsin. Əgər alıcı birbaşa və ya bilavasitə ixrac gömrük rəsmiləşdirilməsini yerinə yetirə bilmirsə, bu termindən istifadə etmək olmaz.
FOB — «sərbəst gəmi bortunda» kommersiya şərtində mal göstərilmiş yükləmə limanında gəminin məhəccərindən keçdikdə satıcı daşıma üzrə öz öhdəliyini yerinə yetirmiş olur. Malların korlanması və ya xarab olması üzrə öhdəliklər bu andan alıcıya keçir. FOB şərtində tələb olunur ki, malın ixrac rəsmiləşdirilməsini satıcı yerinə yetirsin.
Üçüncü qrupa «C» göndərmənin bu kommersiya şərti dörd termindən ibarətdir — SFR, SİF, SPT, SİP (CFR, CIF, CPT, CIP).
SFR — «dəyər və icarə» şərti, «satıcı malı, alıcının ölkəsindəki təyinat limanına çatdırmaq üçün lazım olan bütün xərcləri və icarə haqqını ödəməlidir» mənasını verir. Malın təyinat limanında boşaldılma xərclərini alıcı ödəyir.
İxrac rəsmiləşdirilməsini satıcı, idxal rəsmiləşdirilməsini isə alıcı aparır.
SİF — «dəyər, sığorta və icarə». Göndərmənin bu kommersiya şərtində malın alıcı ölkənin təyinat limanına çatdırılması, həmçinin malın sığortalanması da satıcının öhdəsinə düşür.
İxrac rəsmiləşdirilməsini satıcı, idxal rəsmiləşdirilməsini isə alıcı aparır.
SPT — «daşınma … (təyinat yeri) qədər ödənilib» kommersiya şərtində satıcı malın alıcının ölkəsində yerləşən təyinat yerinə aparılmasına və alıcının anbarına malı aparan daşıyıcıya təhvil verilməsinə cavabdehlik daşıyır.
İxrac rəsmiləşdirilməsini satıcı, idxal rəsmiləşdirilməsini isə alıcı aparır.

SİP — «daşınma və sığortalama … (təyinat yeri) qədər ödənilib». Bu göndərmə kommersiya şərtində satıcının öhdəsinə, malın satıcının ölkəsində yerləşən təyinat yerində daşıyıcıya təhvil verilməsi və yükün öz hesabına sığortalanması düşür.
İxrac rəsmiləşdirilməsini satıcı, idxal rəsmiləşdirilməsini isə alıcı aparır.
Dördüncü qrupa — «D» göndərilmənin bu kommersiya şərti beş termindən ibarətdir — DAF, DES, DEK, DDU, DDP — (DAF, DES, DEQ, DDU, DDP).
DAF — «sərhədə qədər göndəriş». Təyin olunmuş vaxtda sərhəddə razılaşdırılmış məntəqəyə malın gətirilməsi satıcının öhdəsinə düşür.
Burada «sərhəd» termini altında istənilən sərhəd, ixracatçı ölkənin sərhədi, eləcə də idxalatçı ölkənin sərhədi başa düşülür. Odur ki, bu şərt daxilində konkret yerin və ya məntəqənin adı göstərilməklə sərhədin dəqiq təyin edilməsi əsasdır.
İxrac rəsmiləşdirilməsini satıcı, idxal rəsmiləşdirilməsini isə alıcı aparır.
DES — «gəmidən göndəriş». Əgər mal gəminin bortunda alıcıya təhvil verilibsə və hələ razılaşdırılmış təyinat limanında gömrükdən keçməyibsə, satıcı çatdırılma üzrə öz vəzifəsini yerinə yetirmiş hesab edir. Alıcının ölkəsində yerləşən təyinat limanına qədər malın çatdırılması üzrə bütün xərcləri və riskləri satıcı çəkir.
İxrac rəsmiləşdirilməsini satıcı, idxal rəsmiləşdirilməsini isə alıcı aparır.
DEK — «gəminin yan aldığı körpüdən göndəriş» şərtində satıcı gömrük rəsmiləşdirilməsindən keçən malı razılaşdırılmış təyinat limanında gəminin yan aldığı körpüdən alıcıya çatdırılması öhdəliyini yerinə yetirir. Satıcı malın çatdırılması zamanı bütün riskləri, eləcə də rüsum, vergi və yığımları özü çəkir.
Əgər satıcı idxala birbaşa və ya bilavasitə lisenziya ala bilmirsə, bu termini işlətmək olmaz.
İxrac və idxal rəsmiləşdirilməsini satıcı aparır.
DDU — «rüsum ödənilmədən göndəriş». Bu göndərmə kommersiya şərtini bəzən «rüsum ödənilmədən alıcının franko-anbarı» da adlandırırlar.
Satıcı malın alıcının anbarına çatdırılmasına qədər bütün xərcləri və riskləri ödəyir. Bu zaman, ixrac rəsmiləşdirilməsini satıcı aparır və çəkilən xərclərə idxal rəsmiləşdirilməsi aid edilmir.
DDP — «rüsum ödənilməklə göndəriş». Bu göndərilmə kommersiya şərti bəzən «alıcının anbarına göndəriş» də adlandırılır. Bu şərt daxilində idxal və ixrac rəsmiləşdirilməsi ödənilməklə mal alıcının anbarına çatdırılır.
III. İdxal və ixrac olunan malların qiymətləndirilməsi
Xarici Ticarət dövriyyəsinin qiymətləndirilməsi gömrük statistikasının qarşısında duran məsələlərdən ən vacibdir. Yuxarıda qeyd olunduğu kimi, beynəlxalq ticarət praktikasında sövdələşmələr müxtəlif şərtlər daxilində həyata keçirilir. Bundan asılı

olaraq, eyni mal alınma yerində bir qiymətə, çatdırılma yerində isə başqa qiymətə (bir az yüksək qiymətə) olacaqdır. Belə ki, malın istehsalçıdan istehlakçıya hərəkəti zamanı onun qiyməti daşınma, sığorta və s. əlavə xərclərin hesabına artacaqdır.
İxrac olunan malların uçotu FOB-liman və ya DAF-sərhəd qiymətləri üzrə, idxal olunanlar isə SİF-liman və ya SİP-sərhəd qiymətləri ilə aparılır.
Bu cür uçot praktikası müəyyən iqtisadi məna kəsb edir, çünki ixrac olunan malları FOB qiymət bazisi ilə qiymətləndirərkən, ixrac edən ölkənin bilavasitə sərhədindən mala çəkilən bütün xərclərin ümumi cəmi, idxal olunan malların qiymətinin hesablanması zamanı isə — SİF bazis qiymətində alıcının xarici malı almaq üçün sərf etdiyi xərclərin cəmi göstərilir. İstənilən növ daşımalarda SİF və FOB bazis qiyməti tətbiq olunur.
SİF və FOB qiymətlərinin əmələ gəlməsini aşağıdakı sxemdə izləmək olar:
1. Malın qiymətinə aşağıdakılar daxildir:
□□malın istehsalının maya dəyəri;
□□qablaşdırma və markalamaya çəkilən xüsusi xərclər;
□□istehsalçının mənfəəti.

2. İxrac edən ölkənin sərhədinə qədər malın çatdırılma xərcləri:
□□daxili daşıyıcının daşınma vasitəsinə malın yüklənmə xərci;
□□daşınma məntəqəsindən əsas daşıma vasitəsinə qədər malın daşınma xərci;
□□ixracatçının sərhədinə qədər daşınma vaxtında malın sığortalanma xərci;
□□ixrac vergilərinin ödənilməsi (ixrac lisenziyası, ixracatçı-ölkədə alınan ixrac vergisi, rüsumu və digər yığımlar);
□□məntəqələrdə boşaldılmış yükün saxlancına çəkilən xərclər;
□□əsas nəqliyyat vasitəsinə yükləmə xərci;
□□ixracatçı-ölkənin digər xərcləri.

Məbləğ (1+2)=FOB qiyməti (və ya ixracatçı-ölkənin sərhəddi (DAF))
3. İxracatçının sərhədindən Azərbaycan Respublikasının gömrük ərazisində giriş yerinə qədər çəkilən xərclər aşağıdakılardan ibarətdir:
□□nəqliyyat xərcləri;
□□yolda sığortalanmaya çəkilən xərclər.

Məbləğ (1+2+3)=SİF qiyməti (və ya idxalatçı ölkənin sərhəddi (SİP)).

Əgər malların alqı-satqısı ödənişsiz olarsa (məsələn, humanitar yardım, barter əməliyyatı və s.), onda ixrac (idxal) mallarının qiyməti, ticarət əsasında həmin ölkədən idxal-ixrac olunmuş ilə adlı malın qiyməti ilə qiymətləndirilir.

IV. Malların statistik dəyərinin bazis qiymətlərinə gətirilməsi

İdxal əməliyyatlarında

a) YGB-nin 20-ci qrafasında SİF-liman və ya SİP-sərhəd təyinat məntəqəsi göstərilibsə və həqiqətən mallar sərhədə göndərilibsə, bu halda statistik dəyər valyuta məzənnəsi nəzərə alınmaqla faktura dəyəri əsasında hesablanır və YGB-nin 46-cı qrafasında yazılır.

b) SİF-liman və SİP-sərhəd təyinat məntəqəsi kontrakt (müqavilə) şərtlərinə müvafiq olaraq Azərbaycan Respublikasının gömrük ərazisindən kənar yerləşirsə (məsələn SİF-Vilnyus, SİP-Kiyev) onda faktura dəyərinə malların Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilmə yerinə qədər çatdırılması üzrə daxil edilməmiş əlavə xərclər əlavə edilir. Alınmış faktura dəyərinin yeni məbləği əsasında məzənnə nəzərə alınaraq statistik dəyər hesablanır və YGB-nin 46-cı qrafasına yazılır.

v) Bazis göndərilmə kommersiya şərtlərdən başqa (SİF, SİP) YGB-nin 20-ci qrafasında təsnifata uyğun müxtəlif şərtlər qeyd olunanda həmin şərtlər (EXV, FAS, FSA, SFR, SPT, DES, DEK, DDU və DDP) vahid bazis şərtlərinə gətirilməlidir. Vahid bazis şərtlərinə gətirilmə prosedurası ondan ibarət olmalıdır ki, müxtəlif satış ticarət şərtlərinə (EXV, FAS, FSA, SFR, SPT, DES, DEK, DDU və DDP) uyğun olan faktura dəyəri SİF və SİP göndərmə ticarət şərtinə uyğun faktura dəyəri ilə müqayisə olunmalıdır. Müqayisə aparılanda təyinat məntəqəsinin yerləşməsi nəzərə alınmalıdır.

Misal:

a) Təyinat məntəqəsi — Həştərxan şəhəri;

Kontrakt (müqavilə) göndərilmə kommersiya şərti — FAS (gəmi bortu boyunca sərbəst)

Müqavilə üzrə rezident malı Həştərxandan Bakıya gətirməlidir. Bu halda YGB-də FAS göndərilmə kommersiya şərtinə uyğun olan faktura dəyərinə, Həştərxan-Bakı nəqli üzrə əlavə xərclər əlavə olunmalıdırlar. Alınmış yeni faktura dəyəri SİF-Bakı göndərmə ticarət şərtinə müvafiqdir və valyuta məzənnəsi əsasında statistik dəyərinə çevrilir.

b) Təyinat məntəqəsi — Sumqayıt şəhəri;

Kontrakt (müqavilə) göndərilmə kommersiya şərti — SPT (daşınma … (təyinat yeri) qədər ödənilib)

Bu halda müqavilə üzrə daşınma Sumqayıt şəhərinə qədər ödənilib və bununla əlaqədar SPT göndərmə ticarət şərtinə müvafiq olan faktura dəyəri SİP-Bakı

göndərmə ticarət şərtilə müqayisədə böyük olacaq. Vahid bazis şərtinə gətirmək üçün YGB-də göstərilən faktura dəyərindən Bakı-Sumqayıt arasında mövcud olan xərclər çıxarılmalıdır və alınmış rəqəmin əsasında valyuta məzənnəsini nəzərə almaq şərti ilə statistik dəyər hesablanmalıdır.

İxrac əməliyyatları

İxrac əməliyyatlarında da malların göndərilmə kommersiya şərtlərinin bazis şərtinə gətirilməsi və statistik dəyərinin hesablanmasının qaydaları eynidir.

V. Statistik dəyərin hesablanılması

1993-cü ilin yanvarın 1-dən statistik dəyər Azərbaycan Respublikasının Milli Bankının YGB-nin rəsmiləşdirilməyə qəbul olunan gününə olan kursla ABŞ dolları ilə ifadə olunur. İdxal və ixrac edilən malların statistik dəyəri aşağıdakı qaydada hesablanaraq nəticələri YGB-nin 46-cı qrafasında yazılır.

a) İdxal əməliyyatları üzrə

Beynəlxalq praktika göstərir ki, müqavilə göndərmə şərtləri malın statistik dəyəri üzrə seçilmiş baza şərtinə — SİF liman və ya SİP sərhəd təyinat məntəqəsinə tam uyğundur. Bununla əlaqədar olaraq, idxal əməliyyatlarında YGB-nin 46-cı qrafası manatın dollara kursu nəzərə alınmaqla aşağıdakı qaydada hesablanılır: 46-cı qrafa 45-cı qrafa (YGB)

_____

manat dollara kursu

(YGB-nin gömrük rəsmiləşdirilməsinə qəbul olunduğu gün)

b) İxrac əməliyyatları üzrə

Malın statistik dəyərinin hesablanması aşağıda göstərilən ardıcıllıqla aparılmalıdır:

□□müqavilə şərtlərinə müvafiq olaraq təyinat məntəqələri müəyyən olunmalıdır;

□□təyinat məntəqələri baza şərtlərinə müvafiq olmadıqda, təlimatın III bölməsinə uyğun olaraq, malın faktura dəyərinin üzərində əlavə hesablamalar aparılaraq baza şərtlərinə gətirilməlidir — FOB liman və ya DAF — Azərbaycan Respublikasının sərhədi;

□□YGB-nin 46-cı qrafası aşağıdakı kimi hesablanılmalıdır:

46-cı qrafa 42-cı qrafa x 23-cı qrafa (YGB)

_____

manat dollara kursu

(YGB-nin gömrük rəsmiləşdirilməsinə qəbul olunduğu gün)

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 2 may tarixli 92 nömrəli qərarı ilə təsdiq edilmişdir

Xarici ticarətin gömrük statistikasının nəşr olunması Qaydası

Bu Qaydalar Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 317.5-ci maddəsinə əsasən hazırlanmışdır və xarici ticarətin gömrük statistikasının (bundan sonra — XTGS) nəşr olunması qaydasını müəyyən edir.

XTGS rəsmi statistikanın tərkib hissəsidir.

XTGS mallar üçün gömrük bəyannamələrində və gömrük orqanına təqdim edilən digər sənədlərdə olan məlumatlar əsasında formalaşdırılır.

XTGS-də malların idxal və ixracının qeydiyyatı onlar üçün tərtib edilmiş gömrük bəyannamələrində əks olunan malların buraxılma tarixinə əsasən aparılır.

XTGS-yə idxalı respublikanın maddi ehtiyatlarını artıran və ixracı maddi ehtiyatlarını azaldan bütün mallara dair məlumatlar daxil edilir.

XTGS-nin məqsədləri

XTGS malların idxalı və ixracı haqqında məlumatları tam və dəqiq əks etdirməlidir.

XTGS Azərbaycan Respublikasının digər ölkələrlə ticarət-iqtisadi münasibətlərinin vəziyyətini və dinamikasını xarakterizə etməklə, aşağıdakı məsələlərin həyata keçirilməsi məqsədini daşıyır:

1. xarici ticarət axınının əsas tendensiyasının, strukturunun və dinamikasının təhlili;
2. xarici iqtisadi fəaliyyətin tənzimlənməsində tarif və qeyri-tarif tədbirlərinin tətbiq edilməsinin nəticələrinin təhlili;
3. xarici ticarət siyasəti və xarici ticarətin dövlət tənzimləməsi sahəsində qərarların qəbul olunması üçün Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Vergilər Nazirliyinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin, Azərbaycan Respublikası Mərkəzi Bankının və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin XTGS ilə təmin edilməsi;
4. gömrük ödənişlərinin dövlət büdcəsinə daxil olmasına nəzarətin həyata keçirilməsi;
5. makroiqtisadi göstəricilərin proqnozlaşdırılması;
6. miqdar, dəyər və orta qiymət indekslərinin hesablanması;
7. xarici iqtisadi fəaliyyətin inkişafına və xarici ticarət əlaqələrinin genişləndirilməsinə yardım edilməsi;

8. dövlətin həyata keçirdiyi xarici iqtisadi siyasət tədbirlərindən irəli gələn digər məsələlərin həll edilməsi.

XTGS-nin əsas göstəriciləri

XTGS-nin formalaşdırılması üçün aşağıdakı əsas göstəricilərdən istifadə edilir:

1. Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (bundan sonra — XİFMN) üzrə malın kodu;
2. XİFMN üzrə malın adı;
3. malın hərəkət istiqaməti (idxal, ixrac);
4. hesabat dövrü;
5. malın statistik dəyəri (ABŞ dolları ilə);
6. malın netto çəkisi (kq);
7. XİFMN üzrə əlavə ölçü vahidi;
8. əlavə ölçü vahidi üzrə malın miqdarı;
9. malın təyinat ölkəsi;
10. malın mənşə ölkəsi;
11. malı göndərən ölkə;
12. ticarət edən ölkə;
13. malı sərhəddən keçirən nəqliyyat növü;
14. sövdələşmənin xarakteri.

Ərazisindən Azərbaycan Respublikasına mal və nəqliyyat vasitələrinin yola salındığı ilk ölkə göndərən ölkə, xarici ticarət əməliyyatının Azərbaycan Respublikasının rezidenti olmayan tərəfdaşının qeydiyyatda olduğu (yaşadığı) ölkə isə ticarət edən ölkə hesab edilir.

Tərəfdaş ölkə kimi idxalda malın mənşə ölkəsi, ixracda isə malın sonuncu bəlli olan təyinat ölkəsi hesab edilir.

Aşağıdakı hallarda malların idxalı göndərən ölkə üzrə aparılır:

1. mənşə ölkəsi bəlli olmayan mallar üçün;
2. «təkrar idxal» gömrük proseduru altında yerləşdirilən mallar üçün;
3. XİFMN üzrə mal mövqeyinin 97-ci mal qrupuna (incəsənət əsərləri, kolleksiya əşyaları və antikvariat) daxil edilən mallar üçün.

Malın mənşə ölkəsi və göndərən ölkə məlum olmadıqda, malın idxalı ticarət edən ölkə üzrə aparılır.

Malın təyinat ölkəsi məlum olmadıqda, malın ixracı ticarət edən ölkə üzrə aparılır.

XTGS-nin nəşri

XTGS müntəzəm olaraq, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin (bundan sonra — Komitə) rəsmi internet saytında yerləşdirilməklə, mətbuatda dərc edilməklə və statistik məcmuələr və bülletenlər şəklində nəşr edilməklə yayılır.

Aylıq məlumatlar növbəti ayın 15-dək Komitənin rəsmi internet saytında yerləşdirilir və Komitənin mətbu orqanında dərc edilir.

Rüblük məlumatlar həmin rübdən sonra 90 gün ərzində «Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikası» məcmuəsi şəklində nəşr edilir.

İllik məlumatlar növbəti ilin ikinci rübünün sonunadək «Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikası» məcmuəsi şəklində nəşr edilir.

Məlumatların həqiqiliyinə və dəqiqliyinə inamı artırmaq və onların istifadəçilər tərəfindən düzgün anlaşılmasına nail olmaq məqsədi ilə statistik nəşrlərə məlumatların mənbələri haqqında informasiya daxil edilir və məlumatlar müntəzəm olaraq yeniləşdirilir.

XTGS aşağıdakı bölmələr üzrə ayrı-ayrılıqda və ya toplu şəklində nəşr edilməklə yayılır:

1. Azərbaycan Respublikasının xarici ticarətinin ümumi yekunları;
2. idxal və ixracın aylar üzrə dinamikası;
3. mallar üzrə idxal və ixrac;
4. ölkələr üzrə idxal və ixrac;
5. hər hansı ölkəyə görə mallar üzrə idxal və ixrac;
6. hər hansı mala görə ölkələr üzrə idxal və ixrac;
7. ölkə qrupları üzrə idxal və ixrac;
8. gömrük ödənişləri.

Məlumatların yayılmasına qoyulan məhdudiyyətlər

Hüquqi və fiziki şəxslər tərəfindən təqdim edilən xarici ticarət haqqında məlumatlar yalnız gömrük məqsədləri, o cümlədən XTGS-nin formalaşdırılması üçün istifadə olunur.

Malların idxalı və ixracı haqqında məlumatlar xarici iqtisadi fəaliyyət iştirakçısı ilə bağlı olduqda konfidensial (kommersiya sirri) sayılır.

Məxfi və konfidensial məlumatlar nəşr edilən məcmuələrdə və bülletenlərdə əks etdirilmir. Məxfilik və konfidensiallıq rejiminin tətbiqi nəticəsində XTGS-də təhrif olunmanın qarşısını almaq, habelə XTGS-nin tamlığını təmin etmək üçün məxfi və konfidensial məlumatlar ümumi yekunda nəzərə alınmalıdır.

13. Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 17-ci maddəsinə görə "Azərbaycan Respublikasında gömrük işi gömrük orqanları tərəfindən yerinə yetirilir. Gömrük xidmətinin inzibati bölməsi olan və vahid sistem təşkil edən gömrük orqanları hüquq mühafizə orqanlarıdır". Bəs gömrük orqanları nə üçün hüquq-mühafizə orqanı sayılmalıdır?

Birincisi, gömrük orqanları icraedici və sərəncamverici orqan kimi, yüksək dövlət orqanlarının (Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Milli Məclisi və Azərbaycan Respublikasının Nazirlər Kabineti) qərarlarını icra etmək üçün, gömrük işi ilə əlaqədar normativ aktlar vermək hüququna malikdir. Bu normativ aktlar mallar və nəqliyyat vasitələrinin, habelə vətəndaşların gömrük sərhədini keçməsi ilə əlaqədar verilir ki, bu da gömrük orqanlarının inzibati-hüquqi fəaliyyətdə iştirakı deməkdir.

İkincisi, malların keçirilməsi ilə əlaqədar, gömrük orqanlarının vəzifəli şəxsləri ilə xarici iqtisadi fəaliyyətin iştirakçıları arasındakı gömrük, inzibati, cinayət, dövlət, beynəlxalq, maliyyə, mülki və sair sahələrdəki hüquqi münasibətlərin tənzimlənmiş normalarla qorunması, gömrük orqanlarının inzibati-prosessual, cinayət-hüquqi və cinayət-prosessual kimi hüquq-mühafizə formalarından istifadə etmək səlahiyyətinin olması, onun hüquq-mühafizə orqanı sayılmasını zəruri edir.

Gömrük işi sahəsində XİF iştirakçıları ilə gömrük işçiləri arasındakı münasibətləri tənzimləyən yüzlərlə normativ aktlar vardır ki, bunlar da dövlət idarəetmə mexanizminin bir hissəsi sayılır. Gömrük orqanları ilə XİF iştirakçıları arasındakı münasibətlər, həddən çox mürəkkəb xarakter daşıması ilə yanaşı, beynəlxalq, dövlət, inzibati, təsərrüfat, mülki, əmək, maliyyə, torpaq (yer), nəqliyyat, dəniz, hava, cinayət, cinayət-prosessual, hərbi və sair hüquq sahələrinin tənzimlənmə sferalarına da aiddir.

Azərbaycan Respublikası Konstitusiyasına görə hamı qanun qarşısında bərabər cavabdehlik daşıyır və onun hüquqi normalarına riayət etməlidir. İctimai münasibətlərin tənzimlənməsi üçün dövlət tərəfindən qoyulmuş və ya sanksiyalaşdırılmış, elə dövlət tərəfindən də qorunan məcburi intizam qaydaları hüquqi norma adlanır.

Hüquqi normalar, hüquqi subyektlər arasında səmərəli münasibətləri saxlayır, dövlət və cəmiyyətin, habelə vətəndaşların hüquqi maraqlarını müəyyən edir və qoruyur. Hər bir hüquqi normanın məntiqi və faktiki (real) strukturu vardır.

Hüquqi normanın məntiqi strukturunu hipoteza, dispozisiya və sanksiya yaradır.

Hipoteza normanın birinci hissəsi olub verilmiş normanın faktiki tətbiqi şəraitini təyin edir.

Dispozisiyada hüquq münasibəti iştirakçılarının hüquq və vəzifələrinin, intizam qaydalarının özü formalaşdırılır.

Sanksiyada isə hüquq normalarını pozan şəxslər üçün cəza tədbirlərinin neqativ nəticələri göstərilir.

Hüquqi normanın real (faktiki) strukturu isə *iki* hissədən ibarətdir:

1) hipoteza (həmişə birinci hissə) və dispozisiya (tənzimləyici normanın ikinci hissəsi)
2) hipoteza və sanksiya (hüquq-mühafizə normalarının ikinci hissəsi)

Hüquq normasının məntiqi strukturu dövlətə imkan verir ki, hüquq-mühafizə normaları ilə tənzimləyici normalara riayət olunmasını təmin etsin.

Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti dövlət fəaliyyətinin bir sahəsi olub, gömrük hüquq münasibətləri sferasında dövlətin daxili və xarici funksiyalarını yerinə yetirərkən ortaya çıxır.

Bu fəaliyyətin məqsədi gömrük işi sahəsində dövlət, inzibati, gömrük mülki və digər hüquq sahələrinin normalarının tətbiqi, icrası, istifadəsi və onlara riayət olunmasıdır.

Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti müxtəlif formalarda həyata keçirilir:

1) inzibati - hüquqi;
2) inzibati- prosessual;
3) cinayət - hüquqi;
4) cinayət - prosessual;
5) əməliyyat - axtarış və s.

Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətinin inzibati-hüquqi və inzibati prosessual formaları

Gömrük qaydalarının pozulması şəxsin qanunazidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində qoyulmuş aşağıdakı qaydaların pozulmasıdır:

1) mal və nəqliyyat vasitələrinin gömrük sərhədini (gömrük rejimərinin tətbiqi də daxil olmaqla) keçməsi ilə bağlı pozuntular;
2) onlara gömrük nəzarəti ilə əlaqədar;
3) bu mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi ilə bağlı;
4) gömrük ödənişlərinin qoyulması və ödənilməsi ilə əlaqədar;
5) gömrük güzəştlərinin verilməsi və onlardan istifadə ilə bağlı pozuntular.

Hüquq pozuntularının əlamətləri olan - subyektlər, obyektlər və sübyektiv tərəflər bütünlükdə gömrük qaydalarının pozulmasının tərkibi sayılır.

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi" nin 258-ci, 260-cı, 261.2-ci, 263-cü, 264-cü, 265.0.1-ci, 265.0.3-265.0.5-ci, 266-cı maddəsinin adında; 266.1-266.3-cü, 267-ci, 268-ci, 269-cu, 272-ci, 273-cü, 275-ci, 276-cı, 277-ci, 282.2-ci, 287-ci, 288-ci, 291-ci, 292-ci və 326-cı maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 357.0.3-cü maddəsinə müvafiq olaraq müəyyən edilir ki, həmin Məcəllənin 258-291-ci, 293-295-

ci və 326 maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi baxır.

"İnzibati Xətalar Məcəlləsi"nin XXI fəsli "Gömrük qaydaları əleyhinə olan inzibati xətalar" adlanır.

"İnzibati Xətalar Məcəlləsi" ilə qorunan ictimai münasibətlərə qəsd edən, hüquqa zidd olan, təqsirli sayılan və inzibati məsuliyyətə səbəb olan əməl inzibati xəta adlanır. Qəsdən və ya ehtiyatsızlıq üzündən törədilməsindən asılı olmayaraq hər bir hərəkət və hərəkətsizlik inzibati məsuliyyətə səbəb olursa inzibati xəta hesab olunur.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 23-cü maddəsində aşağıdakı inzibati tənbehlər nəzərdə tutulmuşdur:

1) xəbərdarlıq;
2) inzibati cərimə;
3) əmlakın əvəzi ödənilməklə götürülməsi;
4) əmlakın müsadirə edilməsi;
5) xüsusi hüququn məhdudlaşdırılması;
6) Respublika hüdudlarından kənara inzibati qaydada çıxartma;
7) inzibati həbs.

Gömrük qaydalarının pozulması haqqında işlərin icraatı və onlara baxılmasının mərhələləri

Gömrük qaydalarının pozulması işlərinin icraatı və onlara baxılma qaydaları bir neçə mərhələdən keçsə də, bu iş üzrə inzibati icraatın sərbəst prosessual hissəsi olaraq bir-biri ilə çox bağlıdır və özünə məxsus prosessual funksiyaları, məqsəd və tapşırıqları vardır.

Gömrük qaydalarının pozulması haqqında iş üzrə inzibati proses aşağıdakı mərhələlərdən ibarətdir:

1) işin başlanması və onun inzibati istintaqı;
2) işə baxılma və gömrük qaydalarının pozulması işi üzrə qərarın çıxarılması;
3) gömrük qaydalarının pozulması haqqında iş üzrə şikayətvermə, protest və qərara yenidən baxma;
4) gömrük qaydalarının pozulması üzrə Azərbaycan Respublikası gömrük orqanlarının qoyduğu məsuliyyətin icrası.

İşə baxılma və gömrük qaydalarının pozulması haqqında iş üzrə qərarın çıxarılması mərhələsi

Bu mərhələ gömrük qaydalarının pozulması haqqında işin mərkəzi mərhələsi olub, məhz burada hüquqpozma faktı mahiyyət etibarilə təsdiqlənir, inzibati istintaqın aparılması keyfiyyəti qiymətləndirilir, inzibati proses iştirakçılarının hüquq və azadlıqları qorunmaqla protokol tərtibinin və digər prosessual hərəkətlərin əsaslılığı və qanuni olması yoxlanılır. İşin icraatı zamanı aparılan istintaq nəticəsində fiziki şəxslərə və ya vəzifəli şəxslərə, törətdiyi hüquq pozuntusuna görə, inzibati cəza tədbiri kimi dövlət adından qərar çıxarılır.

Gömrük qaydalarının pozulması haqqında iş üzrə qərarın çıxarılması mərhələsində, bütün tərəflər öz maraq və müdafiələrini təmin etmək üçün geniş prosessual hüquqlara malikdirlər.

Bu mərhələdə aşağıdakılarla əlaqədar vacib prosessual məsələlər həll olunur:

1) işə baxılmanın hazırlığı ilə;
2) işin dinlənilməsi və baxılması ilə;
3) gömrük qaydalarının pozulması işi üzrə qərarın qəbul edilməsi ilə;
4) Azərbaycan Respublikası gömrük orqanları tərəfindən mal və nəqliyyat vasitələrinin götürülməsi üçün verilən cəzanın icrası ilə bağlı.

İşə baxılmanın hazırlıq mərhələsində, gömrük qaydalarının pozulması üzrə işə baxılması üçün, müvafiq gömrük orqanının səlahiyyətinə bu işin aid olub-olmaması müəyyənləşdirilir.

Gömrük qaydalarının pozulması üzrə işin icraatı zamanı, fiziki şəxslərin məsuliyyətə cəlb edilməsi Azərbaycan Respublikası gömrük orqanları tərəfindən həyata keçirilir. Belə orqanlar gömrük postu və ya gömrükxana ola bilər.

Gömrük qaydalarının pozulması ilə əlaqədar vəzifəli şəxslərin, həmçinin müəssisə, idarə və təşkilatların, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin məsuliyyətə cəlb olunması işinə Azərbaycan Respublikası gömrük orqanları tərəfindən baxıla bilər.

Regional gömrük idarələri isə gömrük qaydalarının pozulması ilə əlaqədar istənilən işə baxa və bu işlə bağlı bütün şəxsləri məsuliyyətə cəlb edə bilər.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi istənilən işi icraata qəbul edə və yaxud istədiyi gömrük orqanına həvalə edə bilər.

Mövcud qanunvericiliyə görə, fiziki şəxslər tərəfindən pozulmuş gömrük qaydaları ilə əlaqədar 15 günə, vəzifəli şəxslər və digər şəxslər tərəfindən törədilmişsə işə bir aya qədər baxılmalıdır.

Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxsi gömrük qanunvericiliyinə uyğun olaraq, gömrük qaydalarının pozulması haqqında işə baxmağa başlayaraq aşağıdakıları edir:

1) işə kimin baxdığını, hansı işə baxıldığını, kimin və hansı maddə ilə məsuliyyətə cəlb edildiyini söyləyir;
2) məsuliyyətə cəlb edilən şəxsin, məsuliyyətə cəlb edilən idarə, müəssisə və təşkilatın rəhbərinin və ya onun müavininin, onların vəkillərinin və ya nümayəndələrinin gəlib-gəlməməsini, gəlmədikləri halda isə onların gəlməmə səbəbini araşdırır.

Azərbaycan Respublikası gömrük orqanının vəzifəli şəxsi gömrük qaydalarının pozulması haqqında işə baxaraq aşağıdakı qərarlardan birini çıxarır:

1. tənbehetmə haqqında;
2. iş üzrə icraata xitam verilməsi haqqında;
3. gömrük işi sahəsində cinayətlər üzrə cinayət işinin başlanılması haqqında;

4. gömrük işi sahəsində cinayətlər və sair cinayətlər üzrə cinayət işinin başlanması məsələsinin həlli üçün, materialların Azərbaycan Respublikasının digər hüquq-mühafizə orqanlarına göndərilməsi haqqında;
5. işin əlavə icraata qaytarılması və iş üzrə icraata xitam verilməsi haqqında qərar, törədilmiş gömrük qaydalarının pozulmasının az əhəmiyyətli olması ilə əlaqədar hüquq pozan məsuliyyətdən azad edilərkən, həmçinin iş üzrə icraatın aparılmasını istisna edən hallar olduqda çıxarılır.

Cinayət işinin başlanması haqqında qərar, işə baxılmağa hazırlıq və ya işə baxılma zamanı gömrük işi sahəsində cinayətlərin əlamətləri aşkar edildiyi halda çıxarılır.

Gömrük qaydalarının pozulması haqqında iş üzrə qərarda aşağıdakılar qeyd edilməlidir:

1) qərar çıxaran Azərbaycan Respublikası gömrük orqanının adı;
2) qərar çıxaran vəzifəli şəxsin vəzifəsi, soyadı, adı, atasının adı;
3) işə baxıldığı vaxt və yer haqqında məlumat;
4) əgər müəyyən edilibsə, məsuliyyətə cəlb olunan şəxs haqqında məlumat;
5) işə baxılarkən müəyyən edilən halların şərhi;
6) törədilmiş gömrük qaydalarının pozulmasına görə, həmin məsuliyyət üçün Gömrük Məcəlləsində nəzərdə tutulan maddənin nömrəsi (sayı);
7) iş üzrə qəbul edilən qərar;
8) qərardan şikayət verilməsinin müddətləri və qaydası haqqında məlumat.

Qərarda götürülən mallar, nəqliyyat vasitələri, onların sənədləri və digər əşyalar, üzərinə həbs qoyulmuş əmlak, girov, zəmanət, depozitə verilmiş məbləğlər, maddi sübutlar və gömrük qaydalarının pozulması haqqında iş üzrə xərclər haqqında məsələlərin həlli öz əksini tapmalıdır.

Gömrük qaydalarının pozulması haqqında iş üzrə çıxarılan qərar, işə baxmış olan Azərbaycan Respublikası gömrük orqanının vəzifəli şəxsi tərəfindən imzalanır, surəti isə barəsində qərar çıxarılan şəxsə və ya onun nümayəndəsinə, qərar çıxarıldıqdan sonra üç gün ərzində verilir və ya göndərilir.

Gömrük qaydalarının pozulmasına görə Azərbaycan Respublikası gömrük orqanının qərarının icrası mərhələsi

Gömrük qaydalarının pozulmasına görə qərar, həmin qərardan şikayət verilməsi müddəti keçdikdən sonra, yaxud Azərbaycan Respublikasının yuxarı gömrük orqanı, rayon (şəhər) Məhkəməsi və ya Azərbaycan Respublikası İqtisad məhkəməsi tərəfindən gömrük orqanının qərarından şikayət üzrə qərar qəbul edilən gün, bu qərarı çıxaran gömrük orqanı tərəfindən icraya yönəldilir.

İXM-in V fəsli bütünlüklə (32-38-ci maddələr) inzibati tənbehin tətbiq olunmasına həsr olunmuşdur. Bu tənbeh yalnız o zaman tətbiq oluna bilər ki, müqəssirin hərəkətlərində qəbahət tərkibi müəyyənləşdirilmiş olsun. Daha doğrusu, əgər əmələ görə hüquq norması ilə məsuliyyət nəzərdə tutulmuş və vətəndaşın hüquqazidd hərəkətlərində hüquqpozmanın hüquqi norma üzrə nəzərdə tutulan bütün

əlamətləri aşkara çıxarmışdırsa, təqsirli şəxs müvafiq maddə ilə məsuliyyətə cəlb oluna bilər.

Gömrük orqanının (vəzifəli şəxsin) ixtiyarı vardır ki, ona aidiyyəti olan işlərə baxsın, təqsirli şəxsin hərəkətini təfsir edən maddəni sanksiya dairəsində tənbeh etsin, tənbehin növünü və ölçüsünü ona verilmiş sanksiyalar çərçivəsində seçsin.

AR İXM-in 360-cı maddəsinə görə, gömrük qaydaları əleyhinə olan inzibati xətalarla əlaqədar olan 258- 260, 261.1, 278, 282, 284-287, 292, 293 və 293-1-ci maddələrində nəzərdə tutulan inzibati xətalar haqqında işlərə rayon (şəhər) məhkəmələri baxırlar. Qalan maddələrdə nəzərdə tutulan xətalara isə Dövlət Gömrük Komitəsinin səlahiyyətli şəxsləri baxırlar.

İnzibati xətalar haqqında işlər üzrə icraat AR İXM-in 362-408-ci maddələrinin, inzibati xətalar haqqında işlər üzrə icraatın mərhələləri 409-438-ci maddələrinin və inzibati xətalar haqqında işlər üzrə qərarların icrası isə 439-458-ci maddələrinin müddəalarına uyğun olaraq həyata keçirilir.

Gömrük orqanlarının cinayət-hüquqi və cinayət-prosessual formaları

"Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 207-209-cu maddələrində nəzərdə tutulmuş cinayət işləri üzrə və 206-cı maddəsində nəzərdə tutulmuş cinayətə dair iş üzrə isə bu işə başladıqda ibtidai istintaqının aparılmasının Dövlət Gömrük Komitəsi tərəfindən həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Gömrük orqanları tərəfindən təhqiqatın və istintaqın aparılması Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə tənzimlənir.

İbtidai istintaqı gömrük orqanlarının səlahiyyətinə aid olan cinayətlər aşağıdakılardır:

1) qaçaqmalçılıq;
2) Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvəti olan əşyaların Azərbaycan Respublikasının ərazisinə qaytarılmaması;
3) gömrük ödənişlərinin ödənilməsindən yayınma, xaricdən valyuta dəyərli şeylərin qaytarılmaması və qanunsuz valyuta əməliyyatları.

Qaçaqmalçılıq (kontrabanda)

Dünya praktikasında qaçaqmalçılıq daha çox kontrabanda kimi tanınır. "Kontrabanda" italyan sözü olub "contro" - "əks" və "bando" - "hökumət qərarları" sözlərindən götürülmüş mənası "hökumət qərarlarının əksinə" deməkdir.

Gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə edilməsi, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə aşağıdakı malların keçirilməsi qaçaqmalçılıq (kontrabanda) hesab olunur:

a) narkotik vasitələrin, psixotrop, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv və partlayıcı mallar;

b) silahlar, partlayıcı qurğular və onlar üçün sursatı (soyuq, yivsiz ov silahları və onların patronlarından başqa);

c) nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının, həmin silahların hazırlanması üçün istifadə oluna biləcək material və avadanlıqlar, strateji əhəmiyyətli xammalın;
ç) Azərbaycan Respublikasından çıxarılması üçün müvafiq qaydalar müəyyən edilmiş ölkədə yaşayan xalqların və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvəti olan əşyaların;
d) külli miqdarda, yaxud dövlət orqanının vəzifəli şəxsi tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə, yaxud gömrük nəzarətinin müəyyən formalarından azad olunmuş ayrı-ayrı malların və nəqliyyat vasitələrinin keçirilməsi üçün müvəkkil edilmiş şəxs tərəfindən, yaxud kontrabanda ilə məşğul olmaq üçün təşkil edilmiş bir qrup şəxs tərəfindən keçirilən digər malların;
e) Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılmış Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvəti olan əşyaların qüvvədə olan qanunvericiliyə müvafiq olaraq qaytarılması məcburi olan hallarda və müəyyən olunmuş müddətdə geri qaytarılmadıqda da *qaçaqmalçılıq* sayılır və cinayət qanunvericiliyi ilə cəzalandırır.

"Azərbaycan Respublikasının Cinayət Məcəlləsi" 1999-cu ilin 30 dekabr tarixli qanunu ilə təsdiq olunmuş və 2000-ci ilin sentyabr ayının 1-dən qüvvəyə minmişdir. Məcəllənin 206-cı maddəsinə görə, "Qaçaqmalçılıq, yəni Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə malların keçirilməsidir".

Bu maddənin birinci hissəsinə görə "mallar və digər əşyalar külli miqdarda keçirildikdə 5 ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

Cinayət Məcəlləsinin 15-ci maddəsinə görə bu cür cinayətlər "az ağır cinayətlər" (CM 15.3-cü maddə) hesab olunur.

206-cı maddənin ikinci hissəsinə görə "narkotik vasitələrin, psixotrop maddələrin, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələrin və nurğuların hərbi silahın və texniknın (yivsiz odlu ov silahlı və həmin silah üçün döyüş sursatı istisna olmaqla) odlu silah və yaxud döyüş sursatının, nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən və Azərbaycan Respublikası gömrük sərhədindən keçirilməsi üçün müvafiq qaydalar, müəyyən edilmiş strateji əhəmiyyətli xammalın mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyaların Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə keçirilməsi - əmlakı müsadirə olunmaqla və ya olunmamaqla 3 ildən 7 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

CM-in 206-cı maddəsinin üçüncü hissəsinə görə, "bu Məcəllənin 206.1 və 206.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

206.3.1. təkrar törədildikdə;
206.3.2. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;
206.3.3. vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;
206.3.4. gömrük nəzarətini həyata keçirən şəxsə zor tətbiq etməklə törədildikdə - əmlakı müsadirə olunmaqla və ya olunmamaqla 5 ildən 8 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

Bu maddədə "külli miqdar dedikdə keçirilən qaçaqmalçılıq əşyalarının dəyərinin minimum əmək haqqı məbləğinin dörd min mislindən yuxarı olan məbləğ başa düşülür (CM 206-cı maddə, "Qeyd" hissəsi).

Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 17.04.2007-cə il tarixində qəbul olunmuş «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» (№313- IIIQD) Qanunun qüvvəyə minməsi haqqında Azəfrbaycan Respublikası prezidenti 22.05.2007-ci il tarixli fərmanı ilə həmin qanunun 32.2. maddəsinin icrasını DGK öz səlahiyyətləri daxilində həyata keçirir.

Gömrük işi sahəsindəki digər cinayətlər, gömrük ödənişlərinin ödənilməsindən yayınma, qanunsuz valyuta əməliyyatları və valyuta sərvətləri ilə əlaqədar sair əməllər, incəsənət, tarixi və arxeoloji sərvət olan əşyaların qaytarılmamasıdır.

Fiziki şəxslərin, vəzifəli şəxsin və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin külli miqdarda gömrük ödənişlərini ödəməkdən qəsdən yayınması cinayət hesab olunur.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 207-ci maddəsinə görə, "Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq qaytarılması məcburi olan Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmış Azərbaycan Respublikasının və xarici ölkələrin incəsənət, tarixi və arxeoloji sərvəti olan əşyaların müəyyən edilmiş müddətdə Azərbaycan Respublikasına qaytarmamaq - əmlakı müsadirə olunmaqla və yv olunmamaqla üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

CM-nin 209-cu maddəsinin birinci hissəsinə görə, "xeyli miqdarda gömrük ödənişlərinin ödənilməsindən yayınma min manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır". Əgər bu əməllər təkrar (209.2.1) və külli miqdarda (209.2.2) törədilərsə, onda iki min manatdan beş min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalndırılır" (209.2-ci maddə).

Bu maddə "xeyli miqdar" dedikdə ödənilməmiş gömrük ödənişlərini minimum əmək haqqı məbləğinin iki min manat, "külli miqdar" dedikdə dörd min manatdan yuxarı olan məbləğ başa düşülür.

Bu Məcəllənin 209.1. və 209.2-ci maddələrində nəzərdə tutulan əməlləri ilk dəfə törətmiş şəxs cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad olunur.

Qanunsuz valyuta əməliyyatları ilə əlaqədar cinayətlər isə CM-in 206.1. və 208-ci maddələrinə uyğun cəzalandırılır.

Gömrük orqanları tərəfindən təhqiqatın və istintaqın aparılması

Təhqiqat ilkin istintaqın forması kimi qaldırılası cinayət işi üzrə mövcud qanunvericilikdə müəyyən edilmiş qaydalar əsasında həyata keçirilir.

Təhqiqat orqanları ilk olaraq cinayətin baş verdiyini aşkarlayır, iş qaldırır, cinayətin izlərinin aşkar edilməsi üçün vacib hərəkətlər edir, şübhəli şəxsi saxlayır və cinayətin qarşısını alırlar.

Əgər aparılan təhqiqat işi, həmin iş üzrə ilkin istintaqı vacib edirsə, onda təhqiqat işi müstəntiqə verilir.

Əks halda, təhqiqat orqanı işin istintaqını axıra çatdırmalıdır. Yadda çaxlamaq lazımdır ki, ilkin istintaqın vacib olduğu işlərdə, təhqiqat işi ümumi xarakter daşıyır, daha doğrusu, təhqiqat orqanları, yalnız "isti izlər üzrə" vacib istintaq hərəkətləri lazım gəldikdə və müstəntiqin işə başlaya bilmədiyi halda təhqiqat aparırlar.

Əgər cinayət işini müstəntiq qaldırıbsa və icraata özü qəbul edibsə, onda təhqiqat aparılmır, təhqiqat orqanları isə müstəntiqin tapşırığı ilə əməliyyat-axtarış, nadir hallarda isə istintaq hərəkətlərində iştirak edirlər.

Gömrük orqanları aşağıdakı cinayət işləri üzrə təhqiqat və istintaq orqanı sayılır (CPM. 38, 45 və 47-ci maddələr):

1) qaçaqmalçılıq (AR CM 206-cı maddə);
2) incəsənət, tarixi və arxeoloji sərvət sayılan əşyaların Azərbaycan ərazisinə gətirilməməsi (AR CM 207-ci maddəsi);
3) gömrük ödənişlərinin ödənilməsindən yayınma (AR CM 209-cu maddəsi).

Gömrük orqanları sistemində təhqiqat və ibtidai istintaq işlərini Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin məsul şəxsi apara bilər.

Təhqiqat aparan şəxs, qəbul etdiyi qərarın istintaq hərəkətləri baxımından əsaslığına, qanunauyğunluğuna və vaxtında aparılmasına görə məsuliyyət daşıyır.

Təhqiqatçı aşağıdakı hallarda işin istintaqında iştirak edə bilməz:

1) əgər o, zərərçəkmiş, şikayətçi, cavabdeh, müstəntiqdirsə, habelə həmin işdə ekspert, mütəxəssis və tərcüməçi kimi iştirak edirsə;
2) əgər o, zərərçəkmişin, şikayətçinin, cavabdehin və ya onların nümayəndələrinin, habelə şübhəli şəxslərin və ya onların nümayəndələrinin qohumudursa;
3) əgər o, bu və ya digər dərəcədə, bilavasitə və ya dolayısı ilə aparılan işdə maraqlıdırsa.

Respublikanını gömrük sərhədindən keçirilməsinin xüsusi qaydaları müəyyən edilmiş materialların, avadanlıqların, strateji əhəmiyyətli xammalın, mədəni sərvət olan əşyaların və s. qaçaqmalçılıq yolu ilə keçirilməsi, bundan başqa incəsənət, tarixi və arxeoloji sərvət olan əşyaların müəyyən edilmiş müddətdə Azərbaycana qaytarılmaması, şərti maliyyə vahidinin iki min mislindən (yəni 11 milyon manat) yuxarı olan məbləğdə gömrük ödənişlərinin ödənilməsindən yayınma və s. kimi hallar cinayət xarakterli hesab olunurlar.

Cinayət-Prosessual Məcəllənin 214-cü maddəsinin mahiyyətindən aydın olur ki, təhqiqat ibtidai araşdırmanın növü kimi aşağıdakı şəkildə aparılır:

a) ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı;
b) böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat.

Burdan belə bir nəticəyə gəlmək olar ki, ibtidai instintaq geniş mənada iki formada - ibtidai istintaq və təhqiqat formasında aparılır. İbtidai istintaqın aparılmasını nizamlayan cinayət-prosessual qanunvericiliyinin normaları, kiçik istisnalarla, demək olar ki, eynilə təhqiqatın gedişatını da nizamlayır.

Təhqiqat müstəqil şəkildə çox az miqdarda cinayət işlərində ibtidai istintaqın əvəzində aparılır.

Cinayət-Prosessual Məcəllənin 215.1-ci maddəsində deyildiyi kimi, böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində aparılan təhqiqat istisna olmaqla, bütün cinayət işləri üzrə ibtidai istintaqın aparılması məcburidir. CPM-in 214-3-cü maddəsinə müvafiq olaraq, bu kateqoriyalı cinayət işləri üzrə cinayətin əlamətləri mövcud olduqda təhqiqat orqanı cinayət işini başlayır və cinayət-prosessual qanunvericiliyini rəhbər tutaraq cinayətin izlərini müəyyən etmək və möhkəmləndirmək, habelə cinayət törətməkdə şübhə edilən şəxsi tapmaq məqsədi ilə əməliyyat-axtarış tədbirləri və təxirəsalınmaz istintaq hərəkətləri aparır.

Təxirəsalınmaz istintaq hərəkətləri dedikdə gömrük orqanlarının təhqiqatçıları tərəfindən baxışın, xtarışın, götürmənin, şəxsi müayinənin, şübhəli və ya təqsirləndirilən şəxsin dindirilməsi, zərər çəkmiş şəxsinə şahidlərin dindirilməsi və digər hərəkətlərin həyata keçirilməsi başa düşülür.

Cinayət-Prosessual Məcəllənin 236.1-ci maddəsinə müvafiq olaraq, cinayətin izlərinin, sübut mənbəyi ola biləcək digər maddi obyektlərin aşkar edilməsi, cinayətin törədilmə hallarının və iş üçün əhəmiyyətli olan digər halların müəyyən edilməsi məqsədi ilə gömrük orqanlarının təhqiqatçısı və müstəntiqi hadisə yerinin, binaların, sənədlərin, əşyaların və digər predmetlərin baxışını aparır.

Cinayətin mühakimə icraatında, bir qayda olaraq predmetlərin və sənədlərin baxışı müvafiq istintaq hərəkətləri aparılarkən (hadisə yerinin baxışı, axtarış, götürmə) həyata keçirilir. Baxış nəticəsində predmet və ya sənəd barədə əldə edilən məlumatlar həmin istintaq hərəkəti protokolunda qeyd edilir. Predmetin və ya sənədin yerindəcə baxışını aparmaq mümkün olmadıqda, müstəntiq onları qəbul etməsi barədə müvafiq akt tərtib edərək, qablaşdırır və möhürləyir.

CPM-in 242-246-cı maddələrində axtarış və ya götürmənin bir istintaq hərəkəti kimi mahiyyəti, məqsədi və iş üçün əhəmiyyəti geniş şərh edilmişdir. Qanunda göstərilmişdir ki, əldə edilmiş (mövcud) sübutlar və ya əməliyyat-axtarış fəaliyyətinin materialları hər hansı yaşayış, xidməti və ya istehsalat binasında, digər yerdə, yaxud

hər hansı şəxsdə iş üzrə sübut əhəmiyyətinə malik ola biləcək əşyaların və sənədlərin olmasını güman etməyə kifayət qədər əsas verdikdə müstəntiq axtarış apara bilər.

Axtarış və ya götürmə, bir qayda olaraq, məhkəmənin qərarı əsasında aparılır. Məhkəmə axtarış və ya götürmənin aparılması haqqında qərarı müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı olduqda çıxara bilər.

Axtarış və götürmə zamanı, CPM-in 244.1-ci maddəsinin tələbinə görə azı 2 (iki) hal şahidlərinin iştirakı məcburidir.

Şəxsi müayinə, cinayət-prosessual qanunda verilmiş şərhə görə, məhkəmə-tibb ekspertizasının keçirilməsi tələb edilmədiyi halda şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin və ya şahidin bədənində cinayətin izlərini və ya xüsusi əlamətləri aşkar etmək məqsədilə müstəntiq tərəfindən aparılır.

Cinayət-Prosessual Məcəllənin 215.1-ci maddəsinin tələbinə görə gömrük orqanları CM-in 206 və 207-ci maddələri ilə qaldırılmış cinayət işləri üzrə təhqiqatı 10 (on) gün müddətində, amma CM-in 209- cu maddəsi ilə qaldırılmış cinayət işi üzrə təhqiqatı tam şəkildə aparmağa səlahiyyətlidirlər.

Azərbaycan Respublikasının gömrük orqanları törədilmiş, törədilən və ya törədilməsinə hazırlıq görülən cinayətlər haqqında ərizə və məlumatlara baxanda, Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinin tələblərinə ciddi surətdə riayət etməlidirlər.

Belə ki, CPM-in 207.1.2-ci maddəsinə müvafiq olaraq, gömrük orqanlarının təhqiqatçıları və müstəntiqləri zəruri hallarda törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat (aşkar cinayətlər haqqında məlumatlar istisna olmaqla) aldıqdan sonra 3 (üç) gün müddətində, bu mümkün olmadıqda 10 (on) gündən, ekspertin rəyinin alınması ilə əlaqədar isə 20 (iyirmi) gündən artıq olmayan müddətdə cinayət işinin başlanması üçün əsasların kifayət qədər olmasına dair ilkin yoxlamanı apararaq nəticələri üzrə cinayət işinin başlanması və ya cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul edir.

Gömrük orqanlarının əməliyyat-axtarış fəaliyyəti

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (11.12.1999) birinci maddəsinə görə, əməliyyat-axtarış fəaliyyəti-müvafiq dövlət orqanları tərəfindən aşkar və qeyri-aşkar üsullarla bu Qanunla ona verilmiş səlahiyyətlər əsasında insan həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, hüquqi şəxsin qanuni mənafelərini, dövlət və hərbi sirrini, habelə milli təhlükəsizliyi cinayətkar qəsdlərdən müdafiə etmək məqsədi ilə həyata keçirilir.

Əməliyyat-axtarış fəaliyyətinin məqsədi dövlətin, cəmiyyətin və şəxsiyyətin təhlükəsizliyini təmin etməkdir.

Əməliyyat-axtarış fəaliyyətinin vəzifələri aşağıdakılardır:

- hazırlanan və törədilən cinayətlərin qarşısının alınması;
- törədilmiş cinayətlərin aşkar edilməsi və açılması;
- cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi;

- məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyu qaçıran və ya itkin düşən şəxslərin axtarılması;
- naməlum meyitlərin şəxsiyyətinin müəyyən edilməsi.

Əməliyyat-axtarış fəaliyyətinə aid olan ilk üç vəzifə bilavasitə gömrük orqanlarının işi ilə əlaqədardır.

Azərbaycan Respublikası Prezidentinin 11 noyabr 1999-cu il 206 saylı "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununda "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətləri öz səlahiyyətləri daxilində Azərbaycan Respublikası DİN, Azərbaycan Respublikası MTN, Azərbaycan Respublikası Dövlət Sərhəd xidməti, Azərbaycan Respublikası ƏN, Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyət və İdarəetmə orqanları Baş Mühafizə İdarəsi və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi həyata keçirirlər.

Əməliyyat-axtarış fəaliyyəti digər fəaliyyət növlərindən öz spesifikliyi ilə kəskin fərqlənir. Belə ki, bu fəaliyyət növünün prinsipləri konsepsiya və gizli iş üsulları ilə həyata keçirilir.

Konspirasiya - əməliyyat-axtarış fəaliyyətinin vacib və toxunulmaz qaydası olub, qabaqcadan planlaşdırılmış, gizli həyata keçiriləcək cinayət işlərinin qarşısını almaq üçün həyata keçirilən tədbirdir.

Konspirasiya nəticəsində cinayət törətmiş şəxs haqqında dəqiq məlumatlar toplanır və tam sübut olunmayana qədər açıqlanmır. Eyni zamanda kospirasiya, əməliyyat-axtarış fəaliyyətində iştirak edənlərin şəxsi təhlükəsizliyini kifayət qədər təmin edir.

Əməliyyat-axtarış fəaliyyəti qanunçuluq, humanistlik, insan hüquq və azadlıqlarına hörmət prinsiplərinə əsaslanır. Lakin hər hansı şəxsin vətəndaşlığı, milliyyəti, cinsi, qulluq mövqeyi, partiyalılığı, dinə münasibəti, siyasi baxışları və s. əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə mane ola bilməz.

Azərbaycan Respublikası Gömrük Məcəlləsin' və "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununa əsasən gömrük orqanları müxtəlif əməliyyat-axtarış fəaliyyəti ilə məşğul olurlar. Bunlardan birincisi informasiya fəaliyyətidir.

İnformasiya fəaliyyəti, informasiya ilə işləmə, informasiya üzərində işləmə və informasiya mənbəyi ilə işləməkdir.

Məxfi mənbə ilə işləmək aşağıdakıların əldə edilməsinə xidmət edir:

1) cinayətə cəhd ediləcəyi və qorunan obyektlərin təhlükəsizliyinə mümkün qəsd əlamətləri barədə qabaqlayıcı məlumatlar almaq (aşkar etmək);
2) hazırlanacaq və ya baş vermiş qəsdlər barədə faktlar və əlamətlər, habelə bu cinayətlərin ziyanlı nəticələrini aradan qaldırmaq istiqamətində məlumatlar (aşkarlamaq və xəbərdarlıq etmək) toplamaq;
3) baş vermiş cinayət, onun açılması və müqəssirin məsuliyyətə cəlb olunması üçün konkret faktiki məlumatlar (ehtiyat tədbiri görmək) əldə etmək.

Əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə məxfi əməkdaşlıq etmiş və edən şəxslər barədə məlumatlar yalnız həmin şəxslərin yazılı razılığı ilə və ya "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununda birbaşa nəzərdə tutulmuş hallarda aşkarlana bilər.

Alınmış məlumatların yenidən yoxlanması, əlavə məlumatların alınması və dəqiqləşdirilməsi məqsədi ilə xüsusi texniki qurğular və kriminalistik vasitələrdən istifadə olunur. Əldə olunmuş məlumatlar işlənir, analiz edilir və cinayət mexanizminin açılması prosesində, habelə cinayətin konkret iştirakçılarının axtarılmasında istifadə olunur.

Mövcud qanunvericiliyə görə, Azərbaycan Respublikası gömrük orqanları əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya sistemlərindən, video və səsyazmadan, kino və fotoçəkilişlərdən, həmçinin vətəndaşların həyat və sağlamlığına, ətraf mühitə zərər vurmayan digər texniki və başqa vasitələrdən istifadə edə bilər.

Əməliyyat-axtarış fəaliyyəti daha çox kəşfiyyat-axtarış və "nişangah"-axtarış fəaliyyətlərinin birgə həyata keçirilməsinə əsaslanır. Ona görə də, hüquqi cəhətdən gömrük orqanının əməliyyat bölmələrinin əməkdaşları, təhqiqatçı-müstəntiqlərdən prinsipial cəhətdən fərqlənirlər. Belə ki, əgər təhqiqatçı və müstəntiq cinayətlə bağlı rəsmi dövlətin adından açıq şəkildə hərəkət edirlərsə, əməliyyat işçiləri, bir qayda olaraq, lazımi məlumatları əldə etmək üçün obyekt qarşısında öz məqsədlərini gizlədərək fəaliyyət göstərir. Ona görə də, əməliyyat işçiləri və onların obyektləri arasındakı münasibətlər qeyri-rəsmi və qeyri-hüquqi hesab olunur. Çünki əməliyyat işçilərinin məqsədi və hərəkətləri məxfi üsullarla həyata keçirilir.

Əməliyyat yolu ilə əldə olunmuş məlumatlar əməliyyat sənədlərində qeydə alınır, əməliyyat məqsədləri üçün istifadə olunur və əksər hallarda prosessual qaydada rəsmiləşdirilmir.

Qanunvericiliyə uyğun qaydada təqsiri sübuta yetirilməyən şəxs haqqında əməliyyat-axtarış tədbirləri nəticəsində əldə edilmiş materiallar bir il müddətində saxlanılır, sonra isə məhv edilir ("Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunu, 15-ci maddə V hissə).

Gömrük orqanlarının əməliyyat bölmələrinin əməliyyat-axtarış fəaliyyətinin istiqamətləri

Azərbaycan Respublikası gömrük orqanları əməliyyat-axtarış fəaliyyətini aşağıdakı istiqamətlərdə aparırlar:

1) gömrük orqanlarının şəxsi təhlükəsizliyini təmin etmək üçün aparılan əməliyyat-axtarış fəaliyyəti;
2) gömrük işi sahəsində qaçaqmalçılıq və digər cinayətlərlə mübarizə məqsədi ilə aparılan əməliyyat-axtarış fəaliyyəti.

Gömrük orqanlarının əməliyyat-axtarış fəaliyyəti ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin və Naxçıvan MR Gömrük Komitəsinin müvafiq idarələri məşğul olur.

Gömrük orqanlarında şəxsi təhlükəsizliyi qoruyan bölmə aşağıdakı funksiyaları yerinə yetirməlidir:

a) gömrük işi qaydaları və onların həyata keçirilməsinə qarşı cəhdləri zərərsizləşdirmək;

b) gömrük işi aparılan yerlərə cinayətkar fikirlər daşıyan və ya cinayətkarların əlaltılarının daxil olmasının (daxil olmağa cəhd göstərilməsinin) qarşısını almaq;

c) gömrük orqanı işçilərinin və onların ailə üzvlərinin, həmçinin əməliyyat-axtarış fəaliyyətində iştirak edən vətəndaşların təhlükəsizliyinə qəsd hərəkətlərinin qarşısını almaq;

d) informasiya təhlükəsizliyini təmin etmək və məlum dərəcədə qorunan məxfi məlumatların ötürülməsinə qarşı mübarizə aparmaq;

e) digər hüquq-mühafizə orqanlarının əməliyyat bölmələri ilə qarşılıqlı əməkdaşlıq və koordinasiya təşkil etmək və həyata keçirmək (şəxsi təhlükəsizlik maraqlarını təmin etmək üçün).

Əməliyyat bölməsinin əməkdaşları şəxsi təhlükəsizliyi təmin etmək üçün, ayrı-ayrı gömrük orqanı işçilərinin vəzifədən sui-istifadə məqsədlərinin qarşısını alır və onlara xəbərdarlıq edilir. Əgər gömrük orqanında çalışan şəxs, yenə də öz əməlindən əl çəkməzsə, onun gömrük orqanlarından kənarlaşdırılması üçün rəhbərliyinə yazılı müraciət edir.

14. Gömrük orqanlarında idarəetmənin əsasları və təşkilati strukturları

İdarəetmə anlayışı

Ayrı-ayrı icraçılar və ya insanlar qrupu şəklində insan amilindən ibarət hər bir sistemin səmərəli fəaliyyəti yalnız onu idarə edən - təşkiledici başlanğıc olduqda mümkündür. Gömrük orqanlarının bütün əməkdaşlarının hərəkət birliyinə nail olunması gömrük orqanlarında idarəetmə sisteminin başlıca məqsədidir.

Sistem bir istiqamətdə işləməli və qarşısında qoyulmuş vəzifələrin həllini təmin etməlidir. Bunun üçün onun daxilində dəqiq idarəetmə tələb olunur.

Təcrübə göstərir ki, xüsusi idarəçilik biliyi olmadan idarəetmə bəzən gömrük orqanlarında əməliyyat xidməti fəaliyyətində xeyli səhvlərlə nəticələnir, dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi və onun iqtisadi mənafelərinin qorunması işinə müəyyən ziyan vurur.

Azərbaycan Respublikası gömrük orqanlarının üzərinə qoyulmuş vəzifələrin və funksiyaların yerinə yetirilməsini optimal təşkil etmək üçün idarəetmənin mahiyyət və məzmununu açan əsas nəzəri müddəaları bilmək zəruridir.

İdarəetmə - gömrük orqanları əməkdaşlarına elə fasiləsiz informasiya təsiri prosesidir ki, idarəçilik qərarlarının qəbul olunması və həyata keçirilməsi vasitəsilə dəyişən xarici və daxili şəraitdə onların məqsədyönlü davranışını təmin edir.

Məcmu halda idarəetmə subyekti, idarəetmə obyekti və onlar arasında qarşılıqlı əlaqələr gömrük orqanlarında idarəetmə sistemini əmələ gətirir.

Gömrük orqanlarında idarəetmə subyektlərinə idarəetmə qərarları qəbul etmək, tabeliyindəki əməkdaşlara və kollektivlərə tapşırıq vermək və onların icrasını tələb etmək səlahiyyəti olan bütün rəhbərlər, yəni məqsədyönlü təsiri həyata keçirən gömrük postunun, gömrükxananın, gömrük idarəsinin və Dövlət Gömrük Komitəsinin bütün elementləri və yarımsistemləri aiddir.

İdarəedən yarımsistemin qərarlarının, əmrlərinin, tapşırıqlarının icraçıları, gömrük işi mütəxəssisləri, gömrük kollektivləri, təşkilati strukturlar, texnoloji gömrük proseduraları, eləcə də gömrük orqanlarının üzərinə qoyulmuş funksiyaların həyata keçirilməsi üzrə bütün fəaliyyət növləri, gömrük fəaliyyəti resursları və s. gömrük orqanlarında idarəetmə obyektləri kimi çıxış edir.

İdarəetmə subyekti idarəetmə obyektinin faktik vəziyyəti və onu əhatə edən xarici mühit haqqında informasiya alır. Bu informasiya idarəetmə subyekti tərəfindən işlənir ki, bunun da nəticəsi olaraq qərar qəbul edilir. Məzmunu birbaşa əlaqə kanalı üzrə idarəetmə obyektinə ötürmək üçün həmin qərara idarəçilik qərarının formalarından (əmr, göstəriş, qətnamə və s.) biri verilir. Bu qərarın icrası haqqında informasiya və eləcə də idarəetmə obyektinin (idarəedilən sistemin) yeni vəziyyəti haqqında informasiya yenidən əks əlaqə kanalı üzrə idarəetmə subyektinə daxil olur. Beləliklə, idarəetmə nisbi və fasiləsiz prosesdir. Gömrük orqanları tərəfindən

idarəetmənin fasiləsiz xarakteri onlardan keçən informasiya proseslərinin daimiliyi və arasıkəsilməzliyi ilə şərtlənir.

İdarəetmə prosesinin fasiləsizliyi onun dövriliyi haqqında, yəni müxtəlif idarəetmə həlqələri tərəfindən və müxtəlif formalarda icra edilən eyni növ idarəçilik işlərinin və ya idarəetmə mərhələlərinin icra edilməsinin müəyyən ardıcıllığı və təkrarlanması haqqında danışmağa imkan verir.

Gömrük orqanlarında idarəetmə sistemi aşağıdakı komponentlərdən ibarətdir:

idarəetmə mexanizmi,

idarəetmə strukturları,

idarəetmə prosesi və

idarəetmə sisteminin təkmilləşdirilmə mexanizmi.

İdarəetmənin mexanizmini aşağıdakılar təşkil edir:

- idarəetmə qanunları;
- prinsipləri;
- məqsədləri;
- metodları;
- funksiyaları.

İdarəetmə orqanları, idarəetmə kadrları və texniki idarəetmə vasitələri idarəetmənin strukturuna daxildir.

İdarəetmə prosesi - idarəetmənin məqsədlərinə çatmaq üçün bütün idarəetmə həlqələrinin göstərdiyi fəaliyyətdir.

İdarəetmə sisteminin təkmilləşdirilmə mexanizmini idarəetmə obyektinin inkişafı nəticəsində ona edilən dəyişikliklər təşkil edir.

Gömrük orqanlarında idarəetmə həm obyektiv iqtisadi qanunlara və idarəetmə qanunlarına, həm də onların əsasında formalaşan əməliyyat-xidmət fəaliyyətinin bütün iştirakçılarının ictimai, kollektiv və şəxsi maraqlarının vahid sisteminə əsaslanır. İdarəetmənin mühüm xüsusiyyəti ondan ibarətdir ki, o, gömrük fəaliyyətinin səmərəliliyinin yüksəldilməsində yaradıcı rol oynayır.

İdarəetmə qanunları

İdarəetmə qanunları idarəetmə sistemi elementləri və yarımsistemləri, onda baş verən proseslər və xarici mühit arasında ümumi, əhəmiyyətli və zəruri əlaqələrin əks etdirir. Onlar obyektivdir və insanların şüurundan və iradəsindən asılı deyildir. İdarəetmə qanunlarını bilmək idarəetmə sistemlərinin yaradılmasında və onların fəaliyyətinin təşkil edilməsində idarəetmə qanunlarının tələblərini nəzərə almağa imkan verir.

Onlara aşağıdakılar aiddir:

- idarəetmə sisteminin vahidliyi qanunu;
- mütənasiblik (proporsionallıq) qanunu;
- idarəetmə funksiyalarının mərkəzləşdirilməsinin optimal nisbəti qanunu;
- idarəedən və idarə olunan sistemlərin nisbəti qanunu və s.

İdarəetmə sisteminin vahidliyi qanununun təsiri dövlət idarəetmə sisteminin yuxarı orqanlarından onun aşağı həlqələrinə qədər idarəetmə münasibətlərinin qırılmaz zəncirində; idarəetmə prosesinin bütün səviyyələrinin, əməliyyatlarının və mərhələlərinin arasıkəsilməzliyində, ritmikliyində və uzlaşmasında; insanların qlobal məqsədlərinin və mənafelərinin bütün tərkib hissələri ilə idarəetmənin vahidliyində; idarəetmə funksiyalarının və və metodlarının vahidliyində; idarəetmə aparatı əməkdaşlarına tələblərin vahidliyində təzahür edir.

Professional (peşə) fəaliyyətin və **idarəetmənin mütənasibliyi (proporsionallığı)** qanunu müəyyən edir ki, idarəetmənin ən mühüm vəzifəsi idarə edən və idarə olunan sistemlərin fəaliyyətinin optimal proporsionallığını təmin etmək, sistemin tərkib hissələrinin fasiləsiz əlaqəsini təşkil etməkdir. Mütənasiblik (proporsionallıq) onunla ölçülür ki, sistemin əsas fəaliyyəti - gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti, digər funksiyaların həyata keçirilməsi idarəetmə ilə nə dərəcədə tam və dəqiq təmin olunur ki, minimal mümkün məsrəflərlə lazımi effekti (səmərəni) versin.

Mərkəzləşdirmənin optimal nisbəti qanunu elə idarəetmə sisteminin qurulmasını və onun fəaliyyətinin elə təşkilini nəzərdə tutur ki, bu zaman gömrük orqanlarının hər bir aşağı həlqəsinin mərkəzi idarəetmə orqanlarına arasıkəsilməz və kifayət qədər sabit tabeliliyi mövcud olsun.

Mərkəzləşdirilmiş idarəetmə sistemin bütün həlqələrinin fəaliyyətini son dərəcə sərt nizamlamaq demək deyildir. Sistemin hər bir inkişaf mərhələsi üçün özünün optimal mərkəzləşdirilmə səviyyəsi mövcuddur ki, onunla idarəetmənin mərkəzləşdirilmiş formalarının sistemin inkişaf səviyyəsini ifadə edən real tələbatlara maksimum uyğunluğu nəzərdə tutulur.

İdarə edən və idarə olunan sistemlərin nisbəti qanununun mahiyyəti idarə edən sistemin idarə olunanla uyğunluğunun təmin edilməsi tələbindən ibarətdir.

Bu nisbətin dəyişməsi müxtəlif, başlıca olaraq, təşkilati və iqtisadi amillərin təsiri ilə baş verir. Hər şeydən öncə, idarə edən sistemin inkişaf və fəaliyyət səviyyəsi idarə olunan sistemin əməliyyat-xidmət fəaliyyəti səviyyəsinə uyğun gəlməlidir.

Qanunlar vasitəsilə idarəetmə nəzəriyyəsinin məzmunu, idarəetmə prosesinin əsas funksiyaları, metodları və strukturları, eləcə də xüsusiyyətləri üzrə çıxarılır. Buna görə də, sistemli yanaşma idarəetmə qanunlarının istifadəsində əsasdır. Sistemli yanaşma onların tələblərini sistemli şəkildə ifadə etməyə və bütün sistemin optimal fəaliyyət və inkişaf variantını müəyyən etməyə imkan verir.

Gömrük orqanlarında idarəetmə həm idarəetmənin obyektiv qanunlarına, həm də onların əsasında formalaşan vahid prinsiplər sisteminə əsaslanır.

İdarəetmənin prinsipləri

İdarəetmənin prinsipləri dedikdə idarə edən sistemin əsaslandığı rəhbər ideyalar, qaydalar, əsas müddəalar və davranış normaları başa düşülür.

İdarəetmə təcrübəsində gömrük orqanları tərəfindən ümumi, xüsusi və təşkilati-texnoloji prinsiplər tətbiq edilir.

İdarəetmənin ümumi prinsipləri strateji idarəetmə normalarıdır və onlar gömrük orqanlarının bütün sahələrində və yarımsistemlərində fəaliyyət göstərir. Lakin onlar hər bir idarəçilik sistemində spesifikdir. Hətta idarəetmənin əsas ümumi prinsiplərinin sadalanması (məsələn, sistemlilik, əks əlaqə, informasiyanın kafiliyi, optimallıq, bərabər tabelik və b.), eləcə də onların gömrük orqanlarında idarəetmə sisteminə dialektik təsiri bunu təsdiq edir.

Sistemlilik idarəetmənin aparıcı prinsipidir. Gömrük orqanlarının idarə edilməsində sistemlilik sistemin struktur və funksional vahidliyini təmin edir və təkmilləşdirir.

Gömrük orqanları qarşısında dayanan vəzifələr nə qədər mürəkkəbdirsə, sistemin **əks əlaqə** prinsipi bir o qədər böyük əhəmiyyət kəsb edir. İnformasiya idarəetmə subyektinə, sistemə təsir etmək və idarəçilik qərarlarının icrasını təmin etmək məqsədilə hər bir zaman anında sistemin vəziyyəti haqqında, qoyulmuş məqsədin əldə edilməsi haqqında təsəvvür əldə etməyə imkan verir.

İnformasiyanın **kafiliyi** prinsipi o deməkdir ki, gömrük sistemində, o cümlədən idarəçilik sistemində informasiya həcmlərinin görünməmiş dərəcədə artması şəraitində informasiya proseslərinin intensivləşdirilməsi olduqca böyük əhəmiyyət kəsb edir.

Qarşıya qoyulmuş məqsədin mümkün olan daha qısa müddətlərdə ən az maddi, maliyyə və əmək məsrəfləri ilə əldə edilməsi gömrük orqanlarında idarəetmənin **optimallığı** prinsipinin mahiyyətini təşkil edir.

İdarəetmənin optimallığı gömrük sistemində müxtəlif metodlarla və vasitələrlə təmin edilir. İdarəetmənin digər ümumi prinsipləri də gömrük sistemində mühüm əhəmiyyət kəsb edir.

Gömrük orqanlarında idarəetmənin xüsusi prinsipləri iki böyük qrupa bölünür**: gömrük fəaliyyətinin iqtisadi, sosial-siyasi və mənəvi sahələrində tətbiq edilən prinsiplər** və Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyini öz səlahiyyətləri çərçivəsində təmin edən dövlət hüquq mühafizə təşkilatı olaraq gömrük orqanları sistemində mövcud olan prinsiplər.

İdarəetmənin xüsusi prinsiplərinə aşağıdakılar aid edilir:

- qanunçuluq;
- səmərəli (məntiqəuyğun) mərkəzsizləşdirmə ilə birgə mərkəzləşdirmə;
- fasiləsizlik;
- operativlik;
- çeviklik;
- məsuliyyət;
- varislik;
- son nəticəyə istiqamətlənmə və s.

İdarəetmənin təşkilati-texnoloji prinsipləri gömrük orqanları rəhbərlərinin təşkilati-sərəncamverici və inzabati-icraedici fəaliyyətinin əsasında dayanır. Onlara aşağıdakı idarəetmə prinsipləri aiddir:

- vahid rəhbərlik;
- konkretlik;
- əməyin bölgüsü, skalyar;
- iyerarxiya (xidməti vəzifələrin tabeçilik qaydasında yerləşdirilməsi);
- sərəncamvermənin vahidliyi və tək rəhbər;
- səlahiyyətlərin ötürülməsi;
- idarəetmə diapozonu və s.

Vahid rəhbərlik (təkbaşınalıq) prinspinin əhəmiyyəti xüsusi olaraq qeyd edilməlidir. Bu prinsip, bir tərəfdən, idarəetmənin kollegiallığını, digər tərəfdən, isə icraedici funksiyalara görə ciddi fərdi məsuliyyətin müəyyən edilməsini nəzərdə tutur. Kollegiallıq tapşırılan işə görə hər bir gömrük əməkdaşının məsuliyyətini istisna etmir, əksinə onun üçün şəxsi məsuliyyət nəzərdə tutur.

Vahid rəhbərlik prinsipi üzrə gömrük orqanları sisteminə DGK-nın Sədri rəhbərlik edir. Gömrük işinə rəhbərliyin ən mühüm məsələləri DGK kollegiyasının iclaslarında baxılır. Kollegiyanın iclaslarında qəbul edilən, DGK-nın Sədrinin əmri ilə rəsmiləşdirilən qərarların bütün gömrük orqanları və əməkdaşları tərəfindən icra edilməsi məcburidir.

DGK-nın tabeliyindəki digər təşkilatların rəhbərləri vahid rəhbərlik (təkbaşçılıq) prinsipi üzrə fəaliyyət göstərirlər. Gömrükxanaların və gömrük postlarının rəisləri öz idarəçilik fəaliyyətində vahid rəhbərlik prinsipini həyata keçirirlər.

İdarəetmənin konkretliyi prinsipi situasiyanın konkret təhlilini tələb edir ki, bunun üçün idarəetmə sistemi haqqında və onun xarici mühiti haqqında keyfiyyətli elmi informasiya lazımdır.

Əməyin bölgüsü prinsipində nəzərdə tutulur ki, idarəetmənin təşkili üzrə bütün fəaliyyət icrası idarəetmə sisteminin konkret həlqələrinə tapşırılan ən sadə əməliyyatlara ayrılır. Gömrük orqanı idarəetmə sisteminin hər bir həlqəsinin dəqiq, konkret vəzifəsi olmalıdır.

İyerarxiya prinsipi aşağı əməkdaşın və ya bölmənin yuxarıdakına tabe olmalı olduğunu nəzərdə tutur. İnzibati iyerarxiyanın hər bir əməkdaşı yuxarıdakının qarşısında təkcə özününkü yox, həm də özünün tabeliyində olan bütün əməkdaşların qərarlarına və hərəkətlərinə görə cavab verir.

Sərəncamvermənin vahidliyi və vahid rəhbər prinsipi müəyyən edir ki, hər bir əməkdaş yalnız bir rəhbərdən əmr və sərəncamlar alır, çünki bu fəaliyyət birliyinin zəruri şərtidir və heç bir əməkdaş özündən daha yuxarı birdən artıq rəhbərə məruzə etməməlidir.

Səlahiyyətlərin ötürülməsi (verilməsi) prinsipi nəzərdə tutur ki, rəhbərin fəaliyət sahəsindən vəzifənin tabe şəxsə verilməsi zamanı onun həlli üçün hüquqlar da verilməli, tabe şəxs isə onlara görə məsuliyyəti öz üzərinə qəbul etməlidir.

İdarəetmənin dipozonu prinsipi yuxarı vəzifəli şəxsin ciddi müəyyən olunmuş, optimal sayda şəxslərin fəaliyyətinə görə məsuliyyət daşımalı olduğunu nəzərdə tutur.

İdarəetmənin funksiyaları

İdarəetmənin funksiyası - həyata keçirilməsi üçün müəyyən idarəçilik işləri (əməliyyatları) tələb olunan konkret idarəçilik fəaliyyəti növüdür.

Gömrük orqanlarının idarə edilməsində idarəetmə funksiyaları çox mühüm yer tutur, çünki onlar bütün səviyyələrdə idarəçilik fəaliyyətinin mahiyyətini və məzmununu açıqlayır və idarəetmə sahəsində vəzifələrin bölgüsünü əks etdirir, nəzərdə tutulmuş nəticələri əldə etmək üçün onların həyata keçirilməsi zamanı müəyyən növbəlilik və fəaliyyət birliyi tələb edir.

Gömrük orqanları sistemində idarəetmə funksiyalarını təsnif etməklə, onları idarəetmə prosesinin mərhələlərini əks etdirən ümumi idarəetmə funksiyalarına və gömrük orqanlarının əməliyyat-xidmət fəaliyyətinin konkret növlərinin spesifik (konkret) idarəetmə funksiyalarına bölmək olar.

İdarəetmənin ümumi funksiyaları idarəetmənin mahiyyətini üzə çıxarır: onlar istənilən obyektin idarəedilməsi prosesini xarakterizə etdiyinə görə universaldır.

İderəetmənin ümumi funksiyalarının tərkibini müəyyən edərkən onların dialektik vahidliyi, eləcə də idarə edən və idarə olunan sistemlərin vahidliyi nəzərə alınmalıdır. İdarəetmə funksiyalarının tərkibi idarə olunan sistemin vəziyyətinin istənilən dəyişmələrini idarə edən sistemin reaksiya göstərməsinin effektivliyini təmin etməlidir.

İdarəetmənin ümumi funksiyalarına aşağıdakılar aiddir:

1) Əməliyyat-xidmət şəraitinin təhlili və proqnozlaşdırılması;
2) Planlaşdırma;
3) Təşkiletmə;
4) Tənzimetmə;
5) Uçot və nəzarət.

Gömrük əməliyyat-xidməti şəraiti dedikdə iqtisadi, siyasi, sosial, hüquqi, regional və digər şərtlərlə (faktorlarla) dialektik inkişafda olan, gömrük fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir edən qarşılıqlı əlaqəli elementlər məcmusu nəzərdə tutulur.

Gömrük əməliyyat-xidməti şəraitinin əsas elementləri bunlardır:

- xarici iqtisadi fəaliyyətin (XİF) xidmət edilən iştirakçıları - Azərbaycan və xarici fiziki və hüquqi şəxsləri, gömrük orqanının fəaliyyət zonasında mal axınının (hərəkətinin) növləri, həcmləri və istiqamətləri, onların zaman, məkan (yer), nəqliyyat növləri üzrə bölgüsü;

- gömrük qanunvericiliyini qəsdən pozan XİF iştirakçılarının və onların köməkçilərinin;

qaçaqmalçıların və onların köməkçilərinin; gömrük orqanlarına mənfi təsir göstərməyə cəhd edən gömrükətrafı kriminal strukturların və onların köməkçilərinin olması; gömrük qaydalarının pozulması və cinayətlərin törədilməsində onların məqsədləri, planları, niyyətləri, vaxtı, yeri, strategiya və taktikası haqqında məlumatlar;

- gömrük orqanlarının qüvvə və vəsaitləri, onlara həvalə edilmiş funksiyaların və vəzifələrin icra edilməsində onların imkanları;
- Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təminatının və iqtisadi mənafelərinin qorunmasının ümumdövlət tədbirləri;
- gömrük orqanlarının fəaliyyət zonsında qaçaqmalçılıqla və gömrük qaydalarının pozulması üzrə digər hüquq-mühafizə orqanlarının, idarələrin və təşkilatların olması, gömrük orqanları vəzifələrinin həlli üçün onlardan istifadə imkanları;
- gömrük fəaliyyətinin həyata keçirildiyi mühit.

Planlaşdırma idarəetmənin elə əsas funksiyasıdır ki, onun vasitəsilə gələcək fəaliyyətin təşkilati başlanğıcı işlənib hazırlanır. Planlaşdırma vasitəsilə sistemin inkişaf məqsədləri və istiqamətləri müəyyən edilir, mövcud problemləri realizə edilməsi vasitəsi olan metodlar işlənib hazırlanır, sistemin inkişaf tempi müəyyən edilir. İdarəetmə subyekti icraçıların gələcək fəaliyyət planını tutur, planda göstərilən məqsədlərə çatmağın yollarını, üsullarını, vasitələrini və müddətlərini əsaslandırır.

Təşkiletmə dedikdə, idarəetmənin elə əsas funksiyası nəzərdə tutulur ki, onun reallaşdırılması vasitəsilə planlaşdırma prosesində işlənib hazırlanmış planların yerinə yetirilməsi üçün şərait yaranır. Bu funksiyanın mahiyyəti qüvvə və vasitə yaradılmasından, icraçılar arasında zəruri əlaqə və münasibətlərin qurulmasından, onların fəaliyyətinin rasional (səmərəli) forma və metodlarının müəyyənləşdirilməsindən ibarətdir. Bu funksiyanın reallaşdırılması prosesində idarəetmə subyekti tərəfindən qəbul olunmuş qərarların, o cümlədən təsdiq edilmiş planların uğurlu həyata keçirilməsi üçün zəruri olan şərait yaradılır.

Tənzimetmə dedikdə idarəetmənin elə əsas funksiyası başa düşülməlidir ki, onun vasitəsilə tabelikdə olan şəxslərin fəaliyyətinin səmərəliliyi yüksəlir və ya planlşdırma zamanı verilmiş parametrlərdən kənarçıxmalar aradan qaldırılır. Tənzimetmə əks əlaqənin nəticələri əsasında həyata keçirilir. O, ayrı-ayrı əməkdaşların və kollektivlərin qarşılıqlı əlaqələrinin saxlanması, əlaqələn-dirilməsi, qüvvələrin (səylərin) yenidən bölgüsü, eləcə də motivasiyası (əsaslar, sübutlar, səbəblər) və stimullaşdırılması yolu ilə reallaşdırıla bilər.

Uçot funksiyasının mahiyyətini idarə olunan sistemin cari vəziyyəti haqqında onun hərəkət istiqamətləri və templəri, əldə edilən nəticələr və dəyişən problemlər haqqında informasiyanın toplanması, sistemləşdirilməsi və ilkin işlənməsi təşkil edir.

Planların yerinə yetirilməsinin düzgünlüyünü, onların icrasının şərait və nəticələrinin necə olduğunu müəyyən etmək üçün nəzarət mövcuddur.

Nəzarət idarəetmənin elə əsas funksiyasıdır ki, onun reallaşdırılması vasitəsilə gömrük orqanlarının vahid sisteminin fəaliyyəti prosesi üzərində müşahidə həyata keçirilir, bu və ya digər zaman momentində tabeçilikdə olanların fəaliyyətinin gedişi, şəraiti, vəziyyəti və nəticələri haqqında məlumatlar toplanır.

Qəbul olunmuş qərarların reallaşdırılmasına nəzarət gömrük fəaliyyətinin qoyulmuş vəzifələrə uyğunluğunun üzə çıxarılmasına, şəraitin dəyişməsindən asılı

olaraq əvvəl qəbul edilmiş qərarlara və təsdiq olunmuş planlara vaxtında zəruri düzəlişlər edilməsinə istiqamətlənir.

Nəzarətin əsas vəzifəsi planlaşdırma zamanı verilmiş parametrlərdən kənaraçıxmaların üzə çıxarılması, onları doğuran səbəblərin, eləcə də gələcəkdə inkişaf etdirilməsi gömrük orqanının bütün fəaliyyətinin səmərəliliyini xeyli dərəcədə artırmağa kömək edə biləcək müsbət momentlərin ortaya çıxarılmasıdır.

İdarəetmənin metodları

Qarşıya qoyulmuş məqsədlərin əldə edilməsi üçün idarəetmə obyektinə təsir yollarının, üsullarının, vasitələrinin və formalarının məcmusu idarəetmə metodu adlanır.

İdarəetmənin metodlarını öyrənərkən nəzərə almaq lazımdır ki, onların təsirinin yönümü sosial-iqtisadi sistemin, o cümlədən gömrük xidməti qarşısında qoyduğu konkret məqsədlərlə müəyyən edilir. Belə məqsədlər konkret təşkilati, iqtisadi, sosial və texniki vəzifələrin həllini tələb edir, bu da öz növbəsində idarəetmənin müvafiq metodlarının tətbiqini tələb edir.

İdarəetmənin metodları idarəçilik fəaliyyətinin miqyasına və təsir formasına görə təsnif edilir.

Gömrük orqanlarında idarəçilik fəaliyətinin miqyasına görə ümumi və xüsusi metodlar fərqləndirilir.

İdarəetmənin ümumi metodları gömrük işinin qlobal problemlərinin, strateji məsələlərinin həllinə yönəldilmişdir, onlar bütün gömrük sisteminin əsas məqsədlərini və fəaliyyət göstərməsi məsələlərinin əldə olunması üsullarını müəyyən edir.

İdarəetmənin xüsusi metodları, başlıca olaraq, operativ və cari idarəetmə sistemlərində (regional gömrük idarələri, gömrükxanalar, gömrük postları) istifadə edilir.

Gömrük sistemində təsir formalarından asılı olaraq birbaşa və dolayı təsir metodları tətbiq edilir.

Birbaşa təsir metodları dövlətin iradəsinə və nüfuzuna əsaslanır. Onlara təşkilti-sərəncamverici və hüquqi metodlar aiddir.

Dolayı təsir metodlarına sosial, psixoloji, iqtisadi və iqtisadi-riyazi metodlar aiddir.

Gömrük orqanlarında təşkiletmə və tənzimetmə kimi idarəetmə funksiyalarının reallaşdırılması prosesində təşkilati-sərəncamverici (inzibati) metodların vasitəsilə əməkdaşların və kollektivlərin borc, səlahiyyət, məsuliyyət, intizam tələbləri və s. kimi fəaliyyət aspektlərindən ibarət olan münasibətlər formalaşdırılır.

Gömrük orqanlarında təşkilati-sərəncamverici metodların hərbiləşdirilmiş və hüquq mühafizə kimi xüsusiyyətləri ondan ibarətdir ki, onlar bütövlükdə sistemə və ya ayrılıqda onun elementlərinə birbaşa direktiv təsiri ifadə edir; gömrük orqanının rəhbərinə birmənalı qərar qəbul etməyə imkan verir; normativ-hüquqi və direktiv sənədlərin icrasının məcburiliyinə əsaslanır.

Gömrük orqanlarında üç qrup təşkilati-sərəncamverici məqsəd: təşkilati, sərəncamverici və intizam tətbiq edilir. Əsas yeri birinci qrupu təşkil edən təşkilati təsir metodları tutur. Onlar idarəetmənin əsası olan sistemdə təşkilati əlaqələrin uzunmüddətli təsbitidir və nizamasalma, normalaşdırma və təlimatlandırmanı əhatə edir.

İdarəçilik münasibətlərinin və idarəetmənin təşkilati strukturlarının növləri

Azərbaycan Respublikası gömrük orqanları sisteminin inkişafı idarəçilik problemlərinin həlli ilə sıx əlaqəlidir, çünki idarəetmə həmişə bu və ya digər təşkilatın ayrı-ayrı həlqələri arasında dəqiq qarşılıqlı əlaqələrin müəyyənləşdirilməsi, onlar arasında hüquq və vəzifələrin bölgüsü ilə başlanır. Bu məsələlərin təşkilati rəsmiləşdirilməsi gömrük orqanlarının idarə edilməsinin optimal təşkilati strukturunun işlənib hazırlanmasını nəzərdə tutur.

İdarəetmənin təşkilati strukturu dedikdə çox vaxt idarəetmənin iyerarxik elementlərinin və bu elementlərin vahid bir tam kimi inkişafını təmin edən bir-biri ilə qarşılıqlı əlaqələrinin nizama salınmış toplusu (məcmusu) başa düşülür.

İdarəetmənin təşkilati strukturları təhlil edilərkən, bir qayda olaraq, onlarda aşağıdakı elementlər ayrılır:

idarəetmə həlqələri,

idarəetmə səviyyələri

və qarşılıqlı əlaqələr.

Gömrük orqanları sistemində idarəetmənin həlqələrinə bunlar aiddir:

- Azərbaycan Respublikası DGK (Komitənin 01.01.2009-cu ilə olan mövcud strukturu 1 saylı əlavədə verilmişdir);

- DGK-nın idarələri və müstəqil şöbələri;

- gömrükxanalar;

- gömrükxanaların şöbələri;

- gömrük postları və müvafiq professional və ya idarəçilik funksiyalarını icra edən ayrı-ayrı mütəxəssislər.

İdarəetmənin bu həlqələri idarəetmə iyerarxiyasının müvafiq səviyyələrində yerləşir. İdarəetmənin səviyyələri dedikdə təşkilatın iderəetmə sistemində müəyyən pillə tutan idarəetmə həlqələrinin məcmusu başa düşülür.

Gömrük orqanlarının vahid sistemində idarəetmə strukturu üç səviyyədən ibarətdir:

1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi;

2. gömrükxanalar;

3. gömrük postları.

XX əsrin son onilliyində və XXI əsrin əvvəllərində informasiya və kommunikasiya texnologiyaları cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilmişdir. İnformasiya və kommunikasiya texnologiyalarının dövlət strukturlarını və vətəndaş cəmiyyəti institutlarını, iqtisadi və sosial sahələri əhatə etməsini nəzərə alaraq Dövlət Gömrük Komitəsi bu sahədə əldə olunmuş nəticələri inkişaf etdirmək

və gömrük işinin təşkilində informasiya texnologiyalarının geniş tətbiqini təmin etmək əzmindədir.
21 oktyabr 2005-ci il tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq olunmuş **"Azərbaycan Respublikası rabitə və informasiya texnologiyalarının inkişafı üzrə Dövlət proqramına (Elektron Azərbaycan)"** və **"Azərbaycan Respublikasının İnkişafı Naminə İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiyaya"** müvafiq olaraq Dövlət Gömrük Komitəsində Azərbaycan Respublikası gömrük xidmətinin vahid avtomatlaşdırılmış informasiya sisteminin yaradılması haqqında Fəaliyyət Proqramına uyğun olaraq müvafiq işlər aparılır və bu sahədə müxtəlif nailiyyətlər əldə olunmuşdur.
Gömrük orqanlarının vahid qlobal korporativ şəbəkəsinin genişləndirilməsi və inkişaf etdirilməsi, gömrük rəsmiləşdirməsi və nəzarətinin avtomatlaşdırılmış sisteminin sənaye istismarının təmin edilməsi, müasir texniki qurğuların tətbiqi ilə gömrük sərhədini keçən mal və nəqliyyat vasitələrinə nəzarət avtomatlaşdırılmış sisteminin yaradılması, gömrük anbarlarında və terminallarında malların uçotu, saxlanması və hərəkəti prosesinin avtomatlaşdırılması, gömrük orqanları tərəfindən müəyyən olunmuş hüquqpozmaların uçotu və nəzarətinin avtomatlaşdırılmış sisteminin tətbiqi və İstifadədə olan informasiya-texniki və proqram təminatı vasitələrinin yeniləşdirilməsi(modernləşdirilməsi) məsələləri mühüm əhəmiyyət kəsb edir.
Dövlət Gömrük Komitəsinin qlobal korporativ şəbəkəsi hazırda Xəzər Dənizində Azərbaycan Respublikasının Mənafeyini Mühafizə idarəsi istisna olmaqla bütün gömrük orqanlarını əhatə edir. Şəbəkə öz quruluşuna görə dörd əsas hissədən ibarətdir:
1) Peyk vasitəsi ilə təşkil olunmuş şəbəkə;
2) Aztelekom istehsalat birliyindən icarəyə götürülmüş optik lifli rabitəsi əsasında təşkil olunmuş şəbəkə;
3) Xüsusi tezliklə işləyən radioantennalarla qurulmuş şəbəkə;
4) İSDN tipli şəbəkə.
Qlobal korporativ şəbəkə Azərbaycan Respublikasının bütün gömrük orqanları arasında informasiya mübadiləsinin aparılmasını və Dövlət Gömrük Komitəsinin vasitəsiçiliyi ilə hər bir gömrük orqanının internetə çıxışını təmin edir.
Rəsmiləşdirmə prosesinin sürətini və keyfiyyətini artırmaq və yük gömrük bəyannamələrində olan məlumatlara proqram təminatı vasitəsilə elektron nəzarətin aparılması məqsədilə "Gömrük rəsmiləşdirilməsi və nəzarətinin avtomatlaşdırılmış sistemi (GRNAS)" yaradılmışdır.
"Gömrük rəsmiləşdirilməsi və nəzarətinin avtomatlaşdırılmış sistemi" proqram kompleksi yük gömrük bəyannamələrinin(YGB) gömrük rəsmiləşdirilməsi prosesinin maksimum dərəcədə avtomatlaşdırılması üçün nəzərdə tutulmuşdur. Avtomatlaşdırma prosesi iki mərhələdən ibarətdir:
- YGB-lərin elektron surətinin yaradılması;
- YGB-də olan məlumatlara nəzarətin keçirilməsi.

Nəzarətin birinci mərhələsi format-məntiqi yoxlama adlanır və tam şəkildə proqram təminatının köməyilə aparılır, gömrük brokeri və lokal şəbəkənin adminstratoru tərəfindən həyata keçirilir. Format-məntiqi yoxlama nəticəsində YGB-də istifadə olunan bütün kodlar yoxlanılır. YGB-nin yük və maliyyə aspektləri ekspert səviyyəsində yoxlanılır.

GRNAS proqram təminatına yalnız gömrük orqanının gömrük serverində qeydə alınmış istifadəçi qoşula bilər. Əgər daxil edilmiş ad və şifrə sistemdə qeydə alınmış istifadəçilər cədvəlində iştirak edirsə və birbirinə uyğundursa, onda qeydə alınmış istifadəçiyə gömrük orqanının lokal şəbəkəsində **GRNAS** proqram təminatının onun sistemdə vəziyyətinə uyğun gələn modulları ilə işləmək imkanı verilir.

Vəyannamənin doldurulması üçün **GRNAS** Proqram təminatından istifadə edən və gömrük organının lokal şəbəkəsində işləyən gömrük Brokerləri "BROKER" modulundan istifadə edirlər..

GRNAS proqram təminatından istifadə etməklə gömrük orqanlarının "AİS və statistika" şöbələrinin əməkdaşları elektron gömrük bəyannamələrinin qəbulu və qeydiyyatı, bəyannamələrdən təşkill olunmuş verilənlər bazaları və sorğu bazası ilə məşğul olmaq imkanına malikdirlər. Eyni zamanda həm maliyyə şöbəsinin əməkdaşları, həm də yük şöbəsinin əməkdaşları **GRNAS** proqram təminatından istifadə etməklə müvafiq funksiyaları yerinə yetirirlər.

Gömrük rəsmiləşdirilməsi və nəzarətinin şəffaflığını təmin etmək, fiziki və hüquqi şəxslərin məlumatlandırılması üçün gömrük orqanlarında informasiya köşkləri fəaliyyət göstərir. İnformasiya köşklərində rəsmiləşdirilmədə istifadə olunan bütün normativ-hüquqi sənədlər, mal nomenklaturası və müvafiq tariff dərəcələri yerləşdirilib. Xarici-iqtisadi əlaqələr iştirakçısı informasiya köşkünə müraciət edərək şəffaf şəraitdə lazımi məlumatı və eyni zamanda gömrük rəsmiləşdirilməsi barədə **GRNAS**-dan müvafiq məlumatı əldə edə bilir. Məsələn, köşkdən malların idxal və ixracı zamanı çox vacib olan aşağıdakı məlumatları almaq olar.

Mal və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi Azərbaycan Respublikasının Gömrük Məcəlləsi və digər qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada seçilmiş gömrük recimlərinə uyğun olaraq həyata keçirilir.

Eyni zamanda informasiya köşkündən lisenziyalaşdırma qaydaları və lisenziya tələb olunan mallar, xarici ticarətdə istifadə olunan anlayışlar və bəzi terminlər, güzəştli mallar, mədəni sərvətlərin keçirilməsi zamanı tələb olunan qaydalar və bir çox digər qaydalar haqqında məlumatlar əldə etmək mümkündür. Dövlət Gömrük Komitəsinin **ON LİNE** rabitə kompleksinin geniş tutumuna, cari informasiya və telefon-faks mübadiləsinə xələl gətirmədən videorabitə sisteminin təıtbiqi ilə videokonfrans sistemi yaradılmışdır. Videokonfrans sistemi konfrans iştirakakçılarına yüksək effektli vizual və audio ünsiyyət imkani yaradır. Ən muasir videorabitə texnologiyasi vasitəsilə sistem aydin və təmiz təsvir, kristal saf səsin ötürülməsini təmin edir.

Tənzimlənə bilən rabitə zolağı, Stereo Surround səs standartı, videotəsviri və səsi əlaqələndirən system videokonfranslarda təbii ünsiyyətin yaradılmasına xidmət edir. Kompleks çox asan idarə olunur və xüsusi hazirliq tələb etmir.

Dövlət Gömrük Komitəsini, Astara, Xaçmaz və Tovuz gömrük idarələrini birləşdirən videokonfrans sisteminin birləşmə sxemi aşağıdakı şəkildə verilmişdir.

Gömrük işinin əsas məsələlərindən biri də sərhəddən keçirilən mal və nəqliyyat vasitələrinə nəzarəti və onların rəsmiləşdirilməsini təşkil etməkdir. Bildiyimiz kimi sərhədi keçən mal və nəqliyyat vasitələri idxal, ixrac və tranzit kimi keçə bilir. Mal və nəqliyyat vasitələrinə nəzarət etmək üçün daşınma cədvəllərindən istifadə olunur və təyinat gömrük orqanlarına telefonoqramla onlar haqqında məlumatlar ötürülür

Azərbaycan Respublikasının ərazisini keçən nəqliyyat vasitələrinə gömrük nəzarətini həyata keçirmək məqsədilə giriş və çıxış, həmçinin daxili gömrük orqanlarına məlumatın tez və operativ şəkildə otürülməsini təmin etmək üçün "Çatdırma" proqram təminatı hazırlanmışdır.

Gömrük sərhədinin keçən nəqliyyat vasitələrinin elektron qeydiyyatı aparılır. Nəqliyyat vasitələri haqqında məlumatların giriş gömrük orqanında məlumat bazasına daxil olunmasından sonra fayl şəklində müvafiq məlumat hazırlanır və "İnternet" sistemi ilə elektron poçt vasitəlsilə təyinat gömrük məntəqəsinə göndərilir. Giriş gömrük orqanında nəqliyyat vasitələri haqqında olan məlumatlar məlumat bazasında nəzarətdə saxlanılır. Təyinat gömrük orqanında yükün gəlməsi haqqında məlumat alındıqdan sonra inspektor electron müqayisə nəticəsində həmin yükü nəzarətdən çıxarır. Giriş gömrük orqanında yüklərin nəzarətdən çıxarılması üçün müvafiq elektron cavab hazırlanır və poçt vasitəsilə göndərilir. Giriş gömrük orqanından göndərilmiş, lakin nəzarətdən çıxarılmayan yüklər haqqında qaçaqmalçılıq və gömrük qaydalarının pozulması şöbəsi tərəfindən tədbirlər görülür.

Son illər ərzində Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsində fiziki şəxslərin xüsusi çəkisi artır. Fiziki şəxslər tərəfindən gətirilən mallar üçün gömrük prosedurlarının sadələşdirilməsi məqsədilə kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların rəsmiləşdililməsi zəmanı gömrük mədaxil orderlərindən istifadə olunur. Fiziki şəxslər tərəfindən gətirilən yüklərin rəsmiləşdirilməsi üçün tətbiq olunan gömrük mədaxil orderləri üzrə avtomatlaşdırılmış iş yerinin yaradılması məqsədilə "**Gömrük mədaxil orderi (GMO)"** proqram təminatı DGK sədrinin 009 saylı 11 mart 1998-ci il tarixli əmrinə müvafiq olaraq 1998-ci ilin aprel ayından tətbiq olunur. Gömrük mədaxil orderləri üzrə məlumat bazası 3 mərhələdə yaradılır:

- sərhəd postlarında;

- regional gömrük idarələrində;

- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində.

Sərhəd gömrük məntəqələrində və bəzi hallarda regional gömrük idarələrində uyğun sənədlər əsasında gömrük mədaxil orderləri tərtib olunur və müvafiq proqram təminatının köməyilə məlumatlar bazaya daxil edilir və iş gününün sonunda DGK-nə ötürülür.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində mərkəzi məlumat bazası yaradılmışdır. Mövcud tətbiqi proqramlar paketinin köməyilə aşağıdakı məlumatları almaq olar:

- GMO-lar üzrə olan gömrük rüsum və yığımları haqqında;

- Mənşə ölkələri, mallar və fiziki şəxslər haqqında.

Bütün dünya miqyasinda olduğu kimi Azərbaycan Respublikasında da cəmiyyətin iqtisadi və social həyatının saflaşdırılmasında narkoticarət və qaçaqmalçılıqla mübarizə əsas məsələlərdən biri hesab olunur.

Gömrük orqanları həm Azərbaycan Respublikasının qanunları , həm də gömrük qaydalarının hüquq pozuntuları

faktlarının aşkar edilməsi prosesinin əsas həlqəsidir. Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması faktlarının müəyyən edilməsi və araşdırılması sahəsində aparılan işləri yüksək səviyyəyə qaldırmaq məqsədilə əməliyyat-axtarış tədbirlərinin avtomatlaşdırılması istiqamətində müvafiq işlər görülmüşdür. Bu məqsədlə "Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən aşkar olunmuş hüquq pozuntularının qeydiyyatı və nəzarətinin avtomatlaşdırılması sistemi" yaradılmışdır. Sistemin funksional sxemi aşağıdakı kimidir.

Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən aşkar olunmuş hüquq pozuntularının qeydiyatı və nəzarətinin avtomatlaşdırılmış sistemi respublikanın gömrük orqanları tərəfindən aşkara çıxarılan hüquq pozuntularının avtomatlaşdırılmış qeydiyatının təşkilini təmin edir. Başqa sözlə, hüquq pozuntularının məlumat bazası yaradılmışdır. Belə bir informasiya əsasında gömrük qaydalarının pozulması və qaçaqmalçılıqla mübarizənin təşkili vəziyyətini göstərən riskin keçirilməsi və respublikanın regional gömrük idarələri üzrə hesabatın alınması mümkündü

"Wingomruk" proqram təminatı yük gömrük bəyannamələri əsasında yaradılmış məlumat bazasından standart şəkildə statistik və maliyyə hesabatlarının alınması üçün istifadə olunur. Bu proqramın köməyilə ölkələr üzrə, mal pozisiyaları üzrə, saziş növləri üzrə, fiziki və hüquqi şəxslər üzrə, gömrük rüsum və yığımları üzrə və s. 100-dən çox müxtəlif tipli sorğulara cavab almaq olar.

Bununla yanaşı, çox vaxt idarəçilik münasibətlərinin aşağıdakı kanalları nəzərdən keçirilə bilər:

1) DGK-gömrükxana;

2) gömrükxana rəisi - gömrükxana şöbələri;

3) gömrükxana şöbəsi - gömrükxana şöbəsi (digər);

4) gömrükxana - gömrük postu;

5) gömrük postu - gömrük postu (digər);

6) gömrükxana - gömrükxana (digər);

7) gömrükxana - DGK.

Belə qarşılıqlı münasibətlərin mərkəzində rəisi, şöbələri və gömrük postları ilə gömrükxana dayanır. Bu da təsadüfi deyil, çünki gömrük fəaliyətinin əsas məsələləri burada həll edilir.

İdarəetmə strukturu çərçivəsində idarəçilik prosesi baş verir ki, onun iştirakçıları arasında idarəetmə vəzifələri və funksiyaları, nəticə etibarilə onların icrasına görə hüquqlar və məsuliyyət bölüşdürülür. Bu baxımdan idarəetmənin təşkilati strukturu qarşıya qoyulmuş məqsədlərin əldə edilməsinə yönəlmiş darəetmə prosesinin baş verdiyi idarəçilik fəaliyyətinin bölüşdürülmə (bölgü) və kooperasiya forması kimi nəzərdən keçirilə bilər.

Gömrük orqanlarında idarəetmənin həlqələri və səviyyələri arasında qarşılıqlı münasibətlərin aşağıdakı növləri təşəkkül tapır:

- şaquli idarəçilik münasibətləri (DGK - gömrükxana; gömrükxana rəisi - gömrükxana şöbələri;

gömrükxana - gömrük postu; DGK - gömrükxana);

- üfüqi idarəçilik münasibətləri (gömrükxana şöbəsi - gömrükxana şöbəsi; gömrük postu -

gömrük postu; gömrükxana - gömrükxana);

- diaqonal idarəçilik münasibətləri (post - qarşılıqlı əlaqəli göndərən və ya təyinat gömrükxanası;

DGK-nın şöbəsi - DGK-nın qarşılıqlı əlaqəli İdarəsi).

Şaquli münasibətlər, hər şeydən öncə, rəhbərlər və onun tabeliyində olanlar arasında qarşılıqlı münasibətləri nəzərdə tutur, bu zaman xətti subordinasiya (tabelilik) üzə çıxır; səviyyələr üzrə bütün aşağı idarəetmə həlqələri daha yuxarı idarəetmə səviyyəsində yerləşən rəhbəri tabeliyində olur. Bu xətti münasibətlər adlanır.

Gömrük orqanları sistemində şaquli münasibətlər təkcə təşkilati strukturun xətti həlqələri arasında deyil, eyni zamanda subordinasiya (tabelilik) münasibətləri ilə bağlı olan funksional həlqələr arasında da mövcuddur.

Belə münasibətlər reallaşdırılması onların peşə (xidməti) fəaliyyətinə (maliyyə, hüquq mühafizə, kadr və b.) daxil olan müəyyən idarəetmə funksiyasını yerinə yetirmək üçün nəzərdə tutulan idarəçilik həlqələri analoji olaraq yuxarı idarəçilik həlqəsinin funksional (peşə fəaliyyəti növü üzrə) tabeliyində yerləşən zaman ortaya çıxır.

Məsələn, gömrükxananın maliyyə şöbəsinin rəisi gömrükxana rəisi müavininin, gömrükxana rəisinin və digər yuxarı xətti rəhbərlərin xətti tabeliyində yerləşir (şaquli xətti qarşılıqlı münasibətlər).

Üfüqi münasibətlər iki kateqoriyaya bölünə bilər. Birincisi, kollegial - bir rəisin tabeliyində olan bir şöbənin əməkdaşları arasındakı münasibətlərdir. İkicisi, paralel - təşkilatda eyni mövqe tutan, bir-biri ilə informasiya, fikir və mülahizələri mübadilə etmək zərurətinin meydana çıxdığı müxtəlif şöbələrin əməkdaşları arasındakı münasibətlərdir (məsələn, gömrükxana şöbəsi - gömrükxana şöbəsi, gömrük postu - gömrük postu, gömrükxana - gömrükxana kimi üfüqi paralel qarşılıqı münasibət kanalları).

Diaqonal münasibətlər idarəetmə sisteminin müxtəlif səviyyələrində yerləşən, birbaşa tabelilik münasibətində olmayan, lakin yuxarı səviyyələrin qərarlarını icra etməkdə bir-biri ilə qarşılıqlı əlaqəli olan idarəetmə həlqələri arasında meydana gələn

münasibətlərdir. Belə münasibətlərə nümunə olaraq malların çatdırılmasında qarşılıqlı məlumatlandırmanı, hüquq mühafizə funksiyalarının həyata keçirilməsi məsələləri üzrə icrası məcburi olan sorğuların göndərilməsini və s. göstərmək olar.
Xətti və funksional təşkilati idarəetmə strukturları şaquli idarəçilik münasibətləri üçün daha xarakterikdir.

İdarəetmə strukturlarına verilən tələblər

Gömrük orqanları sistemindəki təşkilati idarəetmə strukturlarının təhlili onlara verilən aşağıdakı tələbləri formalaşdırmağa imkan verir:

1) Sadəlik və qənaətcillik (qənaət). Məlumdur ki, olduqca mürəkkəb təşkilati struktur idarəetmə orqanlarının işini mürəkkəbləşdirir və onun saxlanması üçün xərclərin artmasına səbəb olur. Ona görə də gömrük orqanlarında yeni struktur birləşmələri elə hallarda yaradılır ki, onların hansısa xidməti funksiyanı reallaşdırmağının səmərəliliyi başqa birləşmələrdə işləyən əməkdaşlar tərəfindən bu funksiyanın həyata keçirilməsinin səmərəliliyi ilə müqayisədə açıq-aşkar daha yüksək olsun. Məsələn, gömrükxanalarda narkotiklərin qaçaqmalçılığı ilə mübarizə şöbələrinin yaradılması bu planda həmin funksiyanın müxtəlif xidmətlərin və birləşmələrin əməkdaşları tərəfindən həyata keçirildiyi dövrlə müqayisədə gömrükxanaların fəaliyyətinin səmərəliliyini artırmaq üçün nəzərdə tutulmuşdur.
Əməkdaşların işinə həyata keçirilən nəzarət və stimullaşdırma minimal səylər və iqtisadi itkilər (məsrəflər) tələb etməlidir.
İdarəetmənin təşkilati strukturu öz-özünə nəzarətə və işçilərdə daxili təhrikin (motivasiyanın) olmasına kömək etməlidir, yəni təşkilati-idarəçilik məsələlərinə əməkdaş minimum miqdarda vaxt sərf etməlidir.
Təşkilatın qənaətcilliyinin formalaşdırılmasına nə kömək edir? Hər şeydən öncə, təşkilati struktur özözünə deyil, fəaliyyətin inkişafı prosesində inkişaf etməli və formalaşmalıdır.

2. Aydınlıq (açıqlıq). Gömrük orqanının hər bir bölməsi, hər bir əməkdaşı harada yerləşdiyini, informasiya üçün kimə müraciət etməli olmasını, kimin idarəçilik qərarlarını qəbul etdiyini dəqiq bilməlidir.
Strukturun aydınlığını sadəliklə qarışdırmaq olmaz. Əksinə, mürəkkəb strukturlar da aydın ola bilər. Aydınlığı olmayan struktur münaqişələr yaradır, əməkdaşları boş-boşuna vaxt keçirməyə vadar edir, onlara mənfi təsir edir, qərar qəbul etməyi ləngidir.

3. Müəyyənlik. Təşkilati struktur hər bir əməkdaşa özünün vəzifəsini başa düşməkdə kömək etməlidir. Bunun üçün təşkilati struktur iderəetmənin yuxarı səviyyələrindən aşağı səviyyələrinə qədər ötürülmə zamanında informasiyanın minimum itkisini təmin etməlidir.

4. İdarə oluna bilmə. Təşkilati struktur qərar qəbul etmə prosesini sadələşdirməlidir. Pis təşkilati strukturda qərar **"yuxarıdan-aşağıya",** yaxşı strukturda isə **"aşağıdan-yuxarya"** qəbul olunur.

5. Sabitlik. Təşkilati struktur eyni vaxtda stabil (sabit) olmalıdır. Yəni ətrafda baş verən fırtınadan asılı olmayaraq o "işləməlidir". Hər bir işçi müəyyən yer tutduğu

ünsiyyətdə müəyyən dairəyə malik olmalıdır. İnsan özünü daim vağzalda olan kimi hiss etməklə işləyə bilməz. Təşkilat zaman etibarilə sabitlik, öz-özünə yeniləşmə və öz-özünə inkişaf qabilyyətinə malik olmalıdır. Buna isə, hər şeydən öncə, mütəxəssislərin, yeni liderlərin peşakarlığının və şəxsiyyətinin inkişaf etdirilməsi hesabına nail olmaq olar.

6. Çeviklik. Çeviklik anlayışı yalnız son zamanlarda meydana çıxmış və açıq sosial sistemlər üçün səciyyəvidir. Təşkilati idarəetmə strukturu, hətta ən böyüyü və mürəkkəbi belə, "donuq", birdəfəlik və həmişəlik müəyyən olmamalıdır. Çevik struktur təşkilata (müəssisəyə) xarici şəraitin dəyişməsinə cəld reaksiya vermək və ona uyğunlaşmaq imkanı verir. Sözsüz, bu o demək deyildir ki, istənilən cüzi dəyişiklik bütün strukturun yenidən nəzərdən keçirilməsi ilə nəticələnməlidir. Buna, məsələn, sənaye firmasında heç də həmişə zərurət olmur. Qeyd edək ki, bir sıra firmalar dəqiq müəyyən olunmuş dəyişməz struktura malik olmaya bilər. Belə firmalar müvəqqəti yaradıcılıq kollektivləri (MYK) prinsipi üzrə işləyir.

7. Təşkilati idarəetmə strukturunun göstəricisi olan homeostatiklik, yəni daxili tarazlığın saxlanması üzrə sistemin avtomatik reaksiya işləyib hazırlamaq qabiliyyəti sabitlik və çeviklikdən törəmədir.

Müxtəlif növ "birdəfəlik" həyəcanlanmalara görə strukturda sapmalar (kənaraçıxmalar) nə qədər az meydana gəlirsə, bu struktur bir o qədər sabit olur. Eyni zamanda struktur öz inkişafının dinamik şərtlərini nəzərə almalı və "böyük hesablar üzrə" təkmilləşməlidir, yəni əhəmiyyətli, təsadüfi olmayan, böyük, çoxdəfəli və eynitipli (birtipli) birdəfəlik həyəcanlamalar zamanı şəklini dəyişməlidir.

8. Struktur nə qədər mürəkkəbdirsə, onda şaxələnmələr (budaqlar) bir o qədər çox olur və aşağıdakı amillər idarəetmədə bir o qədər çox rol oynayır:

- səlahiyyətlərin ötürülməsi (verilməsi). Məsələn, gömrükxana rəisi bütün gömrük orqanının fəaliyyətinə məsuliyyət daşıyır. Lakin o, funksiyalarının bir hissəsini gömrükxana rəisinin müavinlərinə, gömrükxananın şöbə rəislərinə və gömrük postlarının rəislərinə verməyə məcburdur. Onlar da öz növbəsində ayrı-ayrı vəzifələri tabeliyindəki qruplara və ya gömrük işinin konkret mütəxəssislərinə tapşırırlar ki, həmin şəxslər də bu vəzifələrin yerinə yetirilməsinə görə onların qarşısında hesabat verirlər;

- koordinasiya (əlaqələndirmə). Qarşıya qoyulmuş vəzifələrin icra edilməsində nə qədər çox sayda mütəxəssis iştirak edirsə, onların səyləri bir o qədər çox razılaşdırılmalıdır. Burada isə informasiya bir səviyyədən digərinə ötürülür və üfüqi istiqamət üzrə informasiya mübadiləsi aparılır;

- səlahiyyətlilik (səriştəlilik). Gömrük orqanının hər bir əməkdaşının məsuliyyət dairəsi ciddi olaraq müəyyən edilməlidir. Rəhbərin səlahiyyətliliyi (səriştəliliyi) onun öz bölməsinin və ya bütövlükdə gömrük orqanının işini necə təşkil edə bilməsində ifadə olunur. Rəhbər öz əməkdaşlarının səriştəsinə inanmalıdır.

- mərkəzləşdirmə. Gömrük orqanı (bölməsi) rəisinin "əlində" funksiya və bilavasitə tabe mütəxssislər nə qədər çox olarsa, onun idarəçilik fəaliyyətinin mərkəzləşmə

səviyəsi bir o qədər yüksək olar. Hər bir rəhbər idarəetmənin aşağı struktur həlqələri ilə birlikdə özü üçün müəyyənləşdirməlidir ki, səlahiyyətlərin hansı həcmi onun üçün qalır, hansı isə aşağı həlqələrə verilir.

15. Gömrük sistemində idarəetmə prosesi

İdarəetmə prosesinin mahiyyəti və məzmunu

İdarəetmə sisteminin mühüm komponenti idarəetmə prosesidir. İdarəetmə prosesi müvafiq idarəetmə metodlarından və prinsiplərindən istifadə edilməklə müəyyən funksiyaları reallaşdırmaq yolu ilə sistemdə birləşdirilmiş idarəetmə subyektlərinin (xətti və funksional rəhbərlərin, eləcə də digər idarəçilik heyətinin) idarə edilən obyektin keyfiyyəti vəziyyətlərinin dəyişdirilməsinə, kollektivin məqsədlərinin əldə edilməsinə yönəldilmiş fəaliyyətidir.

İdarəetmə prosesi metodoloji, funksional, iqtisadi, təşkilati, sosial və informasiya aspektlərinin seçildiyi spesifik məzmunu ilə fərqlənir.

Metodoloji aspekt ondan ibarətdir ki, idarəetmə prosesi mərhələlər üzrə müəyyən ardıcıllıqla: məqsədi gümanetmə, vəziyyəti qiymətləndirmə, problemi müəyyən etmə, idarəçilik qərarını hazırlama üzrə reallaşdırılır.

Məqsəd - idarə edilən sistemin necə olması barədə gömrük orqanı rəhbərlərinin təsəvvürüdür.

İdarəçilik şəraiti - konkret idarəetmə sahəsində müəyyən zamanda meydana çıxan və rəhbərin müvafiq hərəkətini tələb edən bütün (daxili və xarici, obyektiv və subyektiv) şərtlərin məcmusudur.

İdarəçilik qərarının hazırlanması - problemin həlli yollarının axtarışı, eləcə də tapılmış yolun praktiki reallaşdırılması ilə bağlı təşkilati işdir.

Funksional aspekt ümumi idarəetmə funksiyalarının müəyyən ardıcıllıqla reallaşdırılmasıdır.

İqtisadi aspekt idarə edilən sistemin resurslarının tələbatını müəyyən etməklə və onlardan istifadəni qiymətləndirməklə bağlı idarə edən sistemin fəaliyyəti ilə müəyyənləşdirilir.

Təşkilati aspekt - təşkilati - sərəncamverici metodlardan idarə edilən sistemə nizamlama, normalaşdırma, təlimatlandırma və məsuliyyət ardıcıllığı ilə istifadə edilməsindən ibarətdir.

İdarəetmə prosesinin sosial aspekti idarəetmənin avtomatlaşdırılmasının bu və ya digər dərəcəsindən asılı olmayaraq onun bütün mərhələlərində insanın iştirakı ilə müəyyən edilir.

İnformasiya aspekti idarəetmə prosesində informasiyanın şəklini dəyişməsi üzrə əməliyyatların müəyyən ardıcıllığından ibarətdir (informasiyanın axtarışı, toplanması, çeşidlənməsi, ilkin işlənməsi və ötürülməsi).

İdarəetmə prosesinə xas olan bütün çoxsaylı əməliyyatları aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1) məqsədi müəyyənetmə (gümanetmə) əməliyyatları;

2) informasiya işi əməliyyatları;
3)analitik iş və qərar variantlarının layihələndirilməsi əməliyyatları;
4) fəaliyyət variantını seçmə əməliyyatları;
5) təşkilati-təcrübi iş əməliyyatları.

Gömrük orqanlarında məqsədin müəyyən edilməsi

Gömrük orqanlarının idarə edilməsinin ümumi və konkret məqsədləri Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, Azərbaycan Prezidentinin, hökumətinin və həmçinin, DGK-nın digər qanunvericilik və hüquqi normativ sənədlərində müəyyən edilmişdir.

Məqsəd nəzəri cəhətdən əsaslandırılmış, müəyyən edilmiş, kəmiyyətcə ölçülə bilən, aydın, mənalı və əldə edilə bilən olmalıdır. Müəyyən idarəetmə situasiyasında məqsədin məzmunu, daha yüksək idarəetmə pilləsinə nail olmaq məqsədi, yəni idarəetmənin daha yüksək səviyyəsini əldə etmək məqsədi olmalıdır.

Gömrük fəaliyyəti ölkənin daxili və xarici siyasətinin qovuşuğunda yerləşir və onun ən mühüm sosialiqtisadi və xarici iqtisadi proqramlarının və planlarının icra edilməsi ilə birbaşa əlaqəlidir. Gömrük orqanları sistemində idarəetmənin başlıca məqsədi, yəni strateji idarəetmənin məqsədi Azərbaycan Respublikasının iqtisadi siyasətinin reallaşdırılmasını təmin etməkdir. İndiki zamanda bu, məqsədyönlü xidməti fəaliyətin keçid dövründə əldə edilməsi arzu olunan nəticəsidir.

İdarəetmənin bu məqsədinin əldə edilməsi aşağıdakı şəkildə reallaşdırılır:

- büdcə gəlirlərinin formalaşdırılması üzrə əsas fiskal orqan kimi gömrük orqanına verilən tapşırıqların icrası ilə;
- hüquq-mühafizə orqanı kimi gömrük xidmətinin rolunun artırılması ilə;
- Azərbaycan gömrük xidmətinin digər dövlətlərin gömrük xidmətləri ilə inteqrasiyasının möhkəmləndirilməsi üzrə iş ilə;
- gömrük xidməti əməkdaşlarının sosial tələbatlrının daha da təmin edilməsi ilə bağlı müvafiq kompleks vəzifələrinin həlli.

Məqsədin idarəetmə prosesində oynadığı roldan asılı olaraq, bir neçə idarəetmə tipləri fərqləndirilir.

Gömrük orqanlarında ən çox **"kənaraçıxmalar üzrə idarəetmə", "proqram idarəetməsi"** və **"məqsədli idarəetmə"** tətbiq edilir.

Kənaraçıxmalar üzrə idarəetmə gömrük orqanlarının idarə edilməsi iyerarxiyasının bütün səviyyələrində vardır, çünki, başlıca olaraq, mövcud vəziyyətlərə görə qurulur. İdarəetmənin bu tipində məqsədə böyük əhəmiyyət verilmir.

Proqram idarəetməsi verilmiş proqramın idarəetmə sisteminin səviyyələri üzrə bölünməsi və onun icra edilmə ardıcıllığının göstərilməsi ilə ətraflı işlənib hazırlanmasına əsaslanır. İdarəetmənin bu tipi, yuxarıda göstərilənlə bərabər, gömrük orqanlarının idarəçilik fəaliyyətində tez-tez tətbiq edilir. İdarəetmənin bu tipi daha

qabarıq şəkildə büdcənin gəlir hissəsini formalaşdırmaq üzrə fiskal-nəzarət vəzifələrin həllində, gömrük idarələrinin inkişaf etdirilməsində, gömrük sərhədindən avtokeçidlərin yaradılmasında və təchizatında və s. nəzərdən keçirilir.

Məqsədli idarəetmədə məqsəd əsas rol oynayır və idarəçilik xarakterini və gedişini müəyyən edir. Məqsədli idarəetmənin məzmunu aşağıdakılardan ibarətdir:

- idarəetmə problemləri müəyyənləşdirilərkən onun müstəsna dərəcədə yüksək analitikliyi;

- idarəetmə məqsədinin son dərəcə ciddi və dəqiq formalaşdırılması;

- idarəetmə probleminin strukturizasiyası, "məqsədlər ağacı"nın qurulması;

"Məqsədlər ağacı"nın "vəzifələr ağacı" ilə dəqiq uyğunlaşdırılması, **"məqsədlər ağacı", "vəzifələr ağacı"** və təşkilati idarəetmə strukturu arasında kifayət qədər yüksək korrelyasiya (qarşılıqlı asılılıq) idarəetmə sisteminin təşkilati strukturunun hər bir həlqəsi daha yüksək qəbildən olan digər həlqələrlə birləşməlidir. Məqsədli idarəetmədə proqnozlaşdırma böyük rol oynayır. İdarəetmə təcrübəsində onun tiplərinin birgə tətbiq edilməsi halları az deyildir. Ən səmərəli uzlaşdırma idarəetmənin proqram və məqsədli növlərinin

birləşdirilməsidir ki, bu da proqram-məqsədli idarəetmə adını almışdır. Bu tip idarəetmə indiki dövrdə gömrük orqanları üçün müstəsna dərəcədə mühüm əhəmiyyət kəsb edir. İndiki dövrdə gömrük sistemində idarəetmənin dinamik xarakteristikalarının, hər şeydən öncə, **AİS** və idarəetmənin informasiya texnologiyasının tətbiqi hesabına təkmilləşdirilməsi müşahidə edilir.

İdarəetmə prosesinin təşkili

Gömrük orqanları sistemində idarəetmə prosesinin təşkili onun həyata keçirilməsinin dəqiqliyini, ardıcıllığını və yol verilən hədlərini müəyyənləşdirən hərtərəfli nizama salınmasıdır.

İdarəetmə prosesinin təşkilinə onun müxtəlif dövrələrinin, mərhələlərinin, pillələrinin və idarəçilik işlərinin (əməliyyatlarının) icra edilməsinin zəruri ardıcıllığını; müəyyən növ idarəçilik işlərinin (əməliyyatlarının) icra edilməsinin müvəqqəti hədlərini və onların qruplaşdırılmasını; idarəetmə prosesinin hər bir mərhələsini və onun bütün idarəçilik işlərini normal və vaxtında həyata keçirmək üçün zəruri və kifayət qədər informasiyanın dəqiq daxil olmasını; idarəetmə sisteminin müxtəlif həlqələrinin idarəetmə prosesi mərhələləri üzrə iştirak qaydasını; məcburi idarəçilik işləri (razılaşdırma, müzakirə, viza vermə, təsdiqetmə, məlumatlandırma və s.) kimi idarəetmə prosesi qayda və üsullarını müəyyən etmək daxildir.

İstənilən idarəetmə prosesi öz məzmununa görə dövrlərdən, mərhələlərdən, pillələrdən və fazalardan ibarətdir.

İdarəetmə dövrü dedikdə idarəetmənin bütün ümumi funksiyalarının analiz (təhlil) və proqnozlaşdırma, planlaşdırma, təşkiletmə, tənzimetmə, uçot və nəzarət) tam

reallaşdırılması üçün zəruri olan zaman kəsiyi başa düşülür. İdarəetmə dövrlərinin reallaşdırılması üçün normativ bazaya, planlaşdırma sisteminə, uçot sisteminə, əməkdaşların fəaliyyətinin qiymətləndirilməsi və stimullaşdırılması sisteminə, informasiya və kadr təminatına malik olmaq lazımdır.

Dövr mərhələlərdən ibarətdir. Mərhələlər dedikdə, bir halda qarşıdakı fəaliyyət sisteminin yaradıldığı digərində isə onun fəaliyyət göstərməsi ilə idarəetmənin həyata keçirildiyi zaman kəsikləri nəzərdə tutulur.

Hər mərhələ pillələrdən ibarətdir. Pillə dedikdə idarəetmənin hər hansı bir ümumi funksiyasının tam reallaşdırılması üçün zəruri olan vaxt (zaman) başa düşülməlidir. Buna uyğun olaraq idarəetmə prosesi pillələri təhlil və proqnozlaşdırma pilləsi, planlaşdırma pilləsi, təşkiletmə pilləsi, tənzimetmə pilləsi, uçot pilləsi və nəzarət pilləsi adlandırılır.

İdarəetmə prosesində qərar qəbul edilməsi

Gömrük orqanlarının işinin məhsuldarlığı idarəetmənin bütün səviyyələrində qəbul edilən qərarların keyfiyyətindən çox asılıdır. İdarəçilik qərarı hər şeydən öncə, idarəetmə sisteminin bu və ya digər hərəkət variantının idarəetmə subyekti tərəfindən seçilən fikri-iradə aktıdır.

Qərarda idarəetmə obyektləri qarşısında dayanan məqsəd və vəzifələr xülasə edilir, onlar üçün yol verilən hərəkətlər ölçüsü nəzərdə tutulur, məqsəd və vəzifələrin reallaşdırılması üçün hansı resursların lazım olması müəyyənləşdirilir. Beləliklə, idarəçilik qərarı idarəetmənin idarə edilən sisteminin məqsəd və proqramından ibarətdir. Məhz buna görə gömrük orqanlarında idarəçilik qərarlarının keyfiyyətindən və vaxtında qəbul olunmasından onların idarə edilməsinin, hər şeydən öncə, uğuru və uğursuzluğu asılıdır.

İdarəçilik qərarlarını müxtəlif əlamətlərə görə təsnif etmək qəbul olunmuşdur. Buna baxmayaraq, qərarın qəbul edildiyi şərait müəyyənedici andır. Adətən, qərarlar müəyyənlik və qeyri-müəyyənlik (risk) şəraitində qəbul edilir. Müəyyənlik şəraiti, bir qayda olaraq, standart qərarların, qeyri-müəyyənlik şəraiti -standart olmayan qərarların qəbulunu əvvəlcədən müəyyən edir.

Standart elə qərarlardır ki, kənaraçıxmalarla birgə qərarın özünün strukturu və onun qəbul edilməsi prosedurası işlənir. Adətən, onlar mövcud situasiyanın ayrı-ayrı kəmiyyət parametrlərinin dəyişdirilməsinə, icra müddətinə və icraçıların yerləşdirilməsinə yönəldilir, onun ümumi strukturu isə əvvəlki kimi qalır. Belə qərarlar kifayət qədər tez, xüsusi hazırlıq olmadan (məsələn, kadrların işə qəbulu və işdən azad edilməsi haqqında əmrlər) qəbul edilə bilər.

Standart olmayan qərarlar, bir qayda olaraq, yaradıcı qərarlardır. Qeyri-müəyyənlik, deməli, həm də risk şəraitində belə qərarlara ehtiyac, şübhəsiz, xeyli artır. Bu daim dəyişməkdə olan gömrük şəraitinə uyğunlaşmaq və həm daxili, həm də nəzarət

edilməyən xarici faktorların təsiri altında resurslarla manevr etmək zərurəti ilə bağlıdır.

Qərar qarşıya qoyulmuş məqsədlərə yetmək üçün əməkdaşların birgə hərəkətlərini təşkil edən, istiqamətləndirən və stimullaşdıran direktiv aktdır.

İdarəetmənin psixoloji aspektləri

Qeyd edildiyi kimi, idarəçilik prosesinin əsas spesifikası rəhbər tərəfindən tabeliyindəkilərin istehsalat vəzifələrini məqsədyönlü icra etmələrini təmin etməkdən ibarətdir. Bu səbəbdən çox vaxt deyirlər ki, rəhbər **"öz əlləri ilə deyil, tabeliyindəkilərin əlləri ilə işləyir".**

Özlərinin idarçilik fəaliyyətində, hər şeydən öncə, üç aspektə daimi diqqət yetirilməsi zərurəti həmişə rəhbərlər qarşısında real olaraq durur.

1) istehsalat vəzifələrinin bilavasitə icraçıları kimi insanlara diqqət göstərmək, bu isə onlara istehsalat vəzifələrinə uyğun gələn davranış üslubunu öyrətməyi, onların keyfiyyətini artırmağı, onlarda müsbət dəyərli peşə fəaliyyəti yönümünü və motivlərini inkişaf etdirməyi, istehsalat kollektivlərini formalaşdırmağı, təşkilatın korporativ ruhunu inkişaf etdirməyi və s. nəzərdə tutur;

2) peşə fəaliyyətinin məqsəd və vəzifələrinin dəqiq müəyyənləşdirilməsinə, xarici mühitdə dəyişmələr şəraitində təşkilatın məqsədlərinin həyata keçirilməsində strateji və taktiki məsələlərin həllinə və s. nail olma.

3) istehsalat vəzifələrinin yerinə yetirilməsi üçün şəraiti təmin etmək, bu isə özündə kommunikasiyanı təkmilləşdirməyi, iş yerlərində əlverişli şərait, səmərəli idarçilik istehsal texnologiyası yaratmağı, eləcə də operativ qərarlar qəbul etmək üçün icraçılara zəruri səlahiyyətlər ayırmağı ehtiva edir.

Özlərinin idarəçilik fəaliyyətlərinin gedişatı təcrübəsində rəhbərlər üstünlüyü yalnız istehsalat vəzifələrinə və fəaliyyət subyektlərinə (vəzifələrin icraçılarına); idarəçilik fəaliyyətinin bütün göstərilmiş əvvəlki istiqamətlərinə və bu istiqamətlərlə bərabər, məsələn, qərarın qəbul edilmə vaxtı, əməkdaşların intizamı və s. kimi həmin momentdə mühüm olan digər göstəricilərə verə bilərlər. Bütün bu hallarda rəhbərdə müvafiq olaraq bir ölçülü, ikiölçülü, üçölçülü və çoxölçülü idarəçilik düşüncəsinin (təfəkkürünün) inkişafından danışılır.

Birölçülü idarəçilik düşüncəsi (təfəkkürü) rəhbərin özünün idarəçilik faliyyətində, hər şeydən öncə, meydana çıxan vəzifələrə oriyentirini (meylini) xarakterizə edir. Situasiyanın digər elementləri (fəaliyyət subyekti və şəraiti) rəhbərin yüksək diqqətindən kənarda qalır.

İkiölçülü idarəçilik düşüncəsi (təfəkkürü) rəhbərin diqqətini həm istehsalat vəzifələrinə, həm də onların icraçılarına yönəldir.

Üçölçülü idarəçilik düşüncəsi zamanı rəhbər diqqətini təkcə fəaliyyətə (vəzifəyə) və insana (subyektə) deyil, həm də fəaliyyətin obyektiv şəraitinə yönəldir.

Çoxölçülü idarəçilik düşüncəsi elə rəhbər üçün xarakterikdir ki, konkret situasiyadan asılı olaraq özünün idarəçilik fəaliyyətində, yuxarıda nəzərdən keçirilən oriyentasiyalardan başqa, bu və ya digər xüsusi göstəriciləri birinci yerə qoya bilsin. Belə göstəricilər, məsələn, fəaliyyətin nəticəsinin keyfiyyəti, qərarın qəbul edilmə sürəti, əməkdaşların motivasiyası və s. ola bilər.

Lakin rəhbərdə hansı növ idarəçilik düşüncəsi olursa-olsun və buna uyğun olaraq, o hansı idarəetmə üslubuna tərəfdar olursa-olsun, onun hərəkətləri hansısa vaxt anında effektli və ya effektsiz ola bilər. Hər şey konkret situasiya amillərindən asılıdır.

İdarəetmə üslubunun çevikliyi, idarəetmənin effektli üslubunu effektsiz üslubundan sərfəli şəkildə fərqləndirir və bir qayda olaraq, idarəçilik fəaliyyətinin səmərəliliyinə təminat verir.

Gömrük orqanı rəhbərinin yüksək idarəçilik fəaliyyəti onun gömrükxana əməkdaşları və müştəriləri ilə xidməti etika normalarında ifadə olunan gündəlik ünsiyyətində təzahür edir. Xidməti etik normalara aşağıdakılar daxildir:

1) rəhbərin ünsiyyət demokratizmi;
2) sadəliyi;
3) diqqətliliyi;
4) inam mühiti yaratmaq bacarığı;
5) ünsiyyət zamanı nəzarətliliyi və düzgünlüyü;
6) verdiyi sözə əməl etməyi;
7) dəqiqliyi və məsuliyyətliliyi.

Bütün sadalananlarla bərabər intizamlı, səliqəli və davranış tərzində dəqiq və mütəşəkkil olan rəhbər kollektivdə xüsusi hörmətə malik olur və işləri də qaydasında gedir.

AR DGK-da xidməti sənədlərin hazırlanması, hərəkəti, icrası, uçotu və saxlanmasını tənzimləyən vahid qaydalar komitə sədrinin 28 dekabr 1998-ci il tarixli 075 saylı əmri ilə təsdiq edilmiş təlimatla müəyyən edilir.

Azərbaycan Respublikasında bazar münasibətlərinin təkamülü, dünya iqtisadi sisteminin inteqrasiyası, Ümumdünya Ticarət Təşkilatına üzv olmağa hazırlıq xarici iqtisadi fəaliyətin liberallaşdırılması şəraitində gömrük sisteminin inkişafını və təkmilləşdirilməsini tələb edir.

İnkişaf etmiş ölkələrin təcrübəsinə əsasən Azərbaycan Respublikasının gömrük sistemininin inkişafı və təkmilləşdirilməsi proqramının hazırlanmasına böyük ehtiyac vardır. Bu proqram, gömrük sisteminin təkmilləşdirilməsinin taktiki və strateji toplusundan ibarət olmalıdır.

Faktiki tədbirlərə aşağıdakılar daxildir:

1) gömrük rəsmiləşdirilməsinə sərf edilən vaxtın qısaldılması;
2) gömrük proseduralarının sadələşdirilməsi;

3) gömrük məlumatlarının işlənməsi sisteminin tamamilə avtomatlaşdırılması;
4) gömrük və gömrükətrafı infrastrukturların inkişafı.
Strateji tədbirlərə isə Ümumdünya Gömrük Təşkilatının tövsiyələri aid edilir.

ƏDƏBİYYAT VƏ MATERİALLAR:

1) C.Q. Nuriyev, A.Ə. Əliyev, M.C.Atakişiyev -Gömrük işinin təşkili və idarə edilməsi Bakı - 2012
2) A.Ş.Şəkərəliyev, C.Q.Nuriyev, A.Ə.Əliyev Gömrük işinin təşkili və idarə edilməsi- Bakı, Qanun 2003
3) A.Ş.Şəkərəliyev "Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi" - Bakı - 2011
4) A.B. Граве Таможенное право
5) Бакаева О.Ю., Матвиенко Г.В.Таможенное право. Российская академия правосудия, 2009
6) Heydərov K..F. Gömrük işinin əsasları. Dərslik. Bakı-2004.
7) Алиев А.А. "Таможенное дело и развитие мировой экономики", Баку, 2002.
8) "Azərbaycan Respublikasının Gömrük Məcəlləsi" Bakı 2012.
9) www.customs.gov.az.
10) "Gətirilməsi (aparılması) qadağan olunmuş və ya məhdudlaşdırılmış malların götürülməsi haqqında" Protokolunformasının təsdiq edilməsi barədə
11) Qeyri-rezident fiziki şəxslər tərəfindən xarici ölkələrdə daim qeydiyyatda olan XİFMN-ın 8703 və 8711 mal mövqələrinə aid Avro-4 ekoloji norma və standartlarına uyğun olmayan avtonəqliyyat vasitələri və onların qoşquları (yarımqoşquları) Azərbaycan Respublikasının gömrük ərazisinə müvəqqəti olaraq gətirilərkən gömrük orqanlarına təqdim olunan təsdiqedici sənədlər haqqında MƏLUMAT 1. Bəyannamə 2. Pasport
12) Ümumdünya Poçt İttifaqının Aktlarında nəzərdə tutulmuş sənədlərlə müşayiət olunan beynəlxalq poçt göndərişləri ilə göndərilən malların gömrük rəsmiləşdirilməsi Qaydaları
13) «Xarici ticarətin gömrük statistikasının nəşr olunması Qaydası»nın təsdiq edilməsi haqqında
14) "Xüsusi gömrük statistikasının aparılması Qaydaları"nın təsdiq edilməsi barədə
15) "Gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən keşik çəkmənin (patrulluğun) və gömrük müşahidəsinin aparılması Qaydaları"nın təsdiq edilməsi barədə
16) Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi üzrə elektron Sərnişin bəyannaməsinin qəbulu üzrə inzibati reqlament
17) Xarici iqtisadi fəaliyyət iştirakçılarına həyata keçirdikləri idxal-ixrac əməliyyatları barədə statistik məlumatların verilməsi üzrə inzibati reqlament

18) Dövlət sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üçün ilkin məlumatlandırma üzrə müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament
19) Malların nomenklaturası və mal və nəqliyyat vasitələrinə tətbiq olunan müvafiq gömrük ödənişləri barədə məlumatların verilməsi üzrə inzibati reqlament
20) Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində İnformasiya azadlığı ilə bağlı daxili icraat Qaydaları
21) «Azərterminalkompleks» Birliyi haqqında Əsasnamə»nin təsdiq edilməsi barədə
22) Fiziki şəxslər tərəfindən valyuta sərvətlərinin Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması Qaydaları
23) Azərbaycan Respublikasının gömrük xidmətində risklərin avtomatlaşdırılmış idarəetmə sisteminin Konsepsiyası
24) «Mallar tranzit gömrük rejimi altında yerləşdirilərkən yük-gömrük bəyannaməsinin doldurulmasının müvəqqəti Qaydası»nın təsdiq edilməsi haqqında
25) Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların, nəqliyyat vasitələrinin və digər əşyaların qəbulu, uçotu, qiymətləndirilməsi, satışı (təhvil verilməsi) və məhv edilməsinin təşkili barədə
26) «Dövrü gömrük bəyannaməsinin verilməsi, tətbiqi və sənədləşdirilməsi Qaydaları»nın təsdiq edilməsi haqqında
27) Azərbaycan Respublikası ərazisinə idxal olunan aksizli mallara və aksiz tətbiq edilən minik avtomobillərinə aksiz vergisinin hesablanması və ödənilməsi qaydaları haqqında Təlimat
28) Azərbaycan Respublikasının ərazisinə gətirilən malların gömrük dəyərinin bəyan edilməsinin qayda və şərtləri haqqında Əsasnamə
29) Gömrük mədaxil orderinin doldurulması və onun tətbiqi ilə gömrük ödənişlərinin alınması qaydaları haqqındaTəlimat
30) «Azərbaycan Respublikası Xarici Ticarətinin Gömrük Statistikasının Metodologiyasının tətbiqi ilə əlaqədar olaraq statistik dəyərin hesablanılmasına dair Təlimat» haqqında
31) «Gömrük nəzarəti zonalarının yaradılması və onların nişanlanması Qaydaları»nın təsdiq edilməsi haqqında
32) Yük gömrük bəyannamələrinin doldurulması Qaydaları
33) Azərbaycan Respublikası Gömrük orqanları əməkdaşlarının fərdi qaydada mükafatlandırılması haqqında əsasnamənin təsdiq edilməsi barədə

34) Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində İnformasiya azadlığı ilə bağlı daxili icraat Qaydaları

35) “Gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim formasının daşınması Qaydaları” təsdiq edilməsi haqqında.

36) “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Biləsuvar Gömrük İdarəsinin Qoşatəpə gömrük postu haqqında Əsasnamə” təsdiq edilsin.

37) “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mərkəzi Gömrük Ekspertizası İdarəsi haqqında Əsasnamə” təsdiq edilsin.

38) Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Avtomobil Nəqliyyatı İdarəsi haqqında Əsasnamə- təsdiq edilsin.

39) "Sərgi, qastrol səfərləri, bərpa işləri, təqdimat, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi ilə əlaqədar mədəni sərvətlərin müvəqqəti ixracı Qaydası"nın təsdiq edilməsi haqqında

40) "Mədəni sərvətlərin idxalı, ixracı və Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

41) «Gömrük ərazisindən kənar əraziyə yola düşməyə hazırlaşan nəqliyyat vasitəsinin heyət üzvlərinin, xidmətedici heyətinin, sərnişinlərinin istifadəsi və nəqliyyat vasitəsinin istismarı üçün ehtiyatlar hesab olunan malların nomenklaturası, çeşidi, miqdarı və onların gömrük rüsumlarından və vergilərdən azadolma şərtləri»nin təsdiq edilməsi haqqında

42) «Gömrük nəzarətindən keçməli olan malların yoxlanılmasının sürətləndirilməsi, gömrük nəzarətinin səmərəliliyinin artırılması və həyata keçirilmə müddətinin azaldılması məqsədi ilə gömrük orqanları tərəfindən istifadə olunan texniki vasitələrin siyahısı və onlardan istifadə Qaydaları»nın təsdiq edilməsi haqqında

43) «Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satılması Qaydaları»nın təsdiq edilməsi barədə

44) «Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması Qaydası»nın təsdiq edilməsi haqqında

45) "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

46) "Gömrük auditinin həyata keçirilməsinin nəticələrinə dair aktın forması və tərtib edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 165 nömrəli qərarının ləğv edilməsi haqqında

47) "Gömrük işi sahəsində cinayət işləri və digər hüquqpozmalar üzrə məhkəmənin qüvvəyə minmiş qərarına əsasən müsadirə edilmiş, habelə şəxsin dövlətin xeyrinə imtina etdiyi malların və nəqliyyat vasitələrinin dövlət mülkiyyətinə keçirilməsi Qaydaları"nın təsdiq edilməsi barədə

48) "Dövlət mülkiyyətinə keçirilmiş və gömrük hərraclarında satılmamış qalan, yaxud mülki dövriyyədə olmasına yol verilməyən və mülki dövriyyəsi məhdudlaşdırılmış mallar, həmçinin tez xarab olan və saxlanc müddəti keçmiş mallar barəsində sərəncam verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

49) "Malların xaricdə emal xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

50) "Gömrük təmsilçiliyi, o cümlədən gömrük brokeri fəaliyyətini tənzimləyən Qaydalar"ın təsdiq edilməsi haqqında

51) "Malların preferensial və qeyri-preferensial mənşəyinin müəyyən edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

52) "Malların daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

53) "Malların beynəlxalq və daxili tranzit xüsusi gömrük prosedurları altında yerləşdirilərək daşınması Qaydaları"nın təsdiq edilməsi haqqında

54) "Mallara dair bəyannamənin təsdiq edildiyi gündən 1 (bir) il müddətində malların qüsurlu olması ilə əlaqədar sövdələşmə qiymətinə düzəlişlər edilməsi halları"nın təsdiq edilməsi haqqında

55) "Məlumat daşıyıcısı vasitələrinin gömrük dəyərləndirilməsi Qaydaları"nın təsdiq edilməsi barədə

56) «Gömrük auditinin həyata keçirilməsinin nəticələrinə dair aktın forması və tərtib edilməsi Qaydası»nın təsdiq edilməsi barədə

57) «Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə daxil olması, çıxması və tranziti ilə bağlı əldə edilən məlumatların başqa ölkələrin gömrük və digər səlahiyyətli dövlət orqanları ilə mübadiləsi Qaydaları»nın təsdiq edilməsi haqqında

58) «Əlavə dəyər vergisi üzrə gömrük borcunun məbləğinin hesablanması Qaydası»nın təsdiq edilməsi barədə

59) «Gömrük sərhədindən elektrikötürücü xətlər vasitəsi ilə keçirilən mallar üzərində gömrük nəzarətinin həyata keçirilməsi Qaydaları»nın təsdiq edilməsi haqqında

60) «Gömrük sərhədindən boru kəməri vasitəsi ilə keçirilən mallar üzərində gömrük nəzarətinin həyata keçirilməsi Qaydaları»nın təsdiq edilməsi haqqında

61) «Təhlükəsiz ixrac sxemi çərçivəsində malların qablaşdırılması, yüklənməsi, daşınması və boşaldılması Qaydaları»nın təsdiq edilməsi barədə

62) «Emal xüsusi gömrük proseduru üzrə yerinə yetirilən əməliyyatların hasilat normasının və ya orta hasilat normasının müəyyənləşdirilməsi Qaydası»nın təsdiq edilməsi haqqında

63) «Müvəqqəti saxlanc anbarlarının və gömrük anbarlarının tiplərinə, quruluşuna, təchizatına, orada yerləşdirilən mallarla əlaqədar əməliyyatlara, uçot və hesabatın aparılmasına, gömrük nəzarətinin həyata keçirilməsinə, anbar sahibinə dair Tələblər»in təsdiq edilməsi haqqında

64) «Gömrük ərazisindən kənar əraziyə yola düşməyə hazırlaşan nəqliyyat vasitəsinin heyət üzvlərinin, xidmətedici heyətinin, sərnişinlərinin istifadəsi və nəqliyyat vasitəsinin istismarı üçün ehtiyatlar hesab olunan malların nomenklaturası, çeşidi, miqdarı və onların gömrük rüsumlarından və vergilərdən azadolma şərtləri»nin təsdiq edilməsi haqqında

65) «Malların son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları»nın təsdiq edilməsi haqqında

66) «Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsi Qaydaları»nın təsdiq edilməsi haqqında

67) «Ayrı-ayrı gömrük əməliyyatı və ya gömrük proseduru ilə bağlı gömrük orqanının icazəsinin verilməsi Qaydaları»nın təsdiq edilməsi haqqında

68) «Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsi, fəaliyyətinin dayandırılması və ləğv edilməsi Qaydaları»nın təsdiq edilməsi haqqında

69) «Gömrük brokerlərinin dövlət reyestrinin aparılması Qaydaları»nın təsdiq edilməsi haqqında

70) «Gömrük ekspertizasının aparılması Qaydaları»nın təsdiq edilməsi haqqında

71) «Malların saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları»nın təsdiq edilməsi haqqında

72) «Malların müvəqqəti ixrac gömrük proseduru altında yerləşdirilməsi Qaydaları»nın təsdiq edilməsi haqqında

73) "Rüsumsuz ticarət mağazalarının yaradılması və onların fəaliyyətinin tənzimlənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

74) "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"nın təsdiq edilməsi barədə

75) "Təminatdan istifadə etməklə gömrük borcunun ödənilməsinin təmin edilməsi Qaydaları"nın təsdiq edilməsi barədə

76) "Xüsusi gömrük prosedurları daxilində ekvivalent mallardan istifadə Qaydaları»nın təsdiq edilməsi haqqında
77) "Malların müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında
78) "Gömrük orqanlarına təqdim edilmiş malların məhv edilmə halları və Qaydası"nın təsdiq edilməsi haqqında
79) "Səlahiyyətli iqtisadi operator statusunun verilməsi, müvəqqəti dayandırılması və ləğv olunması Qaydaları"nın təsdiq edilməsi haqqında
80) "Nəzarətli göndəriş metodundan istifadə etməklə gömrük sərhədindən keçirilən mülki dövriyyədən çıxarılmış və ya mülki dövriyyəsi məhdudlaşdırılmış malların götürüldüyü hallar və bunun Qaydası"nın təsdiq edilməsi haqqında
81) "İcazə sahibi, prosedur sahibi, habelə sərbəst zonada malların saxlancı, istehsalı, emalı, alqı-satqısı ilə məşğul olan şəxslərin öz əməliyyatlarının uçotunu aparması Qaydaları"nın təsdiq edilməsi haqqında
82) "Malların emal və ya xüsusi istifadə xüsusi gömrük proseduru altında yerləşdirilməsinə icazənin verilməsinin yerli istehsalçıların mühüm maraqlarına təsir göstərmə dərəcəsinin müəyyənləşdirilməsi üçün iqtisadi şəraitin təhlilinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında
83) Tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan malların buraxılışının dayandırılması, buraxılışın dayandırılma müddətinin uzadılması, qəbul edilən qərarlar barədə ərizəçiyə və bəyannaməçiyə məlumat verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında
84) "Sərbəst zonaya gətirilən daxili malların, sərbəst zona daxilində emal əməliyyatlarına məruz qalmış daxili malların və sərbəst zona daxilində sərbəst dövriyyəyə buraxılmış malların gömrük orqanları tərəfindən daxili mallar gömrük statusunun təsdiq edilməsi Qaydası"-nın təsdiq edilməsi haqqında.
85) «Gömrük ödənişlərinin qaytarılması Qaydaları»-nın təsdiq edilməsi haqqında.
86) "Mallardan dövlətin xeyrinə imtina edilməsi Qaydası"-nın təsdiq edilməsi haqqında.
87) «Gömrük ödənişləri üzrə güzəştlər verilərək şərti buraxılmış mallar barəsində sərəncam verilməsi Qaydası»nın təsdiq edilməsi haqqında
88) «Gömrük rəsmiləşdirilməsi başa çatmamış mallardan və nəqliyyat vasitələrindən istifadə edilməsi və onlar barəsində sərəncam verilməsinə dair Şərtlər və məhdudiyyətlər»-in təsdiq edilməsi haqqında.
89) "Tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan malların reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında

90) «Müvəqqəti saxlanc anbarlarının və gömrük anbarlarının tiplərinə, quruluşuna, təchizatına, orada yerləşdirilən mallarla əlaqədar əməliyyatlara, uçot və hesabatın aparılmasına, gömrük nəzarətinin həyata keçirilməsinə, anbar sahibinə dair Tələblər»in təsdiq edilməsi haqqında.

91) "Təbii fəlakətlər və digər fövqəladə hallar zamanı zəruri olan malların və nəqliyyat vasitələrinin, canlı heyvanların, tez xarab olan malların, radioaktiv maddələrin, kütləvi informasiya məqsədləri üçün materialların, Azərbaycan Respublikasının qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının, Azərbaycan Respublikası Mərkəzi Bankının ünvanlarına göndərilən və bu qəbildən olan başqa malların gömrük rəsmiləşdirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"-nın təsdiq edilməsi haqqında

92) "İdxal olunmuş malların kabotaj daşınması Qaydası"-nın təsdiq edilməsi haqqında

93) «Mallara gömrük təminatının vurulması Qaydaları»-nın təsdiq edilməsi haqqında

94) «Malların təkrar ixrac gömrük proseduru altında yerləşdirilməsi Qaydaları»-nın təsdiq edilməsi haqqında

95) «İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun kodlar üzrə, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin Siyahısı»-nın təsdiq edilməsi haqqında

96) «İxrac nəzarəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə

97) "Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satılması Qaydaları"-nın təsdiq edilməsi barədə.

98) “Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təchizat Normaları”-nın təsdiq edilməsi haqqında.

99) "Gömrük nəzarətindən keçməli olan malların yoxlanılmasının sürətləndirilməsi, gömrük nəzarətinin səmərəliliyinin artırılması və həyata keçirilmə müddətinin azaldılması məqsədi ilə gömrük orqanları tərəfindən istifadə olunan texniki vasitələrin siyahısı və onlardan istifadə Qaydaları"-nın təsdiq edilməsi haqqında.

100) Dövlət orqanlarına, hüquqi və fiziki şəxslərə gömrük məsələləri üzrə məlumatların verilməsi qaydaları"nın təsdiq edilməsi haqqında.

101) "Gömrük işində informasiya sistemlərindən, informasiya texnologiyalarından və onların təminat vasitələrindən istifadə qaydaları"-nın təsdiq edilməsi haqqında.

102) "Gömrük orqanlarının elektron məlumat sistemindən istifadə qaydaları"-nın təsdiq edilməsi haqqında.
103) «Malların sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilməsi qaydaları»-nın təsdiq edilməsi haqqında.
104) Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə daxil olması, çıxması və tranziti ilə bağlı əldə edilən məlumatların başqa ölkələrin məlumatların başqa ölkələrin gömrük və digər səlahiyyətlə dövlət orqanları ilə mübadiləsi Qayda"nın təsdiq edilməsi barədə.
105) «Gömrük nəzarətinin həyata keçirilməsi Qaydaları»-nın təsdiq edilməsi haqqında
106) «Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları»-nın və «Elektron xidmət növlərinin Siyahısı»nın təsdiq edilməsi haqqında.
107) Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsini gücləndirmək tədbirləri haqqında
108) Azərbaycan Respublikasının gömrük sisteminin büdcədənkənar inkişaf fondu haqqında Əsasnamə və fondun vəsaitinin xərclənməsi Qaydaları barədə
109) «Azərbaycan Respublikası Hökuməti və Makedoniya Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş»i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
110) Dövlət Gömrük Komitəsinin Akademiyasının təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
111) Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
112) «2008—2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
113) «Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş»i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
114) «Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş»i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.

115) «Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş»i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
116) «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010 — 2012-ci illər üçün Dövlət Proqramı»nın (Elektron Azərbaycan)» təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
117) Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşlarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
118) Respublikasının 2012-ci il 1 oktyabr tarixli 429-IVQD nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
119) «Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Monqolustan Baş Gömrük İdarəsi arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Protokol»u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
120) Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
121) 2010-cu il iyunun 26-da Brüssel şəhərində imzalanmış «Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Makedoniya Respublikası Gömrük İdarəsi arasında kadrların peşəkarlığının artırılması və təkmilləşdirilməsi sahəsində əməkdaşlıq haqqında Saziş»in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
122) «Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Makedoniya Respublikası Gömrük İdarəsi arasında kadrların peşəkarlığının artırılması və təkmilləşdirilməsi sahəsində əməkdaşlıq haqqında Saziş»i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
123) 2009-cu il noyabrın 11-də Bakı şəhərində imzalanmış «Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatı (ÜGT) arasında Azərbaycan Respublikasının Bakı şəhərində Potensialın Gücləndirilməsi üzrə Ümumdünya Gömrük Təşkilatının Regional Ofisinin yaradılması ilə əlaqədar Anlaşma Memorandumu»nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
124) Azərbaycan Respublikası gömrük orqanlarının bayrağı və emblemi haqqında

125) «Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

126) Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamənin və komitənin strukturunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

127) Azərbaycan Respublikası Gömrük Komitəsinin təşkili və fəaliyyəti məsələləri haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

128) "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

129) "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

130) «Xidməti və mülki silah haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

131) «Xidməti və mülki silah haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 21 fevral tarixli 679 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

132) Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

133) Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsvirləri"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

134) Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

135) «Avtomobil nəqliyyatı haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

136) Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

137) Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və onun yanında yaradılmış dövlət agentliyi və dövlət xidmətləri haqqında əsasnamələrin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
138) Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturunun və Əsasnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
139) Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi, gömrük işi sahəsində prosedurların sadələşdirilməsi və şəffaflığın artırılması ilə əlaqədar bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
140) «Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında «bir pəncərə» prinsipinin tətbiqi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 noyabr tarixli, 12 nömrəli Fərmanına əlavə edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
141) Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında «bir pəncərə» prinsipinin tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
142) «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
143) Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
144) Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdəki nümayəndələrinin (gömrük attaşelərinin) təyin edilməsi və onların fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
145) Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
146) «İxrac nəzarəti haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
147) «Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli, 609 nömrəli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydaları»nın 1 nömrəli əlavəsinə əlavə edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

148) «İxrac nəzarəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
149) «Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
150) Ozondağıdıcı maddələrlə əlaqədar idxal-ixrac fəaliyyətinin dövlət tənzimlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
151) «Tütün və tütün məmulatı haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
152) «Gömrük orqanlarında xidmət haqqında» Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq
153) Azərbaycan Respublikası Gömrük Məcəlləsinin tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
154) Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
155) Azərbaycan Respublikası Gömrük Komitəsinin işi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
156) Azərbaycan Respublikasında gömrük nəzarətinin təmin edilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
157) Azərbaycan Respublikasının ixracat potensialından səmərəli istifadə edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
158) Azərbaycan Respublikasında iqtisadi cinayətkarlığa və sabotaja qarşı mübarizə tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
159) Azərbaycan Respublikası Gömrük Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
160) Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
161) Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında «bir pəncərə» prinsipinin tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
162) Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturunun və Əsasnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
163) «Gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqənin keçirilməsi Qaydası»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

164) Gömrük tarifi haqqında Azərbaycan Respublikasının Qanunu.
165) Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında Azərbaycan Respublikasının Qanunu
166) Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında Azərbaycan Respublikasının Qanunu.
167) «Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.
168) «Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.
169) Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu.
170) Azərbaycan Respublikası Hökuməti və Argentina Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.
171) Sanitariya-epidemioloji salamatlıq haqqında Azərbaycan Respublikasının Qanunu.
172) Fitosanitar nəzarəti haqqında Azərbaycan Respublikasının Qanunu.
173) Baytarlıq haqqında Azərbaycan Respublikasının Qanunu.
174) Sanitariya-epidemioloji salamatlıq haqqında Azərbaycan Respublikasının Qanunu.
175) «Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı yardım və əməkdaşlıq haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.
176) «Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.
177) «Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.
178) «Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.

179) Qiymətli metallar və qiymətli daşlar haqqında Azərbaycan Respublikasının Qanunu.
180) «Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti arasında gömrük hüquqpozmalarının qarşısının alınması, araşdırılması və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.
181) «Gömrük orqanlarında xidmət haqqında» Əsasnaməyə əlavə edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu.
182) «Azərbaycan Respublikası hökuməti və Belarus Respublikası hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.
183) «Azərbaycan Respublikası hökuməti və Yunanıstan Respublikası hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında» sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.
184) «Azərbaycan Respublikası hökuməti və Belçika Krallığı hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı inzibati yardımın göstərilməsi haqqında» ikitərəfli sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.
185) İxrac nəzarəti haqqında Azərbaycan Respublikasının Qanunu.
186) «Azərbaycan Respublikası hökuməti və Pakistan İslam Respublikası hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.
187) «GUÖAM iştirakçısı olan dövlətlərin hökumətləri arasında gömrük işlərində qarşılıqlı yardım və əməkdaşlıq haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.
188) «Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiqatının aparılması, aşkar edilməsi və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.
189) «Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında» Beynəlxalq Konvensiyanın dəyişdirilməsi haqqında Protokola və «Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında» Beynəlxalq Konvensiyaya (dəyişdirilmiş redaksiyada) qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu.
190) «Beynəlxalq yük daşımaları haqqında» Gömrük Konvensiyasına (TİR Konvensiyası) düzəlişlərin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.

191) «Azərbaycan Respublikası Hökuməti və Avstriya Respublikası Hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı yardım və əməkdaşlıq haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.
192) «QİƏT regionunda malların yol daşımalarının asanlaşdırılması haqqında Anlaşma Memorandumu»nun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.
193) Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında «Gömrük məsələlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.
194) Azərbaycan Respublikası Hökuməti və Niderland Krallığı Hökuməti arasında «Gömrük qanunvericiliyinin düzgün tətbiq edilməsi və gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiq edilməsi və onlara qarşı mübarizə aparılması üçün qarşılıqlı inzibati yardım haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.
195) «Gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiq edilməsi və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında» Beynəlxalq Konvensiyaya və onun I—X Əlavələrinə qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu.
196) «Tərkibində əqli mülkiyyət obyektləri olan malların gömrük sərhədindən keçirilməsi üzərində gömrük nəzarəti Qaydaları haqqında» Qərarın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.
197) «Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərə gətirilən mallara texniki, tibbi, əczaçılıq, sanitar, baytar və fitosanitar normaların, qaydaların və tələblərin tətbiq edilməsi haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.
198) Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında «Malların (işlərin, xidmətlərin) ixracı və idxalı zamanı vasitəli vergilərin tutulması prinsipləri haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.

199) Tütün və tütün məmulatı haqqında Azərbaycan Respublikasının Qanunu.
200) «Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Qazaxıstan Respublikası Dövlət Gəlirləri Nazirliyi arasında əməkdaşlıq və gömrük sənədlərinin və gömrük təminatlarının qarşılıqlı tanınması haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.
201) Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Qazaxıstan Respublikası Dövlət Gəlirləri Nazirliyi arasında sərhədlərdən qanunsuz keçirilən mədəni sərvətlərin

tutulub saxlanması və qaytarılması məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.

202) Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Qazaxıstan Respublikası Dövlət Gəlirləri Nazirliyi arasında qaçaqmalçılıq və gömrük qaydalarının pozulması, həmçinin silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.

203) «Yol nəqliyyat vasitələrinin ticarət və kommersiya məqsədi ilə müvəqqəti idxalının Gömrük Konvensiyası»na qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu.

204) «Sərhədlərdə yüklərin nəzarətdən keçirilməsi şərtlərinin razılaşdırılması haqqında» Beynəlxalq Konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu.

205) «Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı əməkdaşlıq haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.

206) «Azad ticarət zonasının yaradılması haqqında Sazişin iştirakçısı olan dövlətlər arasında dövriyyədə olan əmtəələrin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti qaydası haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.

207) «Gömrük orqanlarında xidmət haqqında» Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.

208) Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.

209) Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.

210) «BYD Kitabçası tətbiq edilməklə beynəlxalq yük daşımaları haqqında» gömrük Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.

211) Yoxlama və metroloji attestasiya məqsədilə daşınan normativ sənədlərin, etalonların, ölçmə vasitələrinin və standart nümunələrin gömrük rüsumlarından, vergilərdən və xüsusi icazələr verilməsindən azad edilməsi haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.

212) Azərbaycan Respublikası hökuməti və Ukrayna hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.

213) «Azərbaycan Respublikası Hökuməti və Finlandiya Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.